**Həzrəti Ayətullah əl-Uzma Seyyid Əli Hüseyni Sistani**

# HƏCCİN HÖKMLƏRİ
## *və əlavələr*

**كتاب مناسک حج و ملحقات مناسک حج**
**حضرت آیة الله العظمی سید علی حسینی سیستانی (دام ظله)**

**Bakı-2015**

*Bu kitab Lənkəranlı ruhani **Rövşən Şərifzadənin** Ayətullah əl-Uzma **Seyyid Əli Hüseyni Sistani** həzrətlərinin **Müqəddəs-Məşhəd** şəhərindəki dəftərxanasının müdüri Höccətul-İslam vəl-muslimin **Seyyid Muhəmmədəli Rəbbanidən** aldığı icazəsi əsasında tərcümə və çap edilmişdir.*

**Tərcüməçi:** ***Rza Əliyev***

Seyyid Əli Hüseyni Sistani. “**Həccin hökmləri və əlavələr** “Zərdabi LTD” MMC. Bakı, 2015.- 336 s.

Azərbaycan Respublikasının Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsinin 16 iyul 2015-ci il tarixli DK-557/Q saylı məktubu əsasında “Zərdabi LTD” MMC-də çap olunmuşdur.

© “Zərdabi LTD” MMC, 2015

# Birinci fəsil

## HƏCCİN VACİB OLMA ŞƏRTLƏRİ

فِيهِ آيَاتٌ بَيِّنَاتٌ مَّقَامُ إِبْرَاهِيمَ وَمَن دَخَلَهُ كَانَ آمِنًا وَلِلَّهِ عَلَى النَّاسِ حِجُّ الْبَيْتِ مَنِ اسْتَطَاعَ إِلَيْهِ سَبِيلاً وَمَن كَفَرَ فَإِنَّ اللَّهَ غَنِيٌّ عَنِ الْعَالَمِينَ

**(سوره ال عمران آيه ۹۷)**

*Orada aydın nişanələr - İbrahimin məqamı vardır. Ora daxil olan şəxs əmin-amanlıqdadır (təhlükədən kənardır). Onun yoluna (ərzaq, minik, və sağlamlıq baxımından) gücü çatan hər bir kəsin həccə gedib o evi ziyarət etməsi insanların Allah qarşısında borcudur. Kim bunu (bu borcu) inkar edərsə (özünə zülm etmiş olar). Əlbəttə, Allah aləmlərə (heç kəsə) möhtac deyildir!*

***Ali İmran surəsi ayə 97***



**Həccin hökmləri:**

Məsələ 1. Həcc dinin əsaslarından biridir və qarşıda qeyd olunacaq şəraitə sahib hər bir mükəlləfin boynunda vacib bir əməldir.

Məsələ 2. Müqəddəs islam şəriətinə əsasən hər bir mükəlləfə vacib hesab edilən həcc, insanın bütün ömrü boyunca bir dəfə vacib olur və bu həcc “hiccətul-islam” adlanır.

Məsələ 3. İnsan ömrü boyunca bir dəfə vacib olan “hiccətul-islamdan” əlavə əcir tutmaq, ikinci dəfə getməyi niyyət etmək kimi səbəblərlə də həccin bir neçə dəfə mükəlləfə vacib olması mümkündür. Bu barədə hökmlər fiqhi kitablarda təfsilatı ilə qeyd olunmuşdur.

Məsələ 4. Həcci vacib edən şəraitə sahib olan bir şəxs növbəti illərdə bu əməli yerinə yetirə biləcəyinə arxayın olsa təxirə sala bilər. Lakin əksər vaxtlarda bu arxayınlıq hasil olmadığı üçün mükəlləf, mümkün olan ilk ildə onu yerinə yetirməlidir. Əgər birinci il yerinə yetirməsə ikinci ildə həccə getməlidir və sonraki illər də elə bu hökmdədir.

Məsələ 5. Boynunda həccə getmək vacib olan şəxs elə həmin il səfər üçün lazım olan vasitələri və müqəddimə işləri hazırlamalıdır. Əgər səfərə çıxacaq bir neçə karvan olsa və mükəlləf bunlardan hər biri ilə yola düşəcəyi təqdirdə həcc əməllərinə vaxtında çatacağını bilərsə, istədiyi karvanla hərəkət edə bilər. Lakin yaxşı olar ki, həcc əməllərinə daha tez çatacağını güman etdiyi karvana qoşulsun.

Məsələ 6. Boynuna həcc ziyarəti gəlmiş şəxs səhlənkarlıq edərək həmin il ziyarətə getməzsə, həcc onun boynunda müstəqər (qəzası vacib) olur və

növbəti il şəraiti olmasa və çətinliklə olsa belə həccə getməlidir.

Məsələ 7. Boynuna həcc vacib olmuş müstəti (həccə getmək üçün lazım olan şərtlərə sahib) şəxs həccə çatacağı gümanı ilə səfəri təxirə salıb gec hərəkət etsə və yaxud özü istəmədən bəzi hadisələr qarşıya çıxsa və həccə çata bilməsə həmin şəxs üzrlüdür və həcc onun boynunda müstəqər olmayacaq.

**Həccin vacib olmasının şərtləri:**

Məsələ 8. Bu 3 şərtlə həcc vacib olur:

* Büluğ * Əql * İstitaət (qadir olmaq)

**Birinci şərt: Büluğ**

Məsələ 9. Büluğ həddinə yaxın olsa belə qeyri-baliğ şəxsə həcc vacib deyildir. Buna baxmayaraq bir uşaq həcc əməllərini yerinə yetirərsə səhihdir, lakin bu əməl "hiccətul-islam" hesab olunmur və büluğ həddinə çatdıqdan sonra bu uşaq müstəti olarsa bir daha həccə getməlidir.

Məsələ 10. Müməyyiz (yaxşını pisdən ayıra bilən) uşağın həccə getməsi müstəhəbdir, lakin bu əməli etmək üçün atasından və ya cəddindən (ata tərəfdən olan babasından) icazə almalıdır. Əgər uşaq icazə almadan həccə gedərsə səhih deyildir.

Məsələ 11. Baliğ şəxsin həccə yollanması üçün ata və ananın icazəsi şərt deyildir. Lakin həcc müstəhəb olsa və onlardan birinin və ya hər ikisinin əziyyətə düşməsinə (məs... yoldakı təhlükələrdən qorxduqları üçün) səbəb olarsa həccə getmək caiz deyildir.

Məsələ 12. Müməyyiz olmayan uşağın vəlisinin (qəyyumunun) onu həccə aparması, bu tərtiblə müstəhəbdir:





*Ehram paltarını ona geyindirsin

*Ləbbeykləri elə şəkildə desin ki, uşaq da təkrar edə bilsin

*Əgər uşaq ləbbeykləri səhih şəkildə deyə bilmirsə, özü onun yerinə desin

*Muhrimə (ehram bağlamış şəxsə) haram olan işlərdən onu saxlasın

* Onu Allah evinin ətrafına təvaf etdirsin

* Onu Səfa və Mərva arasında səy etdirsin

* Onun naibi olaraq təvaf namazını qılsın

* Onun tük və ya dırnağından bir miqdar kəssin (təqsir)

* Ərəfatda və Məşərul-haramda onu vüquf etdirsin

* Onu rəmy etməyə (daş atmağa) vadar etsin və əgər bacarmazsa özü onun yerinə cəmərata daş atsın

* Onun saçını təraş etsin və həmçinin digər əməlləri də bu qayda ilə yerinə yetirsin.

**İkinci şərt: Əql**

Məsələ 13. Divanə adama həcc vacib deyildir. Lakin bəzi vaxtlarda divanə olursa və sağlam vaxtında həcci vacib edən digər şərtlərə sahib olub bu fürsətdə həccin müqəddimə işlərini görərək həcc əməllərini yerinə yetirməyi bacararsa, həcc ona vacibdir.

Məsələ 14. Bəzi vaxtlar divanə olan şəxsin divanəliyi həmişə həcc günlərinə təsadüf edirsə və həcci vacib edən şərtlərə sahibdirsə salamatçılıq vaxtlarında özü üçün naib tutmalıdır ki, həcc günlərində onun tərəfindən yerinə yetirsin.

## Üçüncü şərt: istitaət

Məsələ 15. İstitaət və ya həcci yerinə yetirməyə qadir olmaq aşağıdakı şərtlərə yiyələnməklə hasil olur:

* Kifayət edəcək qədər vaxta sahib olmaqla (istitaəti-zamani)

* Həcci həyata keçirmək üçün lazım olan salamatçılıq və bədənin qadirliyi (istitaəti-bədəni)

* Yolun açıq olması və əmin-amanlığın mövcudluğu (istitaəti-təriqi)

* Səfər tədarükünə sahib olmaq (istitaəti-mali)

* Qayıdana kimi özünün və ailəsinin yaşayışını təmin edəcək tədarükə sahib olmaq (ümumi maddi təminat)

## İstitaəti-zamani:

Məsələ 16. Həcci vacib edən şərtlərdən biri müqəddəs məkanlara getmək və oradaki vacib əməlləri yerinə yetirə bilmək üçün kifayət edəcək miqdarda vaxta sahib olmaqdır. Buna əsasən bir şəxs mal kəsb etmək və ya bu kimi digər şəraiti hazırlamaqla o məkanlara gedib həcc ibadətlərini etməyə imkanı qalmazsa və yaxud adi haldan daha çox və dözülməz məşəqqətə səbəb olacaq miqdarda az vaxtı qalarsa, o ildə həcc ona vacib deyildir, lakin növbəti il həccə getməyi bacaracağını bilərsə gələn il üçün malını saxlaması lazımdır.

## İstitaəti-bədəni:

Məsələ 17. Həccin digər şərtlərinə sahib olan şəxs xəstəlik və ya qocalıq səbəbi ilə müqəddəs məkanlara gedə bilməsə və ya gedəcəyi təqdirdə şiddətli istilik kimi səbəblər üzündən həcc ibadətlərini





yerinə yetirə biləcəyi miqdarda orada qala bilməyəcəksə və yaxud da adi halda dözülə bilən miqdardan daha çox məşəqqət və zəhmətə səbəb olacaqsa həcc ona vacib deyildir. Əgər növbəti ildə həccə gedə biləcəyinə ümidi olmazsa özü üçün naib tutması vacibdir.

Məsələ 18. Hal-hazırda həcc üçün bədəninin gücü çatmayan, lakin gələn ildə üzrünün aradan qalxacağına ümidvar olan şəxsə naib tutmaq vacib deyildir. Əksinə gələn il bədəninin gücü çatarsa və digər şərtlərə də sahib olarsa özü həccə gedəcək.

Məsələ 19. Həccə getmək üçün hər bir şəraitə sahib olan, lakin xəstəliyi üzündən hal-hazırda müstəti hesab olunmayan şəxsə həccə getmək üçün müalicə olunması vacib deyil. Lakin müalicə olunsa və bədəninin gücü çatsa həccə getməlidir.

## İstitaəti-təriqi:

Məsələ 20. Həcci vacib edən şərtlərdən biri də yolun açıq və əmin-amanlıqda olmasıdır. Yəni Miqata (ehram bağlanan məkan) çata bilmək üçün yolda heç bir maneə olmamalıdır və həmçinin yol boyunca hacının canına, malına və namusuna toxuna biləcək heç bir xətər olmamalıdır. Bu hallar bərpa olmazsa həcc ona vacib deyildir.

Məsələ 21. Həccə getmək və Miqata çatmaq üçün maneə və xətər olmasa, lakin muhrim olduqdan sonra xəstəlik və düşmən qorxusu kimi xətərlər yaranması haqqında xüsusi hökmlər vardır ki, “məhsur və məhdud babında (hasarlanmış və hüdudlanmış)” gələcəkdir.

Məsələ 22. Həccə getmək üçün 2 yol olsa və bu yollardan birincisi xətərli, digəri isə xətərsiz, amma

uzaq olarsa ikinci yolla getmək vacibdir. Lakin uzaq yolla getmək çox şəhərlərdən keçməyə bağlıdırsa və xalqın nəzərində o şəhərlərdən keçmək yolun açıq və əmin-amanlıqda olmaması kimi qəbul edilirsə, həcc ona vacib deyildir.

Məsələ 23. Həccə getmək üçün adyazdırmaya durmaq və növbənin ona çatmasını gözləmək lazım olarsa, həmçinin bundan başqa heç bir yol olmazsa və həmin ildə yol boyunca xətərin yaranmayacağına ehtimal verərsə, adını qeydiyyata yazdırmaq vacibdir.

Məsələ 24. Əgər bir şəxsin öz şəhərində müəyyən miqdar malı olsa və həccə getməklə o mal tələf olacaqsa, nəticə etibarı ilə o malın tələf olması ümumi sıxıntıya səbəb olacaqsa həcc ona vacib deyildir.

Məsələ 25. Əgər həcc yolunda dəf olunması çox miqdarda mal sərf etməyə bağlı olan düşmən olarsa və həmin malın sərf olunması ümumi sıxıntı ilə nəticələnəcəksə həcc vacib deyildir. Həmçinin düşmənin yolu açmağına görə onlara pul vermək də vacib deyildir.

### İstitaəti-mali:

Məsələ 26. İstitaəti-mali yol azuqəsi və səfər tədarükü deməkdir (ərzaq və minik baxımından) və bu istitaət hər bir kəsin öz halına uyğun olmalıdır. Lakin o tədarükün eyninə (özünə) sahib olmaq lazım deyildir, əksinə pul kimi bir mala sahib olmaqla onları hazırlamaq mümkün olsa kifayətdir.

Məsələ 27. Yol azuqəsi və səfər tədarükündə əsas meyar və ölçü onların hal-hazırda mövcud olmasıdır. Əgər hazırda onlar yoxdursa, amma iş fəa-





liyyəti və qazanc yönümlü məşğuliyyətlə onlara sahib çıxmaq mümkün olsa da həcc vacib deyil.

Məsələ 28. Həccin vacib olmasında şərt olan istitaətdə mötəbər hesab edilən təklif (hökm) mükəlləfin öz vətəni yox, hazırda qərarlaşdığı məkandır. Buna əsasən də bir şəxs ticarət etmək üçün digər bir şəhərə (məs... Ciddə şəhərinə) getsə və oradan həccə getmək imkanına sahib olsa həcc ona vacibdir, baxmayaraq ki, öz vətənində olacağı təqdirdə bu imkana sahib olmayacaqdı.

Məsələ 29. Əgər mükəlləfin pulu olmasa, amma satacağı təqdirdə həccə getməyə qadir olacağı bağ, torpaq və dükan kimi mülkə sahib olarsa, onu satıb həccə getməsi vacibdir. Hətta çox az qiymətə satmağı bacarsa belə satmalıdır. Amma onun az qiymətə satılması ümumi zərərə səbəb olacaqsa vacib deyil.

Məsələ 30. Əgər istitaət ilində həccin xərcləri müəyyən səbəblə bahalaşarsa və növbəti ildə ucuzlaşacağını bilirsə, hotel və təyyarə kirayəsi kimi xərclərin ucuzluğuna görə həccini növbəti ilə təxirə salması caiz deyildir. Lakin istitaət ilindəki xərclərə imkanı çatmasa və ya onları qarşılamaq ümumi zərərə səbəb olacaqsa həcci təxirə salmanın eybi yoxdur.

Məsələ 31. Hacı həcdən öz vətəninə qayıtmağı istəyirsə qayıtmağa dair xərclərə də sahib olması şərtdir. Əgər orada qalmağı istəyərsə və ya öz vətənindən başqa yerə getməyi planlaşdırarsa, həmin yerə getmək üçün lazımlı xərcə sahib olmalıdır. Lakin həmin yerə getmənin xərci öz vətəninə qayıtmanın xərcindən çox olmaması şərtdir...məsələn, həmin yerə getmənin xərci çox olarsa öz vətəninə qayıtmanın xərci miqdarında tədarükə sahib olması

kifayətdir və bu miqdara yiyələnmək həcci vacib edir. Bəli əgər öz vətənindən başqa yerdə məskunlaşmağa məcburdursa və onun yaşayışı və iş fəaliyyəti də həmin diyardadırsa, oraya qayıtmaq miqdarında tədarükə sahib olmalıdır.

### Əlavə malları satmaqla hasil olan istitaəti-mali:

Məsələ 32. Əgər insan öncələr ehtiyac duyduğu və sataraq həccə getməsi vacib olmamış bir mala sahibdirsə, həmçinin indiki halda ona ehtiyacı yoxdursa onu satması və həccə getməsi vacibdir... məsələn, bir xanımın əvvəllər ehtiyac duyduğu qızıl zinət əşyaları varsa və hazırda qocalıq və ya başqa bir səbəblə ona ehtiyacı yoxdursa, onları satmaqla həccə getməyi bacaracaqsa həcc ona vacibdir.

Məsələ 33. Əgər insanın özünə məxsus bir mənzili olsa, lakin hazırda vəqf olunmuş və ya idarəyə mənsub evdə qalırsa və burada qalmaq ona ağır məşəqqət və çətinlik səbəbi deyilsə, həmçinin oranın boşaldılması da tələb olunmursa və öz mənzili həcc xərclərini qarşılayacaqsa həcc ona vacibdir. Hətta həcc xərclərini təmin edəcək başqa bir malı olsa, bu halda da həcc ona vacibdir. Mənzili və ya başqa malı satmaq lazım gəlsə belə bunu etməlidir. Bu hökm kitab, iş alətləri və digər vasitələrə də aiddir.

### Artan tələbata uyğun həccin istitaəti:

Məsələ 34. Əgər insanın başqa birisindən həcc xərclərini təmin edəcək miqdarda və ya onu təkmilləşdirəcək həddə tələbi olarsa, aşağıdakı hallarda həcc ona vacib olacaq:





a) Tələbin vaxtı çatdığı və borclunun da onu ödəməyə hazır olduğu zaman.

b) Tələbin vaxtı çatır, lakin borclu düz hesab aparmadığı üçün onu qaytarmağa qadir deyil. Bu halda onu dövlət məhkəmələrinə müraciət etmək kimi yollarla borcunu qaytarmağa məcbur etmək mümkün olsa.

c) Tələbin vaxtı çatıb, lakin borclu tələbi inkar edir. Bu halda tələbi isbat etmək və ya almaq mümkün olsa (həcc vacibdir). Yaxud onu isbat etmək baş tutmasa da təqas (onun əmlakından öz tələbinə uyğun mal götürmək) yolu ilə almaq mümkün olarsa həcc vacib olur.

d) Tələbin vaxtı çatmayıb, lakin borclu öz istəyi ilə onu vaxtından qabaq qaytarmaq istəyir (bu halda da həcc vacib olur). Amma tələbi almaq əksər vaxtlarda iddiaya bağlı olduğu və borclunun da ödəməni vədə verilmiş vaxta kimi təxirə salmaq səlahiyyəti olduğu üçün iddia etmək və həcc vacib deyildir.

Məsələ 35. Əgər tələbi sahib olduğu miqdardan aşağı qiymətlə satmaq mümkün olsa və bu satış tələbkarın sıxıntısına səbəb olacaq şəkildə ümumi zərərlə nəticələnməzsə, eyni zamanda həmin aşağı miqdar həcc xərclərini təmin etmək və ya təkmilləşdirmək üçün kifayət etsə həcc ona vacibdir. Bu vücubun, tələbin ucuz qiymətə satılmasından asılı olmasına baxmayaraq məsələ qeyd olunduğu kimidir.

### İstitaət və borc:

Məsələ 36. Həccin xərclərini qarşılamağa imkanı çatan, amma eyni zamanda borcu da olan şəxsə 3 halda həcc vacib deyildir:

a) Qaytarmalı olduğu borc həcc məsrəflərindən çox olsa.

b) Qaytarmalı olduğu borc həcc məsrəflərinə bərabər olsa.

c) Qaytarmalı olduğu borc azdır, lakin borcunu verərsə əlində qalan miqdar həccin məsrəflərinə kifayət etməyəcək.

Məsələ 37. Öncəki (36-cı) məsələdə borcun qaytarılma vaxtının çatıb-çatmaması arasında heç bir fərq yoxdur. Lakin borcun qaytarılma vaxtı əksər vaxtı diqqət olunmayacaq miqdarda uzaq olarsa, bu hal istisnadır...məsələn, borcun növbəti 50 il ərzində qaytarılması razılaşılsın və öncədən borcu götürüb sonradan malı almaqla əksi arasında da heç bir fərq yoxdur.

Məsələ 38. Əgər həcc xərclərini qarşılaya biləək qədər mala sahib olub sonradan borc götürərsə və borclanmasında özü təqsirkar olarsa həcc ona vacibdir.

Məsələ 39. Daim tələb və borcları olan tacirlər kimi şəxslərin tələbləri borclarından çox olarsa və qazanc hesab edilən əlavə miqdar həcc xərclərini qarşılamaq üçün kifayət edirsə və sair şərtlər də mövcuddursa, onlar müstəti hesab olunurlar.

Məsələ 40. Əgər bir insanın xums və ya zəkatı verməyə borcuolarsa və bir miqdar mala da sahibdirsə, beləki xums və ya zəkat verəcəyi halda yerdə qalan miqdar həccin xərclərini qarşılamağa kifayət etməyəcəksə də xums və zəkatını verməlidir. Bu halda həcc ona vacib olmayacaq. Həmin malın xums və ya zəkata əlaqə tapması ilə şəxsin öncədən borclu (xums və ya zəkata) olması arasında heç bir fərq yoxdur.





Məsələ 41. Boynuna həcc vacib olmuş şəxs, eyni zamanda xums, zəkat və ya bu kimi digər vacib hüquqlara borcu olarsa, ilk öncə onları ödəməlidir. Həccə getmək naminə onları təxirə salmaq caiz deyil.

**İrslə hasil olan istitaət:**

Məsələ 42. Əlində sənət və peşəsi olan və onunla yaşayışını idarə edən şəxsə irs və ya başqa bir yolla həcc məsrəflərini və səfər müddəti boyunca ailəsinin xərclərini təmin edə biləcəyi bir mal çatarsa, həcc ona vacib olar.

**Şəri vergilərlə hasil olan istitaət:**

Məsələ 43. Xums, zəkat və bu kimi vergilərlə öz yaşayışını təmin edən və məşəqqətsiz olaraq ənənəvi şəkildə ona çatan şəri vergilərlə öz təsərrüfatını idarə edən şəxsin əlinə həcc xərclərini qarşılaya biləcək miqdarda mal keçərsə həcc ona vacibdir.

**Digər mallarla həccin xərclərini ödəmə:**

Məsələ 44. Müstəti olan şəxsə yalnız öz malı ilə həccə getmək vacib deyil. Buna əsasən də heç bir mal sərf etmədən və ya başqalarının malı ilə (hətta qəsb etmiş olsa belə) həccə gedərsə kifayət edər. Amma təvafda və təvaf namazında bədəni örtən paltarın qəsbi olması halında ehtiyata əsasən kifayət etmir. Əgər qurbanının pulu qəsbi olarsa həcci səhih deyil. Lakin qurbanın pulunu öz boynuna borc olaraq götürsə (xüsusi niyyət ilə) və o qiyməti qəsbi puldan verərsə, bu halda həcci səhihdir.

Məsələ 45. Minik və azuqəyə sahib olmaq şərt deyil. Əgər insanın yanında sahibinin istifadə üçün icazə verdiyi bir miqdar malı olsa və həmin mal

onun həcc xərclərini lazımı qədər ödəyərsə və sair şərtlər də mövcuddursa həccə getmək ona vacibdir. Əgər icazəyə dair arxayınlığı olmadan həccə gedərsə və malın sahibi də öz icazəsindən dönməzsə onun həcci kafi və vacib həcc hesab olunacaq.

Məsələ 46. Əgər bir şəxs həcc məsrəflərinə sahibdirsə, amma qayıtdıqdan sonra öz yaşayışı, həcc qonaqlığı və bu kimi sair xərcləri qarşılamaq üçün borca düşməli olacaqsa və bu işlər də adətən tərk olunmayan adətlərdəndirsə, o şəxs müstəti deyildir.

**İstitaət və izdivac:**

Məsələ 47. Evlənməyə ehtiyacı olan müstəti bir cavan həccə gedəcəyi halda evlənməsi təxirə düşəcəksə də belə həccə getməlidir. Lakin həcdən sonraya qədər səbr etmək onun üçün adi haldakından daha artıq zəhmət və məşəqqətə səbəb olacaqsa, evlənmək müqəddəmdir (birinci dərəcəlidir).

Məsələ 48.Müstəti olan şəxsin oğlunun evlənməyə ehtiyacı olsa və bu şəxs öz oğlunun evlənmə xərclərini ödəyəcəyi halda həccə gedə bilməyəcəksə, həccə getməlidir və oğlunun evlənməsini təxirə salmaq onun həcci üçün maniə olmayacaq. Lakin həccə getmək və oğlunun evlənməməsi ilə onun zəhmət və məşəqqət halına düşəcəyi durum istisnadır.

**İstitaət və naiblik:**

Məsələ 49. Əgər bir şəxs həcc üçün naib olaraq əcir tutulsa və başqasının pulu ilə müstəti olsa, məsələ özünü 2 şəkildə göstərəcək:





a) Naiblik həcci həmin ilə məxsus olur: Yəni naiblik həcci müqəddəmdir və həmin il naib olaraq həcci yerinə yetirməlidir. Əgər istitaəti növbəti ilə kimi davam edərsə "hiccətul-islam" ona vacib olacaq. Yox əgər istitaəti gələn ilə kimi davam etməzsə həcc ona vacib deyil.

b) Naiblik həcci həmin ilə məxsus olmur: Yəni növbəti illərdə həccə getməyi bacaracağına arxayındırsa, naiblik həccini birinci yerinə yetirəcəkdir və mümkün olduğu halda növbəti illərdə öz həccini yerinə yetirəcəkdir.

Ancaq növbəti illərdə həccə gedə biləcəyinə arxayınlığı olmazsa naiblik həcci ilə öz həcci arasında ixtiyar sahibidir. İstədiyini birinci il həyata keçirdib digərini gələn ilə saxlayacaq.

**Borc götürməklə hasil olan istitaət:**

Məsələ 50. Bir şəxs sonradan qaytarmağa gücü çatacağı təqdirdə belə həcc xərclərini ödəyəcək miqdarda borc götürərsə həcc ona vacib olmaz. Lakin borcun qaytarılma vaxtı ağıl sahibi insanların diqqət etmədiyi qədər uzun olarsa (məs... 50 il) həcc ona vacib olar.

Məsələ 51. Bir şəxsin öz yaşayışına dair ehtiyacından daha artıq və həcc xərclərini ödəyəcək miqdarda malı olarsa, lakin o malı sərf etməyib həcc xərcləri üçün borc götürərsə onun həcci vacib həcc hesab olunacaq və yenidən həccə getməsi vacib deyil.

**Bəxşişlə hasil olan istitaət:**

Məsələ 52. Əgər bir şəxs digərinin həcc xərclərini, səfər tədarükünü və ailəsinin yaşayış məsrəflərini qarşılamağı öz öhdəsinə alarsa və onun öz öhdədarlığında

sadiq qaldığına arxayınçılıq olarsa, həcc ona vacib olur. Xərcləri ödəyənin bir nəfər və ya bir neçə nəfər olması arasında heç bir fərq yoxdur.

Məsələ 53. Əgər bir şəxs müəyyən malı həcdə sərf etmək üçün başqasına verərsə və həmin mal onun səfər boyunca həcc xərclərini və ailəsinin ehtiyaclarını qarşılayarsa, həcc ona vacib olar.

Məsələ 54. Əgər bir şəxs həcc xərclərindən bir miqdarına sahibdirsə və yerdə qalan miqdarı başqası ödəyərsə həcc ona vacib olur. Amma yalnız getmək miqdarında ona bəxşiş olunsa və onun qayıtmağa gücü çatmayacaqsa həcc ona vacib deyil.

Məsələ 55. Əgər bir şəxsə getmək və qayıtmaq xərcini versələr, amma qayıdana kimi ailəsinin xərclərini təmin etməsələr həcc ona vacib deyildir. Lakin ailəsinin xərclərinə özü sahib olsa və ya həccə getməsəydi belə onları təmin edəcək bir şeyi yoxdursa və ya onun getməsi ilə ailəsi məşəqqət və çətinliyə düşmürlərsə və yaxud da həmin şəxsin vacibun-nəfəqəsi (xərclərinin ödənilməsi vacib olan şəxs) yoxdursa, həcc ona vacib olur (deyilən bütün istisna hallarda).

Məsələ 56. Əgər meyyit müəyyən şəxsə həccə getməsi üçün bir miqdar mal vəsiyyət etsə və bu mal onun həcc xərclərini və ailəsinin yaşayışını təmin edirsə həcc ona vacibdir.

Məsələ 57. Əgər bir şəxs müəyyən malı bir insana sırf həccə getmək üçün versə, qəbul etmək vacibdir. Lakin bəxşiş edən şəxs insanı ixtiyar sahibi etsə və desə ki, “istəyirsən bu malla həccə get, istəyirsən getmə” və ya bir malı ona verib həcc barədə heç bir söz deməsə, o malı qəbul etmək vacib deyil.





Məsələ 58. Əgər bir malı müəyyən dəstəyə onlardan birinin həccə getməsi üçün versələr və onlardan biri qabağa keçib onu götürərsə, həcc ona vacib olar və digərlərinin boynundan götürülər. Lakin onlardan hər biri o malı götürə biləcəyi halda heç biri götürməzsə, həcc onlardan heç birinin boynunda müstəqər olmayacaq.

Məsələ 59. Bir kəsin həyata keçirdiyi işin müqabilində onun həcc xərclərini ödəyərlərsə (məs... karvanların xidmətçilərindən bəzisi kimi), bu həcc bəxşiş olunmuş həcc hesab edilmir.

**Bəxşiş olunan həcc “hiccətul-islam” üçün kifayət edir:**

Məsələ 60. Bəxşiş olunan həcc (həcci-bəzli) “hiccətul-islam” üçün kifayət edir. Beləliklə mükəlləf bəxş olunan pulla və bəxşişlə həccə gedərsə və sonradan özü müstəti olarsa yenidən həccə getməsi vacib deyil.

**Həcci-bəzlidə ümumi təminatın şərt olmaması:**

Məsələ 61. Həcci-bəzlidə ümumi təminat[1] şərt deyildir. Bəli, bir şəxsin gəliri yalnız həcc günlərin-

[1]Ümumi təminat, yəni bir şəxsin həccə gedib qayıtmasından sonra öz yaşayışını və ailəsinin xərclərini təmin etməsi, məşəqqət və çətinliyə düşməməsi və digərlərinin köməyinə möhtac olmamasıdır. Daha aydın şəkildə desək: mükəlləf həccə getməsi və pulunu bu yolda xərcləməsi üzündən fəqirlik qorxusu, sıxıntı və ailəsinin ehtiyaclarını qarşılaya bilməmək halı yaşamamalıdır.
Buna əsasən də bir şəxsin illik gəliri həcc günlərinə düşsə və bu şəxsin həccə gedəcəyi təqdirdə il boyunca və ya ilin bəzi günlərində özünün və ailəsinin ehtiyaclarını qarşılaya bilməyəcəksə həcc ona vacib deyildir.

də olursa və ilin qalan günlərini həmin gəlirlə idarə edirsə, beləki həccə gedəcəyi təqdirdə ilin qalan günləri üçün yaşayışını təmin edəcək tədarükü olmayacaqsa həcc ona vacib deyildir. Əgər onun illik ehtiyacının hamısını ödəsələr və ya onun illik ehtiyacından çatmayan hissəsini versələr həcc ona vacib olur.

### Həcci-bəzlidə qurbanın pulu:

Məsələ 62. Qurbanın pulu bəxş edənin öhdəsindədir. Əgər həccin xərclərini verib qurbanın qiymətini ödəməsələr həccin ona vacib olmasında işkal vardır, yəni ehtiyati-vacib budur ki, həcci yerinə yetirsin, lakin yenidən müstəti olsa bir daha həccə getsin. Amma qurbanlığı hazır etməyə öz gücü çatsa həcc vacib olur.

### Həcci-bəzlidə kəffarə:

Məsələ 63. Əgər həcci-bəzlidə hər hansı bir kəffarə vacib olsa hacının boynundadır və bu kəffarənin bəxşiş edənə heç bir aidiyyatı yoxdur.

### Bəxşişdən dönmə:

Məsələ 64. Bəxşiş edən şəxs öz bəxşişindən dönə bilər. Yəni ona verdiyi şeyi geri ala və ya vədə verdiyi şeyi bəxş etməyə bilər. İstər bəxşiş olunan şəxs muhrim olmamışdan qabaq olsun, istər sonra. Amma ehramdan sonra bəxşiş olunan şəxs üçün çətinlik və məşəqqət olmayacaqsa həccini sona çatdırmalıdır, baxmayaraq ki, özü müstəti deyildi və bəxş edən şəxs onun həccini tamam etməsi və qayıtması üçün lazım olan xərclərə zamin idi.





### İstitaətdən xaric olma:

Məsələ 65. Əgər insan mal cəhətindən müstəti olarsa və həccə getməyə qüdrəti çatarsa həcc ona vacib olur. Odur ki, insan həcc günlərində həccə getməyə qadir olacağını bildiyi halda onu istitaətdən çıxaracaq və tədarük edə bilməyəcək həddə malından xərcləyərsə həcc onun boynunda müstəqər olacaq. Amma həccə getməyə qüdrətinin çatması dəqiq məlum olmasa vəhəcc günlərində həccə getməyi bacaracağını bilmirsə həcc onun boynunda müstəqər deyildir.

Məsələ 66. Öncəki məsələdə (65-ci məsələ) istitaətinin aradan qalxmasında özü günahkar olsa da onun etdiyi təsərrüf səhihdir. Məsələn, malını ucuz bir qiymətə satıbsa və ya bir kəsə bəxşiş edibsə, onun etdiyi alver və verdiyi bəxşiş səhihdir.

Məsələ 67. Adını qeydiyyata yazdırmış şəxsə növbə çatmamış ona yaşayışından ötəri pul lazım olsa və onun da bu maldan başqa heç nəyi olmasa, o pulu götürə bilər və bu hal həccin vacibliyinin onun boynuna müstəqər olmasından qabaq baş verdiyi üçün həcc ona vacib deyil.

### İstitaətə dair müxtəlif məslələr:

Məsələ 68. Əgər bir müstəti olmasa və müstəhəb həcc yerinə yetirsə və ya başqa birinin yerinə muzdsuz olaraq savab üçün və yaxud da muzdlu olaraq həcc yerinə yetirsə, bu həcc "hiccətul-islamı" əvəz etməyəcək. Odur ki, sonradan müstəti olsa həccə getməlidir.

Məsələ 69. Əgər bir şəxs müstəti olmadığı gümanı ilə müstəhəb həccə gedərsə və sonradan onun müstəti olduğu anlaşılarsa, onun həcci "hiccətul-

islamı" əvəz edəcək və bir daha həccə getmək ona vacib deyil.

Məsələ 70. Müstəti olan bir şəxs həccə getməkdə səhlənkarlıq etsə və istitaəti aradan qalxsa, həcc onun boynunda müstəqər olur və hansı yolla olursa olsun, hətta çətinliklə olsa belə həccə getməlidir.

Məsələ 71. Həcc boynunda müstəqər olan şəxs həccə getməmiş ölərsə, onun malı ilə həcci qəza etmək vacibdir. Əgər bir kəs muzdsuz olaraq onun naibi kimi həcci yerinə yetirərsə səhih və kafidir.

Məsələ 72. Həcc karvanları və ya həcc təşkilatlarının başçıları üçün ayrılmış xərclər hesabına həccə gedən karvan xidmətçiləri və onların dini yol göstərmələri digər şərtlərə də sahib olsalar müstətidirlər və "hiccətul-islamı" yerinə yetirməlidirlər.

Məsələ 73. Mal cəhətindən müstəti olmayan, lakin hacılara xidmət üçün əcir tutulmuş şəxs sair şərtlərə də sahib olsa müstətidir və "hiccətul-islamı" yerinə yetirməlidir.

**Həccə vəsiyyət etmə:**

Məsələ 74. Boynuna həcc vacib olduğu halda yerinə yetirməmiş şəxsin ölümü yaxınlaşarsa və həcc xərcləri miqdarında malı olarsa, onun yerinə həcci yerinə yetirəcəklərinə dair arxayınçılıq hasil olsun deyə işlərə tərtib verməsi lazımdır. Bu məqsədlə şahidlərin iştirakı ilə vəsiyyət də etməlidir. Əgər malı olmasa və bir şəxsin onun yerinə muzdsuz olaraq həccə gedəcəyinə ehtimal versə belə yenə də vəsiyyət etməsi vacibdir.

Məsələ 75. Boynunda "hiccətul-islamı" müstəqər olduğu halda ölən şəxsin malının əslindən (malı heç bir hissəyə bölünməmiş) onun həcci yerinə yetirilməlidir, hətta meyyit bunu vəsiyyət etməmiş olsa belə.





Məsələ 76. Əgər "hiccətul-islam" meyyitin boynunda müstəqər olsa və onun yerinə həccə getməyi vəsiyyət edibsə, məsələnin iki forması ola bilər:

a) Vəsiyyət ümumi olub və malın üçdə birinə məxsus edilməyib: məsələn belə vəsiyyət edib: "həcci yerinə yetirin və ya mənim malımdan həccə gedin". Bu halda malın əslindən onun həcc xərcləri təmin edilməlidir.

b) Onun malının üçdə birindən həccə gedilməsi vəsiyyət edilib: bu halda həccin xərcləri malın üçdə birindən çıxılır və bu miqdar digər vəsiyyət olunmuş şeylərdən müqəddəmdir (qabağa keçir). Beləki bu üçdə bir miqdar həcc məsrəflərinə kifayət etməsə, çatmayan hissəni malın əslindən götürəcəklər.

Məsələ 77. Boynunda "hiccətul-islamı" qalan şəxs öldüyü zaman onun varisinə meyyitin yerinə həcci qəza etməyə əngəl olacaq miqdarda onun malından istifadə etməsi caiz deyildir. Bu halda meyyitin malının həcc xərcləri ilə bərabər və ya ondan çox olması arasında heç bir fərq yoxdur. Bəli meyyitin malı həcc xərclərindən çox olduğu təqdirdə artıq olan miqdardan istifadə edilməsi icazəlidir.

Məsələ 78. Əgər meyyitin boynunda "hiccətul-islamdan" əlavə xums və zəkat da qalarsa və onların hamısına bəs edəcək qədər malı olmazsa, məsələnin iki forması ola bilər:

a) Xums və zəkatın əlaqə tapdığı mal mövcuddur: bu halda birinci xums və zəkat verilməlidir.

b) Xums və zəkatın əlaqə tapdığı mal mövcud deyildir: bu halda birinci həccə gedilməlidir.

Məsələ 79. Əgər meyyitin “hiccətul-islamdan” əlavə borcu da olarsa, birinci borcu qaytarılmalıdır.

Məsələ 80. Əgər meyyitin boynunda “hiccətul-islam” qalıbsa və onun malı həcc məsrəflərini qarşılamırsa, çatışmamazlığı aradan qaldırmaq və onun həccini əda etdirmək varisə vacib deyil. Əksinə bu halda meyyitin malı varisə çatacaq.

Məsələ 81. Meyyit üçün onun vətənindən naib tutulması vacıb deyil. Hətta ən yaxın miqatlardan belə naib tutulsa kafidir. Lakin öz vətənindən naib tutulması ehtiyat müstəhəbdir. Amma miqatdan artıq miqdarın muzdunu kiçik varisin səhmindən götürmək olmaz.

Məsələ 82. Əgər meyyitin malı onun əvəzinə “hiccətul-islamı” yerinə yetirməyə kifayət edirsə, ehtiyat-vacibə görə gecikdirmədən elə birinci il onun həcci yerinə yetirilməlidir.

Məsələ 83. Boynunda “hiccətul-islam” qalaraq ölən bir kəsin yerinə başqa şəxs muzdsuz olaraq həccə gedərsə kifayət edir. Belə olan halda meyyit öz malının üçdə birindən həcc xərclərinə məsrəf etməyi tapşırmışdısa da onun malından naib tutmaq vacib deyil. Lakin bu halda malın üçdə birindən həcc xərclərinə bərabər olan miqdar varisə çatmır, əksinə meyyitin nəzərində ən yaxşı hesab edilən xeyir işlərə sərf olunacaq.

Məsələ 84. Boynunda “hiccətul-islam” qalaraq ölən şəxs öz vətənindən naib tutulmasını vəsiyyət edibsə, onun üçün vətənindən naib tutmaq vacibdir və bu halda miqatdan sonrakı xərclər meyyitin malının əslindən, yerdə qalan miqdar isə malın üçdə birindən götürüləcək.





Məsələ 85. Əgər meyyitin onun üçün həcc yerinə yetirməyi tapşırdığı müəyyən mala xums və ya zəkatın əlaqə tapdığı bilinərsə, ilk olaraq xums və ya zəkatın verilməsi vacibdir və yerdə qalan hissə həccə sərf olunmalıdır. Əgər yerdə qalan hissə həcc xərclərindən az olarsa və meyyitin vəsiyyətindəki həcc “hiccətul-islamdırsa”, çatışmamazlıq meyyitin əsl malından ödəməklə aradan qaldırılmalıdır. Əgər meyyitin vəsiyyəti “hiccətul-islam” deyildirsə, bu barədə fiqhi kitablarda bir qrup izahlı hökmlər vardır.

Məsələ 86. Əgər meyyit tərəfindən həcc üçün vəsiyyət və ya başqa yolla naib tutulması vacib edilmişdirsə və naib tutmaq boynunda vacib olan şəxs səhlənkarlıq edərsə və həcc üçün nəzərdə tutulmuş mal tələf olarsa, bu şəxs zamindir və öz malından naib tutmaq ona vacibdir.

Məsələ 87. Həccə getmək üçün nəzərdə tutulmuş mal səhlənkarlıq olmadan vəsinin (vəsiyyət olunmuş şəxs) əlində qorunduğu zaman tələf olarsa, vəsi zamin deyil. Əgər meyyitin vəsiyyəti “hiccətul-islam” idisə, meyyitin malının yerdə qalanı ilə həccin yerinə yetirilməsi vacibdir və əgər vəsiyyət “hiccətul-islam” deyildisə, malın üçdə birindən istifadə olunacaq.

Məsələ 88. Əgər meyyit həccə getməyi vəsiyyət edisə:

a) “Hiccətul-islamı” vəsiyyət etdiyi məlum olarsa, həccin məsrəflərini üçdə birdən ödəməyi vəsiyyət etmədiyi halda xərclər malın əslindən götürüləcək.

b) Vəsiyyətinin “hiccətul-islam” olmadığı bilinərsə, həccin xərcləri malın üçdə birindən götürüləcək.

c) Vəsiyyətinin “hiccətul-islam” və ya başqa bir həcc olduğu məlum olmasa, həccin xərcləri malın üçdə birindən götürüləcək.

Məsələ 89. Əgər meyyit həccə getmək üçün məxsus olaraq müəyyən bir şəxsi təyin edərsə, ona əməl olunmalıdır.

Məsələ 90. Əgər meyyit “hiccətul-islam” üçün müəyyən miqdarda mal vəsiyyət edibsə, lakin o malın yayılmış miqdardan az olması səbəbi ilə həccə getmək üçün heç kim tapılmırsa, çatışmayan miqdarı meyyitin malının əslindən götürəcəklər.

## Qadının həcci və ərin icazəsi:

Məsələ 91. Qadın müstəti olarsa ərindən icazə almamış həccə gedə bilər və ərinin icazə verməsi şərt deyil.

Məsələ 92. Ər öz xanımının vacib həcci yerinə yetirməsinə əngəl ola bilməz və bu məsələdə “hiccətul-islam” və bu kimi vacib həclər arasında heç bir fərq yoxdur. Bəli, əgər bir neçə karvan hərəkət edirsə, ilkin karvanlarla yola düşməkdən onu saxlaya bilər.

Məsələ 93. Qadınlarının müstəti və həccin onlara vacib olmasında məhrəmə sahib olmaları (yol boyunca) şərt deyil. Əgər tək və yol yoldaşı olmadan getməkdə əmin-amanlıq olmasa və qadın özü üçün qorxarsa, yol yoldaşına sahib olmaq şərt olacaqdır. Beləki yol-yoldaşı muzd istəyərsə onun muzduna sahib olmaq da şərtdir və əgər muzda imkanı çatmazsa, həcc ona vacib deyildir.

Məsələ 94. Daimi əri olan və ya rici təlaqın iddəsində olan qadın müstəhəb həcci yerinə yetirmək üçün ərindən icazə almalıdır.





Məsələ 95. Bain təlaqın iddəsində olan qadının həccə getmək üçün ərindən icazə alması şərt deyil və əri ölmüş qadının da vəfat iddəsi zamanında həccə getməsi caizdir və heç kimin icazəsi şərt deyil.

## Naiblik:

Məsələ 96. Müstəti şəxsin gücü çatırsa həccə özü getməlidir və istər muzdlu olsun, istərsə də muzdsuz olaraq başqasının onun yerinə həyata keçirdiyi həcc kifayət etməyəcək.

Məsələ 97. Boynunda həcc müstəqər olmuş şəxs xəstəlik, qocalıq və ya başqa bir əngəl səbəbi ilə həccə gedə bilmirsə və onun üçün məşəqqət və çətin omasından əlavə həccə gedə biləcəyinə ümidi də yoxdursa, özü üçün naib tutması vacibdir.

Məsələ 98. Mal cəhətindən müstəti olan şəxs həccə gedə bilməsə və ya həcc əməlləri onun üçün çox məşəqqətli və ağırdırsa, özü üçün naib tutması vacibdir.

Məsələ 99. Özü üçün naib tutması vacib olan şəxs növbəti illərdə naib tuta biləcəyinə arxayın olmasa, mümkün olduğu ilk ildə naib tutmalıdır. Yəni həcc üçün gecikdirmədən naib tutmanın vacibliyi eynilə öz həcci kimidir.

Məsələ 100. Həccə getməyə qadir olmayan və naib tutmağa da gücü çatmayan şəxsə heç bir şey vacib deyil. Lakin həcc onun boynunda müstəqər olsa, ölümündən sonra onun tərəfindən həccə gedilməlidir.

Məsələ 101. Özü həccə gedə bilməyən və boynunda naib tutmaq vacib olan şəxs miqatdan özü üçün naib tutarsa kifayətdir və öz vətənindən naib tutması vacib deyil.

Məsələ 102. "Hiccətul-islamı"yerinə yetirən şəxs təməttö ümrəsi və ya həcc (təməttö, qiran və ifrad) ehramından sonra ölərsə kifayətdir və onun ümrə və ya həcc əməllərini tamamlamaq üçün naib tutmaq lazım deyil. Həmçinin həmin şəxsin də yenidən həcc və ümrə yerinə yetirməkdən ötrü özü üçün naib tutması lazım deyil. Lakin bu hökm "hiccətul-islama" məxsusdur və nəzr və ya başqa bir səbəblə vacib olmuş həccə və təklikdə həyata keçirilən ümrəyə aid deyil.

**Naiblik şərtləri:**

Məsələ 103. Həcc əməllərində başqasına naib olan şəxsin bu şərtlərə sahib olmalıdır:

* Büluğ * Əql * İman * Öz boynunda həcci olmamalıdır

Məsələ 104. Həcc üçün baliğ olmayan uşağı naib tutmaq səhih deyil. Çünki uşaq başqasının yerinə "hiccətul-islam" yerinə yetirsə kifayət etmir və hətta uşaq yaxşını pisdən ayıra bilən müməyyiz olsa belə "hiccətul-islamdan" başqa digər vacib həclər də ehtiyat-vacibə əsasən eyni hökmdədir.

Məsələ 105. Baliğ olmayan uşaq öz vəlisinin icazəsi ilə başqasının naibi kimi müstəhəb həcc yerinə yetirərsə səhihdir.

Məsələ 106. Həcc üçün mömindən başqasını naib tutmaq ehtiyat-vacibə görə səhih deyil. Odur ki, mömindən başqa biri həcc üçün naib olub bizim məzhəbin qaydalarına uyğun həcci həyata keçirərsə ehtiyat-vacibə əsasən kafi deyil. Əgər öz məzhəbinin qaydaları ilə həcci yerinə yetirərsə qətiyyən kifayət etmir.





Məsələ 107. Bonunda həcc vacib olan şəxs həmin ildə başqasının yerinə naib olub həcc yerinə yetirə bilməz, lakin digərinin naibi kimi həcci həyata keçirərsə onun həcci səhihdir və naib tutmuş şəxs tərəfindən kifayət edir. Amma bu halda muzd almaq səhih deyil və o yalnız ücrətul-mislə (əməlinin müqabil miqdarına) sahib olur. Naibin ücrətul-müsəmmadan (hamı tərəfindən qəbul edilən miqdar) artıq miqdara sahib olmaq haqqı yoxdur. Əgər cahil və ya öz boynunda vacib həccinin olmasından qafil olan şəxs olsa muzd almaq da (hər bir miqdarda) səhihdir.

Məsələ 108. Naibin adil olması şərt deyil, lakin mənubu ənh[1] tərəfindən həcci həyata keçirdiyinə dair arxayınçılıq olmalıdır. Buna əsasən də naib həcci yerinə yetirdiyini xəbər versə və onun sözündən arxayınçılıq yaranmazsa, bu xəbərlə kifayətlənmək işkallıdır və bu həcc mənubu ənhin boynunda vacib idisə, ehtiyat-vacibə görə yenidən naib tutulmalıdır.

Məsələ 109. Həcci səhih şəkildə yerinə yetirə bilməsi üçün naibin həcc əməllərindən və hökmlərindən agah olması lazımdır və əgər başqa birinin (məs... karvanın alimi kimi) təlim və yol göstərməsi ilə həcci səhih şəkildə yerinə yetirərsə işkalı yoxdur.

Məsələ 110. Əgər insan öz naibinin həcc əməllərini səhih şəkildə yerinə yetirib-yetirmədiyinə şəkk edərsə və bu şəkk naibin həcc hökmlərindən agahlığı cəhətindən yaranıbsa, yerinə yetirilmiş əməlin səhihliyinə hökm olunacaq və həmin həccin vacib olduğu təqdirdə belə yenidən naib tutmaq lazım deyil.

[1] "Mənubu ənh"- naibin ənun yerinə həcc yerinə yetirdiyi şəxsə deyilir. Yəni özü üçün naib tutan şəxs "mənubu ənhdir".

**Naibin vəzifəsi:**

Məsələ 111. Naib həcc və ya ümrədə öz icti-hadına və yaxud təqlid etdiyi müctehidin fətvasına uyğun əməl etməlidir. Lakin muzdu bəlli etdikləri zaman mənubu ənh tərəfindən onun nəzərinə uyğun əməl etmə şərt kəsilsə, şərtə əməl olunmalıdır.

Məsələ 112. Qadının kişiyə və kişinin də qadına naib olmasında işkal yoxdur.

Məsələ 113. İndiyə kimi həccə getməmiş birinin naibliyində heç bir maniə yoxdur. İstər mənubu ənh kişi olsu, istərsə də həccə getmiş və ya getməmiş qadın olsun. Lakin yaxşı olar ki, "hiccətul-islam" boynunda olan və gücü çatan biri özü həccə getsin və həccə getməmiş birini özünə naib seçsin. Bu hökm boynunda həcc müstəqər olmuş meyyitə də aiddir.

**Mənubu ənhin şərtləri:**

Məsələ 114. Mənubu ənh müsəlman olmalıdır və qeyri-müsəlmanın naibliyini etmək səhih deyil. Lakin həcc və ya ümrəni yerinə yetirib savabını ona hədiyyə etsələr eybi yoxdur.

Məsələ 115. Həyatda olan birinin yerinə muzdlu və ya muzdsuz şəkildə müstəhəb həcc üçün naiblik etmənin işkalı yoxdur. Lakin vacib həcdə həyatda olan şəxsin həccə getməyə gücünün çatmaması təq-dirində səhihdir.

Məsələ 116. Ölmüş şəxsin əvəzinə naiblik etmək hər bir halda və hər bir şəkildə caizdir. İstər muzdlu şəkildə olsun, istər təmənnasız, istər vacib olsun, istərsə də müstəhəb həcc olsun.





**Naiblik niyyəti:**

Məsələ 117. Naib həcc əməllərini niyabət (naib-lik) niyyəti ilə yerinə yetirməli və mənubu ənhi müəyyənləşdirməlidir, lakin onun adını dilinə gətir-məsi lazım deyildir. Buna baxmayaraq bütün əməl-lərdə onun adını dilə gətirməsi müstəhəbdir.

**Üzrlü naiblik:**

Məsələ 118. Naibin üzrlü olmasının 4 forması vardır:

a) Naiblikdən sonra üzrlü olur: əgər həccin hər hansı əməllərindən birinə gücü çatmazsa, ehtiyata əsasən onun əcir tutulması caiz deyildir. Əksinə muzdsuz olaraq da başqasının naibi kimi həcci yerinə yetirsə, ehtiyata əsasən kafi deyil.

b) Həcc əməlləri əsnasında bir üzr qarşıya çıxsa: həcci yerinə yetirməkdə əvəzləyici hökmü olarsa mənubu ənh tərəfindən kafidir. Məsələn, əgər ərə-fənin ixtiyari vüqufunu yerinə yetirə bilməsə, iztirari (məcburi) vüqufa əməl edəcək. Lakin hər iki vüqufu tərk edərsə həcci batildir.

c) Üzr səbəbi ilə muhrimə haram olan bəzi ha-ramlara mürtəkib olarsa: məs... öncədən bilib-bilmə-məsi fərq etmədən kölgədə yol gedərsə onun naib-liyinin eybi yoxdur. Həmçinin üzrü olmadan belə mürtəkib olarsa onun naibliyinin işkalı yoxdur.

d) Bilərəkdən tərk etməklə belə həcci batil et-məyən vacibatlardan bəzisini həyata keçirərsə, onun naibliyinin işkalı yoxdur.

Məsələ 119. Bədən üzvlərindən biri naqis olan şəxsin nöqsanı həcc və ümrənin ixtiyari əməllərində naqisliyə səbəb olmasa işkalı yoxdur. Məsələn, onun nöqsanı səcdə zamanı yerə qoyulan üzvlərdən başqa bir yerdə olduğu zaman işkal yoxdur.

Məsələ 120. Namazında qiraəti səhih olmayan birinin vacib həcc və ya ümrə üçün başqasının naibi kimi etdiyi vacib əməllər, ehtiyat-vacibə görə mənubu ənh tərəfindən kafi deyil.

Məsələ 121. Namazında qiraəti səhih olmayan, lakin ondan daha artıq miqdarını düzgün oxuya bilən müstəhəb həcc və ümrədə başqasına naib ola bilər. Amma həcc və ümrədə başqası üçün əcir tutulsa, öz vəziyyətini bildirməlidir.

Məsələ 122. Qurban gecəsində qadınlar və üzrlü şəxslərlə birgə Məşərul-həramdan köçən və Toveyn arasındakı vüqufa çatmayan birinin naibliyində bir eyb yoxdur.

Məsələ 123. Üzr səbəbi ilə əməllərini Ərəfat və Məşərdən qabağa salan şəxsin həcc və ya ümrədə başqası üçün naib olması caizdir.

Məsələ 124. Əgər muzdlu şəkildə, amma həcci özünün yerinə yetirməsinə dair şərtləşilməyibsəvə buna dəlalət edəcək bir əlamət də yoxdursa, bu işi başqasına tapşıra bilər. Lakin onun naiblik muzdu özü üçün danışılmış muzddan aşağı olmamalıdır.

Məsələ 125. Həcci yerinə yetirmək üçün əcir tutulan şəxs hacıların əməl etdiyi və adət edilmiş müstəhəb işləri də görməlidir. Məsələn, Peyğəmbər (s) və imamların (ə) qəbrini mənubu ənhin naibi niyyəti ilə ziyarət etməlidir. Lakin əvvəlcədən onları etməməyi şərt etsə, bu hal istisnadır.

**Naibin ölməsi:**

Məsələ 126. Həcci yerinə yetirmək üçün naib tutulan şəxs ölərsə:

a) Muhrim olmamışdan qabaq ölsə: əgər həcc vacib idisə, yenidən mənubu ənh üçün həcc yerinə yetirilməlidir.





b) Muhrim olandan sonra ölsə: mənubu ənh tərəfindən kafi hesab olunur və yenidən naib tutması vacib deyil. Lakin ehtiyat-vacibə əsasən naibin hərəmə daxil olması da şərtdir.

Məsələ 127. Öncəki məsələnin (126-cı məsələ) ikinci fərzində mənubu ənh tərəfindən kifayət edən naibin həccinin "hiccətul-islam" və ya başqa həcc olması arasında heç bir fərq yoxdur. Lakin bu hal naibliyin muzdla olan formasına aiddir və əgər muzdsuz olubsa, ehtiyat-vacibə əsasən kafi deyil.

Məsələ 128. Əgər əcir tutulan şəxs həcdə ehramdan qabaq ölərsə, muzddan heç nəyə haqqı çatmır. Lakin ehramdan və hərəmə daxil olandan sonra ölərsə, məsələnin iki forması vardır:

a) Əgər mənubu ənhin boynundan götürmək niyyəti ilə əcir tutulmuşdusa: yəni mənubu ənhin təklifini yerinə yetirmək niyyəti etmiş və həcci onun tərəfindən edibsə, muzdu bütünlüklə ödənilməlidir.

b) Əgər sırf həcc əməllərini yerinə yetirməyə əcir tutulubsa: yerinə yetirmiş olduğu əməllər müqabilində muzdu ödəniləcək. Odur ki, əgər üçdə bir miqdarda əmələri edibsə, üçdə bir miqdarda da əcirə haqqı çatacaq.

Məsələ 129. Mənubu ənh tərəfindən müəyyən ildə şəxsən həcc yerinə yetirməyə naib seçilmiş şəxs, həmin ildə başqasını öz tərəfindən əcir tuta bilməz, lakin iki müxtəlif ildə olsa eybi yoxdur. Həmçinin qərar verilmiş illərdən və ya hər iki ildən birinə məxsus danışılmayıbsa, mütləq özü həcci yerinə yetirməlidir.

Məsələ 130. Müəyyən bir ildə həcc üçün əcir tutulmuş şəxs, müstəcirin (əcir tutan şəxsin) icazəsi

olmadan həcci danışılmış ildən tez və ya gec yerinə yetirə bilməz.

Məsələ 131. Həcci yerinə yetirməyə şəxsən əcir tutulmuş şəxs, müstəcirin icazəsi olmadan bu həcc üçün başqasını naib tuta bilməz.

**Naibin etdiyi haramların kəffarəsi:**

Məsələ 132. Əgər naib həcdə kölgədə gəzmək və ya güzgüyə baxmaq kimi kəffarəyə səbəb olan işlərdən birini görərsə, o əməlin kəffarəsi onun öz boynundadır. İstər onun naibliyi muzdlu olsun, istərsə də təmənnasız.

**Həcc xərcləri üçün muzdun çatmaması:**

Məsələ 133. Əgər bir şəxs başqasını həcc üçün müəyyən məbləğə əcir tutsa və o məbləğ həcc xərclərini lazımı qədər ödəməzsə, çatışmamazlığı aradan qaldırmaq müstəcirə vacib deyil. Həmçinin nəzərdə tutulan məbləğ artıq gələrsə, artıq miqdarı götürmək olmaz.

**Muzdun ödənilmə vaxtı:**

Məsələ 134. Əcir tutma müqaviləsi ilə naibin (əcir tutulan şəxsin) muzda mülkiyyət hüququnun çatmasına baxmayaraq, muzdun dərhal ona verilməsi vacib deyil. Lakin əməlin həyata keçməsindən sonra tez zamanda muzdun verilməsinə dair şərt kəsilibsə, muzdu şərtə uyğun ödəmək lazımdır. Hətta müqavilədə aşkar şəkildə şərt olunmasa belə əcir tutulan şəxs əməlləri həyata keçirməmiş öz müzdunu tələb edə bilər.

Məsələ 135. Əgər bir şəxsi həcci həyata keçirmək üçün əcir tutsalar və bu şəxs üçün (yola düşməyə) fürsət olduğu zaman gözlənilmədən bir hadisə nəticəsində təməttö həccinə getmək alınmazsa və bu şəxs təməttö ümrəsindən ifrad həccinə üdul edərsə (keçərsə) və ondan sonra müfrəd ümrəni yerinə yetirərsə, bu şəkildə olan həcc mənubu ənh tərəfindən kifayət edir, amma əcir tutulan şəxs muzd tələb edə bilməz.





**Bir neçə nəfər tərəfindən naib olmaq:**

Məsələ 136. Vacib həcdə və eyni ildə bir nəfər iki və ya bir neçə nəfər tərəfindən həcc yerinə yetirə bilməz və yalnız bir nəfər tərəfindən naib ola bilər. Lakin həcci şərik şəkildə bir və ya bir neçə nəfərə tapşırsalar işkalı yoxdur. Məsələn, iki nəfər şərik şəkildə bir şəxsi həcc üçün əcir tuturlar. Bu halda heç bir eyb yoxdur.

Məsələ 137. Bir nəfər eyni ildə müstəhəb həcc üçün bir neçə nəfər tərəfindən həcci yerinə yetirə bilər.

**Başqası üçün həccə naib olmaq və özü üçün ümrə etmək:**

Məsələ 138. Naib olan şəxs niyabətən yerinə yetirdiyi həcc əməllərindən qabaq və ya sonra özü və yaxud başqası üçün müfrəd ümrə həyata keçirə bilər.

**Məkkədə olan şəxsin naibliyi:**

Məsələ 139. Məkkədə yaşayan şəxsin müstəhəb olan müfrəd ümrədən ötəri özü üçün naib tutmasının eybi yoxdur.

**İmam Zaman (ə.f) tərəfindən naiblik:**

Məsələ 140. Həzrəti Vəliyyi-əsr (ə.f) tərəfindən naib kimi həcc və ya ümrə həyata keçirmək caizdir.

# İkinci fəsil

## HƏCC VƏ ÜMRƏNİN QİSMLƏRİ



## Ehram:

### Həcc və ümrənin qismləri:

Məsələ 141. Həcc və ümrə bəzən vacib, bəzən də müstəhəb olur və hər birinin də qismləri vardır.

Məsələ 142. Həcc (istər müstəhəb olsun, istərsə də vacib) 3 qismdir:

1. Təməttö 2. İfrad 3. Qiran

Məsələ 143. Ümrə (istər müstəhəb olsun, istərsə də vacib) 2 qismdir:

1. Təməttö 2. Müfrəd

Məsələ 144. Təməttö həcci, vətənləri Məkkədən 16 fərsəx uzaqda (88 kilometr həddində) yerləşən insanların vəzifəsidir. Amma ifrad və qiran Məkkə əhalisinin və vətənləri Məkkədən 16 fərsəx uzaqda olmayan şəxslərin vəzifəsidir.

Məsələ 145. Vəzifəsi təməttö həcci olan şəxs ifrad və ya qiran həccini yerinə yetirərsə, kafi deyil. Baxmayaraq ki, bəzi hallarda təməttödən ifrada keçmək (üdul etmək) lazım olur və bu haqda qarşıdakı məsələlərdə danışılacaq.

Məsələ 146. Vətəni Məkkə və ya Məkkə ətrafında olmayan, lakin hazırda Məkkədə və ya Məkkə ilə fasiləsi 16 km-dən az məsafədə yaşayan şəxs, orada qalmasında üçüncü ilə daxil olubsa, vəzifəsi ifrad və ya qiran həccidir. Lakin, sakin olma vaxtı bundan daha az müddətdirsə (məs... 3-4 aydırsa), təməttö həccini yerinə yetirməlidir. Bu məsələdə o şəxsin istitaətinin Məkkədə olduğu zamanda hasil olması ilə ondan qabaq hasil olması arasında heç bir fərq yoxdur. Həmçinin oranı özünə vətən seçməsi ilə seçməməsi arasında heç bir fərq yoxdur.

**Təməttö ümrəsi:**

Məsələ 147. Vətəni Məkkədən 16 km uzaqda olan şəxs həccə getdiyi zaman iki əməli yerinə yetirməlidir: təməttö ümrəsi və təməttö həcci.

**Təməttö ümrəsinin əməlləri:**

Məsələ 148. Təməttö ümrəsinin əməlləri bunlardır:

* Miqatda ehram bağlamaq
* Allah evinin ətrafına dövr etmək
* Təvaf namazı
* Səfa və Mərva arasında səy (get-gəl) etmək
* Təqsir, yəni başının tükündən, saqqalından və ya bığından bir miqdar azaltmaq

**Təməttö həccinin əməlləri:**

Məsələ 149. Təməttö həccinin əməlləri bunlardır:

* Məkkədən ehram bağlamaq. İzahı qarşıda gələcək.
* Zilhiccənin 9-cu günü Ərəfatda[1] vüquf etmək (dayanmaq və orada qalmaq)
* Qurban gününün gecəsindən günəş çıxmağa az qalmış vaxta kimi Müzdəlifədə (Məşərdə)[2] vüquf etmək.
* Cəmərəyi-əqəbəni[1] rəmy etmək, yəni qurban bayramı günündə cəmərəyi-əqəbəyə çınqıl atmaq.

[1]Ərəfat: Məkkə yaxınlığında olan bir məkanın adıdır. Onun sərhədləri Ərənə, Suvəyyə və Nəmrə səhralarından Zil-məcaza qədər, Məzəmindən vüquf yerinin sonuna kimidir.
[2]Müzdəlifə və ya Məşərul-həram: Məkkə və Ərəfat arasındakı bir çölün adıdır ki, Məzəmin, Hiyaz və Vadiyi-muhəssər arasında yerləşir.





* Qurban günündə Minada dəvə, inək və ya qoyun kəsmək.
* Minada saçı təraş etdirmək və ya bir miqdar saçın və ya saqqalın və yaxud da bığın tükündən azaltmaq.
* Məkkəyə qayıtdıqdan sonra Allah evini təvaf etmək.
* Təvaf namazını qılmaq.
* Səfa və Mərva arasında səy (get-gəl) etmək.
* Nisa təvafını etmək.
* Nisa təvafının namazını qılmaq.
* Zilhiccənin 11-ci və 12-ci gecəsində Minada beytutə etmək (qalmaq).
* Zilhiccənin 11-ci və 12-ci günündə üç cəmərəni (əvvəli, vusta və əqəbə) də daşlamaq

**Təməttö həccinin şərtləri:**

Məsələ 150. Təməttö həccində bir neçə şey şərtdir:

a) Niyyət, insanın qəsdi təməttö həccini yerinə yetirmək olmalıdır. Odur ki, niyyəti başqa bir şey olsa və ya tərəddüddə qalsa, həcci səhih deyildir.

b) Ümrə və həccin hər ikisini həcc aylarında (şəvval, zilqədə və zilhiccə) yerinə yetirməlidir. Əgər ümrədən bir hissəsini və ya tamamını şəvval ayından qabaq edərsə, ümrəsi səhih deyildir.

[1]Cəmərə, Minada yerləşən və hacıların müəyyən günlərdə ona sarı daş atdığı üç yerin adıdır (vaxtilə sütun halında daş olan o yerlər indi divar şəklinə salınmışdır). Birinci cəmərə Minanın Məkkə istiqamətindədir və cəmərəyi-əvvəli adlanır. İkinci cəmərə cəmərəyi-vustadır. Sonuncu cəmərə isə cəmərəyi-əqəbədir.

c) Ümrə və həcci bir ildə yerinə yetirməlidir. Əgər ümrəni yerinə yetirib həcci digər ilə saxlayarsa, təməttö həcci səhih olmayacaq. Bu məsələdə gələn ilə kimi Məkkədə qalmaqla öz vətəninə qayıdıb yenidən Məkkəyə gəlmək arasında heç bir fərq yoxdur.

d) Həccin ehramı Məkkədə bağlanılmalıdır və daha yaxşı olar ki, Məscidul-həramda bağlanılsın. Əgər müəyyən üzr səbəbi ilə Məkkədə ehram bağlaya bilməsə, imkanı çatdığı yerdə ehramını bağlayacaq.

e) Həcc və ümrənin bütün əməllərini bir nəfər yerinə yetirməlidir. Əgər təməttö həccini ölü və ya diri şəxs tərəfindən iki nəfər yerinə yetirərsə (məs... biri təməttö ümrəsini, digəri təməttö həccini), səhih deyildir. Həmçinin bir şəxs ümrəni naib olaraq müəyyən bir fərd üçün və həcci isə başqa şəxsin naibi kimi yerinə yetirərsə, səhih deyildir.

İfrad həcci:

Məsələ 151. İfrad həcci əməllər baxımından təməttö həcci ilə eyni cürdür, lakin aralarında aşağıdakılardan ibarət bir neçə fərq vardır:

1) Təməttö həccində həcc və ümrənin əməlləri eyni ildə və həcc aylarında (şəvval, zilqədə və zilhiccə) yerinə yetirilməlidir. Lakin ifrad həccində həcc əməlləri və müfrəd ümrəsinin bir ildə olması şərt deyil.

2) Təməttö həccində qurban vacibdir, amma ifrad həccində vacib deyil.

3) Təməttö həccində ehtiyat-vacibə əsasən bir üzr irəli gəlməzsə, təvaf və səyi Ərəfat və Məşərdə vüquf etməkdən qabağa salmaq olmaz. Lakin bu





əməl ifrad həccində mütləq surətdə (hətta üzr olsa belə) caiz deyildir.

4) Təməttö həccinin ehram bağlanan yeri Məkkə şəhəridir, lakin ifrad həcci üçün ehram bağlamağın izahlı hökmləri qarşıda gələcəkdir.

5) Təməttö həccində həcc əməllərindən öncə ümrə yerinə yetirilməlidir, lakin ifrad həccində belə bir şərt yoxdur.

6) Təməttö həccinin ehramından sonra müstəhəb təvaf etmək ehtiyat-vacibə əsasən caiz deyildir, lakin bu əməl ifrad həccində caizdir.

Məsələ 152. Vəzifəsi ifrad həccini edib ardınca da müfrəd ümrəni həyata keçirmək olan şəxs, həcci yerinə yetirdikdənsonra ümrəni də etməlidir və onu təxirə salması caiz deyildir.

### Qiran həcci:

Məsələ 153. Qiran həccinin bütün əməlləri ifrad həccində olan kimidir. Lakin qiran həccinin bir fərqi vardır ki, bu həcc üçün ehram bağlanıldığı zaman qurbanlığı da özü ilə gətirməlidir, amma ifrad həccində qurban vacib deyildir.

Həmçinin qiran həccində “ləbbeykləri” deməklə də muhrim olmaq mümkündür. Eyni zamanda əşarla da (heyvanın üzərində qurbanlıq əlaməti qoymaqla) və ya təqlidlə də (qurbanlıq heyvanın boynuna bir şey asmaqla) ehram gerçəkləşmiş olur.

## Təməttö ümrəsinin əməllərindəki hökmlər:

### Ehram:

Məsələ 154. Ümrənin əməlləri ehramla başlayıb təqsirlə sona çatır.

Təməttö ümrəsinin əməlləri beş miqatdan birində başlayır. Yəni:

1)Zul-huleyfə: Mədineyi-münəvvərə yaxın, Mədinə və o yoldan Məkkəyə tərəf gələnlərin miqat yeridir.

2) Əqiq vadisi: İraq və Nəcd əhalisinin miqatıdır. Həmçinin bu yolla gələn və İraq və ya nəcd əhalisindən olmayanların da miqat yeridir.

3) Cuhfə: Şam (Dəməşq), Misir, qərblilərin və bu yolla gələn hər bir kəsin miqatıdır.

4) Yəlmələm: Yəmən əhalisi və bu yolla gələnlərin miqatıdır.

5) Qərnul-mənazil: Taif əhalisi və bu yolla gələn hər kəsin miqatıdır.

Məsələ 155. Mədinə tərəfdən Məkkəyə gələn şəxsin miqat yeri Zul-huleyfədir və ehtiyat-vacib budur ki, o yolda tanınmış məscid olan Məsciduş-şəcərədə ehram bağlanılsın.

Məsələ 156. Məsciduş-şəcərənin xaricində ehram bağlamaq ehtiyati-vacibə əsasən kafi deyil. Hətta məscidin üzbəüzündə ehram bağlanılsa da kifayət etmir.

Məsələ 157. Məsciduş-şəcərənin hər bir yerində ehram bağlamaq kifayətdir və məscidin qədim hissəsində muhrim olmaq şərt deyil.





Məsələ 158. Mədinə yolu ilə Məkkəyə gedən haiz qadın bu iki vəzifədən birinə əməl edə bilər:

a) Miqatdan qabaq nəzrlə muhrim olsun.

b) Məscidin yanından ötərkən bir qapıdan girib digər qapıdan çıxmaqla muhrim olsun.

Məsələ 159. Haiz qadına məsciddə dayanmaq olmaz, lakin məsələdən xəbərsizlik və ya unutqanlıq üzündən məsciduş-şəcərə daxilində muhrim olarsa, ehramı səhihdir.

Məsələ 160. Haiz qadın digər qapının açıq olması gümanı ilə Məsciduş-şəcərəyə daxil olub ehram geyinərsə və muhrim olduqdan sonra digər qapının bağlı olduğunu görüb elə öncəki qapıdan da xaric olarsa, ehramı səhihdir.

Məsələ 161. Vəzifəsi haizin tərk etdiyi şeylərdən uzaq olub müstəhazənin əməllərini yerinə yetirmək olan qadın ehtiyat etməlidir və məsciduş-şəcərədən keçməklə muhrim olmalıdır. Əgər məsciddən keçmək mümkün olmasa, bu məsələdə "ələm fəl-ələm" qaydasına[1] riayət edərək başqa bir müctehidin fətvasına əməl etməlidir.

Məsələ 162. Mədinə yoluyla Məkkəyə gəlib Zul-huleyfəyə çatan və qarşıda Cuhfə kimi digər miqatı olan bir şəxs Zul-huleyfədən ehram bağlamayıb Cuhfədə muhrim ola bilməz. Lakin xəstəlik, zəiflik və ya üzr kimi səbəblərlə zərurət üzündən bu işi görməyə məcbur olsa, bu hal istisnadır.

---

[1] "Ələm fəl-ələm" qaydası: Ələm (ən elmli) olan birindən sonra digərlərindən daha ələm olanına keçməkdir. Ehtiyat-vacib olan hökmlərdə müqəllid öz müctehidindən başqa bir müctehidin fətvasına keçmək istəsə, öz mərceyi-təqlidi ilə elmi cəhətdən bərabər olana keçməlidir və ya ondan sonra digərlərindən daha ələm olanına (yəni ikinci dərəcədə olana) rücu etməlidir.

Məsələ 163. Zul-huleyfədən başqa digər 4 miqatda olan məscidlərdə ehram bağlamaq şərt deyil. Əksinə oranın adıyla anılan hər bir yerdə (məs... Cuhfə adlanan hər yerdə) ehram bağlamaq səhihdir.

Məsələ 164. Əgər insan ehram yerini (miqatı) ayıra bilməsə miqatdan öncə nəzrlə muhrin ola bilər. Lakin miqatı ayıra bilən şəxsin miqatdan öncə nəzrlə ehram bağlaması caiz deyildir.

**Miqatın üzbəüzü:**

Məsələ 165. Miqatların heç birindən kəsişməyən bir yolla gələn şəxs, miqatla üzbəüz olan yerlərdə ehram bağlaya bilər.

Məsələ 166. Miqatın üzbəüzü 90 dərəcə ilə ölçülən və bir xətti Kəbəyə, digər xətti isə miqata düşən məkana deyilir. Hacı bu iki xəttin kəsişməsində dayanmalıdır, lakin əqli diqqət və (riyazi) dəqiqlik lazım deyildir. Beləki xalqın gözündə üzbəüz məkanda dayandığı bilinərsə kifayətdir.

Məsələ 167. Miqatla üzbəüz fəzalarda yəni təyyarədə gedərkən ehram bağlamaq vacib ehtiyata əsasən kifayət deyil.

**Miqatdan öncə ehram bağlamaq:**

Məsələ 168. İki yerdən başqa heç bir halda miqatdan öncə ehram bağlamaq caiz deyildir. İstisna olan iki yer bunlardır:

a) Miqatdan öncə muhrim olmağı nəzr etsə

b) Rəcəb ayında ümrə yerinə yetirməyi[1] qərara almış şəxs miqata çatacağı halda rəcəb ayının xaric

[1]Rəcəb ayında ümrə yerinə yetirməyin savabı yerdə qalan aylardakı ümrədən daha çoxdur.





olacağından qorxarsa, miqatdan öncə və rəcəb ayı çıxmamış muhrim olması caizdir. Digər əməllər şaban ayına qalsa belə bu əməl səhihdir.

Məsələ 169. Nəzrlə miqatdan öncə muhrim olmuş şəxsin miqatda yenidən ehram bağlaması lazım deyil. Əksinə heç bir miqatla rastlaşmayacağı yolla belə Məkkəyə gedə bilər. Bu məsələdə vacib və ya müstəhəb həclə müfrəd ümrə arasında heç bir fərq yoxdur (hər 3-ü eyni hökmdədir).

Məsələ 170. Miqatdan öncə ehram bağlamağı nəzr etmiş şəxs öz nəzrinə əməl etməsə və miqatda muhrim olsa, onun ehramı batil deyildir. Lakin bu işi bilərəkdən edərsə nəzrinə müxalif əməl etdiyinə görə kəffarə ona vacivdir.

Məsələ 171. Həcc və ya ümrəni yerinə yetirmək üçün başqasının naibi olan şəxsin miqatdan öncə nəzrlə ehram bağlaması caizdir

**Ehram bağlamamış miqatdan keçmək:**

Məsələ 172. Miqatdan öncə ehram bağlamaq caiz olmadığı kimi qəsdi həcc və ya ümrə etmək olan və yaxud da hərəmə daxil olmaq istəyən bir şəxsin ixtiyar halında miqatdan ehramsız keçməsi caiz deyildir. Lakin qarşıda digər miqatın olması halı istisnadır.

Məsələ 173. Ehram bağlamadan miqatdan keçən şəxs, mümkün olan halda ehram bağlamaq üçün miqata qayıtmalıdır. Lakin üzrsüz halda Zül-huleyfədən keçib Cuhfəyə çatmış şəxs, orada ehram bağlasa kifayətdir. Hərçənd bu halda da miqatdan ehramsız keçdiyi üçün günahkardır.

Məsələ 174. Hərəm daxilində (məs... Ciddədə) işi olan bir müsafirin öncədən həcc, ümrə və ya

hərəmə daxil olmaq niyyəti olmasa, lakin miqatı keçəndən sonra hərəmə daxil olmaq qərarına gələrsə, bu halda hərəmin xarici nöqtələrindən birində müfrəd ümrə üçün muhrim olması caizdir.

Məsələ 175. Əgər mükəlləf elmli halda və bilərəkdən miqatdan ehram bağlamamış keçərsə, məsələnin iki forması vardır:

a) Əgər miqata qayıtmağa gücü çatırsa, geri dönüb orada ehram bağlaması vacibdir. İstər hərəmə daxil olmuş olsun, istərsə də daxil olmamış olsun məsələnin hökmü eynidir və geri dönəcəyi halda əməli səhihdir.

b) İstər hərəmə daxil olmuş olsun, istərsə də olmasın, əgər geri qayıtmağı bacarmazsa və ya hərəmə daxil olduğu halda istər hərəmin xaricinə çıxmağı bacarsın, istərsə də bacarmasın, bütün bu hallarda digər yerdən ehram bağlamaq səhih deyildir və əgər muhrim olub həcc yerinə yetirmişdisə də həcci batildir. Sonradan müstəti olacağı təqdirdə belə başqa ildə həcci yerinə yetirməlidir.

Məsələ 176. Əgər mükəlləf unutqanlıq, huşsuzluq, hökmü bilməmək və ya miqatı tanımamaq (öncə qeyd olunmuş hallar xaric) kimi səbəblər üzündən miqatı ehramsız keçdiyi halda bir neçə forma ola bilər:

Birinci: Miqata qayıtmağı bacararsa, qayıtması və orada ehram bağlaması vacibdir.

İkinci: Miqata qayıtmağı bacarmazsa məsələnin üç forması ola bilər:

a) Hərəmə daxil olubsa, ehtiyat-vacibə əsasən miqata tərəf qayıtmağı bacardığı miqdarda geri dönüb orada ehram bağlayacaq.

b) Hərəmə daxil olub, amma:





* Miqata qayıtmağı bacarmasa, lakin hərəmdən xaric olmağa gücü çatarsa, hərəmdən xaric olmalı və orada ehram bağlamalıdır.

* Hərəmdən xaric olmağa gücü çatmazsa, Məkkəyə daxil olmuşdursa da dayandığı yerdə ehram bağlamalıdır.

Məsələ 177. Unutqanlıq və ya hökmü bilməməzlik üzündən miqatdan qabaq və ya sonra ehram bağlamış şəxsin hökmü, öncəki məsələdə qeyd olunmuş bu iki səbəbdən ehramı tərk edən şəxsin hökmü kimidir.

Məsələ 178. Haiz qadın hökmü bilmədiyinə görə ehramsız halda miqatdan keçərsə və hərəmin daxilində muhrim olarsa, qayıtmağı bacarmadığı halda ehtiyat-vacibə əsasən hərəmin xaricinə çıxmalı və orada ehram bağlamalıdır. Əgər həccin vaxtının gecikməsinə səbəb olmayacaqsa, hərəmdən bacardığı qədər uzaqlaşmalı və orada ehram bağlamalıdır. Əgər hərəmdən uzaqlaşmağı bacarmazsa, hərəmdən xaricdə və əgər hərəmdən çıxmağı bacarmazsa, olduğu yerdə ehram bağlayacaqdır.

Məsələ 179. Məsciduş-şəcərədə ehram bağlamış şəxs Mədinəyə gedib yenidən qayıda bilər. Lakin ehram halında muhrimə haram olan işləri (məs... kişilərə kölgədə gəzmək) etmək haramdır.

Məsələ 180. Ehramsız halda miqatdan keçmənin və Məkkəyə getmənin kəffarəsi yoxdur.

Ciddədən olan ehram:

Məsələ 181. Ciddədə yaşayan şəxslər ümrə və həcc üçün elə orada muhrim ola bilərlər və miqata getmək və ya nəzrlə ehram bağlamaq lazım deyil.

Məsələ 182. Ciddə miqat və miqatın üzbəüzü olmadığı üçün oraya getmiş və oradan Məkkəyə getmək istəyən şəxslər bu üç yoldan birini seçə bilərlər:

1) Nəzrlə miqatdan öncə muhrim olsunlar. Məsələn, öz vətənlərində və ya yol boyunca ehram bağlasınlar.

2) Miqatlardan birinə (məs... Cuhfəyə) və ya onlardan birinin üzbəüz tərəfinə gedib orada ehram bağlasınlar.

3) Nəzrlə Ciddədən muhrim olsunlar.

### Ehram bağlamağın keyfiyyəti:

Məsələ 183. Ehramın vacib, müstəhəb və haram işləri vardır. Ehramın vacibləri üç şeydir:

Birinci: Niyyət, yəni ilahi razılığı qazanmaq üçün həcc və ya ümrə yerinə yetirmək qəsdi olsun.

İkinci: Təlbiyə, yəni "Ləbbeyk Allahummə ləbbeyk, ləbbeyk la şərikə ləkə ləbbeyk" cümləsini demək. Ehtiyat-müstəhəb budur ki, bu cümlə də deyilsin:

"İnnəl-həmdə vən-nimətə ləkə vəl-mulkə la şərikə lək" və axırına "ləbbeyk" kəlməsini də artırmaq caizdir.

Üçüncü:Ehram paltarını geyinmək, yəni muhrimə geyinilməsi haram paltarları çıxarmaq və ehram libasını geyinmək lazımdır.





## Ehramın vaciblərinin hökmləri:

### Niyyət:

Məsələ 184. Niyyət edilən zaman yerinə yetiriləcək əməlləri təfsilatı ilə bilmək lazım deyil. Əksinə hansı əməlləri yerinə yetirəcəyini ümumi şəkildə bilməsi kifayətdir.

Məsələ 185. Ehramın niyyətində və həcc və ya ümrənin bütün əməllərində digər ibadətlər kimi qürbət qəsdi və ixlas şərtdir. Yəni hədəfi və istəyi ilahi razılığı ələ gətirmək olmalıdır və bundan başqa heç bir qəsdi olmamalıdır.

Məsələ 186. Niyyətdə həcc və ya ümrəyə ehram bağladığını müəyyənləşdirməlidir və həmçinin həcc və ya ümrənin növünü də təyin etməlidir. Əgər əməlləri başqası tərəfindən yerinə yetirirsə, onu da öz qəsdinə salmalıdır.

Məsələ 187. Niyyəti dilə gətirmək lazım deyil, lakin müstəhəbdir. Həmçinin qürbət qəsdində də o mənanı nəzərdən keçirmək lazım deyil, əgər əməlini Allahın razılığı üçün yerinə yetirərsə kifayətdir.

Məsələ 188. Ehram vaxtı haramları tərk edəcəyinə dair qəsd etməsi lazım deyil. Lakin həcc və ya ümrəni batil edən bəzi haramların izahlı hökmləri müfəssəl fiqhi kitablarda qeyd olunmuşdur.

### Təlbiyə:

Məsələ 189. Həcc və ya ümrəyə qəsdi olan şəxsin "ləbbeyklərin" tələffüsünü səhih şəkildə deməsi üçün onları öyrənməsi lazımdır. Əgər başqa biri deyərsə və bu şəxs də səhih şəkildə təkrar edərsə, işkalı yoxdur.

Məsələ 190. Təlbiyədə hərəkəni vəqf etmək və ya sükunu vəsl etməyin eybi yoxdur, lakin bunu tərk etmək müstəhəbdir.

### Təlbiyəni kəsmək:

Məsələ 191. Ehram üçün bir dəfə "ləbbeyk" demək vacibdir, lakin təkrar edilməsi və ehtiyata əsasən ondan sonra deyilməyən vaxta kimi uzadılması müstəhəbdir. Təlbiyəni kəsmək aşağıdakı şərhə uyğundur:

a) Əgər təməttö ümrəsi üçün muhrim olubsa, Məkkənin köhnə evlərini gördüyü zaman təlbiyəni kəsəcək.

b) Əgər müfrəd ümrə üçün ehram bağlayıbsa və hərəmin xaricindən gəlirsə, hərəmə çatdığı zaman təlbiyəni kəsəcək. Əgər hərəmin xaricindəki birinci nöqtəyə gedib orada muhrim olubsa, Məkkə evlərini gördüyü zaman təlbiyəni kəsəcək.

c) Əgər həcc üçün muhrim olubsa, Ərəfə gününün zöhrü zamanı təlbiyəni kəsəcək.

Məsələ 192. Əgər təlbiyəni deyib qurtarandan sonra düz tələffüz edib-etməməsində şəkk edərsə, düz dediyinə hökm olunacaq və bir daha təlbiyə deməsi lazım deyil.

### Ehram paltarının geyinilməsi:

Məsələ 193. Ehram üçün kişilər tikilmə olan bütün paltarlarını çıxarmalıdırlar və bir belə bağlanan, digəri isə çiyinə atılan ehramın iki libasını (izar və rəda) geyinməlidirlər.

Məsələ 194. Ehram paltarını geyinməkdə xüsusi bir forma şərt deyil. Odur ki, izarı öz belinə fitə kimi bağlasa (hər nə cür istəyirsə) və rədanı da əba kimi





çiyninə atarsa caizdir. Yaxud onun sağ tərəfini sol qolunun altına salarsa və ya əksinə edərsə və yaxud da başqa bir şəkildə geyinərsə caizdir. Lakin hamının geyinməyə adət etdiyi kimi geyinmək müstəhəbdir.

Məsələ 195. Qadın, namaz qıldığı halındakı şərtlərə riayət etməklə özünün adi paltarında muhrim ola bilər və iki ehram libasını geyinmək onlara vacib deyil.

Məsələ 196. Ehram paltarlarını geyinmək kişilərə vacib olmasına baxmayaraq, əgər bir kişi ehram libasını geyinmədən ehram niyyəti ilə "ləbbeyk" deyərsə vacibi tərk etmiş olur, lakin ehramı səhihdir.

Məsələ 197. İzarın (fitənin) bədənin göbəkdən dizə kimi miqdarını örtməsi ehtiyat-vacibdir. Ridanın isə iki çiyindən iki dizə qədər və belin görülən hissəsini örtməsi lazımdır.

Məsələ 198. Miqata çatmamışdan öncə ehram paltarını geyinməyin heç bir işkalı yoxdur və miqata çatanda onları çıxarıb bir daha geyinmək lazım deyil. Həmçinin niyyət və təlbiyə vaxtında onları tərpətmək də vacib deyildir.

### Ehramdakı vaciblərin tərtibi:

Məsələ 199. Ehtiyat-vacibə əsasən ehram paltarının geyinilməsi niyyət və təlbiyədən sonra olmalıdır. Buna görə də əgər niyyət və təlbiyədən sonra ehram paltarını geyinərsə, yenidən "ləbbeykləri" deməsi ehtiyati-müstəhəbdir.

### Ehramın iki paltarından artıq geyinmək:

Məsələ 200. Ehrama başlamaqdan öncə və ya sonra soyuq və bu kimi şeylərin qarşısını almaq

üçün iki ehram paltarından artığını geyinməyin işkalı yoxdur.

## Ehram paltarının şərtləri:

Məsələ 201. Namaz qılan şəxsin paltarında şərt olan şeylər ehram paltarında da şərtdir. Odur ki, ehram paltarı pak olmalıdır, xalis ipək və yırtıcı heyvanların hissələrindən olmamalıdır. Ehtiyat-vacibə əsasən əti haram olan heyvanların hissəsindən də olmamalıdır.

Məsələ 202. Dirhəmdən az olan qan kimi namaz paltarında olmasının bir eybi olmayan nəcisin ehram paltarında olmasının da işkalı yoxdur.

Məsələ 203. Əgər ehram paltarı nəcis olarsa, ehtiyat-vacibə əsasən ya əvəz edilməli və ya paklanılmalıdır. Lakin əgər gücü çatmasa işkalı yoxdur və heç bir halda kəffarə vacib deyil.

Məsələ 204. Xalis ipək geyinmək yalnız kişilərə haram olsa da, ehtiyat-vacibə əsasən qadınlar da ipək paltarda muhrim olmamalıdırlar. Əksinə ehtiyat budur ki, ehram müddətincə xalis ipəkdən olan heçnə geyinilməsin. Zərurət halı isə istisnadır.

Məsələ 205. Əgər ehram paltarı nəcis olarsa, ehtiyat-vacib budur ki, imkan olduğu qədər tez zamanda əvəz və ya pak edilsin.

## Ehram paltarını çıxarmaq:

Məsələ 206. Ehram paltarını daimi olaraq bədəndə saxlamaq vacib deyildir və istər zərurət halında olsun, istərsə də adi halda rədanı çıxarmağın işkalı yoxdur.

Məsələ 207. Ehramın başlanğıcında geyinilən paltarı axıra kimi bədəndə saxlamaq vacib deyildir.





Əksinə onu lazım olan şərtlərə malik digər paltarla əvəz etmənin işkalı yoxdur.

## Ehramın müstəhəbləri:

Məsələ 208. Ehramdan öncə aşağıdakı əməllər müstəhəbdir:

1) Həcc etməyə niyyəti olan şəxs zilqədə ayının əvvəlində və müfrəd ümrə yerinə yetirməyə niyyəti olan şəxs isə bir ay öncədən öz saqqal və başının tükündən azaltsın.

2) Ehramdan öncə öz bədənini təmizləyib dırnaq və bığını azaltsın və bədəninin artıq tüklərini aradan qaldırsın.

3) Ehramdan öncə miqatda ehram quslunu alsın. Əgər miqatda su tapa bilməyəcəyindən qorxsa, miqatdan öncə (məs... Mədinədə və ya Ciddədə) qusl ala bilər.

4) Qusl aldığı zaman dua etsin və belə desin: "Allahumməcəlhu li nurən və tahurən və hərzən və əmənən min kulli xavfin və şifaən min kulli dain və səqəm. Allahummə tahhirni və tahhir qalbi vəşrihli sədri vəcur əla lisani məhəbbətəkə və mədhətək vəssənau aləyk, fəinnəhu la quvvətə li illa bikə və əlimtu qivamə dini ət-təslimu ləkə və illəttibau lisənəti nəbiyyukə salavatukə aleyhi və alih"

5) Zöhr namazından sonra muhrim olsun. Əgər mümkün olmazsa başqa bir vacib namazdan sonra və o da mümkün olmazsa ehramın 2 və ya 6 rəkətlik namazından sonra (6rəkətlik daha fəzilətlidir) muhrim olsun. Bu namazın birinci rəkətində həmddən sonra tovhid, ikinci rəkətindəvisə həmddən sonra kafirun surəsini oxumaq müstəhəbdir. Namazı bitirdikdən sonra ilahi həmd və sənanı yerinə yetirib

Peyğəmbər (s) və ailəsinə (ə) salavat göndərdikdən sonra desin: “Allahummə inni əsalikə  ən təcələni mimmənistəcabə lək və amənə bivədikə vəttəbəə əmrək, fəinnəni əbdukə və fi qəbzətik, la uqa illa ma əqəytə və la axuzu illa ma ətəytə və qəd zəkərtəl-həcc, fəəsələkə ən təzimə li aleyhi əla kitabik və sunnəti nəbiyyikə salavutə aleyhi və alih və tuqəv-viyəni əla ma zəuftu və tusəlləmə li mənasiki fi yusri minkə afiyəti vəcəlni min vəfdikəlləzi rəzitə vərtə-zəytə səmməytə və kətəbtə. Allahummə inni xərəctu şuqqəti bəidəh, vənfəqtu ma libtiğaə mərzatik. Aııa-hummə fətəmmim li həccəti və umrəti. Allahummə uridə ət-təməttiə bil-umrəti iləl-həcci əla kitabikə və sunnəti nəbiyyikə salvutə aleyhi və alih. Fə in ərəzə li arizun yəhbisuni, fəxəllini həysu həbəstəni biqə-dərikəlləzi qəddərtə ələyy. Allahummə in ləm təkun həccətən və umrətən əhrəmə ləkə şəri və bəşəri və ləhmi və dəmi və izami və muxxi əsəbi minən-nisai vəs-siyabi vət-tiybi, ibtəği bizalikə vəchəkə vəd-darəl axirəh”.

### Ehram vaxtı müstəhəb olan işlər:

Məsələ 209. Ehram vaxtı aşağıdakı işlər müstə-həbdir:

1) Ehram paltarı pambıqdan olsun.

2) Ehram paltarını geyinən zaman dua etsin və desin: “Əlhəmdu lillahilləziy rəzəqəni ma uvari bihi əvrəti və uəddi fihi ərzi vəbudu fihi rəbbi vəntəhi fihi ilə ma əmərəni. Əlhəmdu lillahilləzi qəsədtuhu fəbəlləğəni və ərədtuhu fəanəni və qəbiləni ləm yə-qtə  bi və vəchəhu ərədtu fəsəlləməni fəhuvə hisni və kəhfi və hirzi və zəhri məlazi və rəcai və məncayə və zuxri və uddəti fi şiddəti və rəxai”.





3) “Ləbbeykləri” dediyi zaman ehram niyyətini də dilinə gətirsin.

4) Kişilər “ləbbeykləri” uca səslə desinlər.

5) Vacib “ləbbeyklərin” ardınca desin:

“Ləbbeyk zəl-məaric ləbbeyk, ləbbeyk daiyən ilə daris-səlam ləbbeyk, ləbbeyk ğəffarəz-zunub ləbbeyk, ləbbeyk əhlət-təlbiyəti ləbbeyk, ləbbeyk zəl-cəlali vəl-ikram ləbbeyk, ləbbeyk tubdiu vəl-məadu iləyk ləbbeyk, ləbbeyk təstəğni və yuftəqəru iləykləbbeyk, ləbbeyk mərhubən və mərğubən iləyk ləbbeyk, ləbbeyk ilahəl-həqqi ləbbeyk, ləbbeyk zən-nəmai vəl-fəzlil-həsənil-cəmil ləbbeyk, ləbbeyk kəşşafəl-kurəbil-izam ləbbeyk, ləbbeyk əbdukə vəbnu-əbdeykə ləbbeyk, ləbbeyk ya kərimu ləbbeyk”

Ondan sonra desin:

“Ləbbeyk ətəqərrəbu iləykə bi Muhəmmədin və ali-Muhəmmədin ləbbeyk, ləbbeyk bihəccətin və umrətin ləbbeyk və hazihi umrətu mutətin iləl-həcci ləbbeyk, ləbbeyk əhlət-təlbiyəti ləbbeyk, ləbbeykə təlbiyətən təmamuha və bəlağuha ələyk”.

6) “Ləbbeykləri” ehram halında və xüsusən də aşağıdakı hallarda təkrar etsin:

* Yuxudan oyandığı zaman
* Hər namazdan sonra
* Süvari və piyada olan zaman
* Yüksəkliyə qalxdığı və endiyi zaman
* Süvari bir şəxslə görüşdüyü zaman

7) Səhərlər “ləbbeykləri” çox deмək müstə-həbdir.

8) “Ləbbeyklərin” təkrar olunmasının son vaxtı (qurtarma vaxtı) 191-ci məsələdə qeyd olunmuşdur.

Məsələ 210. Haiz qadın da ehram quslunu ala bilər.

Məsələ 211. Əgər ehram quslundan sonra dəstəmazı batil edən şeylərdən biri baş verərsə və ya muhrimə haram olan paltar geyinərsə, quslun yenidən alınması müstəhəbdir.

Məsələ 212. Əgər ehram quslunu gündüz alarsa, gələn gecənin axırına kimi kifayət edir və həmçinin gecə qusl alarsa, gələn günün axırına kimi kifayətdir.

### Ehramda məkruh olan işlər:

Məsələ 213. Muhrim olan zaman və ehram halında aşağıdakı işlər məkruhdur:

1) Qara paltarla ehram bağlamaq və yaxşı olar ki, ağ paltarla muhrim olsun.

2) Çirk paltarla ehram bağlamaq. Lakin ehram paltarında paltarı çirk olarsa, ehram halında olduğu müddətdə onu çyumaması yaxşıdır, amma onu əvəz etməsinin eybi yoxdur.

3) Naxışlı və bu kimi paltarla ehram bağlamaq.

4) Muhrim olmamışdan öncə ehram bağlayacağı zamana kimi izi qalacaq şəkildə hənadan istifadə etmək.

5) Hamama getmək və ehtiyat-müstəhəb budur ki, kisə və bu kimi şeylərlə öz bədənini sürtməsin.

6) Başqa birisi muhrim şəxsi səslədiyi zaman “ləbbeyk” deməklə cavab verməк.



# Üçüncü fəsil

# EHRAM HALINDA HARAM OLAN İŞLƏR

**Ehram halında haram olan işlər:**

Məsələ 214. Mükəlləf muhrim olduğu zaman "ehramın turuku və muhərrəmatı" adlanan əməllər ona haram olur. Bu əməllərdən bəziləri həm qadın, həm də kişi muhrimə haramdır, digər qismi yalnız kişi muhrimlərə və onlardan bir qismi də yalnız qadın muhrimlərə haramdır.

**Müştərək haramlar:**

Məsələ 215. Qadın və kişi muhrimlərə haram olan əməllər aşağıdakılardan ibarətdir:

* Xoş ətirdən istifadə etmək
* Güzgüyə baxmaq
* Sürmə çəkmək
* Bəzənmək (zinətlənmək)
* Bədənə yağ sürtmək
* Dırnaq tutmaq
* Bədənin tükünü azaltmaq
* Bədəndən qan çıxarmaq
* Yalan danışmaq, söyüş söymək və fəxr etmək
* Cədəl etmək
* Əks cinsin paltarını geyinmək
* Əks cinsə bədənini sürtmək (cinsi yaxınlıq)
* Əks cinslə şəhvət gətirən şəkildə hərəkət etmək və ya baxmaq
* İstimna
* İzdivac əqdi
* İnsan bədəninə oturmuş (sakin olmuş) heyvanları öldürmək
* Səhra heyvanlarını ovlamaq
* Özü ilə silah gəzdirmək





**Kişilərə məxsus olan haramlar:**

Məsələ 216. Aşağıdakı əməllər ehram halında yalnız kişilərə haramdır:

* Kölgədə gəzmək
* Başı örtmək
* Ayaqqabı və corab geyinmək
* Tikilmiş paltar geyinmək

Qadınlara məxsus haramlar:

Məsələ 217. Ehram halında üzünü örtmək qadınlara haramdır.

**Ehramın muhərrəmatının hökmləri:**

**Xoş ətirdən istifadə:**

Məsələ 218. İstər iylənilən olsun, istər yeyilən, istərsə də bədənə sürtülən hər növ xoş iyli ətir muhrim üçün haramdır. Xoş iyli paltar geyinmək və ya (xoş iylə yanaşı olan) rəngləmək, həmçinin buxur vermək də (xüsusi maddələrlə ətirlənmək) haramdır.

Məsələ 219. Xoş ətirdən izi (və ya iyi) qalmış paltarın geyinilməsi muhrimə haramdır.

Məsələ 220. Xoş iyli ətir deyildiyi zaman nəzərdə tutulan şey bədəni, paltarı, xörəyi və bu kimi şeyləri ətirləndirən maddələrdir. Müşk, ənbər, zəfəran və "muhəmmədi, yas və razəqi" kimi tanınmış digər növ ətirlər, bu maddələrin nümunələridir.

Məsələ 221. Xoş iyli sabun, şampun və diş pastasından istifadə etmək ehtiyat-vacibə əsasən caiz deyildir.

Məsələ 222. Gülləri və xalqın xoş qoxu məqsədilə hazırladığı xoş iyli göyərtiləri iyləmək muhrimə haramdır. Göyərtilərin xoş qoxu alınan növləri

ilə (yasəmən, muhəmmədi gülü və başqaları) digərləri arasında heç bir fərq yoxdur.

Məsələ 223. Yeməyin dadını dəyişən, lakin iyinə təsir qoymayan əlavə maddələrlə qarışmış yeməkdən istifadə etməyin muhrim üçün işkalı yoxdur. Amma yemək xoş iyli olmuşdursa, haramdır.

Məsələ 224. Əgər muhrim olan şəxs öz dişlərini xoş iyli pasta ilə yuması və ya xoş iyli yemək yeməsi nəticəsində ağzı xoş iyli olarsa, ehtiyat-vacibə əsasən imkan olan halda həmin xoş iyi aradan qaldırmalıdır. Həmçinin əgər əllərini xoş iyli sabun və ya digər maye ilə yuması nəticəsində o xoş qoxudan əllərində qalarsa, ehtiyata əsasən onu aradan aparması lazımdır.

Məsələ 225. Alma, heyva və nanə kimi xoş iyli meyvə və tərəvəzin yeyilməsi muhrim üçün işkallı deyil. Lakin ehtiyat-vacibə əsasən onu iyləmək olmaz. Xoş iyli meyvələrin suyunu içmək də eyni hökmdədir.

Məsələ 226. Yeyilməli olan xoş iyli yağlar xalqın nəzərində ətir hesab olunmazsa, onları yeməyin işkalı yoxdur. Lakin o yağlar ətir hesab olunsa, ehtiyat-vacibə əsasən onları yemək olmaz.

Məsələ 227. Ehram bağlayacağını bilən şəxs, muhrim olacağı zamana kimi qoxusu qalacaq xoş iyli ətirlərdən ehtiyat-vacibə əsasən istifadə etməməlidir.

Məsələ 228. Pis iydən burnunu tutmaq muhrimə haramdır, lakin bədənin pis iyindən uzaq olmaq üçün sürətli gəzməyin eybi yoxdur.





**Xoş iydən istifadə etmənin kəffarəsi:**

Məsələ 229. Əgər muhrim olan şəxs xoş iyli şeylərdən bir miqdar yeyərsə və ya üzərində öncədən xoş qoxu qalmış paltar geyinərsə, ehtiyat-vacibə əsasən bir qoyun kəffarə verməlidir. Lakin bu iki haldan başqa hallarda xoş iydən istifadə etmənin kəffarəsi yoxdur, lakin ehtiyati-müstəhəbdir.

**Güzgüyə baxmaq:**

Məsələ 230. Muhrim olan şəxsin özünü bəzəmək üçün güzgüyə nəzər etməsi haramdır, lakin başqa bir məqsəddən dolayı güzgüyə baxmağın eybi yoxdur. Məsələn, üzünün yarasını sağaltmaq üçün və ya suyun üzə çatmasına görə maniəni aradan qaldırmaqdan ötəri və yaxud da sürücünün öz arxasındakı maşınları görməsi üçün güzgüyə baxmağının işkalı yoxdur.

Məsələ 231. Güzgü xüsusiyyətinə sahib olan cilalanmış saf cismlərə baxmaq da güzgüyə baxmaq hökmündədir.

Məsələ 232. Tibbi eynəklə əşyalara baxmağın işkalı yoxdur, lakin eynək taxmaq xalqın nəzərində zinət hesab olunarsa, ehtiyat-vacibə əsasən caiz deyil.

Güzgüyə baxmağın kəffarəsi:

Məsələ 233. Güzgüyə baxmağın kəffarəsi yoxdur, lakin özünü bəzəməyə görə güzgüyə baxarsa təlbiyə desin.

**Sürmə çəkmək:**

Məsələ 234. Sürmə çəkməyin 2 forması vardır:

a) Xalqın nəzərində bəzənmək hesab olunan qara və ya hər hansı bir sürmə ilə sürmə çəkmək: əgər bəzənmək qəsdi olarsa haramdır. Hətta bəzən-

mək qəsdi olmasa belə ehtiyat-vacibə əsasən ondan istifadə olunmamalıdır.

b) Qara olmayan və bəzənmə hesab olunmayan sürmə ilə sürmə çəkmək: işkalı yoxdur, lakin onunla bəzənmək qəsdi olarsa, ehtiyata əsasən caiz deyildir.

Məsələ 235. Çarəsizlik halında müalicə məqsədi ilə qara və ya zinət hesab olunan sürmə ilə də gözlərə sürmə çəkməyin işkalı yoxdur.

### Sürmə çəkmənin kəffarəsi:

Məsələ 236. Sürmə çəkmənin kəffarəsi yoxdur, lakin ehram halında haram olan sürmədən çəkilərsə, bri qoyun kəffarə vermək ehtiyati-müstəhəbdir.

### Bəzənmək (zinətlənmək)

Məsələ 237. Ehtiyat-vacibə əsasən muhrim olan şəxs, xalqın nəzərində zinət (bəzənmə) hesab olunan hər bir şeydən (lak və həna kimi) özünü qorumalıdır. İstər özünü bəzəmək qəsdi olsun və ya olmasın, bu işdən qorunulmalıdır.

Məsələ 238. Tükə həna qoymaq və ya rəngləmək özünü bəzəmə hesab olunmazsa və dəri xəstəliyinin dərmanı kimi məqsədlər üzündən olarsa işkalı yoxdur.

Məsələ 239. Ehramdan öncə tükə həna qoymanın və ya rəngləmənin heç bir eybi yoxdur. Hətta ehram vaxtına kimi izi qalacağını bilsə də bu işin birişkalı yoxdur.

Məsələ 240. Ehram halında özünü bəzəmək qəsdi olmadan üzük taxmağın işkalı yoxdur. Məsələn, müstəhəbliyinə görə və ya üzüyü itirməmək üçün və yaxud da təvafın dövrlərini saymaq üçün





üzük taxmanın eybi yoxdur. Lakin özünü bəzəmək qəsdi olarsa, ehtiyat-vacibə əsasən caiz deyil.

Məsələ 241. Zinət əşyası hesab olunmadığı halda muhrim şəxsin adi və ya günəş eynəyindən istifadə etməsində işkal yoxdur.

Məsələ 242. Əgər muhrim qadın özünü bəzəmək qəsdi ilə zinət geyinərsə haramdır, həmçinin ehtiyat-vacibə əsasən özünü bəzəmək qəsdi olmasa belə zinət geyinməməlidir. Lakin ehramdan öncə geyinməyə adət etdiyi zinətləri geyinməsinin eybi yoxdur, amma ərinə və ona məhrəm olan kişilərə öz zinətini göstərməməsi ehtiyati-müstəhəbdir.

### Özünü bəzəmənin kəffarəsi:

Məsələ 243. Qeyd olunmuş bütün hallarda özünü bəzəmənin kəffarəsi yoxdur.

### Bədənə yağ sürtmək:

Məsələ 244. Xoş iyli olmasa belə bədənə yağ sürtmək muhrim olan şəxsə haramdır.

Məsələ 245. Xoş iyli (təbii qoxuya sahib) yağın yeyilməsi, gözəl qoxu verən maddələrlə (ətirlərlə) birgə olmadığı təqdirdə işkalsızdır.

Məsələ 246. Çarəsizlik halında muhrimin xoş iyli və ya xoş qoxu verən maddələrlə qarışmış yağdan istifadə etməsi işkalsızdır. Əgər yağ xoş iyli olarsa, ehtiyat-vacibə əsasən kəffarə vardır.

Məsələ 247. Ehramdan öncə bədənə yağ sürtmənin eybi yoxdur. Əgər yağ xoş iyli deyilsə və ya xoş iyi ehrama qədər aradan gedəcəksə, o yağın izinin bədəndə qalmasının da bir eybi yoxdur.

**Bədənə yağ sürtmənin kəffarəsi:**

Məsələ 248. Əgər muhrim olan bir şəxs agah halda və bilərəkdən öz bədənini xoş iyli yağla yağlayarsa, ehtiyati-vacibə əsasən bir qoyun kəffarə verməlidir. İstər o yağ öz təbii halıyla xoş iyli olsun və ya istərsə də xoş iyli maddələrlə qarışdığına görə ətirli olsun, hökm eynidir. Əgər bu işi bilmədən edərsə, ehtiyati-vacibə əsasən bir fəqiri doydurmalıdır.

**Dırnaq tutmaq:**

Məsələ 249. Dırnağı və ya dırnaqdan bir hissəsini tutmaq muhrimə caiz deyil. İstər qayçı ilə tutsun və ya dırnaqtutan ilə və yaxud da başqa bir vasitə ilə tutsun, hökm eynidir. Lakin çarəsizlik və zərurət halı istisnadır. Məsələn, dırnağının bir hissəsi kəsilərsə və yerdə qalan hissəsi əziyyət verərsə, bu halda yerdə qalan hissəni tutmaq caizdir.

Məsələ 250. Muhrim şəxs başqasının dırnağını kəsə bilər. Həmin şəxsin muhrim olması ilə olmaması arasında fərq yoxdur, lakin muhrim olan digər şəxsin dırnağını kəsməmək ehtiyati-müstəhəbdir.

**Dırnaq kəsmənin kəffarəsi:**

Məsələ 251. Dırnaq tutmanın kəffarəsi bu qayda ilədir:

* Ayaq və ya əlin bir dırnağını tutmaq: bir mud (750 qram) təam.

* İki dırnağı tutmaq: iki mud təamdır. Bu qayda ilə doqquz dırnağa kimi davam edir və hər dırnağa görə bir mud təam düşür.

* Əl və ya ayaqların bütün dırnaqlarını tutmaq: bir qoyundur. Bu hökmdə bütün dırnaqları bir oturmada tutmaqla bir neçə oturmada tutmaq arasında heç bir fərq yoxdur.

* Əl və ayaqlarının bütün dırnaqlarını tutarsa: bir qoyun kifayətdir.





Məsələ 252. Muhrim insanın zərurət olmadan dırnağını tutmasının kəffarəsi öncəki məsələdə qeyd olunduğu kimidir.

Bədənin tükünü təmizləmək:

Məsələ 253. Muhrim olan şəxsə həm öz bədəninin tükünü, həm də muhrim olan və ya olmayan başqa birinin bədəninin tükünü təmizləmək haramdır.

Məsələ 254. Təraş etməklə və ya qayçı ilə tutmaqla və yaxud da hər hansısa başqa bir vasitə ilə tükü təmizləmək haramdır. İstər tük az olsun, istərsə də çox olsun fərqi yoxdur. Hətta tükün bir hissəsini qoparmaq belə caiz deyil.

Məsələ 255. Dəstəmaz, qusl, təyəmmüm və ya bədəni paklamaq zamanında və yaxud da bədənə yapışmış və suyun çatmasına əngəl olan maniəni aradan qaldıran zaman, istəmədən bədənin tükünü qopararsa işkalı yoxdur.

Məsələ 256. Zəruri olduğu təqdirdə bədənin tükünü təraş etmənin və ya qoparmanın işkalı yoxdur.

Məsələ 257. Tükün düşməsinə və ya qanın çıxmasına səbəb olmayacağı halda başı və ya bədəni qaşıtdırmağın ikalı yoxdur.

Məsələ 258. Muhrim bədənindən tükün qopacağını bildiyi halda belə müstəhəb dəstəmaz ala bilər. Dəstəmaz halında bədənindən tük ayrılarsa, kəffarəsi yoxdur.

**Bədəndən tükü təmizləmənin kəffarəsi:**

Məsələ 259. Bədəndən tükü təmizləmənin kəffarəsi bu qayda ilədir:

* Zəruri olmadan başını təraş etdirərsə: bir qoyundur.

* Zəruri olduğuna görə başını təraş etdirərsə: bir qoyun və ya üç gün oruc tutmaq və yaxud da hər biri üçün bir mud (beşdə bir kiloqram) təam olan altı nəfəri doyurmaq

* Əgər iki qolunun altındakı tükləri təmizləyərsə: bir qoyundur.

* Əgər bir qolunun altındakı tükləri təmizləyərsə: ehtiyat-vacibə əsasən bir qoyundur.

* Əgər saqqalının tükündən bir miqdarını və ya bədəninin digər yerindəki tükləri təmizləyərsə: bir ovuc təam fəqirə verilməlidir.

* Əgər səbəbsiz və heç bir ağıllı məqsəd olmadan əlini baş və ya saqqalına sürtmək nəticəsində bir, yaxud bir neçə tük ayrılarsa: bir ovuc təam sədəqə verməlidir.

Məsələ 260. Ehram bağlamış şəxs muhrim olan və ya olmayan digər şəxsin başını təraş edərsə, kəffarəsi yoxdur.

**Bədəndən qan çıxarmaq:**

Məsələ 261. Ehtiyata əsasən muhrim olan şəxsə bədəndən qan çıxarmaq caiz deyildir. İstər damardan qan çəkməklə, istər kəsməklə, istərsə bədəni qaşıtdırmaq və yaxud istərsə də bədəni həcamət etdirməklə (xüsusi şəkildə beldən qan aldırmaq) qan çıxarmaq caiz deyildir. Çarəsizlik halı isə istisnadır.

Məsələ 262. Ehram halında qan çıxmasına səbəb olsa da belə dişləri yumaq caizdir.





Məsələ 263. Ehtiyat-vacibə əsasən muhrim olan şəxs özünə bədəndən qan çıxmasına səbəb olan iynələr vurdurmamalıdır. Zərurət halı istisnadır.

Məsələ 264. Qan çıxmasına səbəb olan ampula iynəsini başqasına vurmağın muhrim şəxs üçün eybi yoxdur. Lakin digər şəxs də muhrim olarsa, qan çıxmasına səbəb olan ampula iynəsini vurmamaq ehtiyati-müstəhəbdir.

Məsələ 265. Ehram halında başqasına qan vermək, ehtiyati-vacibə əsasən caiz deyil. Çarəsizlik halı istisnadır.

Məsələ 266. Əgər muhrim olan şəxs zəruri səbəb olmadan bədənindən qan çıxararsa, ehtiyat-müstəhəbə əsasən bir qoyun kəffarə verməlidir.

**Diş çəkdirmək:**

Məsələ 267. Qan çıxmasına səbəb olmayacaqsa, diş çəkdirmənin və ya kəsmənin haramlığı və kəffarəsi yoxdur.

**Yalan, söyüş və iftixar:**

Məsələ 268. Yalan danışmaq, söyüş söymək və başqalarına nisbət özü ilə fəxr etmək hər bir halda haramdır, lakin ehram halında onların haramlığı daha artıqdır.

Məsələ 269. Əgər bir şəxs digərlərinin müqabilində öz nəsəbi, malı, məqamı və ya bu kimi şeylərlə fəxr edərsə və bununla da bir möminin təhqir və aşağılanmasına səbəb olarsa, haramdır və istər muhrim şəxs olsun, istərsə də olmasın, hökm eynidir. Bundan başqa hallarda nə muhrim, nə də muhrim olmayan şəxsə haram deyil.

**Yalan, söyüş və iftixarın kəffarəsi:**

Məsələ 270. Əgər muhrim olan şəxs yalan danışarsa və başqasını söyərsə və yaxud da başqaları qarşısında fəxr edərsə, istiğfardan başqa kəffarəsi yoxdur. Lakin ehtiyati-müstəhəbə əsasən bir qoyun kəffarə verməlidir.

**Cədəl etmək:**

Məsələ 271. Ehramın muhərramatından biri də cədəldir. Cədəl, müəyyən bir mətləbi isbat və ya inkar etmək üçün Allahın müqəddəs zatına and içməkdir.

Məsələ 272. Cədəlin haramlığı yalnız "Allah" kəlməsi və ərəbcə olması ilə bitmir, əksinə başqa bir dildə də Allaha and içərsə eyni hökmdədir və andından öncə "bəli" və ya "xeyr" kəlmələrini işlədib-işlətməməsi arasında heç bir fərq yoxdur. Yəni "bəli vallah" və ya "xeyr vallah" deməsi şərt deyildir.

Məsələ 273. Allahdan başqa digər müqəddəslərə and içmənin heç bir təsiri yoxdur. İstər bu şəkildə olsun: "Yox öz canıma and olsun" və ya "Bəli öz canıma and olsun". Həmçinin hər hansısa bir şeyi xəbər vermək üçün olmadığı halda da andın təsiri yoxdur. Məsələn, başqasından bir şeyi almaq üçün bu cür and içsə eybi yoxdur: "Səni Allaha and verirəm, onu mənə ver". Həmçinin, müəyyən işi gələcəkdə edəcəyinə və ya etməyəcəyinə dair öz iradə və əzminə təkid etməkdən ötəri and içərsə, eybi yoxdur. Məsələn, belə and içsə eybi yoxdur: "Vallah bu işi edəcəm".

**Cədəlin kəffarəsi:**

Məsələ 274. Cədəlin kəffarəsi bu qayda ilədir:





* 3 dəfə və ya daha çox ardıcıl şəkildə and içərsə: bir qoyundur

* Bir dəfə yalandan and içərsə: bir qoyundur.

* İki dəfə yalandan and içərsə: iki qoyundur.

* Üç dəfə yalandan and içərsə: bir inəkdir.

Məsələ 275. Kəffarə verdikdən sonra and içməyi təkrar etmənin izahlı hökmləri vardır ki, müfəssəl fiqhi kitablarda qeyd olunmuşdur.

**Cima (yaxınlıq):**

Məsələ 276. Ehramın muhərramatından biri də cimadır. Müfrəd və təməttö ümrəsində ehram bağlanandan əməllər qurtarana kimi, həcdə isə nisa təvafına kimi cima etmək muhrimə haramdır.

Məsələ 277. Ehram halında cima etmək bəzi hallarda ümrə və ya həccin batil olmasına səbəb olur və bu haqda izahlı hökmlər müfəssəl fiqhi kitablarda qeyd olunmuşdur.

Məsələ 278. Muhrim olan şəxs məsələni bilmədiyinə görə və ya unutqanlıq üzündən öz zövcəsi ilə yaxınlıq edərsə, həcc və ya ümrəsi batil olmur və kəffarə də ona vacib deyil.

**Cimanın kəffarəsi:**

Məsələ 279. Ehram halında cima etmənin kəffarəsi bu qayda ilədir:

* Təməttö ümrəsinin ehramında cima edərsə: ehtiyat-vacibə əsasən bir dəvə və ya bir inək kəffarə verrməlidir.

* "Məşərul-həramda" vüquf etməmişdən öncə həcc ehramında: bir dəvə kəffarə verəcək. Həccini həmin tamamlayacaq və qəzasını da həyata keçirdəcək.

* Həcc ehramında, "Məşərul-həramda" vüquf etdikdən sonra nisa təvafının 4-cü dövrəsinə kimi cima edərsə: bir dəvə kəffarə verməlidir, lakin həcci batil deyil.

* Müfrəd ümrənin ehramında: bir dəvədir və əgər səydən qabaq olarsa, ümrəsi də batildir və növbəti aya kimi Məkkədə qalması, növbəti ayda beş miqatdan birinə gedib orada yenidən müfrəd ümrə üçün muhrim olması vacibdir. Ehtiyat-vacibə əsasən həmin fasid (batil olmuş) ümrəni də sona çatdırması lazımdır.

**Zövcəsini öpmək:**

Məsələ 280. Muhrim olan şəxsin öz zövcəsini şəhvətlə öpməsi caiz deyildir.

**Zövcəsini öpmənin kəffarəsi:**

Məsələ 281. Zövcəsini öpmənin kəffarəsi bu qayda ilədir:

* Şəhvətlə öpərsə və məni gələrsə: bir dəvədir.

* Şəhvətlə öpərsə, lakin məni gəlməzsə: bir qoyundur.

* Şəhvətsiz öpərsə: ehtiyati-vacibə görə bir qoyundur.

* Muhrim olmayan şəxs öz muhrim zövcəsini öpərsə: ehtiyat-vacibə əsasən bir qoyundur.

**Zövcəsinin bədəninə toxunmaq:**

Məsələ 282. Muhrim olan şəxsə öz zövcəsinə şəhvətlə toxunması və ya onu qucaqlaması və yaxud da qaldırması (uzatması) caiz deyildir, lakin çəhvət üzündən olmazsa haram deyildir.





**Bədənə toxunmanın kəffarəsi:**

Məsələ 283. Əgər şəhvət üzündən zövcəsinin bədəninə toxunarsa bir qoyun kəffarə verməlidir, lakin şəhvətsiz olmuşdursa kəffarəsi yoxdur.

**Şəhvətlə baxmaq və ya mazaqlaşma:**

Məsələ 284. Muhrim olan şəxsə öz məhrəmi ilə şəhvət üzündən mazaqlaşması caiz deyildir.

Məsələ 285. Əgər muhrim olan şəxs öz zövcəsinə şəhvətlə baxmaq nəticəsində məninin gələcəyini bilərsə, ona şəhvətlə baxmamalıdır. Hətta məninin gəlməsinə səbəb olmayacaqsa belə bu cür baxışla ona baxmaması ehtiyati-müstəhəbdir.

**Şəhvətlə mazaqlaşmanın və baxmağın kəffarəsi:**

Məsələ 286. Şəhvətlə baxmağın və ya mazaqlaşmanın kəffarəsi bu qayda ilədir:

* Əgər öz zövcəsi ilə şəhvət üzündən mazaqlaşarsa və məni gələrsə: bir dəvə kəffarə verməlidir. Əgər gücü çatmazsa, bir qoyun kəffarə verməlidir.

* Əgər öz zövcəsinə şəhvətlə baxarsa və məni gələrsə: ehtiyati-vacibə əsasən bir dəvə kəffarə verməlidir.

* Əgər zövcəsindən başqasına caiz olmayan nəzərlə baxarsa və məni gələrsə: ehtiyat-vacibə əsasən maddi durmu yaxşı olduğu təqdirdə bir dəvə kəffarə verməlidir. Əgər maddi durumu normal olarsa bir qoyun və əgər kasıb olarsa, bir qoyun kəffarə verməlidir

* Əgər öz zövcəsinə şəhvətlə baxarsa və məni gəlməzsə: və ya öz zövcəsinə şəhvətsiz baxarsa və məni gələrsə, kəffarə vacib deyil.

**İstimna:**

Məsələ 287. Məninin xaric olması məqsədilə bir iş görmək hər bir halda haramdır, lakin ehram halında onun günahı daha çoxdur və bəzi hallarda həcc və ümrənin də batil olmasına gətirib çıxarır.

Məsələ 288. Ehram halında istimna etmək bir çox yerdə kəffarəyə səbəb olur və barədə müfəssəl fiqhi kitablarda qeyd olunmuşdur.

**İzdivac əqdi:**

Məsələ 289. Muhrim olan şəxsin özü və ya başqası üçün bir qadının əqdini oxuması caiz deyildir. Digər şəxsin muhrim olub-olmaması və yaxud əqdin daimi və ya müvəqqəti olması arasında heç bir fərq yoxdur. Bütün bu hallarda izdivac əqdi də batildir.

Məsələ 290. Ehtiyat-vacibə əsasən izdivac əqdi oxunan məclisdə iştirak etmək də muhrim olan şəxsə caiz deyildir. Həmçinin vaxtilə oxunulmuş əqdə şahidlik etməməsi də ehtiyati-müstəhəbdir.

Məsələ 291. Ehram halında başqasının izdivacına görə elçiliyə getməmək ehtiyati-müstəhəbdir.

**İzdivac əqdinin kəffarəsi:**

Məsələ 292. Əgər muhrim bir kişi üçün bir qadının əqdi oxunarsavə onlar da yaxınlıq edərsə, əqdi oxuyan şəxsin şəri hökmü bildiyi və o kişinin də muhrim olmasından agah olduğu təqdirdə hər üç şəxs, bir dəvə kəffarə verməlidir. Lakin hökmü bilən və agah olmasa, kəffarə vacib deyil. Bu hökmdə əqdi oxuyan şəxsin və qadının muhrim olması ilə olmaması arasında heç bir fərq yoxdur.





**Bədənin canlılarını öldürmək:**

Məsələ 293. Muhrim olan şəxsin (bədənindəki) biti öldürməsi caiz deyildir. Ehtiyati-vacibə əsasən biti bədəndən atmaq da caiz deyildir, lakin onu bir yerdən başqa yerə çəkmənin işkaı yoxdur.

Məsələ 294. Ehtiyati-vacibə əsasən muhrim olan şəxsə bir zərər yetirmədikləri halda milçək, qarışqa, ağcaqanad və birəni öldürmək caiz deyildir. Amma onları qovmaq caizdir və bu işi etməməsi də ehtiyati-müstəhəbdir.

**Bədəndəki canlıları öldürmənin kəffarəsi:**

Məsələ 295. Əgər biti öldürərsə və yaxud onu bədən və ya paltarından atarsa, bir ovuc təam kəffarə vermək ehtiyati-müstəhəbdir.

**Səhra heyvanını ovlamaq:**

Məsələ 296. Səhra heyvanları ilə əlaqədar olan bu işlər muhrimə haramdır:

1) Onları ovlamaq.

2) Onları öldürmək və ya yaralamaq və yaxud da bədən üzvlərindən birini əzmək.

3) Onlara hər hansı bir şəkildə əziyyət vermək və ya çətinlik yaratmaq.

4) Ovçuluq edən şəxsə kömək etmək, hətta işarə etməkvə ya göstərməklə belə olsa, haramdır.

5) Ovlanmış heyvanı öz yanında saxlamaq. Hətta ehramdan öncə ovlanmış olsa da və istər hərəmdə ovlanılsın, istərsə də hərəmdən xaricdə fərqi yoxdur və hökm eynidir.

6) Heyvanı ovlamış şəxs muhrim olmasa da və hərəmdən xaricdə ovlasa da belə o heyvanın ətindən yemək olmaz.

7) İstənilən səhra heyvanını öldürmək. Lakin öncə əhliləşmiş və vəhşi olmuş heyvan istisnadır.

8) Muhrimin qorxduğu və öz canına görə çəkindiyi heyvanlar, məsələn, yırtıcılar, hərəmin göyərçinlərinə əziyyət edən yırtıcıquşlar, zəhərli və zərərli ilanlar, əqrəb və siçan.

Məsələ 297. Səhra heyvanı əsli olaraq (sinif olaraq) vəhşi və qaçaq heyvanlara deyilir. Müəyyən bir səbəblə əhliləşmənin təsiri yoxdur və bu məsələdə əti halal olan heyvanla haram olanının hökmü eynidir.

Məsələ 298. Çəyirtkə də səhra heyvanlarından hesab olunur və ehram halında onu ovlamaq caiz deyildir. Lakin yalnız suda yaşayan balıq və krevet (xırda dəniz xərçəngi) kimi dəniz heyvanlarını ovlamağın işkalı yoxdur.

Məsələ 299. Muhrim olan şəxs çəyirtkələrin ölməsinə səbəb olacaqsa, onların çox olduğu yolla getməməlidir. Əgər başqa yolla getməyi bacarmasa və çəyitkə ölərsə, işkalı yoxdur.

## Ovun kəffarəsi:

Məsələ 300. Müqəddəs islam şəriətində səhra heyvanlarından hər birinin ovu və ya öldürülməsinin kəffarəsi haqqında özünə məxsus hökmlər vardır və bu barədə müfəssəl fiqhi kitablarda qeyd olunmuşdur.

Silah gəzdirmək:

Məsələ 301. Muhrim olan şəxsə silah gəzdirmək caiz deyildir. Əgər silahı öz əlində tutmaqla və ya çantasında daşımaqla və yaxud da özü ilə aparарsa və xalqın nəzərində silahlanmış hesab olunarsa, ehtiyat-vacibə əsasən caiz deyildir.





Məsələ 302. Şəri cəhətdən silah deyiləndə məqsəd, xalqın nəzərində silah hesab olunanlardır. Məsələn, qılınc, nizə, tüfəng və tapança kimi. Lakin özünü qorumaq üçün istifadə olunan zireh, qalxan və bu kimi alətlər silah deyildir.

Məsələ 303. Silahı daşımadan onun muhrimin yanında olmasının işkalı yoxdur. Həmçinin onu daşımaq xalqın nəzərində silahlanmış hesab olunmaqla nəticələnmirsə də eybi yoxdur, lakin bu halda da onu tərk etmək ehtiyat-müstəhəbdir.

Məsələ 304. Muhrim olan şəxsin çarəsizlik halında silahlanmasının işkalı yoxdur. Məsələn, düşmən və oğurluqdan qorxduğu halda muhrimin silah gəzdirməsinin eybi yoxdur.

## Silah gəzdirmənin kəffarəsi:

Məsələ 305. Çarəsizlik halı olmadan silah gəzdirmənin kəffarəsi, ehtiyat-vacibə əsasən bir qoyundur.

## Kişilərə məxsus haramlar:

## Başının üstünü örtmək (kölgələnmək):

Məsələ 306. Başın örtülməsi (kölgələnmə) iki cürdür:

a) Üstü bağlı olan mütəhərrik vasitələrlə: çətir (zontik), maşının tavanı və təyyarə kimi vasitələrlə haramdır. İstər süvari olsun, istərsə də piyada hökm eynidir.

b) Sabit əşyalar vasitəsilə: divarlar, tunellər, ağaclar və dağlar kimi vasitələrlə olarsa, işkalı yoxdur. İstər süvari olsun, istərsə də piyada eybi yoxdur.

Məsələ 307. Mütəhərrik vasitələrlə başın örtülməsi, örtüyün başın üstündə olduğu halda haramdır.

Buna görə də muhrim olan şəxs aram şəkildə öz yolunu getdiyi zaman maşının divarı onun üzərinə kölgə salarsa, işkalı yoxdur. Lakin süvari olarsa və süvari olduğu maşının divarı onun üzərinə kölgə salarsa, ehtiyat-vacibə əsasən bu kölgədən qorunmaq lazımdır. Amma xalqın nəzərində günəş işığı altında qərarlaşmağa əngəl olmayan şəkildə kölgəlik onun üzərinə düşərsə, işkalı yoxdur. Məsələn, muhrimin ətrafında olan şeylər onun sinə və başını örtə bilməyən miqdara kiçik olarsa, eybi yoxdur.

Məsələ 308. Mütəhərrik olan buludun altında hərəkət etmənin bir eybi yoxdur.

### Gecə vaxtı örtük:

Məsələ 309. Yağışlı olmayan gecədə üstü bağlı maşın və ya təyyarə ilə hərəkət etmənin işkalı yoxdur.

Məsələ 310. Sübh azanından gün çıxan vaxta kimi və həmçinin yağıntı olmayan buludlu gündə üstü olan maşına və ya təyyarəyə minməyin və yaxud da çətirdən istifadə etməyin işkalı yoxdur.

Məsələ 311. Əgər muhrim bir kişi üstü açıq olan maşına minərsə və həmin maşının divarları onun sinə və başına kölgə salacaq miqdarda böyük olmazsa, işkalı yoxdur.

Məsələ 312. Günəş işığının parıltısının qarşısını almaq üçün əli başa qoymağın eybi yoxdur, lakin bu işi görməmək də ehtiyat-müstəhəbdir.

Məsələ 313. Muhrimin kölgədə hərəkət etməsi deyildiyi zaman nəzərdə tutulan məqsəd, özünü günəş şüasından qorumasıdır. Lakin özünü külək, isti və soyuqdan qorumasının işkalı yoxdur. Amma yağışın günəş işığı ilə eyni hökmə malik olması ehtiyat-vacibdir. Buna görə də yağış yağmayan gecədə üstü bağlı maşınla və ya bu kimi şeylərlə süvari olmağın işkalı yoxdur.





### Sabit (tərpənməz) məkanda örtük:

Məsələ 314. Başı örtmənin (kölgələnmə) haram olması yalnız hərəkət halına məxsusdur.Buna görə də bir yerdə dayanarsa, işkalı yoxdur. İstər həmin yer öz evi olsun, istərsə də olmasın hökm dəyişməz. Yol boyunca namaz və ya yemək üçün dayanmaq da eyni hökmdədir.

Məsələ 315. Muhrim olan şəxs bir yerdə dayandıqdan sonra o tərəf bu tərəfə getmək istəyərsə, ehtiyat-vacibə əsasən gündüz vaxtı və ya buludlu havada başına kölgə salmamalıdır. Buna görə də muhrim olan şəxs Məkkədə qərarlaşdıqdan sonra təvaf və ya digər əməllər üçün Məscidul-harama gemək istəyərsə, ehtiyat-vacibə əsasən çətir və ya üstü bağlı maşınla hərəkət etməməlidir. Həmçinin muhrim olan şəxs Minada dayandıqdan sonra cəmərata və ya qurbangaha getmək istəsə, bu halda da eyni hökmə əməl etməlidir.

Məsələ 316. Çarəsizlik halında özünü kölgəliyə salmağın qadın və uşaqlar, həmçinin muhrim kişilər üçün də işkalı yoxdur.

### Kölgələnmənin kəffarəsi:

Məsələ 317. Başı kölgələmənin və ya özünü yağışdan qorumağın kəffarəsi bir qoyundur. İstər ixtiyari şəkildə olsun, istərsə də çarəsizlik üzündən baş versin, hökm eynidir

Məsələ 318. Bir ehramda bir neçə dəfə başını kölgəliyə salarsa, bir qoyun kəffarə vermək kifa-

yətdir, lakin hər bir gün üçün kəffarə vermək ehtiyat-müstəhəbdir.

**Başı örtmək:**

Məsələ 319. Muhrim olan şəxsin papaq, çalma, paltar və ya bu kimi şeylərlə başını örtməsi caiz deyildir.

Məsələ 320. Ehtiyat-vacibə əsasən muhrim olan şəxs başını ot və daşınılan yüklə örtməməlidir, lakin çantanın ipini başa keçirmənin eybi yoxdur.

Məsələ 321. Başı dəsmalla və bu kimi şeylərlə xəstəlik üzündən (başağrısı kimi) bağlamağın işkalı yoxdur.

Məsələ 322. Başın hamısını və ya bir hissəsini əllə örtmənin işkalı yoxdur, lakin bu işi görməmək daha yaxşı olar.

Məsələ 323. Bu məsələdə baş deyiləndə nəzərdə tutlan miqdar, tüklərin bitdiyi təbbi yerlərdir və qulaqlar da başın bir hissəsi hesab olunur.

Məsələ 324. Əgər muhrimi bir kişinin başı islanarsa və dəstəmaz almaq istədiyi zaman başının qurumasını gözləməyə imkanı olmazsa, dəsmalın bir tərəfi və ya digər bir parça ilə məsh çəkəcəyi yerin miqdarında quruda bilər. Lakin əli ilə onu qurutması mümkün olsa, başqa bir şeydən istifadə etməməlidir.

Məsələ 325. Ehram halında telefonla danışmağın eybi yoxdur, lakin ehtiyat-vacibə əsasən muhrim kişi telefonun dəstəyini qulağına qoymamalıdır. Əgər qulağın az bir hissəsini tutarsa və ya dəstəyi qulağından aralıda saxlayarsa, işkalı yoxdur.

Məsələ 326. Başı balışa, divara və ya stula qoymağın işkalı yoxdur.

Məsələ 327. Muhrim olan həm qadına, həm də





kişiyə başını bütünlüklə suya batırmaq caiz deyildir. Bu məsələdə baş deyiləndə boyundan yuxarı hissə nəzərdə tutulur. Amma hamamda suyun başa töküldüyü şəkildə duşun altında durmağın eybi yoxdur.

**Başı örtmənin kəffarəsi:**

Məsələ 328. Muhrim olan kişi öz başını örtərsə, kəffarəsi bir qoyundur.

Məsələ 329. Başı örtmənin caiz olduğu və çarəsizlik hesab olunan yerlərdə başını örtərsə, kəffarə vacib deyildir.

Məsələ 330. Əgər muhrim kişi bir ehramda (məs... ümrə və ya həcc ehramında) bir neçə dəfə öz başını örtərsə, bir kəffarə onların hamısı üçün kifayətdir.

Məsələ 331. Əgər muhrim kişi başını tikilmiş bir papaqla örtərsə, ehtiyati-vacibə əsasən iki kəffarə verməlidir. Amma tikilmiş bir şeyi başına atmış olsa, bir kəffarə kifayətdir.

**Çəkmə və corab geyinmək:**

Məsələ 332. Muhrim kişiyə ayağının üstünü bütünlüklə örtən bir şeyi geyinmək (çəkmə və corab kimi) haramdır.

Məsələ 333. Ayağın üstünü bütünlüklə örtməyən və ya onun bir hissəsini örtən ayaqqabıları və ev ayaqqabısını geyinməyin işkalı yoxdur.

Məsələ 334. Corab, çəkmə və bu kimi şeyləri geyinmədən ayağın üstünü bütünlüklə örtməyin bir işkalı yoxdur. Məsələn, ehram paltarını və ya ədyalı və yaxud da başqa bir şeyi ayaqlarının üstünə atmasının eybi yoxdur.

Məsələ 335. Qadınlar üçün çəkmə, corab və bu kimi ayağın üstünü bütünlüklə örtən şeyləri geyinməyin işkalı yoxdur.

**Corab və çəkmə geyinmənin kəffarəsi:**

Məsələ 336. Çəkmə və bu kimi şeyləri geyinmənin kəffarəsi yoxdur.

Məsələ 337. Corab və bu kimi şeyləri geyinməyə görə bir qoyunun kəffarə verilməsi ehtiyata uyğundur.

**Tikilmiş paltar geyinmək:**

Məsələ 338. Muhrim bir kişi düyməli paltar geyinərsə və ya düymənin funksiyasına sahib bir şeyi olan paltarı əyninə keçirib onun düyməsini bağlayarsa, caiz deyildir.

Məsələ 339. Muhrim kişinin zirehi, yaxası və qolu olan paltarı geyinməsi və başının onun yaxasından, əllərini isə qol yerindən çıxarması caiz deyildir.

Məsələ 340. Muhrim kişinin şalvar və şalvar kimi övrəteyni örtən paltarı geyinməsi caiz deyildir. Lakin fitənin tapılmadığı hal istisnadır.

Məsələ 341. Ehtiyat-vacibə əsasən muhrim kişi köynək, qəba, palto və ərəb köynəkləri kimi xalqın arasında yayılmış paltarları geyinməkdən özünü qorumalıdır. Bu cür paltarların düyməli libaslar kimi geyinilməməsi hökmü dəyişmir.

Məsələ 342. Ehram paltarının yalnız çıxıntılarının (kənarlarının) tikili olmasının eybi yoxdur.

Məsələ 343. Kişinin ehram paltarının bir-birinə tikilmiş iki parçadan ibarət olmasının işkalı yoxdur, lakin ehram libasının belə olmaması ehtiyat-müstəhəbdir.





**Tikilmiş həməyan (uzun toqqa):**

Məsələ 344. Muhrim kişi üçün tikili olmasına baxmayaraq pul kisəsini (həməyanı) belinə bağlaması caizdir.

Məsələ 345. Tikilmiş çantanı və ya rəmy daşlarını daşıyan kisəni boyundan sallamağın işkalı yoxdur.

**Yuxu örtüyü:**

Məsələ 346. Muhrim üçün başından başqa bədəninin digər yerlərini yatdığı halda və yaxud digər hallarda yorğan və bu kimi tikili şeylərlə örtməsi caizdir.

**Ayaqqabı və ya tikilmiş ev ayaqqabısı:**

Məsələ 347. Ayağın üstünü bütünlüklə örtməyəcəyi təqdirdə tikilmiş ayaqqabı və ya ev ayaqqabısını geyinməyin işkalı yoxdur.

**Ehram libasını düyünləmək:**

Məsələ 348. Ehtiyat-vacibə əsasən muhrim kişi öz fitəsinə düyün vurmamalıdır və həmçinin onun bir hissəsinini digərinə düyünləməməlidir. Hətta ona bir iynə belə batırmamalıdır.

Məsələ 349. Ehtiyat-vacibə əsasən muhrim kişi rədasına düyün vurmamalıdır, lakin ona iynə batırmaq və ya bu kimi şeylər etmək işkalı yoxdur.

Məsələ 350. Qadın muhrimlərə istənilən keyfiyyətə malik tikili paltar geyinməyin işkalı yoxdur, lakin əlcək geyinmək onlara caiz deyildir.

**Tikilmiş paltar geymənin kəffarəsi:**

Məsələ 351.Əgər muhrim geyinilməsi haram olan paltarı əyninə keçirərsə, bir qoyun kəffarə verməlidir.

Məsələ 352. Əgər muhrim şəxs çarəsizlik üzündən geyinilməsi haram olan paltarı əyninə keçirərsə, ehtiyat-vacibə əsasən bir qoyun kəffarə verməlidir.

Məsələ 353. Əgər muhrim şəxs geyinilməsi haram olan paltarı bir neçı dəfə əyninə keçirərsə, hər dəfəyə görə həmin sayda kəffarə verməlidir. Həmçinin bir dəfədə bir neçə paltarı geyinərsə (məs... bir neçə paltarı bir-birinin içinə keçirib bir dəfədə əyninə geyinsə) və bu libasların növü fərqli olarsa, hər paltara görə kəffarə verməlidir. Paltarların növü eyni olduğu halda da ehtiyat-vacibə əsasən onların sayı qədər kəffarə verməlidir.

## Qadınların üzünü örtməsi:

Məsələ 354. Muhrim qadının çadra, niqab, yelpik və bu kimi şeylərlə üzünü örtməsi caiz deyildir və ehtiyat-vacib budur ki,heç bir vasitə ilə üzünü örtməsin.

Məsələ 355. Ehtiyata əsasən qadının üzünün bir hissəsini örtməsi də caiz deyildir.

Məsələ 356. Aşağıdakı hallarda üzü örtmənin muhrim qadınlar üçün işkalı yoxdur:

* Əli ilə, lakin günəş işığından əli ilə üzünü örtməmək ehtiyat-müstəhəbdir.

* Yatdığı zaman

* Namaz zamanı başını kamil bağladığına əmin olmaq üçün üzünün kənarlarını örtmək icazəlidir. Lakin bu halda başında olan örtüyün üz tərəfini açmağın mümkün olmaması şərtdir. Əgər o miqdarı açmağı bacararsa, bu işi etməlidir.

* Naməhrəmdən üzünü bağlamaq qəsdi ilə bu cür örtərsə: başında olan çadra və ya başqa bir şeyi burnunun altına kimi örtən şəkildə üzünə atsın. Hətta boynuna kimi atarsa da işkalı yoxdur və ehtiyat-müstəhəb olmasına baxmayaraq bu örtüyü əli ilə və ya başqa bir vasitə ilə üzündən bir az aralıda saxlaması lazım deyildir.





Məsələ 357. Ehtiyat-vacibə əsasən muhrim olan qadın, üzü bütünlüklə və ya onun bir hissəsini örtdüyü üçün dəsmal və bu kimi şeylərdən üzünü qurutmaq zamanı istifadə etməməlidir.

Məsələ 358. Yatmaq üçün üzü balışa və bu kimi şeylərə qoymağın işkalı yoxdur.

## Maskadan istifadə:

Məsələ 359. Üzün bir hissəsini örtdüyünə görə ağız və buruna maska taxmaq, ehtiyat-vacibə əsasən qadın muhrimlərə caiz deyildir. Üzün bəzi hissəsinin örtülməsi, ehtiyat-vacibə əsasən üzün bütünlüklə örtülməsi kimidir. Çarəsizlik halı isə istisnadır.

Məsələ 360. Muhrim kişinin maska taxması pis iydən burnunu tutmağa səbəb olmazsa və ya müəyyən qoxu ilə rastlaşdığı zaman onu çıxarmaq mümkün olmasa, işkalı yoxdur.

## Eynəkdən istifadə:

Məsələ 361. Gözü və onun ətrafını örtdüyünə görə böyük tüstü eynəklərindən istifadə etmək, ehtiyat-vacibə əsasən qadın muhrimlərə caiz deyildir.

Məsələ 362. Ehtiyat-müstəhəbbə əsasən üzü örtmənin kəffarəsi bir qoyundur.

Məsələ 363. Əgər muhrim qadın bir ehramda (ümrə və ya həcdə) bir neçə dəfə üzünü örtərsə, bir kəffarə kifayətdir.

## Məkkə Hərəminin haramları:

Məsələ 364. Məkkə şəhəri və onun ətrafında müəyyən olunmuş hüdudlara qədər əhatə olunan ərazi "Hərəm" adlanır. Hərəmin özünə məxsus hökmləri və ehtiramı vardır.

Məsələ 365. Hərəmin şimal tərəfdən sərhədi "Tənim" adlanan məkandır və qərb tərəfdən isə "Hudeybiyyə" və ya Şumeysi" adlanan ərazidir. Şərq tərəfdən "Ərəfatın" müqabilində yerləşən "Nəmirə" adlı yerdir və cənub-şərq tərəfdən də "Cəərane" adlanan məkandır. Cənub-qərb tərəfdən isə "Əzaəhu ləbən" isimli ərazidir.

Məsələ 366. İndiyə kimi sadalanmış və hökmləri bəyan olunmuş haramlar muhrimə məxsus işlər idi, lakin Hərəmə aid olan və "Hərəmin muhərramatı" adlanan bir neçə əməl də vardır ki, onları həyata keçirmək həm muhrimə, həm də muhrim olmayan şəxsə haramdır. Onlar aşağıdakılardan ibarətdir:

1) Səhra heyvanını ovlamaq

2) Hərəm ərazisində bitmiş ağac və ya başqa bir şeyi kəsmək (qoparmaq)və ya biçmək.

3) Hərəmdən kənarda cinayət törədib Hərəmə pənah gətirmiş şəxsə orada şəri hədd kəsmək və ya qisas almaq və ya təzir etmək (cəzalandırmaq).

Məsələ 367. Hərəmin ağac və ya bitkilərini kəsmək və ya qoparmağın haram olması bir neçə yerdə istisnadır və onlar aşağıdakılardır:

1) "İzxir" adlı bitkini kəsmək.

2) Xurma və ya meyvə ağacı.

3) İnsanın özünün əkdiyi ağacı və ya otu kəsməsi. İstər başqasının mülkündə əkmiş olsun, istərsə də öz mülkündə əksin, hökm eynidir.





4) İnsanın evində və mənzilində olan ot və ya ağacları kəsməsi, həmçinin insan həmin evdə məskunlaşandan sonra bitmiş şeyləri kəsməsi. Lakin orada məskunlaşmamışdan qabaq bitmiş olarsa, onları kəsmək və ya qoparmaq caiz deyildir.

Hərəmin bitki və ağacını kəsmək və ya qoparmaq kəffarəsi:

Məsələ 368. Hər ağacı qoparmağın kəffarəsi o ağacın qiyməti qədərdir və ondan bir hissəsini kəsməyin kəffarəsi isə o hissənin qiyməti miqdarındadır.

Məsələ 369. Hərəmin bitkisini qoparmaq və ya kəsməyin kəffarəsi yoxdur.

## Günahkarı hərəmdə cəzalandırmaq:

Məsələ 370. Əgər bir şəxs Hərəmdən kənarda cinayət törədib Hərəmə pənah gətirərsə, ona hədd, qisas və ya təzir icra olunmur. Lakin ona su və ya xörək vermək caiz deyildir. Onu çarəsiz hala gətirib Hərəmdən çıxarmaq və cəzalandırmaq üçün onunla söhbət və alış-veriş olunmalıdır və yaxud da ona pənah və bir yer verilməlidir.

## Hərəmdə tapılmış əşya:

Məsələ 371. Hərəmdə tapılmış əşyanı götürmək şiddətli məkruhdur və əgər bir kəs onu taparsa, vəzifəsi aşağıdakı qaydaya uyğundur:

a) Əgər sahibini tapıb ona çatdırmaq üçün bir əlaməti olmazsa: onun qiymətinin bir dirhəmdən çox və ya az olmasına baxmayaraq onu özünə götürə bilər.

b) Əgər sahibini tapıb ona çatdırmaq üçün bir əlaməti olarsa: məsələnin iki forması vardır:

1) Onun qiyməti bir dirhəmdən aşağı olsa: sahibini tapmaq üçün xalqa elan etməsi vacib deyildir, əksinə ehtiyat-vacibə əsasən onu sahibi tərəfindən sədəqə versin.

2) Onun qiyməti bir dirhəm ətrafı və ya ondan daha çoxdur: sahibini tapmaq üçün tam bir il boyunca elan etməsi vacibdir və əgər sahibi tapılmazsa, ehtiyat-vacibə əsasən onu sahibi tərəfindən sədəqə verin.

**Mədinə Hərəminin haramları:**

Məsələ 372. Məkkə Hərəmində qeyd olunan izahlara uyğun olaraq Mədinə Hərəmində də olan ağacları kəsmək caiz deyildir.

Məsələ 373. Ehtiyat-vacibə əsasən Mədinə Hərəmində də ov etmək hər bir halda caiz deyildir.

Məsələ 374. Mədinə Hərəminin sərhədləri Air dağlarından Vəir dağlarına kimi və Hirrə sənglaxasından (Vaqim) Hirrəyə (Leyli) qədərdir.

**Hərəm və ehramın haramlarındakı kəffarənin əhkamı:**

Məsələ 375. Əgər muhrim bir şəxs ehramın muhərramatından birini məsələni bilmədiyinə görə və ya unutqanlıq üzündən həyata keçirərsə, kəffarəsi yoxdur. Lakin aşağıdakı hallar istisnadır:

1) Ovu öldürmək və onun ətini yemək.

2) Səbəbi olmadan əlini başına və ya saqqalına çəkməklə bir və ya bir neçə tükün düşməsinə səbəb olsa.

3) Həccin və ya ümrənin təvafını unudub öz vətəninə qayıtsa və öz zövcəsi ilə yaxınlıq etdikdən sonra xəbərdar olsa (yadına düşsə).





4) Təməttö ümrəsində səyin bir miqdarını unutsa və əməlləri tamam etdiyi zənni ilə ehramdan çıxsa.

**Kəffarə heyvanını kəsməyin yeri:**

Məsələ 376. Müfrəd ümrənin ehramında vacib olmuş kəffarə heyvanını kəsməyin məkanı Məkkəyi-mükərrəmədir.

Məsələ 377. Həcdə və təməttö ümrəsinin ehramında ov etmək səbəbi ilə kəffarə heyvan vacib olarsa, onu kəsməyin məkanı Mina torpağıdır və ehtiyat-vacibə əsasən ehramın digər haramlarını da (kəffarələrini) Minada kəsməlidir.

Məsələ 378. Muhrim şəxs boynuna vacib olmuş kəffarəni (üzrlü və ya üzrsüz səbəbdən) qayıtdığı zamana kimi Məkkə və ya Minada kəsməzsə, sonradan istədiyi yerdə kəsməsi caizdir.

**Kəffarələrin məsrəfi:**

Məsələ 379. Muhrim şəxs boynuna vacib olmuş kəffarələri fəqirlərə və yoxsullara sədəqə verməlidir. Ehtiyat-vacibə əsasən kəffarə verən şəxs, o şeydən yeməməlidir və əgər yesə, ehtiyat-vacibə əsasən yediyi şeyin miqdarında fəqirlərə sədəqə versin.

Məsələ 380. Kəffarə kimi fəqirə verdiyi şeyin nə olduğunu ona bildirmək vacib deyildir, lakin başqa bir şey olduğunu demək də caiz deyildir.

Məsələ 381. Başqasının naibi kimi həcc və ümrə edən şəxsə kəffarə vacib olarsa, kəffarəni verdiyi zaman onun naibliyi niyyətini etməsi lazım deyildir, əksinə öz niyyəti ilə həyata keçirəcəkdir.

Məsələ 382. Həccin qurbanlığı[1] üçün lazım olan şərtlər kəffarə kimi kəsilən heyvanda şərt deyildir, lakin o şərtlərə riayət etmək kəffarədə də ehtiyat-müstəhəbdir.

**Hərəmə daxil olmanın müstəhəbləri:**

Məsələ 383. Hərəmə daxil olan zaman bir neçə əməl müstəhəbdir:

1) Hərəmə çatdığı zaman piyada olsun və Hərəmə daxil olmaq üçün qusl etsin.

2) Hərəmə daxil olduğu zaman Allah qarşısında təvazö və bəndəlik üçün ayaqlarını çılpaq etsin və ayaqqablarını əlində tutaraq Hərəmə daxil olsun.

3) Hərəmə daxil olduğu zaman bu duanı oxusun: “Allahummə innəkə qultə fi kitabikə və qovlukəl-həqq: “Və əzzin fin-nasi bil-həcci yətukə ricalən və əla kulli zamirin yətinə min kulli fəccin əmiq. Allahummə inni ərcu ən əkunə mimmən əcabə dəvətək, və qəd citu min şuqqətin bəidətin və fəccin əmiqin samiən linidaikə və mustəcibən ləkə mutiən liəmrikə və kulu zalikə bifəzlikə aləyyə və ihsanikə iləyyə, fələkəl-həmdu əla ma vəffəqtəni ləhubtəği bizalikəz-zulfətə indəkə vəl-qurbətə iləykə vəl-mənzilətə lədəyk vəl-məğfirətə lizunubi vət-tovbətə aləyyə minha bimənnik, Allahummə salli əla Muhəmmədin və ali Muhəmməd və hərrim bədəni ələn-nar və aminni min əzabikə və iqabikə birəhmətikə ya ərhəmər-rahimin”.

**Məkkəyə daxil olmanın müstəhəbləri:**

Məsələ 384. Məkkə şəhərinə daxil olmaq istəyən şəxsə aşağıdakı əməllər müstəhəbdir:

[1] [1]Həcc qurbanını şərtləri qarşıda gələcək.





1) Məkkə şəhərinə daxil olmamış qusl etsin.

2) Vüqarla və aram halda daxil olsun.

3) Mədinədən gəldiyi zaman Məkkənin üst tərəfindən daxil olsun və getmək istədiyi zaman Məkkənin aşağı tərəfindən xaric olsun.

**Məscidul-hərama daxil olmağın müstəhəbləri:**

Məsələ 385. Məscidul-hərama daxil olan zaman aşağıdakı əməllər müstəhəbdir:

1) Ayaqyalın, vüqar və xüşu ilə aram halda daxil olsun.

2) Məscidul-hərama daxil olanda dayansın və desin:

“Əs-səlamu aləykə əyyuhən-nəbiyyu və rəhmətullahi və bərəkətuh, bismillahi və billahi və ma şaəllah, əs-səlamu əla ənbiyaillah və rusulih, əs-səlamu əla rəsulillah, əs-səlamu əla İbrahimə xəlilillah, vəl-həmdu lillahi rəbbil-aləmin”.

3) Məscidul-hərama daxil olub Kəbə ilə üzbəüz dayansın və əllərini göyə qaldırıb belə desin:

“Allahummə inni əsəlukə fi məqami haza və fi əvvəli mənasiki ən təqbələ tövbəti və ən tətəcavəzə ən xətiəti və ən təzəə ənni vizri, Əl-həmdu lillahilləzi bəlləğəni bəytəhul-həram. Allahummə inni əşhədu ənnə haza bəytukəl-həram, əlləzi cəəltəhu məsabətən linnas və əmnən mubarəkən və hudən lilaləmin. Allahummə inni əbdukə vəl-bəlchange bəldukə vəl-beytu beytukə citu ətlubu rəhmətəkə və əummu taətəkə mutiən liəmrikə raziən biqədərik, əsəlukə məsələtəl-fəqiri iləykəl-xaifi liuqubətik, Allahummə əftəh li əbvabə rəhmətikə vəstəmilni bitaətikə və mərzatik”.

Başqa bir hədisdə gəlmişdir ki, Məscidul-həramın yanında dayansın və desin:

"Bismillahi və billahi və minəllahi və iləllah və ma şaəllah və əla milləti rəsulillah sallallahu aleyhi və alih, və xeyrul-əsmai lillah, vəl-həmdu lillahi vəs-səlamu əla rəsulillah, əs-səlamu əla Muhəmmədibni Əbdullah, əs-səlamu əleykə əyyuhən-nəbiyyu və rəhmətullahi və bərəkatuh, əs-səlamu əla ənbiyailillahi və rusulih, əs-səlamu əla xəlilillahir-rəhman, əs-səlamu aləl-mursəlin vəl-həmdu lillahi rəbbil-aləmin, əs-səlamu aləyna və əla ibadillahis-salihin. Allahummə salli əla Muhəmmədin və ali Muhəmməd və barik əla Muhəmmədin və ali Muhəmməd vərhəm Muhəmmədən və alə Muhəmməd kəma salləytə və barəktə tərəhhəmtə əla İbrahimə və alə İbrahim, innəkə həmidun məcid. Allahummə salli əla Muhəmmədin və ali Muhəmməd əbdikə və rəsulik. Allahummə salli əla İbrahimə xəlilikə və əla ənbiyaikə və rusulikə və səllim aləyhim və səlamun aləl-mursəlin vəl-həmdu lillahi rəbbil-aləmin. Allahummə əftəh li əbvabə rəhmətikə vəstəməlni fi taətikə və mərzatik, vəhfəzni bihifzil-imani əbədən məbqəytəni cəllə sənau vəchik, əl-həmdu lillahilləzi cəələni min vəfdihi və zuvvarihi və cəələni mimmən yəmuru məsacidəh, və cəələni mimmən yunacih, Allahummə inni əbdukə və zairukə fi beytikə və əla kulli mətiyyin həqqun limən ətahu vəzarəh, və əntə xəyrun mətiyyin və əkrəmu məzurin fəəsəlukə ya Allah ya Rəhman biənnəkə əntəllah la ilahə illa əntə vəhdəkə la şərikə ləkə biənnəkə vahidun əhədun samədun ləm yəlid və ləm yuləd və ləm yəkun ləhu kufuvən əhəd və ənnə Muhəmmədən əbdukə və rəsulukə sallallahu aləyhi və əla əhli-beytih, ya Cəvadu ya Kərim ya Macidun ya Xəbbar ya Kərim, əsəlukə ən təcələ tuhfətəkə iyyayə biziyarəti iyyakə əvvələ şəyin tutiyəni fəkakə rəqəbəti minən-nar".





Sonra 3 dəfə desin:

"Allahummə fukkə rəqəbəti minən-nar"

Sonra deyilir:

"Və əvsi aləyyə min rizqikəl-həlalət-tayyib vədrə ənni şərrə şəyatinil-cinni vəl-insi və şərrə fəsəqətil-ərəbi vəl-əcəm"

Həcərul-əsvədin müqabilinə çatdığı zaman belə deməsi müstəhəbdir:

"Əşhədu ənla ilahə illəllah vəhdəhu la şərikə ləh, və ənnə Muhəmmədən əbduhu və rəsuluh, Aməntu billahi və kəfərtu bil-cibti vət-tağuti vəl-lati vəl-uzzi və biibadətiş-şeytan və biibadəti kulli niddin yuda min dunillah".

Sonra Həcərul-əsvədə tərəfə gedib onu istilam etsin və desin:

"ƏL-həmdu lillahilləzi hədana lihaza və ma kunna linəhtədiyə ləv la ən hədanallahi subhənallah vəl-həmdu lillahi və la ilahə illəllah vəllahu əkbər, Allahu əkbəru min xəlqihi vəllahu əkbəru mimməxşa və əhzər, la ilahə illəllahu vəhdəhu la şərikə ləh, ləhul-mulku və ləhul-həmd yuhyi və yumitu və yumitu və yuhyi və huvə həyyun la yumitu biyədihil-xəyr və huvə əla kulli şəyin qadir".

Peyğəmbər (s) və ailəsinə salavat göndərsin və Peyğımbərə (s) salam versin. Məscidul-hərama daxil olanda da salavat deyib salam versin və o vaxt desin: "İnni uminnu bivədikə və ufi biəhdik".

Səhih bir hədisdə İmam Sadiqdən (ə) belə gəlmişdir: "Həcərul-əsvədə çatdığın zaman əllərini qaldır və həmd və ilahi səna et. Peyğəmbərə (s) salavat

göndər və səndən qəbul etməsini aləmin rəbbindən istə. Sonra o daşı istilam et və onu öp, əgər öpmək mümkün olmazsa əlinlə onu istilam et və bu da mümkün olmazsa, ona işarə et və de:

"Allahummə əmanəti əddəytuha və misaqi təahədtuhu litəşhədəli bil-muvafah, Allahummə təsdiqən bikitabikə və əla sunnəti nəbiyyikə səlavatukə aləyhi və alih, əşhədu ən la ilahə illəllah vəhdəhu la şərikə ləh, və ənnə Muhəmmədən əbduhu və rəsuluh, Aməntu billahi və kəfərtu bil-cibti vət-tağuti vəl-lati vəl-uzzi və ibadətiş-şeytani və ibadəti kulli niddin yuda min dunillah"

Əgər hamısını oxuya bilməsən, bir hissəsini oxu və de:

"Allahummə iləykə bəsəttu yədi və fima indəkə əzumət rəğbəti, fəqbəl subhəti vəğfirli vərhəmni, Allahummə inni əuzu bikə minəl-kufri vəl-fəqri və məvaqifil-xizyə fid-dunya vəl-əxirah".



# Dördüncü fəsil

# TƏMƏTTÖ ÜMRƏSİNİN ƏMƏLLƏRİ:

**Təvaf**
**Namaz**
**Səy**
**Təqsir**

**Təvaf:**

Məsələ 386. Təməttö ümrəsinin ikinci vacib əməli Allah evinin təvafıdır və onun qarşıda bəyan olunacaq şəkildə özünə məxsus şərtləri və vacib əməlləri vardır.

**Təvafın şərtləri:**

Məsələ 387. Təvafda bir neçə şərt vardır:
* Niyyət * Təharət * Xitan * Örtük

**Niyyət:**

Məsələ 388. Kəbənin ətrafında dövr etmək təvaf qəsdi ilə olmalıdır və həmçinin hansı təvafı yerinə yetirdiyinə də diqqət etməlidir (məs... ümrə təvafıdır və ya həcc təvafı). Eyni zamanda öz üçün və ya başqası tərəfindən yerinə yetirdiyini də nəzərdə saxlamalıdır. Ən mühim olan isə təvafı ilahi əmrə görə xuzu ilə və Allaha bəndəçiliklə Onun müqabilində həyata keçirməlidir.

**Təharət:**

Məsələ 389. Təvaf edən şəxs təharətli olmalıdır. Yəni boynunda qusl olmamalı və dəstəmazlı olmalıdır. Əgər onun boynunda qusl vacib olarsa və ya dəstəmazsız halda Kəbəni təvaf edərsə, batildir. İstər bu işi bilərəkdən etmiş olsun, istər məsələni bilmədiyinə görə və ya istərsə də unutqanlıq üzündən etsin, hökm eynidir.

Məsələ 390. Əgər mükəlləf üzrlü səbəbə görə dəstəmaz ala bilməzsə və ya boynunda qusl olduğu halda onu icra etməyə imkanı olmazsa, təvaf üçün təyəmmüm etməlidir.





Məsələ 391. Üzürlü səbəbə görə cəbirə dəstəmazı alan və ya başqasının köməyi ilə dəstəmaz alan şəxs, elə həmin keyfiyyətlə dəstəmaz alıb təvaf edərsə səhihdir.

Məsələ 392. Öz idrar və mədfusunu saxlaya bilməyən şəxs, özünə məxsus təharətlə kifayətlənə bilər. Lakin özünü mədfudan saxlaya bilməyən şəxs üçün ehtiyat-müstəhəbdir ki, özü dəstəmaz alaraq təvafı edib təvaf namazını qılmaqdan əlavə başqa birini də onun tərəfindən təvaf və təvaf namazını yerinə yetirmək üçün naib tutsun.

Məsələ 393. Müstəhəb təvafda hədəsi-əsğərdən (dəstəmazı vacib edən hadisələr) təharətli olmaq şərt deyildir, lakin ehtiyat-vacibə əsasən hədəsi-əkbərdən (quslu vacib edən hadisələr) təharətli olmaq şərtdir. Buna əsasən müstəhəb təvaf dəstəmazsız da səhihdir, lakin təvaf namazı təharətli qılınmalıdır.

**Təvaf əsnasında hədəsin baş verməsi:**

Məsələ 394. Təvaf əsnasında dəstəmazı batil edən və ya qusla səbəb olan bir hədəs baş verərsə, məsələnin bir neçə forması vardır:

1) Dördüncü dövrü tamamlamamış baş verərsə: təvaf batildir.

2) Dördüncü təvafı edəndən sonra ixtiyarsız olaraq bir hədəs baş verərsə: təvafı saxlamalı və təharəti icra edəndən sonra qaldığı yerdən təvafı sona çatdırmalıdır. Əgər hədəs öz ixtiyarı ilə baş versə, ehtiyata əsasən təvafı saxlayıb təharəti icra etməli və təvafı sona çatdırmalıdır, sonra bir daha təvaf etməlidir (təvafı iadə etməlidir).

**Təharətsiz təvaf:**

Məsələ 395. Əgər təvafı yerinə yetirdikdən sonra təharətsiz olduğunu və yaxud dəstəmaz və ya qüslunun batil olduğunu anlayarsa, təvafı batildir və bir daha yerinə yetirməlidir.

Məsələ 396. Əgər bir kəs cənabət və ya məssimeyyit kimi vacib quslu unudaraq təvaf edərsə, təvafı batildir və belə şəxsin hökmü təvafı unutmuş şəxsin hökmü kimidir.

**Təharətli olmaqda şəkk:**

Məsələ 397. Təvaf edən şəxsin təharətli olmağında etdiyi şəkkin aşağıdakı izahlarla bir neçə forması var:

* Təvafdan öncə dəstəmaz alıb-almamağında və ya boynunda olan quslu yerinə yetirib-yetirməməkdə şəkk edərsə: təvaf üçün təhatəri icra etməlidir.

* Öncədən təharətli idi və ondan hədəsin baş verib-verməməsində şəkk etsə: təharətli olduğuna hökm edəcək və yenidən təharəti icra etmək lazım deyildir. Bu hökm təvafdan öncə və təvaf əsnasının hər ikisinə şamildir.

* Öncədən təharətli olub-olmadığını bilməyən halda və təvaf əsnasında hədəs baş verərsə: dördüncü dövrü tamamlamamışdırsa, təharəti icra etməli və təvafı əvvəldən başlamalıdır. Əgər dördüncü dövrü sona çatdırmışdısa, təharəti icra etməli və qaldığı yerdən təvafı həyata keçirməlidir.

* Təvafı tamamladıqdan sonra təvaf əsnasında təharətli olub-olmadığında şəkk edərsə: öz şəkkinə etina etməməlidir. Lakin təvafı yenidən yerinə yetirməsi ehtiyat-müstəhəbdir. Amma təvaf namazı üçün təharəti icra etməlidir.





**Haizin (üzrlü qadının) vəzifəsi:**

Məsələ 398. Əgər qadının muhrim olandan qabaq və ya sonra və təvafdan öncə aylıq adəti başlayarsa, onun vəzifəsi aşağıdakı qayda ilədir:

a) Adət günlərinin qurtarmağını gözləmək və ümrənin əməllərini zilhiccənin doqquzuncu gününün zöhründən qabaq yerinə yetirmək üçün kifayət qədər fürsəti olsa, səbr edib gözləməlidir və pak olandan sonra qusl edib ümrə əməllərini yerinə yetirməlidir.

b) Kifayət qədər fürsəti olmazsa: yəni onun adət vaxtı həccin əməllərinin zamanının çatması ilə qurtaracaqsa, bu halda məsələnin iki forması vardır:

1) Ehramdan qabaq və ya muhrim olduğu zaman adəti başlayarsa, onun vəzifəsi təməttö həccindən ifrad həccinə keçir. Yəni ifrad həccini yerinə yetirməlidir və imkan olduğu təqdirdə ondan sonra müfrəd ümrəni həyata keçirsin.

2) Təməttö ümrəsi üçün muhrim olduqdan sonra onun adəti başlayarsa, bu halda təməttö ümrəsinin təvaf və təvaf namazından başqa digər əməllərini yerinə yetirə bilər. Yəni səy və təqsiri yerinə yetirsin, ondan sonra həcc ehramı üçün muhrim olsun və Minanın əməllərini həyata keçirib Məkkəyə qayıtdıqdan sonra həcc təvafını etməmişdən öncə ümrə təvafını etsin və namazını qılsın. Lakin bu halda da ifrad həccinə üdul etmək (keçmək) ehtiyat-müstəhəbdir.

Məsələ 399. Əgər qadın təməttö ümrəsi üçün muhrim olduqdan sonra haiz olarsa və heyzinin davam etməklə Mina əməllərindən sonra belə təvaf etmək üçün imkanının olmayacağını bilərsə (karvanın qayıtması səbəbi ilə olsa da), təməttö ümrəsinin təvafı və təvaf namazı üçün naib tutmalıdır. Naib

təvaf və təvaf namazını yerinə yetirdikdən sonra o qadın özü səy və təqsiri həyata keçirməlidir.

**Eharmdan sonra heyz olmaq:**

Məsələ 400. Qadının ehramdan sonra heyz olmasının bir neçə halı vardır:

1) Əgər qadın təvafdan öncə heyz olarsa, 398 və 399-cu məsələlərdə qeyd olunan hökmlərə əməl etməlidir.

2) Əgər qadın təvaf əsnasında heyz olarsa, məsələnin iki forması vardır:

a) Dördüncü dövrü tamamlamamışdan qabaq olsa: təvafı batildir.

b) Dördüncü dövrü tamamlamamışdan qabaq olsa: həyata keçirdiyi miqdar səhihdir və yerdə qalan hissəni adət günləri sona çatdıqdan sonra qusl edib yerinə yetirməlidir. Birinci təvafı yerinə yetirdikdən sonra onu yenidən etməsi ehtiyat-müstəhəbdir. Bu deyilən hökm vaxtın geniş olduğu hala aiddir. Lakin fürsət yoxdursa, həccin vaxtından qabaq pak olmayacaqsa və yaxud pak olacağı təqdirdə belə ümrə əməllərini yerinə yetirməyə imkanı olmayacaqsa, səy və təqsiri etməlidir və Minadan qayıtdıqdan sonra həcc təvafını etməmiş ümrə təvafının yerdə qalan hissəsini qəza etməlidir.

3) Əgər qadın təvafdan sonra və təvaf namazından öncə heyz olarsa, təvafı səhihdir və adət günləri qurtardıqdan sonra qusl edib təvaf namazını qılmalıdır. Vaxtın az olduğu halda isə səy və təqsiri yerinə yetirməli və təvaf namazını Minadan qayıtdıqdan sonra həcc təvafını həyata keçirməmiş qılmalıdır.

4) Təvaf və təvaf namazından sonra heyz olduğunu anlasa, lakin təvaf namazından sonra və ya təvaf əsnasında və yaxud namaz əsnasında və yaxud da təvafdan öncə heyz olduğunu bilməzsə, təvaf və namazı səhihdir. Amma təvaf namazı əsnasında və ya ondan öncə heyz olduğunu anlasa, qıldığı namaz səhih deyil.





Məsələ 401. Əgər qadın təvaf halında olarkən heyz olmağa başlayarsa, təvafı saxlayıb dərhal Məscidul-həramdan çıxması və öncəki məsələdə qeyd olunmuş vəzifəsinə uyğun əməl etməsi vacibdir.

Məsələ 402. Əgər qadın təməttö ümrəsi üçün ehram bağladıqdan sonra ümrə əməllərini yerinə yetirməyə imkanı olduğu və əməlləri təxirə salacağı halda adət günlərinin başlayacağını və vaxtın azlığına görə ümrə əməllərini yerinə yetirməyi bacarmayacağını bildiyi təqdirdə əməlləri yerinə yetirməzsə və adət günləri başlayarsa, həmçinin həcc vaxtından öncə əməlləri həyata keçirməyə imkanı olmazsa, ümrəsi batildir.

Məsələ 403. Adət günlərinin başlaması səbəbi ilə vəzifəsi ifrad həcci olan qadın, şəri hökmü bilmədiyinə görə təməttö ümrəsi üçün muhrim olarsa, ehramı batildir və miqata qayıdıb ifrad həcci üçün ehram bağlamalıdır. Amma vəzifəsini yerinə yetirmək qəsdi ilə tətbiqində səhvə yol verərsə və vəzifəsinin təməttö ümrəsi olduğunu xəyal edərsə, ehramı səhih və ifrad ehramı hesab olunur.

**Məslus və məbtunun vəzifəsi:**

Məsələ 404. İdrarının gəlişini, mədfu və ya yelinin xaric olmasının qarşısını ala bilməyən şəxs, təvaf və təvaf namazını aşağıdakı qayda ilə yerinə yetirməlidir:

a) Əgər təvaf və ya təvaf namazını yerinə yetirmək üçün təharətli qalmağa fürsət tapa bilirsə, həmin fürsətdəcə yerinə yetirməlidir.

b) Təvaf və ya təvaf namazı üçün tam fürsətə sahib deyildir, lakin təvafın və ya namazın bir qismini yerinə yetirmək üçün fürsəti olarsa: ehtiyat-vacibə əsasən həmin fürsətdə dəstəmaz alıb təvafa başlamalıdır. Əgər ondan bir şey (adətən xaric olan şey) olarsa, yenidən dəstəmaz alması lazım deyildir və həmin haldakı təvafı səhihdir.

c) Əgər heç bir fürsətə sahib deyildirsə: yəni onun idrar, mədfu və ya yeli daim və ya çox az fasilə ilə xaric olursa və təvafın bir qismini belə yerinə yetirməyə imkanı yoxdursa, bir dəstəmaz almalıdır və təvaf və təvaf namazını onunla həyata keçirməlidir. Əgər təvafdan öncə və ya təvaf əsnasında və yaxud da namazda ondan bir şey (həmişə ondan xaric olan) xaric olarsa, etina etməməli və əməllərinə davam etməlidir.

### Müstəhazənin vəzifəsi:

Məsələ 405. Müstəhazə (adət vaxtına düşməyən qanı görən) qadın təvaf və təvaf namazını aşağıdakı qayda ilə yerinə yetirməlidir:

* Müstəhazeyi-qəlilə (az qan görən qadın): təvaf üçün dəstəmaz alacaq və təvaf namazı üçün də ehtiyat-vacibə əsasən ayrıca dəstəmaz alacaq.

* Müstəhazeyi-mutəvəssitə (orta həddə qan görən qadın): təvaf və namazı üçün bir müstəhazə quslu alacaq, təvaf üçün dəstəmaz alacaq və ehtiyat-vacibə əsasən təvaf namazından öncə iki dəfə də dəstəmaz alacaq.





* Müstəhazeyi-kəsirə (çox qan görən qadın): bir müstəhazə quslu alacaq və qusldan sonra dəstəmazı batil edən bir şey baş verməsə o quslla təvafı və təvaf namazını yerinə yetirəcək və dəstəmaz almağa ehtiyac yoxdur. Buna baxmayaraq Təvaf namazından öncə bir daha qusl etməsi ehtiyat-müstəhəbdir.

Məsələ 406. Müstəhazə qadının quslu ilə dəstəmazı arasında və ya təvafı ilə təvaf namazı arasında çarəsizlik miqdarında fasilə yaranarsa, işkalı yoxdur.

Məsələ 407. Əgər bir qadın vacib təvafını yerinə yetirərkən dördüncü dövrü bitirməmiş müstəhazə olarsa, təvafı batildir. Amma dördüncü təvafdan sonra baş verərsə, müstəhazə qadın üçün qeyd olunmuş vəzifəyə riayət edərək təvafının yerdə qalan hissəsini yerinə yetirməlidir və belə edərsə, əməli səhihdir. Lakin o təvafı tamamlayıb yenidən yerinə yetirməsi ehtiyat-müstəhəbdir.

### Bədən və paltarın təharəti:

Məsələ 408. Təvaf edən şəxsin bədəni və paltarı pak olmalıdır. Odur ki, bədən və ya paltarının nəcis olduğunu bilən halda təvaf edərsə, səhih deyildir.

Məsələ 409. Dirhəmdən az olan qanla (təqribən əlin baş barmağının üst hissəsi miqdarında) namazın səhih olmasına baxmayaraq, ehtiyat-vacibə əsasən təvafda tam pak olunmalıdır və o halda da təvaf səhih deyildir. Həmçinin corab kimi kiçik (nəcis) libaslarla da namaz qılmaq səhih olmasına baxmayaraq vacib- ehtiyata əsasən təvaf səhih deyildir.

Məsələ 410. Dəsmal kimi cibdə olan nəcis şeyi təvaf halında daşımağın heç bir halda işkalı yoxdur.

Məsələ 411. Bədən və ya paltar hələ sağalmamış yaranın (istər təzə olsun, istərsə də köhnə) qanı ilə

nəcis olarsa və onun suya çəkilməsi və ya paltarın əvəz edilməsi dözülməsi çətin olan bir məşəqqətə səbəb olarsa, işkalı yoxdur. Lakin paklamaq və paltarı dəyişmək bu həddə çətin olmazsa, ehtiyat-vacibə əsasən paklanmalı və ya dəyişdirilməlidir.

Məsələ 12. Təvafdan sonra bədən və ya paltarının nəcis olduğunu bilərsə, təvafı səhihdir.

Məsələ 413. Əgər bədən və ya paltarının nəcis olduğunu unudar və təvafdan sonra yadına düşürsə, təvafı səhihdir. Lakin təvafı pak bədən və ya paltarla yerinə yetirməsi ehtiyat-müstəhəbdir.

Məsələ 414. Təvaf əsnasında bədən və ya paltarının nəcis olduğunu bilərsə və yaxud da təvaf əsnasında nəcis olarsa, məsələnin iki forması vardır:

1) Əgər nəcasəti aradan aparmağı bacararsa: məsələn, təvafın muvalatına və hissələrinin ardıcıl yerinə yetirilməsinə xələl gətirmədən əynindəki əlavə (nəcis olmuş) paltarı çıxarmağı bacararsa, nəcasəti aradan qaldırmaq və təvafı tamamlamaq vacibdir. Belə edərsə, təvafı səhihdir.

2) Əgər nəcasəti aradan aparmağı bacarmazsa: həmin halda təvafı sona çatdıracaq və təvafı səhihdir. Amma dördüncü dövrdən sonra bədən və o paltarı nəcis olarsa və ya o zamanda nəcis olduğunu bilərsə, təvafı tamamladıqdan sonra yenidən yerinə yetirməsi ehtiyat-müstəhəbdir.

Məsələ 415. Üzrünün aradan qalxacağına ümidi olmayan və bu səbəbə görə də nəcis bədən və ya paltarla və yaxud da cəbirə dəstəmazı və ya təyəmmümlə təvafı yerinə yetirən şəxsin üzrü aradan qalxdıqdan sonra o təvafı yenidən yerinə yetirməsi lazım deyildir.





Məsələ 416. Nəcis dəsmal kimi napak bir şey təvaf edən şəxsin üzərində olarsa, amma onun paltarı hesab olunmazsa, təvafda işkal yoxdur.

### Xitan:

Məsələ 417. Əgər sünnət olunmamış bir kişi təvafı yerinə yetirərsə, batildir və sünnət olunmamış müməyyiz (yaxşını pisdən ayırmağı bacaran) uşaq da eyni hökmdədir. Lakin sünnət olunmaq qadınlarda və müməyyiz olmayan uşaqlarda şərt deyildir.

Məsələ 418. Vəlisinin köməyi ilə təvaf edən qeyri-müməyyiz uşağın da sünnət olunmuş olması ehtiyat-müstəhəbdir.

### Örtük:

Məsələ 419. Ehtiyat-vacibə əsasən təvaf edən şəxsin örtünməsi (və ya örtüyü) namaz qılan şəxsin örtünməsi kimi olmalıdır. Ehtiyat-müstəhəb budur ki, namaz qılanın paltarının bütün şərtlərinə riayət olunsun.

Məsələ 420. Təvafın səhihliyində ayaqların örtülməsi qadınlar üçün şərt olmamasına baxmayaraq, naməhrəmlərin görməsinə görə onlar ayaqlarını örtməlidirlər.

Məsələ 421. Əgər təvaf halında qadının tüklərindən bir görünərsə, bundan xəbərdar olan kimionu örtməlidir. Lakin təvafı hər bir halda səhihdir.

### Təvafın vacibləri:

Məsələ 422. Təvafın vacibləri aşağıdakılardan ibarətdir:

* Təvafı Həcərul-əsvədlə üzbəüz yerdən başlayıb elə orda da bitirmək

* Kəbə təvaf edənin sol tərəfində qalmalıdır

* Kəbə və Hicri-İsmaili dövr etmək (Hicrin içəri tərəfindən keçməmək)

* Kəbənin şazərvanı[1] üzərində gəzməmək

* Kəbə evini yeddi dəfə dövr etmək

* Muvalat; yəni yeddi təvaf dövrünün ardıcıl olması

* Öz ixtiyarı ilə təvaf etmək

## Təvafın vaciblərinin hökmləri

### Həcərul-əsvədin yanında başlayıb orda da bitirmək:

Məsələ 423. Təvaf Kəbənin bir tərəfində yerləşib “Ruknu-həcəril-əsvəd” adlanan və müqəddəs daşın da orada yerləşdiyi məkanla üzbəüz yerdən başlamalı və həmin yerdə də sona çatdırılmalıdır. Buna görə də təvafı yeddi dəfə kamil şəkildə yerinə yetirməsinə baxmayaraq bir şəxs düzgün yerdən başlamazsa və ya həmin yerdə bitirməzsə, səhih deyildir.

Məsələ 424. Əgər təvaf edən şəxs Ruknu-həcəril-əsvədin bir az qabaq hissəsindən başlayarsa və qəsdi təvafını həcərul-əsvədin üzbəüzündən başlamaq olarsa, işkalı yoxdur. Həmçinin təvafı bitirəndə həcərul-əsvəddən bir az keçərsə və qəsdi təvafını həcərul-əsvədin müqabilində bitirmək olarsa, işkalı yoxdur.

Məsələ 425. Əgər bir şəxs təvafı ruknu-həcəril-əsvəddən başqa yerdən başlayarsa (məs... runu-

[1]Şazərvan, Kəbənin perimetri boyunca ona bitişik olan daşa deyilir və onun üzərində hərəkət etmək olmaz. Çünki o daş Kəbənin bir hissəsi hesab olunur.





yəmanidən) batildir. Lakin tətbiqdə səhfə yol verərsə və çatışmamazlığı aradan qaldırarsa səhihdir. Yəni qəsdi şəri cəhətdən təvafın başlanılması lazım olan yerdən başlamaq olarsa, lakin o yerin ruknu-yəmani olduğunu güman edərsə eybi yoxdur.

### Kəbənin sol tərəfdə qalması:

Məsələ 426. Təvaf edən şəxs bütün müsəlmanların təvaf etdiyi kimi Kəbənin ətrafına dövr etməlidir. Əgər bunun əksinə hərəkət edərsə və ya üzü Kəbəyə tərəf və ya arxası Kəbəyə tərəf və yaxud da arxa arxaya (Kəbə sağ tərəfində qalacaq) hərəkət edərsə, səhih deyildir.

Məsələ 427. Əgər Kəbəni öpməyə və ya insanların sıxlığına görə təvafın bir miqdarını üzü və ya arxası Kəbəyə edərsə, o miqdar təvafın hissəsi olan dövrlərdən hesab olunmayacaq. Əgər qayıtmağı bacararsa və səhfə yol verdiyi terdən təvafı davam etdirə bilərsə, bunu etməlidir. Lakin bunu bacarmazsa, təvaf niyyəti etmədən öz hərəkətinə davam edib səhfə yol verdiyi yerə çatmalı və orada təvafın həmin dövrünün niyyətini etməlidir.

Məsələ 428. Kəbənin sol tərəfdə qalmasının meyarı xalqın nəzəridir. Peyğəmbərin (s) atla (süvari halda) təvaf etməsindən başa düşülənə əsasən Kəbənin divarlarına çatan zaman bədəni əymək, çox diqqətli olmaq və Hicri-İsmailtərəfdə sol çiyinin tam dəqiq şəkildə Kəbəyə sarı olması lazım deyildir.

Məsələ 429. Təvaf edən şəxsin bədəninin sol tərəfi Kəbəyə sarı olduğu halda üzünü sağa və ya sola çevirərsə, işkalı yoxdur.

Məsələ 430. Təvaf halında arxasını görə biləcək qədər boynunu arxaya çevirmək, ehtiyat-vacibə əsasən caiz deyildir.

Məsələ 431. Əgər hacı Kəbəni sol tərəfində saxlamaqda səhfə yol verib-verməməsində şəkk edərsə və ya səhfə yol verdiyinə dair ehtimal verərsə, bunun bir etibarı yoxdur və təvafı səhihdir.

**Hicri-İsmailin ətrafına dövr etmək:**

Məsələ 432. Təvaf edən şəxs Kəbə və Hicri-İsmailin ətrafında dövr etməlidir, yəni hicrin daxilindən keçməməlidir.

Məsələ 433. Əgər təvaf edən şəxs məsələni bilmədiyinə görə və yaxud unutqanlıq üzündən Hicri-İsmailin daxilindən keçərsə, təvafın o dövrü ümumi şəkildə batildir və o dövrü yenidən yerinə yetirməlidir. Bu təvafı bitirdikdən sonra onu yenidən iadə (yenidən) etməlidir.

**Şazərvanın üzərində hərəkət etməmək:**

Məsələ 434. Kəbənin tərəflərindən bəzisinin (Kəbə divarının aşağısı) bir qədər çıxıntısı vardır və ora "Şazərvan" deyirlər. Bu çıxıntının Kəbənin bir hissəsi olması və Kəbənin təmiri zamanı onun əsl (qədim) yerini bir qədər geriyə çəkilməsi məşhurdur. Buna görə də təvaf edən şəxs bu çıxıntının üzərində hərəkət etməməlidir.

Məsələ 435. Təvaf halında olan şəxs Şazərvan olan yerlərdən keçəndə əlini Kəbəyə tərəf uzadarsa, təvafın həmin miqdarının əvəzini yerinə yetirməlidir. O miqdarın əvəzini yerinə yetirdikdən sonra təvafı iadə etməsi ehtiyat-müstəhəbdir.





**Kəbəni yeddi dəfə dövr etmək:**

Məsələ 436. Təvaf edən şəxs Kəbəni yeddi dəfə dövr etməlidir və bundan azı kifayət etmir. Bu miqdardan artığını bilərəkdən edərsə, təvafı batil olur və bunun izahı qarşıdakı məsələlərdə qeyd olunacaq.

**Muvalat:**

Məsələ 437. Təvafın yeddi dövrü xalqın nəzərində muvali və ardıcıl hesab olunan şəkildə yerinə yetirilməlidir. Yəni araya fasilə salmadan və bir-birinin ardınca həyata keçirilməlidir. Əlbəttə muvalatın şərt olmadığı bir neçə istisna yer qarşıdakı məsələlərdə qeyd olunacaq.

Məsələ 438. Əgər təvafın dövrləri arasında kiçik müddət fasilə olsa, təvaf səhihdir. Lakin 10 dəqiqə və ondan da çox vaxt kimi araya fasilə düşərsə, muvalat pozulur və təvaf səhih deyildir.

Məsələ 439. Təvaf edən şəxs dövrlərin arasına fasilənin düşüb-düşmədiyində şəkk edərsə, təvafını yenidən yerinə yetirməlidir.

**Öz ixtiyarı ilə təvaf etmək:**

Məsələ 440. Təvaf edən şəxs öz ixtiyarı ilə Kəbə evini dövr etməlidir. Buna əsasən təvaf zamanı insanların sıxlığı və ya başqa səbəbə görə ixtiyarsız gedərsə kifayət etməyəcəkdir və belə halla rastlaşan şəxs həmin miqdarı 427-ci məsələdə qeyd olunduğu kimi əvəz edərək yerinə yetirməlidir. Lakin insanların itələməsinin təsirinə görə sürətli getməyin zərəri yoxdur.

Məsələ 441. Bir şəxs xəstəlik üzündən və ya bədəninin bir əzasının şikəstliyinə görə və yaxud da gücü çatmadığına və bu kimi səbəblərə görə (hətta

başqasının köməyi ilə belə) təvaf edə bilməzsə, onu təvaf etdirmək lazımdır. Məsələn, onu belinə götürüb və ya çarxa oturdub təvaf etdirsinlər. Əgər bu şəkildə də təvaf etməyi bacarmazsa, özü üçün onun tərəfindən təvaf etməyə naib tutmalıdır. Əgər naib tutmağa da imkanı olmazsa (huşsuz şəxs kimi), onun vəlisi və ya başqa bir şəxs onun tərəfindən təvafı yerinə yetirməlidir.

Məsələ 442. Əgər mükəlləf təvafın dövrlərindən bir neçəsini yerinə yetirib yerdə qalan hissəsini həyata keçirməkdə aciz qalarsa və onun özünün yerinə yetirdiyi dövrlər dörd və ya çox olarsa, yerdə qalan dövrlər üçün naib tutmalıdır. Əgər dörddən az olarsa, təvafın tamamı üçün naib tutmalıdır. Yəni naib tam bir təvaf (yeddi dövr) yerinə yetirməlidir.

Məsələ 443. Özü üçün təvafı yerinə yetirə bilən şəxs, təvafda başqasına kömək edə bilər. Məsələn, belinə götürüb və ya təkərli kürsüyə (əlil arabası kimi) oturdub təvaf etdirsin.

**Təvafın hüdudları:**

Məsələ 444. Gücü çatan şəxsin bri-birindən on iki metr məsafədə yerləşən Kəbə ilə Məqami-İbrahim arasında təvaf etməsi ehtiyat-müstəhəbdir və bu məsafə Hicri-İsmail tərəfdə (hicrin divarının arxası, onun hilalının sonu) 3 metr miqdarında qalır. Amma bu məsafədən artıq olan yerdə də kərahətli olmasına baxmayaraq təvaf caizdir. Xüsusilə qeyd olunmuş məsafədə təvaf etməyə gücü çatan şəxs üçün bu kərahət sabitdir.

Məsələ 445. Məscidul-həramın yuxarı mərtəbələri Kəbədən hündür olarsa, təvaf səhih deyildir.





Məsələ 446. Təkərli kürsü ilə təvaf etməli olan gücsüz şəxsi Məscidul-həramın sahəsinə buraxmasalar və ikinci mərtəbə də Kəbədən hündür olarsa, özü üçün təvafı yerinə yetirməyə naib tutmalıdır və özünün də ikinci mərtəbə də təvaf etməsi ehtiyat-müstəhəbdir. Beləki ikinci mərətəbnin Kəbədən hündür olub-olmamasını bilməzsə, həm özü ikinci mərtəbədə təvaf etməli və həm də naib tutmalıdır.

**Təvafı kəsmək:**

Məsələ 447. Müstəhəb təvafı bilərəkdən belə saxlamaq (kəsmək və davam etməmək) caizdir.

Məsələ 448. Müəyyən bir iş və ya zərurət üzündən vacib təvafı kəsmək caizdir. Hətta bir iş və ya zərurət olmazsa da onu kəsmək caizdir.

Məsələ 449. Əgər bir şəxs muvalatı pozmamışdan öncə müstəhəb təvafı kəsərsə, qaldığı yerdən onu davam etdirə bilər və təvafı səhihdir. Bu məsələdə dörd təvafı yerinə yetirmiş olmağı ilə olmamağı arasında fərq yoxdur.

Məsələ 450. Əgər bir şəxs vaib təvafı kəsərsə, məsələnin iki forması var:

a) Dördüncü təvafı yerinə yetirəndən sonra kəsərsə: təvafı batildir və yenidən yerinə yetirməlidir.

b) Dördüncü dövrü tamamlamışdırsa:

1) Əgər səbəbsiz halda kəsibsə və xalqın nəzərində muvalatı pozubsa, ehtiyata əsasən qaldığı yerdən onu tamam etməli və yenidən yerinə yetirməlidir. Yenidən yerinə yetirməklə kifayətlənmək əzhər (zahir cəhətdən daha dəqiq) nəzərdir.

2) Müəyyən səbəbə görə kəsərsə: məsələn, xəstəliyinə görə və ya müəyyən bir işə görə və yaxud da dini qardaşlarından birinə görə kəsərsə, təvafı səhih-

dir və qaldığı yerdən davam etməsi lazımdır. Lakin bu təvafı tamamladıqdan sonra yenidən yerinə yetirməsi ehtiyat-müstəhəbdir.

Məsələ 451.Təvaf əsnasında oturmaq və istirahət etmək, çox uzun çəkməzsə və təvafın hissələrinin ardıcıllığını (muvalatı) pozmazsa, caizdir və təvaf da səhihdir. Lakin uzun çəkərsə və muvalat pozularsa, təvaf batildir və yenidən yerinə yetirməlidir.

Məsələ 452. Təvaf edən şəxs namazın fəzilətli vaxtına çatmaq və ya camaat namazına qoşulmaq və ya vaxtının bitməsinə az qalmış müstəhəb namaz qılmaq üçün təvafı kəsərsə, caizdir və namazı qıldıqdan sonra təvafı qaldığı yerdən tamamlamalıdır. Bu halda dördüncü dövrü yerinə yetirmiş olması ilə olmaması arasında və ya vacib təvaf ilə müstəhəb təvaf arasında fərq yoxdur.

Lakin dördüncü dövrü tamamlamamışdan öncə kəsərsə, onu tamamladıqdan sonra yenidən yerinə yetirməsi ehtiyat-müstəhəbdir.

Məsələ 453. Əgər səhf və ya unutqanlıq üzündən təvafı yeddi dövrdən az yerinə yetirərsə (hətta bir dövrdən də az naqislik olarsa), bu halda əgər:

* Muvalat pozulmamışdan öncə agah olarsa: yerdə qalan miqdarı yerinə yetirəcək və təvafı səhihdir.

* Muvalat puzulmuş olsa, lakin unutduğu dövrün miqdarı üçdən çox olmazsa: yerdə qalan miqdarı yerinə yetirəcək və təvaf səhihdir. Amma üç dövrdən çox olarsa, ehtiyat-vacibə əsasən yerdə qalan miqdarı tamamlamalı və təvafı yenidən yerinə yetirməlidir.

Məsələ 454. Əgər mükəlləf təvafı naqis yerinə yetirərsə və yerdə qalan miqdarı həyata keçirməyə





gücü çatmazsa (hətta öz vətəninə qayıtdıqdan sonra təvafının naqisliyindən agah olarsa), yerdə qalan miqdarı yerinə yetirmək üçün özünə naib tutmalıdır.

## Təvafda naiblik:

Məsələ 455. Təvafı və onun namazını başqasının naibi kimi yerinə yetirən şəxsin muhrim olması lazım deyildir. Buna əsasən təməttö ümrəsində muhrim olan şəxsin vəzifəsi təvaf və onun namazı üçün özünə naib tutmaq olarsa, bu işə görə özünə muhrim olmayan şəxsi naib tuta bilər.

Məsələ 456. Təvaf və onun namazı üçün yalnız bir nəfəri naib tutmaq lazım deyildir. Odur ki, bir nəfəri təvaf üçün, başqa bir nəfəri isə təvaf namazı üçün naib tuta bilər.

## Təvafı artırmaq:

Məsələ 457. Əgər təvafı bilərəkdən yeddi dövrdən artıq edərsə, batildir.

Məsələ 458. Əgər səhf edərək təvafı yeddi dövrdən artıq yerinə yetirərsə, məsələnin iki forması var:

a) Səkkizinci dövrün yarısından sonra (Rukni-İraqidən sonra) yadına düşsə: artırılmış miqdarı tam kamil təvaf (yeddi dövr) olaraq tamamlamalıdır və ehtiyata əsasən ikinci yeddi dövrü (ikinci təvafı) qürbət qəsdi ilə vacib və ya müstəhəb niyyəti etmədən yerinə yetirməlidir və ondan sonra dörd rəkət təvaf namazı qılmalıdır. Bu halda iki rəkət namazı səydən öncə və digər iki rəkət namazı isə səydən sonra yerinə yetirməsi ehtiyat-müstəhəbdir.

b) Səkkizinci dövrün yarısından öncə (Rukni-İraqiyə çatmamış) agah olarsa: ehtiyat-vacibə əsasən öncəki fərzdə deyilənə uyğun əməl etməlidir.

Məsələ 459. Əgər təvaf edən şəxs təvafa bir dövr artırmağın müstəhəb olduğu gümanı ilə bir dövr əlavə yerinə yetirərsə, təvafı batil deyildir.

**Təvafın dövrlərinin sayında şəkk:**

Məsələ 460. Əgər təvaf əsnasında dövrlərin sayında şəkk meydana gələrsə və yeddidən az olduğuna şəkk edilərsə, təvaf batildir. Məsələn, bir şəxs üç və ya dörd dövr yerinə yetirməsində şəkk etsə və ya hazırda dördüncü və ya beşinci dövrdə olduğuna şəkki yaranarsa, təvafı batildir. Bu məsələdə dövrün ortasında və ya axırında şəkk etməyin heç bir fərqi yoxdur.

Məsələ 461. Əgər dövrün axırında altı və ya yeddi dövr etməsi arasında şəkk edərsə, ehtiyata əsasən təvafı batildir. Həmçinin dövrü çox etməsi ilə az etməsinə birgə ehtimal verərsə də təvafı batildir. Məsələn, axırıncı dövrünün altıncı, yeddinci və ya səkkizinci olması arasında şəkk etdiyi halda təvafı batildir.

Məsələ 462. Müstəhəb təvaf zamanı dövrlərin sayında şəkk yaranarsa, daha az sayda etməsinə hökm olunacaq. Məsələn, beş və ya altı dövr yerinə yetirməsi arasında şəkk edərsə, beş dövr etməsinə hökm edəcək və təvafı səhihdir.

Məsələ 463. Aşağıdakı hallarda şəkkə etina olunmur və təvaf səhihdir:

a) Təvafı tamamladıqdan sonra dövrlərin sayında şəkk etsə.

b) Təvafı tamamladıqdan sonra onun səhihliyində şəkk edərsə: məsələn, təvafı ixtiyarsız edib-etməməsində və ya dəstəmazının batil olub-olmamasında şəkk etsə.





c) Təvafdan sonra yeddi dövr etməsinə yəqini olarsa, lakin əlavə dövr etməsinə də ehtimal verərsə (məs... ehtimal verir ki, sonuncu dövrü səkkizinci ola bilərdi), şəkkinə etina etməyəcək.

**Kəsiruş-şəkkin (çox şəkk edən şəxs) vəzifəsi:**

Məsələ 464. Təvafdakı dövrlərin sayında adi həddən daha çox şəkk edən şəxs "kəsiruş-şəkk" adlanır və belə bir insan öz şəkkinə etina etməməlidir.

**Təvafın dövrlərinin sayındakı güman:**

Məsələ 465. Təvafın dövrlərinin sayında olan güman, şəkk hökmündədir.

Təvafın dövrlərinin sayında başqalarına etimad etmək:

Məsələ 466. Təvaf edən şəxsin öz dövrlərinin sayında onunla birgə təvaf edən digər şəxsin saymasına güvənməsi caizdir. Bu halda digər şəxsin dövrlərin sayını bilməsi və şəkk etməməsi lazımdır.

**Təvafı tərk etmək:**

Məsələ 467. Əgər mükəlləf təməttönün ümrə təvafını yerinə yetirməzsə və onu və ümrənin digər əməllərini Ərəfə gününün zöhründən öncə həyata keçirməyə imkanı olmazsa, ümrəsi batildir. Bu halda məsələni bilməsi ilə bilməməsi arasında fərq yoxdur. Şəri hökmü bilmədiyi halda ehtiyat-vacibə əsasən bir dəvə də kəffarə verməlidir.

Məsələ 468. Əgər unutqanlıq üzündən təvafı tərk edərsə, məsələnin iki forması vardır:

a) Vaxt bitməmişdən öncə yadına düşərsə: təvafı yerinə yetirməlidir və səyi də iadə etməlidir.

b) Vaxt çıxdıqdan sonra yadına düşsə: məsələn, təməttö ümrəsində və ya Ərəfatda vüquf etməmişdən öncə yadına düşməzsə, təvafın qəzasını yerinə yetirməlidir və ehtiyat-vacibə əsasən təvaf namazını da qılmalıdır. Səyi də yenidən yerinə yetirməsi ehtiyat-müstəhəbdir.

**Təvafın batil olması:**

Məsələ 469. Əgər mükəlləf şəri hökmdən xəbərdar olmamasına görə təvafının batil olduğundan agah olarsa, onun hökmləri aşağıdakı qayda ilədir:

a) Təməttö ümrəsinin əməllərindən sonra agah olarsa: təvaf, təvaf namazı, səy və təqsiri yenidən yerinə yetirməlidir və əgər bunu etməyə fürsəti olmazsa, onun ümrəsi batildir və ehtiyat-vacibə əsasən bir dəvə kəffarə verməlidir.

b) Ərəfatda vüquf etdiyi zaman agah olarsa: onun təməttö ümrəsi batildir və ehtiyat-vacibə əsasən bir dəvə kəffarə verməlidir.

c) Həccin əməllərindən sonra həcc təvafının batil olduğundan agah olarsa: zilhiccə ayı bitməmişdən öncə təvaf, təvaf namazı və səyi yerinə yetirməlidir.

d) Öz vətəninə qayıtdıqdan sonra və zilhiccə ayı bitməmiş həcc təvafının batil olduğundan agah olarsa: təvaf, təvaf namazı və səyi yerinə yetirməlidir və əgər bunu bacarmazsa, naib tutmalıdır.

e) Zilhiccə ayı qurtardıqdan sonra həcc təvafının batil olduğundan agah olarsa, həcci batildir və bir dəvə kəffarə verməlidir.

Məsələ 470. Təvafı unutmuş şəxs yadına düşdüyü zaman onu yerinə yetirməyə gücü çatmazsa (məs... öz vətəninə qayıtdıqdan sonra yadına düşsə), onu yerinə yetirmək üçün naib tutmalıdır.





**Müstəhəb təvaf:**

Məsələ 471. Həcc və ümrə əməllərindən ayrı və əlavə bir təvaf yerinə yetirmək müstəhəbdir. Həmçinin özü və başqasının naibi kimi digəri üçün bir və ya daha artıq dövr yerinə yetirməsinin işkalı yoxdur və müstəhəbdir.

Məsələ 472. Ümrənin ehramından sonra və təvafdan öncə müstəhəb təvaf etməyin işkalı yoxdur.

Məsələ 473. Həccin təvafından öncə müstəhəb təvaf yerinə yetirməyin işkalı yoxdur.

Məsələ 474. Ehtiyat-vacibə əsasən həccin ehramından sonra Ərəfatda vüquf edənə kimi müstəhəb təvaf yerinə yetirmək olmaz. Məkkə əməllərinin (təvaf, təvaf namazı, səy, nisa təvafı və onun namazı) Ərəfatdakı vüqufdan öncə yerinə yetirilməsinin bu məsələyə aidiyyatı yoxdur.

Məsələ 475. Ehtiyat-vacibə əsasən ümrə təvafı və təvaf namazından sonra və səy etməmişdən öncə müstəhəb təvaf etmək olmaz.

**Təvafın müstəhəbləri:**

Məsələ 476. Təvaf halında aşağıdakı duanı oxumaq müstəhəbdir:

“Allahummə inni əsəlukə bismikəlləzi yumşa bihi əla tələlil-mai kəma yumşa bihi əla cudədil-ərzi və əsəlukə bismikəlləzi yəhtəzzu ləhu ərşukə və əsəlukə bismikəlləzi dəakə bihi Musa min canibit-Tur fəstəcəbtə ləhu vəlqəytə aləyhi məhəbbətən minkə və əsəlukə bismikəlləzi ğəfərtə bihi li Muhəmmədin salllallahu aləyhi və alihi ma təqəddəmə min zənbihi və ma təəxxərə və ətməmtə aləyhi nimətəkə ən təcəlni minəs-salihin və ən təqbələ tovbəti ”.

- Bundan sonra sevdiyin hər hansı istəyirsən oxu və hər bir hacətini Allahdan istə.

- Kəbənin müqabilinə çatdığın zaman Peyğəmbər (s) və ailəsinə salavat göndər.

- "Rukni-yəmani" ilə Həcərul-əsvəd arasında belə de: "Rabbəna atina fid-dunya həsənətən və fil-axirəti həsənətən və qina əzabən-nar" və təvaf zamanı belə deməк müstəhəbdir: "Allahummə inni iləykə fəqir və inni xaifun mustəcir, fəla tuğəyyit cismi və tubəddil ismi".

Həzrət Sadiqdən (ə) nəql olunan hədisdə o həzrət (ə) belə buyurmuşdur: Əli ibn Huseyn (ə) Hicri-İsmailə çatdığı və navalçaya yetişmədiyi zaman başını yuxarıya tərəf qaldırardı və navalçaya baxdığı halda buyurardı:

"Allahumməd xilnil-cənnətə və əcirni minən-nar birəhmətikə və afini minəs-səqmi və əvsi aləyyə minər-rizqil-həlal vədrə ənni şərri-fəsəqətil-cinni vəl-insi və şərri fəsəqətil-ərəbi vəl-əcəm".

Səhih hədisdə Həzrət Sadiqdən (ə) nəql olunmuşdur: Hicri-İsmaili keçib Kəbənin arxasına çatdığı zaman buyurdu:

"Ya zəl-mənni vət-təvl, ya zəl-cudi vəl-kərəm, innə əməli zəifun fəzaifhu li təqəbbəlhu minni, innəkə əntəs-səmiul-əlim".

Həzrət Əbul-Həsən Rizadan (ə) nəql olunmuşdur: Rukni-yəmani ilə üzbəüz məkana çatdığı zaman dayandı və hər iki əlini qaldırıb buyurdu:

"Ya Allahu ya vəliyyul-afiyəh və xaliqəl-afiyəh və raziqəl-afiyəh vəl-munimu bil-afiyəh vəl-mənnanu bil-afiyəh vəl-mutəfəzzəlu bil-afiyəti aləyyə v alə cəmii xəlqikə ya rəhmanəd-dunya vəl-axirəti və rəhiməhuma salli əla Muhəmmədin və ali Muhəmməd, vərzuqunal-afiyətə və təmaməl-afiyəti şukrəl-afiyəti fid-dunya vəl-axirəti ya ərhəmər-rahimin".





Həzrət Sadiqin (ə) belə buyurduğu nəql olunub: Təvafından ayrılıb Kəbənin arxasına (Rukni-yəmanı ilə yaxın yerə) çatdığın zaman əllərini Kəbəyə söykə, bədən və üzünü Kəbəyə yapışdır və de:

"Allahumməl-beytu beytukə vəl-əbdu əbdukə və haza məkanul-aizi bikə minən-nar".

Etdiyin əməlləri rəbbinə etiraf et, çünki bu məkanda rəbbinə günahlarını etiraf edən elə bir mömin ola bilməz ki, Allah onu bağışlamasın inşaallah.

Və deyəcək:

"Allahummər-rəvhu vəl-fərəcu vəl-afiyəh, Allahummə innə əməli zəifun fəzaifhu li vəğfir li mat-tələtə aləyhi minni və xəfa əal xəlqik".

Sonra cəhənnəmdən Allaha pənah apar və istədiyin şeyi dua et, sonra Rukni-yəmanini istilam et, sonra Həcərul-əsvədə tərəf get.

Başqa bir hədisdə o həzrətin (ə) belə buyurduğu nəql olunub: sonra Rukni-yəmani ilə üzbəüz dayan və Həcərul-əsvədin yerləşdiyi ruknda əməlini sona çatdır və de:

"Allahummə qənnini bima rəzəqtəni barik li fima atəytəni".

Təvaf edən şəxsin bütün ruknları hər bir dövrdə istilam etməsi müstəhəbdir və Həcərul-əsvədi istilam etdiyi zaman desin:

"Əmanəti əddəytuha və misaqi təahədtuhu litəşhədə li bil-muvafah".

**Təvaf namazı:**

Məsələ 477. Təməttö ümrəsinin vacib əməllərindən üçüncüsü təvaf namazıdır.

**Təvaf namazının keyfiyyəti:**

Məsələ 478. Təvaf namazı sübh namazı kimi iki rəkətdir və yalnız aşağıdakı fərqləri vardır:

- Təvaf namazı niyyətilə qılınmalıdır
- Ondan öncə azan və iqamə demək müstəhəb deyildir.
- Kişilər təvaf namazının həmd və surəsini həm ucadan, həm də sakit oxuya bilərlər.

Məsələ 479. Təvaf namazını camaatla səhih deyildir.

**Təvaf ilə təvaf namazı arasında fasilə:**

Məsələ 480. Təvaf namazı təvafdan sonra qılınmalıdır və ehtiyat-vacibə əsasən xalqın nəzərində onlar arasında fasilə salmadan dərhal yerinə yetirilməlidir.

Məsələ 481. Təvafla təvaf namazı arasında 10 dəqiqəyə kimifasilə verməyin işkalı yoxdur.

Məsələ 482. Əgər hacı təvaf və onun namazı arasına fasilə salarsa, ümrə və həcci batil olmur. Lakin bilərəkdən və ya cahili-müqəssir olaraq fasilə salarsa, ehtiyat-vacibə əsasən təvaf və onun namazını iadə etməlidir.

Məsələ 483. Əgər mükəlləf şəri hökmü öyrənməkdə cahili-müqəssir olmayıbsa və unutqanlıq və ya hökmü bilmədiyinə görə təvaf və onun namazı arasına fasilə salıbsa, təvaf və namazı səhihdir.

Məsələ 484. Əgər hacı təharətini yeniləmək və ya camaat namazında iştirak etmək kimi üzrlü səbəblərə görə təvaf və onun namazı arasına fasilə salarsa, işkalı yoxdur.





**Təvaf namazının məkanı:**

Məsələ 485. Vacib təvaf namazı Həzrət İbrahim (ə) məqamının arxasında qılınmalıdır. Yəni namaz qılan şəxs məqamın sağ və ya sol tərəfində və yaxud da üzbəüzündə (qabaq tərəfdən) dayanmamalıdır.

Məsələ 486. Əgər insan Məqami-İbrahimin (ə) arxasında və ya yaxınlığında namaz qılmağı bacarmazsa, ehtiyat-vacibə əsasən mümkün olduğu qədər onun sağ və ya sol tərəfinə yaxın və ya məqamın arxa tərəfində bir qədər uzaqda qılmalıdır. Əgər bunu da bacarmazsa, hər iki tərəfdə namaz qılmalı və mümkün olan hər hansı birini yerinə yetirməlidir. Əgər nə məqamın iki tərəfində və nə də arxa tərəfində uzaqda namaz qılmağa imkanı olmazsa (heç biri mümkün olmazsa), məscidin hər hansısa bir yerində namaz qılacaq, lakin məqama yaxın bir yerdə qılmaq üçün cəhd etməsi ehtiyat-müstəhəbdir. Əgər sonradan Məqami-İbrahimə (ə) yaxın bir yerdə və ya onun arxasında namaz qılmağa imkanı olarsa, təvaf namazını bir daha orada qılmaq ehtiyat-müstəhəbdir.

Məsələ 487. Müstəhəb təvafın namazı Məscidulhəramın hər hansı bir yerində qılınsa kifayətdir.

**Qadın və kişilərin bir-birinin yanında namaz qılması:**

Məsələ 488. Qadın və kişinin namazda bərabər olmaması və qadının kişidən öndə dayanmaması kimi məsələlər Məkkəyi-mükərrəmədə izdiham olduğu hala aid deyildir. Yəni izdiham vaxtı naməhrəm qadın və kişi bir-birinin yanında namaza dayansalar (hətta təvaf namazı olsa belə), səhihdir.

**Təvaf namazını tərk etmək:**

Məsələ 489. Əgər mükəlləf təvaf namazının vacibliyindən agah olduğu halda onu bilərəkdən qılmazsa, həcci batildir.

Məsələ 490. Əgər mükəlləf təvaf namazını unudarsa və ya şəri hökmü bilmədiyinə görə yerinə yetirməzsə, məsələnin bir neçə forması var:

a) Səfa və Mərva arasında səy etdiyi zaman yadına düşərsə: səyi saxlamalı və Məqami-İbrahimin arxasında təvaf namazını qılmalıdır və sonra qayıdıb səyi qaldığı yerdən davam etdirməli və sona çatdırmalıdır.

b) Əgər səydən sonra və Məkkədən getməmiş yadına düşərsə: təvaf namazını yerinə yetirməlidir və digər əməlləri iadə etmək vacib deyildir, lakin ehtiyat-müstəhəbdir.

c) Məkkədən çıxdıqdan sonra yadına düşərsə: çox zəhmət və məşəqqətə səbəb olmayacaqsa, qayıtmalı və təvaf namazını qılmalıdır. Əgər çox zəhmət və məşəqqətə səbəb olacaqsa, olduğu yerdə təvaf namazını qılmalıdır və gücü çatsa belə Hərəmin ərazisinə daxil olması şərt deyildir.

**Nəcis bədən və ya paltarla namaz qılmaq:**

Məsələ 491. Əgər namaz qılan şəxs bədən və ya paltarının nəcis olduğunu bilmirdisə və namazdan sonra agah oldusa, beləki namazdan öncə paltar və ya bədəninin pak olduğuna arxayın idisə və ya nəcisliyinə şəkk etdiyi halda araşdırıb bir nəticəyə gəlməmişdisə, qıldığı namaz səhihdir.

Məsələ 492. Əgər namaz qılan şəxs öncədən paltar və ya bədəninin nəcis olduğuna dair şəkki olarsa, lakin araşdırma aparmayıb namaz qılarsa və





namazdan sonra nəcis olduğunu anlayarsa, ehtiyat-vacibə əsasən namazı yenidən qılmalıdır.

Məsələ 493. Əgər bədən və ya paltarının nəcis olduğunu unudarsa və namazdan sonra yadına düşərsə, namazı səhihdir və bir daha qılması lazım deyil. Lakin o şəxsin unutması öz səhlənkarlığına görə olarsa, ehtiyat-vacibə əsasən namazı yenidən qılmalıdır.

**Qiraəti səhih olmayan şəxsin vəzifəsi:**

Məsələ 494. Namazdakı qiraəti səhih olmayan bir şəxs onu təshih etməyi (düzəltməyi) bacararsa, bunu etməlidir. Əgər təshih etməyi bacarmazsa, onu həmd surəsinə uyğun vəzifəsi bu qayda ilədir:

a) Ondan daha artıq miqdarı səhih şəkildə oxumağı bacararsa: namazı bu keyfiyyətlə qılmaq onun üçün kifayətdir.

b) Ondan daha artıq miqdarı da səhih şəkildə oxumağı bacarmazsa: bacardığı miqdarı oxuması və yerdə qalan miqdarı isə Quranın ayələrindən səhih şəkildə bildiyi qədər qiraət etməsi ehtiyata uyğundur. Əgər Quranın ayələrindən səhih şəkildə bir şey bilməzsə, təsbih desin.

Əgər həmd surəsindən başqa bir surə bilməzsə və öyrənməyi də bacarmazsa, surə oxumaq ona vacib deyildir.

Məsələ 495. Namazın qiraətini öyrənməkdə səhlənkarlıq etmiş və müqəssir olan şəxsin öncəki məsələdə deyildiyi kimi etməsi, namazı camaatla qılması və həmçinin onun tərəfindən təvaf namazını qılması üçün naib tutması ehtiyat-müstəhəbdir.

Məsələ 496. Əgər qiraətinin səhih olmadığını bilmirdisə və namazdan sonra agah olsa, beləki sə-

hih namazı öyrənmək üçün üzrlü idisə qıldığı namaz səhihdir və yenidən qılması lazım deyildir. Lakin üzrlü deyildisə, səhih qiraəti öyrəndikdən sonra namazı bir daha qılmalıdır və bu şəxsin hökmü 490-cı məsələdə təvaf namazını unutmuş şəxsə aid qeyd olunmuş hökmlərdir.

Məsələ 497. Hacının təvaf namazını qılmağa imkanı olmazsa, onun tərəfindən qılması üçün naib tutmalıdır. Əgər naib tutmağa da imkanı olmazsa (huşsuz şəxs kimi), onun qəyyumu və ya başqa bir şəxs onun tərəfindən namazı qılmalıdır.

### Təvaf namazının müstəhəbləri:

Məsələ 498. Təvaf namazının birinci rəkətində həmd surəsindən sonra tovhid, ikinci rəkətində isə həmddən sonra kafirun surəsini oxumaq müstəhəbdir.

Məsələ 499. Namazdan sonra ilahi həmd və sənanı yerinə yetirmək və Peyğəmbər (s) və ailəsinə salavat göndərmək müstəhəbdir. Allahdan onun namazını qəbul etməsini istəməsi də müstəhəbdir.

Məsələ 500. Həzrət Sadiqdən (ə) nəql olunmuşdur ki, o həzrət (ə) təvaf namazından sonra səcdəyə getdi və belə buyurdu:

"Səcədə ləkə vəchi təəbbudən və riqqən la ilahə illa əntə həqqən həqqəl-əvvəlu qəblə kulli şəyin vəl-əxiru bədə kulli şəyin və ha ənə za bəynə yədəykə nasiyəti biyədikə fəğfirli innəhu la yəğfiruz-zənbəl-əzimə ğəyrukə fəğfirli fəinnəni muqirrun bizunubi əla nəfsi və lə yədfəuz-zənbəl-əzimə ğəyruk".

Məsələ 501. Təvaf namzından sonra və Səfaya getməmişdən öncə "zəmzəm suyundan" içmək və bu duanı oxumaq müstəhəbdir:





"Allahumməcəlhu ilmən nafiən və rizqən vasiən və şifaən min kulli dain və suqm"

### Səfa və Mərva arasında səy etmək:

Məsələ 502. Təməttö ümrəsinin vacib əməllərindən dördüncüsü Səfa və Mərva arasında səyy etməkdir.

Məsələ 503. Ümrənin sair əməlləri kimi Səfa və Mərva arasında səy də niyyət, qürbət qəsdi və ixlasla yerinə yetirilməlidir. Lakin hədəsdən və nəcisdən təharətli olmaq (dəstəmazlı və bədən ilə paltarın pak olması) şərt deyildir, amma səy edən şəxsin pak olması daha yaxşıdır.

Məsələ 504. Təvaf edən şəxsin paltarı üçün qeyd olunmuş şərtlər səydə mötəbər deyildir.

### Səyin zamanı:

Məsələ 505. Səy, təvaf və onun namazından sonra yerinə yetirilməlidir. Odur ki, səyi təvaf və ya onun namazından öncə yerinə yetirərsə, səyi bir daha həyata keşirməlidir.

Məsələ 506. Əgər unutqanlıq üzündən səyi təvaf və ya təvaf namazından öncə yerinə yetirərsə, 468-ci və 490-cu məsələdə qeyd olunmuş vəzifəyə uyğun əməl etməlidir.

### Təvaf namazı ilə səy arasında fasilə:

Məsələ 507. Səyi gecəyə kimi təxirə salmağın işkalı yoxdur (hətta səbəb olmasa belə), lakin təvaf namazından dərhal sonra yerinə yetirmək ehtiyat-müstəhəbdir. Amma səyi təvaf edilən gündən sonrakı günə (sabahsı günə) təxirə salmaq caiz deyildir.

Məsələ 508. Əgər səbəb olmadan səyi digər günə kimi təxirə salarsa, ehtiyat-vacibə əsasən təvafı və təvaf namazını da iadə etməlidir.

**Səyin keyfiyyəti:**

Məsələ 509. Səy yeddi dövrdən ibarətdir. Onun birinci dövrü Səfadan başlayır və yeddinci dövrü Mərvada sona çatır. Yəni Səfadan Mərvaya gedi-ləndə birinci dövr, Mərvadan Səfaya qayıdanda isə ikinci dövr tamamlanır. Bu qayda ilə yeddinic dövrə kimi davam edir.

Məsələ 510. Səyin hər bir dövründə Səfa və Mərva arasındakı məsafə qət olunmalıdır, lakin dağın yerdə qalan qayasının üstünə çıxmaq vacib deyildir.

Məsələ 511. Əgər səyin birinci dövrünü Mərvadan başlayarsa (hətta səhf etmiş olsa da), onu saxlamalı və yenidən Səfadan səyə başlamalıdır.

Məsələ 512. Səyi piyada yerinə yetirmək şərt deyildir, əksinə süvari halda da (məs... təkərli kürsü ilə) səy etmək caizdir. Lakin bu hal təkərli kürsünü özü idarə etdiyi duruma aiddir və başqasının onu sürdüyü hala şamil deyil. Amma hər bir halda piyada səy etmək daha fəzilətlidir.

Məsələ 513. Səfa və Mərva arasındakı səy hazırda mövcud olan və hamı tərəfindən bilinən yolda və məsafədə yerinə yetirilməlidir. Buna əsasən getdiyi və ya qatıtdığı zaman Məscidul-həramın içindən və Məsanın[1] xaricindən keçərsə, kifayət etməz. Lakin düz xətt boyunca hərəkət etmək lazım deyildir.

[1]Məsa- Səfa və Mərva arasında səy edilən məkanın adıdır.





Məsələ 514. Səfadan Mərvaya gedildiyi zaman üzü Mərvaya tərəf və Mərvadan səfaya qayıdıldığı zaman üzü Səfaya tərəf hərəkət edilməlidir. Odur ki, arxa-arxaya hərəkət etmək kifayət etmir. Lakin getmək və ya qayıtmaq zamanında üzünü sağa, sola və ya arxaya çevirməyin işkalı yoxdur.

**Yeni Məsada səy etmək:**

Məsələ 515. Hacıya Səfa və Mərva arasındaki məsafə kimi sabit olan (sabit olubsa) Məsaya artırılmış hissədə səy etməyin işkalı yoxdur. Bundan (sabit omadan) başqa halda hər bir dövrü Səfa dağından başlayıb Mərva dağında bitirməlidir. Lakin səy əsnasında yeni Məsadan keçmənin işkalı yoxdur, amma ehtiyat-vacibə əsasən ixtiyari olan halda bu iş kafi deyildir.

Məsələ 516. Səfa və Mərva arasındakı hüdudlara uyğun şəkildə yerin altında qalan hissədə səy etməyin işkalı yoxdur. Lakin yeni düzəldilmiş ən aşağı mərtəbədə səy etməyin hökmü öncəki məsələdə (515-ci məsələ) deyilən hökmdür.

Məsələ 517. Səfa və Mərva arasında olmayan və ondan yuxarı mərtəbələrdə səy etmək kafi deyildir.

**Səy etməkdə muvalat:**

Məsələ 518. Ehtiyat-vacibə əsasən səyi xalqın nəzərində ardıcıl və bir əməl hesab olunan şəkildə yerinə yetirmək lazımdır. Həmçinin təvafın hökmlərində qeyd olunduğu kimi Səfa və ya Mərvada və yaxud da onların arasında istirahət üçün oturmağın (qısa müddətdə) bir işkalı yoxdur. Lakin səy zamanı yorğun olmaqdan başqa hallarda oturmamaq ehtiyat-müstəhəbdir.

**Səydə naib olmaq:**

Məsələ 519. Səyi lazım olan vaxtda yerinə yetirə (hətta başqasının köməyi ilə belə) bilməyən şəxsin başqasından onu səy etdirməsini istəməsi vacibdir. Yəni onu ya belinə götürüb və ya təkərli kürsüyə oturdub səy etdirməlidir və əgər bunu da etməyi bacarmazsa, onun tərəfindən səy etməsi üçün naib tutmalıdır. Əgər naib tutmağı da bacarmazsa (məs... huşsuzdursa), onun qəyyumu və ya başqa bir şəxs onun tərəfindən səyi yerinə yetirməlidir və bu səy səhihdir.

Məsələ 520. Səyin bir hissəsini yerinə yetirməyi bacarıb yerdə qalan hissəsindən aciz olan şəxs və ya səyin bir qismini edib digər qisminə gücü çatmayan şəxsin, səyi davam etdirmək üçün naib tutması səhih deyildir. Əksinə naib səyi əvvəldən və kamil şəkildə yerinə yetirməlidir.

Məsələ 521. Başqasının köməyi ilə səy edən şəxsin səy əsnasında yuxuya getməsi səyin batil olmasına səbəb olur.

**Səyi kəsmək:**

Məsələ 522. Vacib namazı fəzilətli vaxtında qılmaq və ya camaat namazına çatmaq üçün səyi kəsməyin və namazdan sonra qaldığı yerdən səyi davam etdirməyin heç bir işkalı yoxdur.

Məsələ 523. Müəyyən bir işə görə və ya heç bir iş görmədən səyi kəsmək caizdir, lakin bu kəsmə muvalatın pozulmasına səbəb olarsa, ehtiyat-vacibə əsasən səyi tamamlamalı və bir daha yerinə yetirməlidir.

Məsələ 524. Əgər səyi kəsərsə və muvalat pozulmadığı halda səyi əvvəldən başlayarsa, ikinci başladığı səy də işkallıdır. Lakin cahili-qasirin (məsələni öyrənməyə imkanı olmamış şəxsin) hökmü istisnadır.





Məsələ 525. Əgər səyi kəsərsə və ondan tamamilə ayrılarsa, muvalatın pozulmasından sonra bir daha əvvəldən səy etsə, səhihdir.

**Səyi iadə etmək:**

Məsələ 526. Təvafın şərtlərindən birini unutmaq səbəbi ilə təvafının batil olduğunu bilən şəxs, təvafı yerinə yetirdikdən sonra səyi də iadə etməsi vacib deyil. Lakin şəri hökmdən agah olmadığı üçün təvafı batil olmuşdursa, təvafı yerinə yetirdikdən sonra səyi də iadə etməlidir.

Məsələ 527. Əgər səydən sonra təvaf və təvaf namazını batil dəstəmazla yerinə yetirmiş olduğunu bilərsə, təvaf və təvaf namazını bir daha həyata keçirdikdən sonra səyi də yenidən etməlidir.

**Səyi tərk etmək:**

Məsələ 528. Səy etmək ümrə və həccin əsaslarındandır və onu tərk etməyin hökmü aşağıdakı qayda ilədir:

a) Səyi Ərəfə gününün zöhrünə kimi bilərəkdən tərk edərsə: həcci batildir. Bu hökmdə səyin vacib olmasını bilməsi ilə bilməməsi və ya səyin necə bir əməl olduğunu bilməsi ilə bilməməsi və yaxud da səyin yerini bilməsi ilə bilməməsi arasında heç bir fərq yoxdur.

b) Unutqanlıq üzündən səyi yerinə yetirməzsə: yadına düşdüyü zaman yerinə yetirməlidir. Hətta həcc əməlləri sona çatsa belə yadına düşən kimi yerinə yetirməlidir. Əgər özü səyi yerinə yetirməyi

bacarmazsa və ya çox zəhmət və çətinliyə səbəb olacaqsa, naib tutmalıdır. Qeyd olunan hər iki halda (səyi özü etsə və ya naib tutsa) onun həcci səhihdir.

**Səyin batil olması:**

Məsələ 529. Əgər hacı bir neçə gündən sonra səyinin batil olduğunu bilərsə, onu iadə etməlidir və bu halda təvaf və təvaf namazının yenidən yerinə yetirilməsi vacib deyildir.

Məsələ 530. Əgər təqsir etdikdən sonra səyinin batil olduğunu bilərsə, təqsir və səyi yenidən yerinə yetirməlidir və ümrənin əməlləri qurtarana qədər ehramın muhərrəmatından özünü qorumalıdır.

Məsələ 531. Əgər zilhiccə ayı bitdikdən sonra təməttö və ya həcc ümrəsinin səyinin batil olduğunu bilərsə, həcci batildir.

Məsələ 532. Əgər həccə ehram bağladıqdan sonra təməttö ümrəsinin səyinin batil olduğunu bilərsə, həcc ehramı da batil olacaq və səy ilə təqsiri yenidən yerinə yetirməlidir.

**Səyi artıqmaq:**

Məsələ 533. Səyin dövrlərinin sayı yeddidir və onu artıqmağın hökmü aşağıdakı qayda ilədir:

a)Şəri hökmdən agah olduğu halda bilərəkdən artırarsa: səyi batildir.

b) Şəri hökmdən agah olmadığına görə və məsələni bilməməyində üzrlü olarsa: səyi batil deyildir, lakin bir daha səy etməsi ehtiyat-müstəhəbdir. Amma məsələni bilməməyində üzrlü olmazsa, ehtiyat-vacibə əsasən səyi batildir.

c) Səhf edərək artırarsa: səyi batil deyildir, lakin əlavə etdiyi miqdar bir dövr və ya daha çox olarsa,





onu yeddi dövrə çatdırmaqla ikinci səyi tamam etməsi müstəhəbdir. Məsələn, doqquzuncu və ya ondan sonrakı dövrdə olduğu zaman artıq yerinə yetirdiyindən agah olarsa, səyi əlavə yeddi dövrə çatdırması müstəhəbdir. Bu halda səy Səfada tamamlanacaqdır.

**Səyi azaltmaq:**

Məsələ 534. Əgər səyi yeddi dövrdən az yerinə yetirərsə, onun hökmü aşağıdakı qayda ilədir:

a) İstər şəri hökmdən agah olsun, istərsə də olmasın səyi bilərəkdən az yerinə yetirərsə: 528-ci məsələdə səyi bilərəkdən tərk edən şəxsin hökmünə əməl etməlidir.

b) Səhf edərək yeddi dövrdən az yerinə yetirərsə: yadına düşdüyü zaman çatışmamazlığı aradan qaldırmalıdır. İstər bir dövr etməmiş olsun, istərsə də bir neçə dövr yadından çıxarsa, çatışmamazlığı aradan qaldırmalıdır. Amma əgər vaxtın keçməsindən sonra yadına düşərsə, ehtiyata əsasən həm çatışmamazlığı aradan qaldırmalı, həm də yenidən səy etməlidir. Məsələn, Ərəfatda vüquf etdiyi zaman təməttö ümrəsinin səyindəki çatışmamazlıq yadına düşərsə və ya zilhiccə ayı bitdikdən sonra həccinin səyindəki çatışmamazlıq yadına düşərsə, çatışmamazlığı aradan qaldırmalı və bir daha səy etməlidir. Əgər özü səy etməyi bacarmazsa və ya çox zəhmət və məşəqqətə səbəb olarsa, naib tutmalıdır.

Məsələ 535. Əgər unutqanlıq üzündən təməttö ümrəsinin səyini yeddidən az yerinə yetirərsə və səyi kamil etdiyi gümanı ilə ehramdan xaric olarsa, ehtiyat-vacibə əsasən bir inək kəffarə verməli və ön-

cəki məsələdə qeyd olunmuş tərtiblə səyin çatışmamazlığını da aradan qaldırmalıdır.

**Səy etməyə məxsus şəklər:**

Məsələ 536. Səy əsnasında onun dövrlərinin sayında şəkk etməyin hökmü təvafdakı dövrlərin sayında şəkk etməyin hökmü kimidir və səy batildir.

Məsələ 537. Səyi tamamladıqdan və vaxtı keçdikdən sonra onun dövrlərinin sayındakı və ya onun səhih olub-olmamasındakı şəkkin heç bir mənası yoxdur və səyi səhihdir. Məsələn, təməttö ümrəsində təqsirdən sonra belə bir şəkk yaranarsa və ya nisa təvafına başladıqdan sonra (və yaxud da ondan sonra) həccin əməllərinə dair şəkk meydana gələrsə, bu kimi şəklərə etina olunmamalıdır.

Məsələ 538. Səyi tamamladıqdan sonra çox etmiş olduğuna ehtimal verərsə, səhih yerinə yetirdiyinə hökm olunacaq. Əgər muvalat pozulmadığı halda az etmiş olduğuna dair ehtimal verərsə, səyi batildir və həmçinin muvalat pozulduqdan sonra da bu ehtimalı verərsə, ehtiyata əsasən səyi batildir.

Məsələ 539. Əgər sonda çox etmiş olduğuna dair ehtimal verərsə, yəni Mərvaya çatmamış bu dövrünün yeddinci və ya doqquzuncu olduğuna şəkk edərsə, səyi batildir və onu yenidən yerinə yetirməlidir.

Məsələ 540. Əgər səyin səhihliyində və ya səyin dövrlərinin sayında şəkr edərsə və bu tərəddüd halında səyi davam etdirib sonradan onun səhih olduğunda yəqinə çatarsa (yəni yerinə yetirdiyinin düz olduğunu anlayarsa), səyi səhihdir.

**Səy etməkdə güman:**

Məsələ 541. Səy etməkdəki güman arxayınlıq həddinə çatmazsa, şəkk hökmünə sahibdir.





Səy etməkdə kəsiruş-şəkkin vəzifəsi:

Məsələ 542. Səydə çox və adi həddən artıq şəkk edən şəxs, öz şəkkinə fikir verməməlidir (etina etməməlidir).

**Səyin müstəhəbləri:**

Məsələ 543. Səfa və Mərva arasındakı səy zamanında aşağıdakı əməllər müstəhəbdir:

1) Aram halda və vüqarla Səfa tərəfə hərəkət etsin.

2) Səfaya çatdığı zaman üzü Həcərul-əsvədə tərəf dayansın və Kəbəyə baxsın, sonra Allaha həmd və səna etsin və ilahi nemətləri yadına salsın, sonra da bu zikrləri desin:

“Allahu əkbər” -yeddi dəfə

“Əlhəmdu lillah”- yeddi dəfə

“La ilahə illəllah”- yeddi dəfə

“La ilahə illəllahu vəhdəhu la şərikə ləh, ləhul-mulku və ləhul-həmd, yuhyi və yumitu və huvə həyyun la yəmutu biyədihil-xeyr və huvə əla kulli şeyin qadir”- yeddi dəfə

Sonra Peyğəmbər (s) və ailəsinə salavat göndərsin və ondan sonra üç dəfə desin:

“Allahu əkbər əla ma hədana vəl-həmdu lillahi əla ma əblana vəl-həmdu lillahil-həyyil-qəyyumi vəl-həmdu lillahil-həyyid-daim”.

Sonra üç dəfə desin:

“Əşhədu ən la ilahə illəllah və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluh, la nəbudu illa iyyahu muxlisinə ləhud-dinə və ləv kərihəl-muşrikun”.

Sonra üç dəfə desin:

"Allahummə inni əsəlukəl-əfvə vəl-afiyətə vəl-yəqinə fid-dunya vəl-əxirah".

Sonra üç dəfə desin:

"Allahummə atina fid-dunya həsənətən və fil-əxirati həsənətən və qina əzabən-nar". Sonra yüz dəfə "Allahu əkbər", sonra yüz dəfə "la ilahə illəllah", sonra yüz dəfə "Əlhəmdu lillah", sonra yüz dəfə "Subhənəllah" desin. Bu zikrlərdən sonra sonra aşağıdakı duanı oxusun:

"La ilahə illəllah vəhdəhu vəhdəh, əncəzə vədəhu və nəsərə əbdəh, və ğələbəl-əhzabə vəhdəh, fələhul-mulku və ləhul-həmdu vəhdəh. Allahummə barikli fil-məvti və fima bədəl-məvt, Allahummə inni əuzu bikə min zulmətil-qəbri və vəhşətih, Allahummə əzillini fi zilli ərşikə yəvmə la zillə illa zillək".

Və dinini, özünü və əhli-əyalını allaha tapşırsın və bu işi çox etsin, sonra desin:

"Əstəvdiullahər-rəhmanər-rəhiməlləzi la təziu və daiuhu dini və nəfsi və əhli, Allahumməstəmilni əla kitabikə və sunnəti nəbiyyikə və təvəffəni əla millətihi və əizni minəl-fitnəh".

Sonra üç dəfə "Allahuəkbər" desin və ardınca onu (öncəki duanı) iki dəfə yerinə yetirsin. Sonra bir dəfə təkbir desin və ardınca bir daha onu yerinə yetirsin. Bunların hamısını etməyi bacarmazsa, imkanı olan qədərini həyata keçirsin.

Əmirul-mumunindən (ə) nəql olunmuşdur ki, o həzrət (ə) Səfanın üzərində dayandığı zaman Kəbəyə tərəf baxardı və iki əlini qaldırıb belə buyurardı:

"Allahumməğfirli kullə zənbin əznəbtuhu qət, fəin udtu fəud aləyyə bil-məğfirəh, fəinnəkə əntəl-ğəfurur-rəhim, Allahumməfəl bi ma əntə əhluh, fəinnəkə in təfəl bi ma əntə əhluhu tərhəmni və in





tuəzzibni fəəntə ğəniyyun min əzabi və ənə muhtacun ilə rəhmətik, fəya mən ənə muhtacun ilə rəhmətihi irhəmni. Allahummə la təfəl bi ma ənə əhluhu fəinnəkə in təfəl bi ma ənə əhluhu tuəzzibni və ləm təzlimni əsbəhtu ittəqi ədləkə və la əxafu cəvrək, fəya mən huvə ədlun la yəcur, irhəmni".

-Səy halında ağlamaq və özünü ağlatmağa çalışmaq müstəhəbdir.

-Səy halında Allahı çox çağırsın və Onun pənahına ehtiyaclı olduğunu izhar etsin (dilə gətirsin).

Məsələ 544. Səy halında aram və vüqarla yol getmək müstəhəbdir və həmçinin yaşıl rəngli çıraqlarla müəyyən olunmuş iki yaşıl rəngli xəttin arasında (öncələr birinci və ikinci minarə arasındakı məsafə idi) asta sürətlə qaçaraq səy etmək də müstəhəbdir. Digər dövrlərdə də bu iş müstəhəbdir.

Məsələ 545. Öncəki məsələdə qeyd olunmuş məsafədə və asta şəkildə qaçaraq səy etmək qadınlara müstəhəb deyildir.

Məsələ 546.Səfada yerinə yetirilən işlərin Mərvada da həyata keçirilməsi müstəhəbdir.

## Təqsir:

Məsələ 547. Təməttö ümrəsinin beşinci və sonuncu əməli təqsirdir. Yəni baş, saqqal və bığın tükündən bir miqdar kəsməkdir.

Məsələ 548. Ehtiyat-vacibə əsasən təqsirdə dırnağı tutmaqla kifayətlənmək olmaz və tükün kəsilməsindən öncə dırnaq tutulmamalıdır.

Məsələ 549. Təqsir etmək üçün tükü yalnız qoparmaq kafi deyildir.

Məsələ 550. Təməttö ümrəsinin təqsirində başın tükünü təraş etmək kifayət etmir, əksinə onu təraş

etmək haramdır və bilərəkdən təraş edərsə, bir qoyun kəffarə verməlidir. Hətta bilərəkdən olmasa belə kəffarə verməsi ehtiyat-müstəhəbdir.

Məsələ 551. Təqsirin zamanı səy tamamlandıqdan sonradır və ondan öncə caiz deyildir.

Məsələ 552. Səydən dərhal sonra təqsir etmək vacib deyildir və onu təxirə salmağın işkalı yoxdur. Amma təqsir edib ehramdan xaric olmadığı müddətdə muhrimə haram olan işlər ona da haramdır.

## Təqsirin məkanı:

Məsələ 553. Təqsir üçün müəyyən məkan yoxdur və istədiyi yerdə onu yerinə yetirə bilər. İstər səyin məkanında olsun, istər öz evində və istərsə də başqa yerdə olsun təqsir etmək caizdir.

## Təqsirin tərki:

Məsələ 554. Təməttö ümrəsində təqsiri tərk etməyin hökmü bu qayda ilədir:

a) Əgər bilərəkdən təqsiri tərk edib həcc ehramı ilə muhrim olarsa: ümrəsi batildir və onun həcci ifrad həccinə çevrilir. Buna əsasən də ifrad həccini yerinə yetirdikdən sonra gücü çatarsa, müfrəd ümrə də həyata keçirməlidir. Növbəti ildə bir daha həcc yerinə yetirməsi də ehtiyata uyğundur.

b) Təqsiri unudar və həcc ehramı ilə muhrim olandan sonra yadına düşərsə: ümrəsi səhihdir və həccinin ehramı da səhihdir, lakin bir qoyun kəffarə verməsi ehtiyat-müstəhəbdir.

## Başqaları üçün təqsir:

Məsələ 555. Özü təqsir etməmiş şəxs başqasını təqsir edə bilməz. Yəni başqasının tükünü kəsə bilməz və bu cür təqsir digər şəxs üçün də kafi deyildir.





## Təqdimi səydən qabağa salmaq:

Məsələ 556. Əgər murim olan şəxs təməttö ümrəsində səydən öncə təqsir edərsə, onun hökmü aşağıdakı qayda ilədir:

a) Şəri hökmdən agah olduğu və ya olmadığı halda bilərəkdən edərsə: səyi yerinə yetirməli və təqsiri iadə etməlidir. Əgər tükü qoparmadan kəsmişdirsə, günah etməsinə baxmayaraq kəffarə yoxdur.

b) Unutqanlıq üzündən edibsə: səyi yerinə yetirməlidir və ehtiyat-vacibə əsasən təqsiri iadə etməlidir. Ehtiyat-vacibə görə bir inək kəffarə də verməlidir.

## Təməttö ümrəsinin ehramından xaric olmaq:

Məsələ 557. Təməttö ümrəsində tükü azaltdıqdan sonra ehram səbəbi ilə muhrimə haram olmuş bütün işlər halal olur. Hətta başı təraş etdirmək də halal olur, lakin onu təraş etdirməmək ehtiyat-müstəhəbdir. Əgər şəri hökmdən agah olduğu halda və bilərəkdən təraş edərsə, bir qoyun kəffarə verməsi ehtiyat-müstəhəbdir.

## Nisa təvafı:

Məsələ 558. Təməttö ümrəsində nisa təvafı vacib deyildir. Lakin onu rəca qəsdi ilə və ya ona (həqiqətdə) vacib olan bir əməl kimi yerinə yetirərsə, işkalı yoxdur.

## Təməttö ümrəsinin təqsirindən həccin ehramına kimi:

Məsələ 559. Təməttö ümrəsinin əməlləri sona çatandan sonra ehtiyat-vacibə əsasən hacı həcdən başqa heç bir şey üçün Məkkə şəhərindən çıxma-

malıdır. Lakin hər hansı bir ehtiyaca görə (zərurət olmasa belə) və həccin əməllərinə çatacağına aid qorxusu olmayan halda həccin ehramı ilə muhrim olmadan Məkkədən çıxa bilər.

Məsələ 560. Həccin əməllərini yerinə yetirmək üçün Məkkəyə qayıda biləcək şəxsin təməttö ümrəsindən sonra Məkkədən çıxmasının işkalı yoxdur, lakin çıxmaması ehtiyat-müstəhəbdir.

Məsələ 561. Məkkədən xaric olmaq deyildikdə şəhərdən kənara çıxmaq nəzərdə tutulur. Şəhərin yeni küçələri də bura aiddir. Odur ki, bir şəxs Məkkənin köhnə məntəqəsində sakindirsə və yeni küçələrə gedərsə, işkalı yoxdur.

Məsələ 562. Əgər hacı təməttö ümrəsindən sonra Məkkədən xaric olarsa və ümrənin əməllərini yerinə yetirdiyi ayda Məkkəyə qayıdarsa, yenidən muhrim olması vacib deyildir. Lakin həmin ayda qayıtmazsa, yəni təməttö ümrəsini zilqədə ayında etmiş və Məkkəyə zilhiccə ayında qayıtmışdırsa, məsələnin iki forması vardır:

a) Əgər Məkkədən bir daha çıxmaq qəsdi vardırsa: muhrim olmalıdır və müfrəd ümrə yerinə yetirməlidir və axırıncı halda təməttö ümrəsini həyata keçirməlidir.

b) Əgər Məkkədən bir daha çıxmaq qəsdi yoxdursa: muhrim olmalıdır və yenidən təməttö ümrəsini yerinə yetirməlidir.

Məsələ 563. Təməttö ümrəsinin təqsirindən sonra başı təraş etdirməyin işkalı yoxdur. Lakin fitr bayramından 30 gün keçmişdirsə, başını təraş etdirməməsi ehtiyat-müstəhəbdir və əgər təraş edərsə, bir qoyun kəffarə verməsi ehtiyat-müstəhəbdir.





**Təməttödən ifrada keçmək (üdul etmək)**

Məsələ 564. Həcc və ya ümrənin bir növü ilə ehram bağlamamış şəxs, başqa bir növə keçə bilməz. Məsələn, təməttö ümrəsi ilə ehram bağlamış şəxsin müfrəd ümrəyə keçməsi və ya əksinə etməsi icazəli deyildir. Müfrəd ümrədən ifrad həccinə keçmək də eyni hökmdədir, lakin qarşıda qeyd olunacaq bəzi istisna hallar vardır.

Məsələ 565. Vəzifəsi təməttö həcci olan şəxsin ifrad həccinə keçməsi caiz deyildir, lakin təməttö ümrəsinin əməllərinə başlamış və onu sona çatdırmaq üçün vaxtı az qalmış şəxs təməttö ümrəsinin niyyətindən ifrad həccinə keçəcək və ifrad həccinin əməllərindən sonra müfrəd ümrə də yerinə yetirəcəkdir.

Məsələ 566. Təməttö ümrəsinin vaxtının az qalmasının son həddi, Ərəfə gününün zöhrünə kimidir.

Məsələ 567. Boynunda təməttö həcci müstəqər olan şəxs, təməttö ehramından öncə Ərəfə gününün zöhrünə qədər ümrə əməllərini yerinə yetirməyi çatdırmayacağını bilərsə, ifrad və ya qiran həccinə üdul etməsi kafi deyildir. Əksinə növbəti ildə təməttö həccini yerinə yetirməlidir.

Məsələ 568. Vaxtın geniş olduğu halda təməttö ümrəsinin ehramı ilə muhrim olmuş şəxs Ərəfə gününün zöhrünə qədər bilərəkdən onun əməllərini yerinə yetirməzsə, ümrəsi batildir və ifrad həccinə üdul etmək onun üçün kafi deyildir. Lakin onun əməllərini rəca qəsdi ilə yerinə yetirməsi ehtiyat-müstəhəbdir. Beləki təvafı, təvaf namazını, səyi, təqsir və ya həlqi, ifrad həccindən və ya müfrəd ümrədən daha ümumi niyyət ilə yerinə yetiməsi ehtiyat-müstəhəbdir.

Məsələ 569. Həcc aylarında ümrə yerinə yetirmiş şəxs zilhiccə ayının səkkizinci gününə kimi Məkkədə qalarsa və təməttö həccini yerinə yetirmək istəyərsə, onun ümrəsi təməttö ümrəsinə çevrilir və ondan sonra təməttö həccini yerinə yetirə bilər.



# Beşinci fəsil

## TƏMƏTTÖ HƏCCININ ƏMƏLLƏRI

## Həccin ehramı:

Məsələ 570. Öncədən qeyd olunmuşdu ki, həccin 13 əməlindən birincisi ehramdır və onunla ümrə ehramı arasında, həmçinin onun vacib və haramları ilə digər ehramların vacib və haramları arasında (niyyətindən başqa heç bir şeydə) fərq yoxdur.

## Həcc ehramının zamanı:

Məsələ 571. Təməttö həccinin ehramının zamanı, təməttö ümrəsinin təqsirindən sonra başlayaraq Ərəfə gününün zöhrünə qədərdir.

Məsələ 572. Təməttö həccinin ehramının ən gözəl zamanı zilhiccə ayının səkkizinci gününün zöhrüdür. Qoca və xəstə olan şəxslər, insanların sıxlığından qorxduqlarına görə həmin vaxtdan və digər şəxslərdən öncə muhrim olaraq Məkkədən çıxa bilərlər və bu iş caizdir.

Məsələ 573. Qeyd olunmuş vaxtdan üç gün tez və ya daha tez həcc üçün ehram bağlamaq caizdir. Ərəfə günündə Ərəfatdakı ixtiyari vüquf vaxtına özünü çatdıra biləcək şəxsin həcc ehramını təxirə salması və vüquf vaxtının tamamına özünü çatdırmaması caiz deyildir.

## Həcc ehramının məkanı:

Məsələ 574. Həcc ehramının məkanı Məkkəyi-mükərrəmədir və onun ən gözəl yeri Məscidul-həramdır. Məqami-İbrahimin (ə)və ya Hicri-İsmailin (ə) yanında iki rəkət namaz qıldıqdan sonra muhrim olmaq müstəhəbdir. Məkkənin yeni küçələri şəhərin bir hissəsi hesab olunarsa, (orada muhrim olmağın) işkalı yoxdur, lakin Hərəmdən xaricdə olan məntəqələr şəhərə aid deyildir.





## Həcc ehramını tərk etmək:

Məsələ 575. Həccin ehramını tərk etmiş şəxsin hökmü bu qayda ilədir:

a) Həccin vacibliyindən agah olduğu halda və bilərəkdən Ərəfatdakı vüquf tamam olana kimi muhrim olmazsa: həcci batildir.

b) Şəri hökmdən agah olmadığına görə və ya unutqanlıq üzündən muhrim olmazsa və Məkkədən xaric olarsa: Məkkəyə qayıtması və orada muhrim olması vacibdir. İstər Ərəfatda vüquf zamanı olsun, istərsə də ondan sonra hökm eynidir. Əgər qayıtmağı bacarmazsa, olduğu yerdə ehram bağlamalıdır. Əgər həcc əməlləri sona çatana qədər yadına düşməzsə, həcci səhihdir.

## Vüqufdan Ərəfata qədər olan ehramın müstəhəbləri:

Məsələ 576. Ümrənin ehramında qeyd olunmuş bütün müstəhəblər həccin ehramına da şamildir. Odur ki, "ləbbeykləri" təkrarlamaq da müstəhəbdir və Əbtəhə[1] çatılan zaman uca səslə "ləbbeyk" demək də müstəhəbdir.

Məsələ 577. Ərəfə gününün gecəsini Minada keçirmək müstəhəbdir[2]. O gecə boyunca ilahi itaətlə məşğul olmaq, ibadət etmək və məxsusən namazları "Xif məscidində" qılmaq müstəhəbdir. Sübh namazından gün çıxana kimi təbəiyyətlə məşğul olması və

---

[1]Əbtəh- Mina yolunda və Hiccun (Əbu Talib) qəbirsanlığından bir qədər sonra yerləşən məkanın adıdır.

[2]Ərəfə gününün gecəsini Minada qalmaq vacib deyildir, lakin müstəhəbdir. Amma hazırkı illərdə insanların çoxluğu, yolların dolu olması, Ərəfata çata bilməmək qorxusu və digər problemlərə görə zəvvarlardan çoxusu Minaya getmirlər.

sonra Ərəfata yola düşməsi müstəhəbdir. Əgər gün çıxmamışdan öncə də Minadan xaric olarsa, işkalı yoxdur.

Məsələ 578. Minaya yola düşdüyü zaman müstəhəbdir ki, belə desin:

"Allahummə iyyakə ərcu və iyyakə əduu fəbəlliğni əməli vəslihli əməli".

Sonra aram və vüqarlı şəkildə Mina tərəfə getsin və yol boyunca da Haqq-təalanın zikri ilə məşğul olsun. Minaya çatdığı zaman belə desin:

"Əl-həmdu lillahilləzi əqdəməniha salihən fi afiyətin və bəlləğəni hazəl-məkan".

Sonra desin:

"Allahummə hazihi Mina və hiyə mimma mənəntə bihi aləyna minəl-mənasik, fəəsəlukə ən təmunnə aləyyə bima mənəntə əla ənbiyaik, fəinnəça ənə əbdukə və fi qəbzətik".

Məsələ 579. Minadan Ərəfata yola düşdüyü zaman bu duanı oxusun: "Allahummə iləykə səmədtu və iyyakə itəmədtu və vəchəkə ərədtu, əsəlukə ən tubarikə li fi rihləti və ən təqziyəli hacəti və ən təcəlni mimmən tubahi bihil-yəvmə mən huvə əfzəlu minni ".

Sonra Ərəfata çatana kimi "lebbeyk" desin.

## Ərəfatda vüquf:

Məsələ 580. Həccin vacib əməllərindən ikincisi Ərəfatda vüquf etməkdir. Yəni istər piyada olsun, istər süvari və yaxud istər oturmuş halda olsun, istərsə də hərəkət edən halda Ərəfatda hazır olmalıdır.

Məsələ 581. Vüquf niyyət ilə edilməlidir və əgər vüquf vaxtının əvvəlində onu qəsd edib vaxtın axırına kimi yatarsa və ya huşsuz olarsa, kifayətdir.





Məsələ 582. Ərəfatda yerləşən "Həblur-rəhmətin (rəhmət dağı)" üzərində vüquf etməyin işkalı yoxdur, lakin onun sol tərəfində yerləşən dağın ətəyində vüquf etmək daha fəzilətlidir.

## Vüqufun zamanı:

Məsələ 583. Zilhiccənin doqquzuncu gününün zöhründən ğüruba kimi Ərəfatda olmaq vacibdir. Lakin bir qusl almaq və ya zöhrlə əsr namazını (fasiləsiz) qılmaq miqdarında vaxtın əvvəlini gecikdirərsə, işkalı yoxdur. Amma bu miqdarı da gecikdirməməsi ehtiyat-müstəhəbdir.

Məsələ 584. Vüquf zöhrdən ğüruba kimidir və bir şəxs onu tərk edərsə günahkardır, lakin rukn sayılan vüqufun miqdarı bu zamandan daha azdır. Ona görə də bir şəxs vüqufun bir hissəsini tərk edərsə, amma vüquf vaxtının bir miqdarında Ərəfatda olarsa həcci batil olmur.

Məsələ 585. Əgər hacı ixtiyari surətdə və kamil şəkildə Ərəfatdakı vüqufu tərk edərsə, həcci batildir.

## Ərəfatın iztirari (çarəsizlik halındakı) vüqufu:

Məsələ 586. Əgər hacı unutqanlıq və ya şəri hökmü bilməmək (əgər onu öyrənməkdə səhlənkarlıq etməmişdirsə) kimi üzrlü səbəblərə görə Ərəfatdakı vüqufu kamil surətdə tərk edərsə, iztirari vüqufu yerinə yetirməsi vacibdir. Yəni qurban bayramının gecəsindən bir miqdarını vüquf niyyətilə Ərəfatda qalmalıdır və bu halda iztirari vüqufu etdiyi üçün onun həcci səhihdir.

Məsələ 587. Üzrlü səbəbdən Ərəfatdakı ixtiyari vüqufu tərk edən şəxs, iztirari vüqufa görə Ərəfata getməyi nəticəsində Məşərul-həramdakı vüqufa çat-

mayacağından (yəni sübh azanından öncə Məşərə çatmayacağından) qorxarsa, Məşərul-həramdakı vüqufla kifayətlənməsi vacibdir və həcci səhihdir.

**Ərəfatdakı vüqufun müstəhəbləri:**

Məsələ 588. Ərəfatda vüquf zamanı bir çox əməllər müstəhəbdir. Onlardan bəzisi aşağıdakılardan ibarətdir:

1) Təharətli olmaq

2) Zöhr vaxtı qusl etmək

3) Özünü dua və uca Allaha olan diqqətə həsr etməsi

4) Dağın sol və aşağı tərəfində vüquf etməsi

5) Bir azan və iqamə ilə zöhr və əsr namazlarını ardıcıl qılmaq

6) Bacardığı qədər dua etməsi müstəhəbdir. İstər Məsumlardan (ə) bizə çatmış dualar olsun, istərsə də başqa duanı oxuması müstəhəbdir. Lakin onlardan (ə) bizə çatmış duaları oxumaq daha fəzilətlidir. Həmin dualardan biri də İmam Huseynin (ə) Ərəfə günündə etdiyi duadır.

**Ərəfatdan köçmək (çıxmaq):**

Məsələ 589. Şəri hökmdən agah olduğu halda və bilərəkdən günəşin ğürub etməsindən öncə Ərəfatdan çıxmaq haramdır, lakin həcci batil etmir.

Məsələ 590. Əgər hacı şəri hökmdən agah halda və bilərəkdən ğürubdan öncə Ərəfatdan çıxarsa, günah etmişdir. Lakin ğürubdan öncə Ərəfata qayıtmalıdır və kəffarəsi yoxdur. Amma qayıtmazsa, bir dəvə kəffarə verməlidir və əgər kəffarə (dəvə) verməyi bacarmazsa, on səkkiz gün oruc tutmalıdır.





Məsələ 591. Ərəfatı ğürubdan öncə tərk etməyin kəffarəsini qurban bayramı günündə və ehtiyat-vacibə əsasən Minada kəsməlidir.

Məsələ 592. Ərəfatı tərk etməyin əvəzində tutulan on səkkiz gün orucu Məkkədə və ya Məkkədən qayıtdığı zaman yolda və və yaxud da öz yaşadığı yerdə tutmalıdır. Onları ardıcıl günlərdə tutmaq ehtiyat-müstəhəbdir.

Məsələ 593. Əgər unutqanlıq və ya nadanlıq üzündən ğürubdan öncə Ərəfatdan çıxarsa və ğürub olmamış məsələdən agah olarsa, qayıtmağı bacardığı halda qayıtmalıdır və əgər qayıtmazsa, ehtiyat-vacibə əsasən kəffarə verməlidir.

**Məşərul-həramda vüquf:**

Məsələ 594. Həccin vacib əməllərindən üçüncüsü Məşərul-həramda vüquf etməkdir.

Məsələ 595. Məşərul-həramda vüquf etmək Ərəfatın vüqufunda deyildiyi kimi niyyət, qürbət qəsdi və ixlasla olmalıdır.

Məsələ 596. Həccin ibadətlərini yerinə yetirən şəxs Ərəfatdan çıxıb hərəkətə başladıqdan sonra bayram gecəsinin bir miqdarını sübhə kimi Məşərul-həramda qalmalıdır və gün çıxana kimi orada qalması ehtiyata uyğundur. Amma gün çıxmamışdan bir qədər öncə Məşərdən “Vadiyi-muhəssərə” tərəfə hərəkət edərsə, işkalı yoxdur. Lakin gün çıxmamışdan öncə “Vadiyi-muhəssərdən” keçib Minaya daxil olması caiz deyildir.

Məsələ 597. Öncəki məsələdə qeyd olunmuş zamanın tamamında vüqufun vacib olmasına baxmayaraq onun tamamı rukn deyildir. Rukn miqdarı o vaxtın bir qədəridir (az olsa da belə). Buna əsasən də

qurban gecəsinin bir miqdarını orada olsa və sübh azanından öncə oradan hərəkət edərsə, həcci batil deyildir. Lakin hökmü bildiyi və üzrsüz halda bu işi görərsə, bir qoyun kəffarə verməlidir. Əgər hökmü bilmədiyinə görə etmişdirsə, kəffarəsi yoxdur.

Məsələ 598. Əgər hacı vaxtın tamamını Məşərul-həramda olmazsa və yalnız sübh azanı ilə gün çıxan vaxtın arasında orada qalarsa (hətta bunu bilərəkdən etsə də), günahkar olmasına baxmayaraq həcci səhihdir və kəffarə yoxdur.

Məsələ 599. Ərəfatdan Məşərul-hərama getmək vacib deyildir. Buna görə də əgər hacı ğürubdan sonra Ərəfatı tərk edib Məkkəyə və ya başqa yerə gedərsə və sübh azanından öncə Məşərul-hərama qayıdarsa, işkalı yoxdur.

### Gün çıxmamışdan öncə Məşərdən xaric olmaq üçün icazəli kəslər:

Məsələ 600. Qurban gecəsində gün çıxanadək Məşərdə qalmağın vacib olmasına baxmayaraq bəzi şəxslər sübh azanından qabaq Məşərul-həramdan çıxıb Minaya gedə bilərlər. Onlar aşağıdakılardan ibarətdir:

* Qorxusu olan kəslər
* Qadınlar
* Uşaqlar
* Qoca və xəstə kimi zəif və gücsüz şəxslər
* Yuxarıdakı işləri idarə etməyi öhdəsinə alan şəxslər

Məsələ 601. Öncəki məsələdə qeyd olunmuş şəxslər, niyyət edərək kiçik bir dayanma ilə və ya vüquf niyyəti edərək oradan keçmək (hətta süvari halda da) ilə də Məşərul-həramda vüquf etmiş sayılırlar.





Məsələ 602. Qadınların, uşaqların və ya gücsüz şəxslərin idarəçiliyini öz öhdəsinə almış şəxslər, onların köməyinə ehtiyac olduğu üçün sübh azanından sonra vüqufu etməyə (yerinə yetirməyə) bilərlər. Buna görə də onları (gücsüzləri) Minaya çatdıran zaman köməyə ehtiyac olmazsa və bu öhdədar şəxslər Məşərə qayıtmağı bacarsalar, oraya qayıtmalıdırlar.

### Məşərul-həramdakı vüqufu tərk etmək:

Məsələ 603. Məşərul-həramdakı vüqufun bir hissəsini tərk erməyin hökmü 597-ci məsələdə qeyd olundu. Lakin bu vüquf tamamilə tərk olunarsa, onun hökmü aşağıdakı qayda ilədir:

- Bilərəkdən edərsə: həcci batildir.
- Unutqanlıq və ya bu kimi başqa üzrə görə olarsa: iztirari vüquf etmək kifayətdir. Yəni quban bayramı günündə günəşin çıxmasından zıhrə qədər olan müddətin bir hissəsini orada qalarsa, kafidir.

### Məşərul-həram və Ərəfatdakı vüqufa çatmaq və ya tərk etmək:

Məsələ 604. Öncədən də qeyd olunmuşdu ki, Ərəfat və Məşərul-həramda vüquf etmək iki cürdür: ixtiyari və iztirari. Buna əsasən hacı hər iki ixtiyari vüqufa çatarsa, həcci səhihdir. Əgər onlardan hər ikisinə və ya birinə üzrlü səbəbdən çatmazsa, aşağıda qeyd olunan şəkildə bir neçə müxtəlif hal vardır:

1) Ərəfat və Məşərin ixtiyari və iztirari vüqufundan heç birinə çatmazsa, həcci batildir.

2) Ərəfatın ixtiyari, Məşərin isə iztirari vüqufuna çatarsa, həcci səhihdir.

3) Ərəfatı iztirari, Məşərin isə ixtiyari vüqufuna çatarsa, həcci səhihdir.

4) Həm Ərəfat və həm də Məşərin iztirari vüqufuna çatarsa, həcci səhihdir. Amma bu həcci bir daha yerinə yetirməsi ehtiyat-müstəhəbdir.

5) Yalnız Məşərin ixtiyari vüqufuna çatarsa həcci səhihdr.

6) Yalnız Məşərin iztirari vüqufuna çatarsa, həcci batildir.

7) Yalnız Ərəfatın ixtiyari vüqufuna çatarsa, həcci batildir.

8) Yalnız Ərəfatın iztirari vüqufuna çatarsa, həcci batildir.

Məsələ 605. Həccin batilliyinə səbəb olan vüqufu tərk etmə hallarında həmin ehramla müfrəd ümrə yerinə yetirmək vacibdir.

Məsələ 606. Vüqufu tərk etmə səbəbi ilə həcci batil olmuş şəxsin istitaəti növbəti ilə kimi davam edərsə və ya həcc onun boynunda öncəki ildən qalmışdırsa, növbəti ildə yenidən həcci yerinə yetirməlidir.

Məsələ 607. Yalnız Ərəfatın ixtiyari vüqufuna çatmış şəxs Məşərul-həramdan ixtiyari vüquf vaxtında keçərək qəsd və vüquf etməmişdirsə (məsələni bilmədiyinə görə), lakin Allahın zikriylə məşğul olmuşdursa həcci səhihdir.

**Minanın vacibləri:**

Məsələ 608. Məşərul-həramdakı vüqufdan sonra hacının bəzi əməlləri yerinə yetirmək üçün oradan Minaya hərəkət etməsi vacibdir. Məhz Minada həyata keçirilən əməllər aşağıdakılardır:

1) Cəməreyi-əqəbəni rəmy etmək (daşlamaq)





2) Qurbanlıq

3) Həlq və ya təqsir

4) Mina beytutə etmək

5) Cəməratı rəmy etmək

Məsələ 609. Həccin vacib əməllərindən dördüncüsü və qurban bayramı günü yerinə yetirilməsi vacib olan əməl, cəmereyi-əqəbəni rəmy etməkdir (daşlamaqdır). Yəni ona tərəf daş (çınqıl) atmaqdır.

Məsələ 610. Cəmərəni daşlamaq zamanı aşağıdakı işlərə riayət olunmalıdır:

- Niyyət, qürbət qəsdi və ixlas
- Yeddi dəfə daş (çınqıl) atmaq. Beləki daha az miqdar və qumdan (çınqıl) başqa şey atmaq kafi deyildir.
- Çınqılların (çınqıl) birini digərindən sonra atmaq. Odur ki, atılmış çınqıllar cəmərəyə çatmazsa hesab olunmayacaqdır.
- Çınqıllar məhz atmaqla cəmərəyə çatmalıdır. Odur ki, başqa yolla cəmərəyə dəysələr, kafi deyildir.
- Qumun atılması və cəmərəyə dəyməsi hacının əlinin iradə və hərəkəti ilə olmalıdır. Buna əsasən də əgər başqasının əlinin onun əlinə dəyməklə daş atılarsa və cəmərəyə dəyərsə kafi deyildir. Bəli əgər çınqıl bir yerə dəyərsə və oradan cəmərəyə çatarsa, kifayətdir.
- Çınqıllar əli ilə atmalıdır. Əgər sapand (qədim daş atan silah) kimi vasitələrlə atarsa, ehtiyat-vacibə əsasən kafi deyildir.
- Rəmy gün çıxandan ğürub vaxtına kimi edilməlidir, lakin qadınlar və gecə vaxtı Məşərdən Minaya gəlmələri caiz olan şəxslərin qurban gecəsində cəmereyi-əqəbəni rəmy etmələri kafidir.

Daş (çınqıllar) şərtləri:

Məsələ 611. Cəmərata atılan daşların aşağıdakı şərtlərə sahib olması lazımdır:

- Hərəm məntəqəsindən yığılmalıdır və Məşərul-həramdan yığılması daha yaxşıdır.
- Ehtiyat-vacibə əsasən onlar daha öncədən rəmy üçün istifadə olunmamalıdır.
- Çınqıllar barmaqların ucu ilə atmaq müstəhəbdir.
- Daşı qırıb quma (çınqıla) çevirməyin işkalı yoxdur, lakin bu iş məkruhdur.

**Rəmyin şəkləri:**

Məsələ 612. Əgər hacı daşın cəmərəyə çatıb-çatmamasına şəkk edərsə, çatmamağına hökm olunacaq. Məsələn, atdığı qumlardan altısının və ya yeddisinin cəmərəyə dəyməsində şəkk edərsə, daha bir ədəd də cəmərəyə atması lazımdır.

Məsələ 613. Rəmy vaxtı keçdikdən (qurtardıqdan) sonra şəkk edilərsə, etina olunmayacaq və səhihliyə hökm ediləcək. Məsələn, qurbanlıqdan sonra və ya başı təraş etdirdikdən sonra və yaxud da gecə rəmyə dair şəkk yaranarsa, etina olunmayacaq.

**Rəmydə naiblik:**

Məsələ 614. Cəmərəni rəmy etməyi bacarmayan və ya çox zəhmət və məşəqqətə səbəb olan şəxslərin naib tutması lazımdır ki, onların yerinə qurban bayramı günü rəmy yerinə yetirilsin. Qurban bayramı günündən sonraya təxirə salmaq olmaz.

Məsələ 615. Rəmyin özü üçün zəhmət və məşəqqətə səbəb olacağına ehtimal vermək və ya bunu güman etmək, naib tutmaq üçün kifayət etmir.





Məsələ 616. Əgər hacı rəmy üçün gedib hər nə qədər çalışsa da insanların izdihamına görə onu yerinə yetirə bilməzsə və vaxtında rəmy edə biləcəyinə ümidi olmazsa, naib tutması caizdir.

**Təzə cəmərəni rəmy etmək:**

Məsələ 617. Hal-hazırda divar halına salınmış cəməratın köhnə hissəsini (cəmərəni) rəmy etmək kifayətdir, lakin ehtiyat-vacibə əsasən təzə hissələrini rəmy etmək kafi deyildir.

**Yuxarı mərtəbələrdə rəmy etmək:**

Məsələ 618. Ehtiyat-vacibə əsasən köhnə cəmərəyə artırılmış hissələrə daş(çınqıl) atmaq kafi deyildir. Əgər köhnə hissə ilə eyni hündürlükdə olan mərtəbədə rəmy etməyi bacarmazsa, özü yuxarı mərtəbədə rəmy etməli və həmçinin aşağı mərtəbədə qədim hissədə rəmy etməsi üçün özünə naib də tutmalıdır.

**Gecə vaxtı rəmy:**

Məsələ 619. Qadınlar və sübh azanından öncə Məşərul-həramdan çıxmağa icazəli olan şəxslər, qurban bayramının gecəsində cəmərəyi-əqəbəni rəmy edə bilərlər.

Məsələ 620. Sübh azanından öncə Məşərdən çıxmağa icazəli olan şəxslərə kömək edən insanların gündüz rəmy etməyə üzrləri olmazsa və onların köməyinə ehtiyac duyulmadığı halda digər şəxsləri tək qoya bilərlərsə, cəmərəyi-əqəbəni gecə vaxtı rəmy etməməlidirlər. Əksinə bayramın gündüzündə rəmy etməlidirlər.

Məsələ 621. Cəmərеyi-əqəbəni gecə rəmy etməyə icazəsi olan şəxslər gecə vaxtı rəmy etməyi bacarmasalar, səhəri günü rəmyi yerinə yetirməlidirlər. Əgər gündüz də rəmy etməyi bacarmasalar, onuncu gün onlar tərəfindən rəmy etməsi üçün naib tutmalıdırlar. Naib olan şəxs, onuncu gün rəmy etməyi bacarmayacağını bilsə də həmin gecə (öncəki bayram gecəsində) rəmy edə bilməz.

## Rəmyi tərk etmək:

Məsələ 622. Əgər hacı müəyyən bir səbəbə görə cəmərənin rəmyini tərk edərsə, onun hökmləri aşağıdakı qayda ilədir:

- Şəri hökmü bilməmək və ya unutqanlıq kimi səbəbə görə rəmy etməzsə, maneə aradan qalxan kimi rəmyi yerinə yetirməlidir. Hətta Məkkəyə qayıtmış olsa da və ya zilhiccənin on üçüncü günündən sonra olsa belə rəmyi həyata keçirməlidir.
- Əgər zilhiccənin on üçüncü günündən sonra maniə aradan qalxarsa, rəmyi yerinə yetirməlidir və əgər növbəti il həccə gedərsə, ehtiyat-vacibə əsasən rəmyi yenidən yerinə yetirsin. Əgər növbəti il həccə getməyəcəksə, naib tutmalıdır.
- Məkkədən çıxdıqdan sonra maniə aradan qalxarsa, qayıtmağı vacib deyildir. Amma növbəti il həccə gedəcəksə, ehtiyata əsasən qayıtması və rəmy etməsi müstəhəbdir və əgər getməyəcəksə, naib tutması müstəhəbdir (ehtiyata əsasən).
- Əgər şəri hökmü bilmədiyinə və ya unutduğuna görə rəmy etməzsə və həccin təvafından sonra yadına düşərsə (və ya şəri hökmü bilərsə), rəmyi yerinə yetirməlidir və təvafı yenidən həyata keçirməsi vacib deyildir. Lakin təvafı bir daha etməsi





ehtiyat-müstəhəbdir.

- Əgər başqa bir səbəbə görə (unutqanlıq və məsələni bilmədiyindən başqa bir səbəb) rəmyi tərk edərsə və həccin təvafını yerinə yetirərsə, təvafı batildir və onu rəmydən sonra bir daha yerinə yetirməsi vacibdir.

## Qurbanlıq:

Məsələ 623. Həccin vaic əməllərindən beşincisi qurbandır. Qurban dedikdə qoyun, inək və ya dəvə kəsmək nəzərdə tutulur.

Məsələ 624. Heyvan (qurban) kəsildiyi zaman aşağıdakı şərtlərə riayət olunmalıdır:

- Niyyət, qürbət qəsdi və ixlas
- Bayram günündən öncə olmamalıdır. Lakin qorxusu olan şəxslər istisnadır. Belə şəxslər üçün gecə vaxtı zibh etməyin də (qurban kəsməyin) işkalı yoxdur.
- Ehtiyat-vacibə əsasən cəmərеyi-əqəbəni rəmy etdikdən sonra olmalıdır.
- İmkan olduğu miqdarda Minada zibh olunsun.
- Ehtiyat-müstəhəbbə əsasən bayram günündə olmalıdır, amma heyvanın zibhi zilhiccənin on birinci və on ikinci günündə də səhihdir.
- Qurban yalnız qoyun və ya inək və yaxud da dəvə olmalıdır. Bu heyvanlardan başqası onlardan baha olsa belə kifayət etmir (kafi deyildir).

Məsələ 625. Bir heyvanın kəsilməsi yalnız bir nəfərə kifayət edir. Buna əsasən yalnız öz hesabına bir heyvan kəsməyi bacaran şəxs, ondan az miqdarda və başqaları ilə şərik şəkildə kəsmək istəyərsə, səhih deyildir. Lakin öz hesabına bir heyvan kəsməyə imkanı çatmayan və başqasının şərikliyi ilə

bunu bacaran şəxs, ehtiyata əsasən həm şərikli şəkildə qurban kəsməli, həm də yerinə yetirilmə qaydası qarşıda qeyd olunacaq şəkildə oruc tutmalıdır.

### Qurban kəsməyə gücü çatmayan şəxsin vəzifəsi:

Məsələ 626. Əgər hacı qurbanı və ya onun qiymətini (pulunu) hazırlamağa qadir olmazsa, onun əvəzində on gün oruc tutmalıdır. Bu on gün orucun üçünü zilhiccə ayında və yerdə qalan yeddi günü isə öz vətəninə qayıtdıqdan sonra tutmalıdır.

Məsələ 627. Zilhiccə ayında tutulmalı olan üç gün oruc ayın yeddinci, səkkizinci və doqquzuncu günü yerinə yetirilməlidir və bu günlərdən qabaq olmaz.

Məsələ 628. Əgər hacı qurbanın qiymətinə sahib olarsa, lakin onu lazım olan günlərdə (zilhiccənin onundan on üçünə kimi) kəsməyi bacarmazsa, öncəki məsələdə deyilən qaydada on gün oruc tutmalıdır. Zilhiccənin sonrakı günlərində heyvanı kəsməsi ehtiyat-müstəhəbdir. Əgər özü kəsməyi bacarmazsa, onu zibh etmək üçün pulu arxayın olduğu şəxsin yanında qoymalıdır.

Məsələ 629. Əgər qurban günlərində kəsmək üçün sağlam heyvan tapa bilməzsə, ehtiyata əsasən həm eybli heyvanı kəsməli, həm də on gün oruc tutmalıdır.

Məsələ 630. İlk üç günün orucu ardıcıl tutulmalıdır, lakin yeddi günün orucunda ardıcıllıq lazım deyildir. Yeddi gün orucun da ardıcıl tutulması ehtiyat-müstəhəbdir.

Məsələ 631. İlk üç günün orucu təməttö ümrəsindən sonra tutulmalıdır və ondan öncə tutmaq kafi deyildir.





Məsələ 632. Əgər hacı üç gün oruc tutduqdan sonra və qurban günləri başlamamış qurban kəsməyə və ya onun qiymətini hazırlamağa qadir olarsa, ehtiyat-vacibə əsasən qurban kəsməlidir.

### Qurbanın məkanı:

Məsələ 633. Qurbanlıq Minada kəsilməlidir, lakin hacıların çoxluğuna görə Minada kəsmək mümkün olmadığı halda “Vadiyi-muhəssərdə” kəsmək caizdir. Amma hacıların çox olması və sonrakı günlərdə Minada kəsməyin mümkün olacağı halında qurbanı zilhiccənin on üçüncü gününə kimi təxirə salmaq ehtiyat-müstəhəbdir.

Məsələ 634. Əgər qurbanı Minada və hətta Vadiyi-muhəssərdə kəsmək mümkün olmazsa, “Vadiyi-muyəsəmdə” tikilmiş qurbangahlarda kəsə bilər.

Məsələ 635. Hərəmdən xaricdə qurban kəsmək kafi deyildir.

### Qurbanlığın şərtləri:

Məsələ 636. Qurbanlıq aşağıdakı şərtlərə uyğun olmalıdır:

* Sağlam olmalıdır. Buna əsasən axsaq, qulağı kəsilmiş, kor və ya bir gözlü və buynuzu sınmış heyvan kəsmək kafi deyildir.

* Onun yaşı kamil olmalıdır, yəni:

- Dəvənin beş yaşı tamam və altı yaşına keçmiş olması lazımdır.

- İnəyin (ehtiyat-vacibə əsasən) iki yaşı tamam və üç yaşına keçmiş olması lazımdır.

- Qoyun əgər keçi olarsa, ehtiyat-vacibə əsasən iki yaşı tamam və üç yaşına keçmiş olmalıdır. Əgər qoyun quzu və ya qoç olarsa, yeddi ayı tamam və

səkkiz ayına keçmiş olmalıdır, lakin iki yaşının tamam və üç yaşına keçmiş olması ehtiyat-müstəhəbdir.

* Heyvan axtalanmış olmamalıdır. Lakin axtalanmış heyvandan başqasının tapılmaması halı istisnadır.

* Arıq olmamalıdır.

* Ehtiyat-müstəhəbə əsasən aşağıdakı şərtlərə də riayət etmək yaxşı olar:

- Xəstə olmasın.
- Heyvanın yumurtalıqları əzilmiş və qüvvəsini itirmiş olmasın.
- Sümüklərinin iliyi suya çevrilmiş qədər qoca olmasın.
- Qulağı yarıq və deşik olmasın.
- Heyvan öz əsl xilqətində (yaranışında) buynuzsuz və quyruqsuz olmasın. Yəni yaranışı etibarı ilə buynuzlu və quyruqlu olmalı heyvan buynuzsuz və quyruqsuz dünyaya gəlib, nəinki buynuzu sındırılmış və ya quyruğu kəsilmiş heyvan olsun.

Məsələ 637. Heyvanı kəsdikdən sonra onun yaşının az olması anlaşılarsa, kafi deyildir və yenidən başqa heyvanı kəsmək lazımdır.

Məsələ 638. Əgər heyvanın sağlam olduğu etiqadı ilə onu alarsa və onun qiymətini ödədikdən sonra eybli olduğu aşkara çıxarsa, onu kəsə bilər və elə bu kifayətdir.

Məsələ 639. Əgər heyvanı kök olduğu etiqadı ilə alarsa və sonradan onun arıq olduğu bilinərsə, onu kəsə bilər və elə bu kifayətdir. Hətta onu kəsdikdən sonra belə arıq olduğu aşkara çıxarsa, kifayətdir. Lakin bu deyilənlər heyvanın öz malı olmaması və alınmış olması halına aiddir..





**Qurbanın şəkləri:**

Məsələ 640. Əgər hacı heyvanı kəsib-kəsməməsində şəkk edərsə və bu şəkki təqsir və ya həlqdən öncə olarsa, qurban üçün heyvan kəsməlidir. Əgər təqsir və ya həlqdən sonra şəkk edərsə, öz şəkkinə fikir verməməlidir.

Məsələ 641. Əgər kəsdiyi heyvanın lazım olan şərtlərə uyğun olub-olmadığına dair şəkk edərsə, öz şəkkinə fikir verməməlidir.

Məsələ 642. Əgər hacı öz naibinin onun tərəfindən heyvanı kəsib-kəsməməsinə dair şəkk edərsə, ondan xəbər alana kimi səbr etməlidir və onun heyvanı kəsməsinə dair xəbərdən sonra arxayın olmalıdır.

**Heyvanı kəsməkdə naiblik:**

Məsələ 643. Hacının özünün qurban kəsməsi vacib deyildir. Əksinə onun tərəfindən heyvanı kəsmək üçün naib tutması caizdir (hətta kəsməyə öz gücü çatırsa belə).

Məsələ 644. Naib qurbanlıq niyyəti etməlidir və hacının da niyyət etməsi ehtiyat-müstəhəbdir.

Məsələ 645. Naib müsəlman olmalıdır və onun şiə olması şərt deyildir.

Məsələ 646. Başqasının naib seçməyə dair icazəsi olmadan heyvan kəsmək kafi deyildir. Hətta onun razı olduğunu bilərsə də və ya heyvanın ona görə qurban kəsildiyini biləndə xoşhal olacağına arxayındırsa da kafi deyildir.

Məsələ 647. Özü üçün qurban kəsməmiş və yaxud həlq (və ya təqsir) etməmiş şəxsin başqasının naibi kimi onun tərəfindən qurban kəsməsinin işkalı yoxdur.

**Gecə qurban kəsmək:**

Məsələ 648. Ehtiyat-vacibə əsasən gecə qurban kəsmək (istər on birinci günün gecəsi olsun, istər on ikinci günün gecəsi) kafi deyildir. Lakin gündüz vaxtı Minada qalmağa qorxusu olan şəxsin hökmü istisnadır.

**Qurbanın məsrəfi (məsrəf yerləri):**

Məsələ 649. Həccin qurbanının məsrəfi aşağıdakı qayda ilədir:

- Ehtiyat-vacibə əsasən onun üçdə biri müsəlmanların fəqirlərinə sədəqə verilməlidir.
- Onun digər üçdə bir hissəsini istənilən müsəlmana hədiyyə etmək caizdir.
- Yerdə qalan üçdə bir hissəni də özü və ya ailəsi üçün götürməsi caizdir.
- Ehtiyat-müstəhəbbə əsasən az da olsa qurbanın ətindən özü də yesin.

Məsələ 650. Əgər fəqirlərin üçdə bir hissə olan payını onlar çatdırmaq mümkün olmazsa və yaxud çox məşəqqət və zəhmətə səbəb olacaqsa, bu əməl vacib deyildir.

Məsələ 651. Fəqirlərin payını hacının özünün (əlbəəl) verməsi şərt deyildir, əksinə onun vəkili də verərsə, işkalı yoxdur və vəkil olan şəxs, fəqirin sahib olduğu icazəyə uyğun məsrəf etməlidir. Məsələn,onu hədiyyə edəcək və ya satacaq və yaxud da azad edəcəkdir.

**Həlq və ya təqsir:**

Məsələ 652. Həccin vacib əməllərindən altıncısı, başın tükünü təraş etdirmək (həlq) və ya onu azaltmaqdır (təqsir).





Məsələ 653. Başı saç düzəltmə aparatı (dibdən tükü təmizləyən aparat) ilə təraş etməyin işkalı yoxdur, lakin ülgüclə təraş olunması ehtiyat-müstəhəbdir.

Məsələ 654. Həlq və ya təqsir niyyətli şəkildə, qürbət qəsdi və ixlasla yerinə yetirilməlidir.

**Həlq və ya təqsirin zamanı:**

Məsələ 655. Bayram günündən öncə və hətta bayram gecəsində belə həlq və ya təqsir etmək caiz deyildir. Qorxusu olan şəxslər isə istisnadır.

Məsələ 656. Həlq və ya təqsiri bayram günündən sonraya təxirə salmamaq ehtiyat-müstəhəbdir.

Məsələ 657. Ehtiyat-vacibə əsasən həlq və ya təqsir cəmərəyi-əqəbəni rəmy etdikdən və qurbanlığı Minada hazırladıqdan sonra yerinə yetirilməlidir. Qurbanı kəsdikdən sonra etmək isə ehtiyat-müstəhəbdir.

Məsələ 658. Əgər şəri hökmü bilmədiyinə görə və ya unutqanlıq üzündən qurbanı hazırlamamış və yaxud da rəmy etməmiş həlq (və ya təqsir) edərsə, kifayətdir və onu yenidən yerinə yetirməsinə ehtiyac yoxdur.

Məsələ 659. Bayram günündə yerinə yetirilməsi daha yaxşı olmasına baxmayaraq on birinci gecədə həlq və ya təqsir etmək də kifayətdir.

Məsələ 660. Əgər hacı bayram günündə qurban kəsməyi bacarmazsa, ehtiyat-vacibə əsasən həlq və ya təqsir etməyi caiz deyildir. Ehtiyata əsasən həlq və ya təqsir rəmy etdikdən və qurbanlığı hazırladıqdan sonra yerinə yetirilməlidir.

**Qadınların vəzifəsi:**

Məsələ 661. Qadınlara təqsir etmək vacibdir.

**Kişilərin vəzifəsi:**

Məsələ 662. Kişilər başın tükünü təraş etməklə onu azaltmağın arasında ixtiyar sahidirlər və istədiklərini edə bilərlər. Lakin başın tükünü təraş etdirmək daha fəzilətlidir.

Məsələ 663. Ehtiyat-vacibə əsasən birinci dəfə həcci yerinə yetirən kişi, başının tükünü təraş etdirməlidir.

Məsələ 664. Başını təraş etdirmək qəsdi olan şəxs ülgüclə təmizlənəcəyi halda yara olacağını bilirsə, ülgüclə təraş olunması caiz deyildir. Əksinə bu halda başını saç düzəltmə aparatı ilə təraş etməlidir və əgər onun ilk həcci deyildirsə (həccinin birinci ili deyildirsə), öz tükünü azaltmalıdır. Əgər ondan sonra ülgüclə təraş etmək istəsə və ya hökmə (ülgüclə təraş etməmək) müxalif davrandığı hər bir halda əməli kifayət edir, lakin günahkardır.

**Həlq və ya təqsirin məkanı:**

Məsələ 665. Başı təraş etmək və ya tükü azaltmaq Minada həyata keçirilməlidir. Əgər məsələdən agah olmadığına görə və ya bilərəkdən orada yerinə yetirməzsə və Minadan çıxarsa, qayıtması və Minada həlq və ya təqsir etməsi vacibdir. Ehtiyat-vacibə əsasən həlq və ya təqsiri unutmuş şəxsin də hökmü eynidir.

Məsələ 666. Həlq və ya təqsiri Minada yerinə yetirməyib oradan çıxmış şəxs qayıtmağı bacarmazsa və ya qayıtmaq çox çətin və ağır olarsa, həmin yerdə başını təraş etdirməli və ya tükünü azaltmalıdır. Mümkün olduğu halda öz tükünü Minaya göndərməlidir.





Məsələ 667. Minadan başqa bir yerdə həlq və ya təqsir edən şəxs (hətta bilərəkdən etmiş olsa da), onunla da kifayətlənməlidir və Minaya qayıdıb yenidən orada həlq və ya təqsir etməsi lazım deyildir. Lakin mümkün olduğu halda öz tükünü Minaya göndərməsi vacibdir.

**Həlq və ya təqsiri tərk etmək:**

Məsələ 668. Əgər hacı şəri hökmü bilmədiyinə görə və ya unutqanlıq üzündən başını təraş etməzsə (və ya təqsir etməzsə) və həccin əməlləri bitəndən sonra yadına düşərsə (və ya məsələni öyrənərsə), onu yerinə yetirməsi vacibdir. Lakin bu halda həccin təvaf və səyini iadə etməsi ehtiyat-müstəhəb olmasına baxmayaraq vacib deyildir.

**Həcc ehramından xaric olmaq:**

Məsələ 669. Hacı başını təraş etdikdən və ya tükünü azaltdıqdan sonra ehramla ona haram olmuş bütün şeylər (3 əməldən başqa) ona halal olur. Qadın, xoş iy və ehtiyat-vacibə əsasən ov etmək haram olaraq qalır.

Məsələ 670. Ehramla haram olmuş bütün cinsi ləzzətlər təqsir və ya həlqdən sonra da qadın və kişiyə haram olaraq qalır. Lakin qadının əqdini kəsmək və ya əqd oxunan məclisdə iştirak etmək caizdir.

Məsələ 671. Hacı təvaf, təvaf namazı və səyi yerinə yetirdikdən sonra xoş qoxu da ona halal olur. Nisa təvafı və nisa təvafının namazından sonra ehramla bir birinə haram olmuş kişi və qadın halal olur.

**Həccin təvafı və onun namazı və səyi:**

Məsələ 672. Həccin digər üç vacib əməli isə təvaf, onun namazı və səydir.

Məsələ 673. Təvafın, onun namazının və səyin keyfiyyəti ümrənin təvafında, onun namazında və ümrənin səyində deyildiyi kimidir.

Məsələ 674. Əgər hacı həccin təvafını bilərəkdən yerinə yetirməzsə və onu iadə etməyə imkanıda olmazsa, həcci batil olur. Əgər təvafı şəri hökmü bilmədiyinə görə tərk etmişdisə, ehtiyat-vacibə əsasən bir dəvə də kəffarə verməlidir.

Məsələ 675. Əgər hacı təvafı unudarsa, zilhiccə ayının sonuna kimi onun qəzasını etməlidir və səyi də iadə etməsi ehtiyat-müstəhəbdir. Əgər özü yerinə yetirməyi bacarmazsa, naib tutmalıdır.

**Təvafın, onun namazının və səyin zamanı:**

Məsələ 676. Təvaf, onun namazı və səyin zamanı zilhiccə ayının sonuna kimidir. Lakin qurban bayramı günündə yerinə yetirilməsi müstəhəbdir və həmçinin on birinci gündən sonraya təxirə salmamaq ehtiyat-müstəhəbdir.

Məsələ 677. Bu əməllər başı təraş etdirdikdən və ya onun tükünü azaltdıqdan (həlq və ya təqsirdən) sonra yerinə yetirilməlidir. Məsələni bilən şəxs həlqdən öncə bu əməlləri edərsə, həlqdən (və ya təqsirdən) sonra yenidən onları yerinə yetirməlidir.

Məsələ 678. Ehtiyat-vacibə əsasən bu əməllər Ərəfat və Məşərdəki vüqufdan öncə yerinə yetirilməməlidir. Əgər şəri hökmü bilmədiyinə görə vüqufdan öncə edərsə, onları yenidən yerinə yetirməsi ehtiyat-müstəhəbdir.





Məsələ 679. Aşağıdakı şəxslərə Ərəfatdakı vüqufdan öncə bu əməlləri etmək icazəlidir:

1) Aylıq adətinin başlayacağından və ya doğumdan sonrakı qanı görəcəyindən qorxan qadın.

2) Qoca, xəstə, əlil və ya Məkkəyə qayıtması onlar üçün çətin olan şəxslər. Həmçinin Məkkəyə qayıtdıqdan sonra insanların izdihamı və ya başqa səbəbə görə təvafın onlar üçün çətin olacağı şəxslər də bura aiddir.

3) Müəyyən bir səbəbə görə (məsələn düşmənə görə) Məkkəyə qayıtmaqda qorxusu olan şəxs.

Məsələ 680. Öncəki məsələdə qeyd olunmuş şəxslərə bu üç əməli vüqufdan öncə etmək caizdir. Amma bu əməllər həccin ehramından sonra olmalıdır və imkan olduğu halda zilhiccə ayının sonuna kimi bir daha yerinə yetirilməsi ehtiyat-müstəhəbdir.

Məsələ 681. Öncəki məsələdə (679-cu məsələ) qeyd olunmuş şəxslərə vüqufdan öncə nisa təvafını və onun namazını yerinə yetirməyə də icazə verilir.

Məsələ 682. Təvafı, onun namazını və səyi vüqufdan öncə yerinə yetirən şəxsə xoş qoxu halal olmur və həmçinin nisa təvafını etməklə də cinsi ləzzətlər halala çevrilmir. Bu haram işlər (məlum şəxslər üçün) Minadakı ibadətləri (cəməreyi-əqəbəni rəmy etmək, qurban kəsmək, həlq və ya təqsir) yerinə yetirdikdən sonra halal olur.

**Üzrlü şəxsin vəzifəsi:**

Məsələ 683. Həccin təvafını, onun namazını və səyini yerinə yetirməyə imkanı olmayan şəxsin hökmü bu əməlləri təmǝttö həccində həyata keçirə bilməyən şəxsin hökmü ilə eynidir. Bu hökmlər 441, 442 və 497-ci məsələlərdə qeyd olunmuşdur.

Məsələ 684. Aylıq adəti başlayacaq və ya doğumdan sonrakı qanı görəcək qadın səbr edib gözləməyi və əməlləri özü yerinə yetirməyi bacarmazsa, təvaf və onun namazı üçün naib tutmalıdır. Naib bu iki əməli yerinə yetirdikdən sonra özü səyi həyata keçirməlidir.

**Nisa təvafı və onun namazı:**

Məsələ 685. Həccin digər iki vacib əməli nisa təvafı və onun namazıdır. Bu iki əməl həccin vacibatından olsa da onun əsas (rukn) əməllərindən deyildir. Odur ki, onları tərk etmək (hətta bilərəkdən olsa da) həcci batil etmir.

Məsələ 686. Nisa təvafı yalnız kişilərə aid deyildir və qadınlara da vacibdir. Əgər bir kişi onu tərk edərsə, qadınlar ona haram olaraq qalır və əgər bir qadın onu tərk edərsə, kişilər ona haram olaraq qalır.

Məsələ 687. Təmməttö həccini yerinə yetirən şəxs nisa təvafını və onun namazını yerinə yetirdikdən sonra həm öz zövcəsi və həm də izdivac etmək ona halal olur. Yəni ehramla ona haram olmuş cinsi ləzzətlər halal olur.

Məsələ 688. Evlənməyə dair ümidi olmayan qoca kişi və ya qadına, həmçinin izdivac etmək fikri olmayan şəxsə də nisa təvafı vacibdir.

Məsələ 689. Bir neçə dəfə müfrəd ümrə və ya həcc yerinə yetirmiş, amma nisa təvafını etməmiş şəxsə ehtiyat-vacibə əsasən bir dənə nisa təvafı kifayət etmir. Əksinə həmin miqdarda da nisa təvafını yerinə yetirməlidir.

**Nisa təvafının keyfiyyəti:**

Məsələ 690. Nisa təvafı və onun namazı eynilə həccin təvafı və onun namazı kimidir. Yalnız niyyətləri fərqlidir.





**Nisa təvafının namazı:**

Məsələ 691. Nisa təvafı və onun namazı səydən sonra yerinə yetirilməlidir və əgər ondan öncə həyata keçirilərsə, məsələnin iki forması vardır:

a) Şəri hökmdən agah olduğu halda və bilərəkdən edərsə: səydən sonra onu bir daha yerinə yetirməlidir.

b) Şəri hökmü bilmədiyinə görə və ya unutqanlıq üzündən edərsə: əməli səhihdir və kifayət edir. Lakin səydən sonra bir daha yerinə yetirməsi ehtiyat-müstəhəbdir.

Naibinin vəzifəsi:

Məsələ 692. Həcc və ya ümrədə başqasının naibi olan şəxs nisa təvafını mənubu ənhin niyyətilə yerinə yetirməlidir.

Məsələ 693. Əgər naib olan şəxs nisa təvafını yerinə yetirməzsə, qadınlar onu naib tunana deyil, naibin özünə haram olur.

**Üzrlü şəxsin vəzifəsi:**

Məsələ 694. Nisa təvafını və onun namazını yerinə yetirməyə gücü çatmayan şəxsin hökmü təməttö ümrəsinin təvafını həyata keçirə bilməyən şəxsin hökmü kimidir. Bu hökmlər 441, 442 və 497-ci məsələlərdə qeyd olunmuşdur.

Məsələ 695. Əgər bir qadının aylıq adəti başlayarsa və nisa təvaf ilə onun namazını yerinə yetirmək üçün qalıb gözləməyi bacarmazsa, özü üçün naib tutmalıdır. Məsələn, qadının adəti başladıqdan sonra səfər yoldaşları onun pak olmasına kimi gözləməzlərsə və bu qadın da onlardan ayrılmağı bacarmazsa, nisa təvafını və onun namazını tərk etmək

caizdir və nisa təvafı ilə onun namazı üçün naib tutmalıdır.

Məsələ 696. Əgər nisa təvafı əsnasında qadının aylıq adəti başlayarsa və dördüncü dövrdən öncə olarsa, onun hökmü öncəki məsələdəki (695-ci məsələ) kimidir. Lakin dördüncü dövrdən sonra olarsa, nisa təvafının yerdə qalan hissəsini tərk etməli və öz səfər yoldaşları ilə qayıtmalıdır. Ehtiyat-vacibə əsasən təvafın qalan hissəsi və onun namazı üçün naib tutmalıdır.

## Nisa təvafının iadəsi:

Məsələ 697. Əgər nisa təvafından sonra həcc təvafının batil olduğunu bilərsə, ehtiyat-vacibə əsasən həccin təvafını iadə etdikdən sonra nisa təvafını da bir daha yerinə yetirməlidir.

Məsələ 698. Nisa təvafını bilərəkdən və ya unutqanlıq üzündən və yaxud da şəri hökmü bilmədiyinə görə tərk edən şəxsin onu yerinə yetirməsi vacibdir. Nisa təvafı və onun namazını yerinə yetirmədikcə qadınlar ona halal olmur.

Məsələ 699. Nisa təvafını yerinə yetirməmiş şəxs, onu özü yerinə yetirməlidir. Əgər özü yerinə yetirməyi bacarmazsa və ya çətin və çox məşəqqətli olarsa, naib tutması caizdir. Naib nisa təvafını və onun namazını yerinə yetirdikdən sonra qadınlar ona halal olur.

Məsələ 700. Nisa təvafının namazını unutmağın hökmü ümrənin təvafındakı namazı yaddan çıxarmağın hökmü kimidir və bu hökmlər 490-cu məsələdə qeyd olunmuşdur.





## Həccin ehramından çıxmağın mərhələləri:

Məsələ 701. Həccin ehramından xaric olmağın mərhələləri aşağıdakı qayda ilədir:

Birinci mərhələ: həlq və ya təqsirlə; xoş qoxu, cinsi ləzzətlər və ovdan başqa ehramla haram olmuş bütün şeylər halal olur. Bu hökm 669-cu məsələdə qeyd olunub.

İkinci mərhələ: həccin təvafı, namaz və səyi etməklə; xoş qoxu da halal olur və bunun hökmü 671-ci məsələdə qeyd olundu.

Üçüncü mərhələ: nisa təvafını və onun namazını yerinə yetirməklə; ehramla haram olmuş cinsi ləzzətlər halal olur. Bunun hökmü 687-ci məsələdə qeyd olundu.

Dördüncü mərhələ: ehtiyat-vacibə əsasən ov etmək zilhiccənin on üçünə kimi haram olaraq qalır və ondan sonra bütün haramlar halal olur.

Yada salınmalı və qeyd olunmalıdır ki, Hərəmin muhərramatı bu əməllərlə halal olmur və Hərəm məntəqəsində olan şəxsə (istər muhrim olsun, istərsə də olmasın) bu muhərrəmat haram olaraq qalır. Bu haramların hökmünün izahı 366-cı məsələdə qeyd olunub.

## Minada beytutə (qalmaq):

Məsələ 702. Həccin vacib əməllərindən on ikincisi, zilhiccənin on birinci və on ikinci gecəsini Minada qalmaqdır.

Məsələ 703. Bu əməl də niyyət, qürbət qəsdi və ixlas ilə yerinə yetirilməlidir.

Məsələ 704. Əgər hacı qurban bayramı günü təvaf, onun namazı və səy etmək üçün Məkkəyə gəlsə, beytutə üçün Minaya qayıtması vacibdir.

Məsələ 705. Beytutə üçün (nəzərdə tutulan) gecənin birinci yarısı gün batandan gecənin yarısına kimidir və ikinci yarısı isə həmin vaxtdan sübh azanına kimidir.

Məsələ 706. Əgər hacı on ikinci günün zöhründən sonra Minadan çıxmazsa və on üçüncü günün gecəsi çatarsa, həmin gecəni də sübh azanına kimi Minada qalmalıdır.

Məsələ 707. Əgər hacı Minadan çıxarsa və müəyyən bir iş üçün on üçüncü gecənin ğürubundan sonra Minaya qayıdarsa, o gecəni Minada qalması vacib deyildir.

Məsələ 708. Əgər hacı on ikinci günün rəmyini yerinə yetirməkdən aciz olarsa və beytutədən sonra on ikinci gecə Minadan çıxarsa, Minadan köçmənin gerçəkləşməsi üçün yenidən ora qayıtması vacib deyildir.

Məsələ 709. Öncəki məsələdə qeyd olunan yerdən başqa hallarda bütün gecəni Minada qalmaq hacıya vacib deyildir. Buna əsasən də hacı gecənin əvvəlindən yarısına kimi orada qalarsa, gecənin yarısından sonra Minadan çıxması caizdir.

Məsələ 710. Əgər hacı gecənin əvvəlində və ya ondan öncə Minadan çıxarsa, sübh azanına qədər ora qayıtmalıdır. Ehtiyat-vacibə əsasən gecə yarısından əvvəl qayıtmalıdır.

Məsələ 711. Gecənin birinci yarısını Minada olan və sonra oradan çıxan şəxsin sübh azanından öncə Məkkəyə daxil olmaması ehtiyat-müstəhəbdir.

## Beytutənin vacib olmadığı şəxslər:

Məsələ 712. Hacıların bir neçə qrupuna Minada qalmaq vacib deyildir. Onlar aşağıdakılardan ibarətdir:





1) Minada qalmaq onlara çox çətin və məşəqqətli olan şəxslər və yaxud orada qalmaqla özü, namusu (ailəsi) və ya malı üçün qorxan şəxs.

2) Gecənin əvvəli və ya ondan öncə Minadan çıxan və gecənin yarısından sübh azanına kimi Məkkədə ibadətlə məşğul olan şəxslər.

3) Minaya getmək üçün Məkkədən çıxan və Əqəbeyi-Mədinəteyndən keçən şəxs, Minaya çatmamışdan öncə yolda yata bilər.

4) Məkkədə hacılara su çatdırmaq (paylamaq) öhdəçiliyi olan şəxslər.

Məsələ 713. Beytutənin əvəzində ibadətlə məşğul olan şəxsin Məscidul-həramda və ya Məkkənin köhnə hissələrində olması şərt deyildir, əksinə yeni küçələrdə olmasının bir eybi yoxdur.

Məsələ 714. İbadət vaxtı təvaf və namazla məşğul olmaq şərt deyildir. Əksinə ibadət hesab olunan və qürbət qəsdi ilə yerinə yetirilən bütün əməllər kifayət edir. Məsələn, Quran oxumaq, dua etmək, Kəbəyə və onun ətrafında dövr edən hacılara baxmaq kimi əməllər də ibadətdir.

## Beytutənin tərki:

Məsələ 715. Əgər hacı gecə vaxtı Minada qalmağı tərk edərsə, hər bir gecə üçün bir qoyun kəffarə verməlidir.

Məsələ 716. 712-ci məsələdə qeyd olunan şəxslərə beytutəni tərk etdiklərinə görə kəffarə vacib deyildir, lakin ehtiyat-vacibə əsasən birinci qrup hacılar kəffarə verməlidirlər.

Məsələ 717. Əgər hacı unutqanlıq üzündən və ya şəri hökmü bilmədiyinə görə Minada beytutəni tərk edərsə, ehtiyat-vacibə əsasən kəffarə verməlidir.

**Cəməratı rəmy etmək:**

Məsələ 718. Həccin vacib əməllərindən on üçüncüsü, zilhiccənin on birinci və on ikinci günlərində cəmərеyi-ulanı (birinci cəmərə), cəmərеyi-vustanı və cəmərеyi-əqəbəni rəmy etməkdir. Əgər hacı on üçüncü gecəni də Minada qalarsa, ehtiyat-vacibə əsasən həmin gün də hər üç cəmərəyə daş atmalıdır.

**Rəmyin keyfiyyəti:**

Məsələ 719. İlk olaraq cəmərеyi-ulanı rəmy etmək, ondan sonra cəmərеyi-vustanı və sonra da cəmərеyi-əqəbəni rəmy etmək vacibdir. Şəri hökmü bilmədiyinə görə və ya unutqanlıq üzündən belə bu tərtib pozularsa, rəmy tərtibli şəkildə iadə olunmalıdır.

Məsələ 720. 610 və 611-ci məsələlərdə rəmyin vacibat və müstəhəbatına aid qeyd olunmuş hökmlər hər üç cəmərənin rəmyinə də şamildir.

**Cəməratı rəmy etməyin zamanı:**

Məsələ 721. Cəməratın rəmyi gündüz vaxtı yerinə yetirilməlidir. Lakin xəstəlik, qorxu və ya bu kimi səbəblərə görə gündüz vaxtı Minada qala bilməyən üzrlü şəxslərin gecə vaxtı rəmy etməsi caizdir. Həmçinin bütün günlərin rəmyini bir gecədə etmək də onlar üçün icazəlidir.

Məsələ 722. Qadınlar on birinci və on ikinci günün rəmyini gecə vaxtı yerinə yetirməməlidirlər və öncəki hökm bayram günündəki əməllərdən yalnız cəmərеyi-əqəbəyə məxsusdur. Əgər qadının gündüz vaxtı rəmy etməyə gücü çatmazsa, onun tərəfindən yerinə yetirsin deyə özü üçün naib tutmalıdır.





Naib tutmaqdan əlavə özünün də gecə vaxtı rəmy etməsi ehtiyat-müstəhəbdir.

**Üzrlü şəxsin vəzifəsi (rəmy etməkdə naiblik):**

Məsələ 723. Xəstə kimi özü rəmy etməyi bacarmayan üzrlü şəxsin naib tutması lazımdır. Daha yaxşı olar ki, özü də cəməratın yaxınlığında dayansın və naib də onun müşahidəsi altında rəmyi yerinə yetirsin.

Məsələ 724. Üzrünün aradan qalxacağına ümidi olan şəxs özü üçün naib tutarsa və naib də rəmyi yerinə yetirdikdən sonra rəmyin vaxtı bitməmiş üzr aradan qalxarsa, ehtiyat-vacibə əsasən özü də rəmyi yerinə yetirməlidir.

Məsələ 725. Rəmy etməkdə üzrlü olan və naib tutmağa da imkanı olmayan şəxsin (huşsuz biri kimi) qəyyumu və yaxud başqa bir şəxs onun tərəfindən rəmy etməlidir.

Məsələ 726. Naib olan şəxs rəmyi gündüz vaxtı yerinə yetirməlidir. Əgər hacı özü də gecə vaxtı rəmy etməyi bacararsa, ehtiyat-müstəhəbbə əsasən naibdən əlavə gecə özü də rəmy etməlidir.

Məsələ 727. Qadın hacının naibinin qadın olması şərt deyildir və kişi hacının naibinin də kişi olması şərt deyildir. Buna əsasən qadın hacının naibi kişi və kişi hacının da rəmy etmək üçün naibi qadın ola bilər.

Məsələ 728. Hacı olan şəxs özündən başqası üçün rəmy etməkdə naib ola bilər. Bu halda ilk dəfə öz niyyətilə və ya mənubu ənhin tərəfindən yerinə yetirmək niyyətilə və ikinci dəfədə isə digər (birinci dəfə etmədiyi) niyyət ilə rəmy edə bilər. Həmçinin bir cəmərəni bir dəfə öz niyyətilə və bir dəfə də mənubu ənhin niyyətilə daşlaya bilər və bu ikinci for-

mada digər cəmərələr də eyni qayda ilə yerinə yetirilir.

**Rəmyin şəkləri:**

Məsələ 729. Cəmərəyi-əqəbəni rəmy etmək haqqında olan 612 və 613-cü məsələlərdə rəmyin bəzi şəklərinin hökmü qeyd olundu.

Məsələ 730. Əgər hacı daşların (çınqıl) neçəsinin cəmərəyə dəymiş olduğunda şəkk edərsə, məsələnin iki forması vardır:

a) Rəmy etdikdən sonra şəkk edərsə: məsələn, cəmərədən uzaqlaşmışdırsa və cəmərəni daşladıqdan sonra şəkk etsə, öz şəkkinə fikir verməməlidir.

b) Rəmydən ayrılmamış şəkk edərsə: çatışmamazlığa dair verdiyi ehtimalı aradan qaldırması (yenə çınqıl atması) vacibdir.

**Cəməratın rəmyini tərk etmək:**

Məsələ 731. Əgər hacı şəri hökmü bilmədiyinə görə və ya unutqanlıq üzündən on birinci gündə cəməratı rəmy etməzsə, on ikinci gündə onun qəzasını etməlidir. Həmçinin on ikinci gün də rəmy etməzsə, on üçüncü gün qəza etməlidir.

Məsələ 732. Cəməratın rəmyini bilərəkdən tərk edən şəxs, ehtiyat-vacibə əsasən növbəti gün onun qəzasını etməlidir.

Məsələ 733. Rəmyin qəzasını etməli olan şəxs, vacib ehtiyata əsasən qəza ilə əda arasında fasilə verməli və öncə qəzanı yerinə yetirib sonra həmin günün rəmyini etməlidir. Günün əvvəlində qəzanı, zöhr vaxtı isə əda rəmyini etməsi ehtiyat-müstəhəbdir.

Məsələ 734. Unutqanlıq üzündən və ya şəri hökmü bilmədiyinə görə cəməratı rəmy etməyən şəxs





Məkkədə olduğu zaman agah olarsa, qayıtması və rəmyi yerinə yetirməsi vacibdir. Amma Məkkədən çıxmış olsa, qayıtması vacib deyildir. Lakin növbəti ildə özünün və ya naibinin rəmyi qəza etməsi ehtiyat-müstəhəbdir.

Məsələ 735. Əgər hacı hökmdən agah olduğu halda və bilərəkdən rəmyi özünə məxsus günlərdə etməzsə və Məkkədən çıxarsa, ehtiyat-vacibə əsasən növbəti ildə həccə getdiyi halda özü və getmədiyi halda isə naibi onların qəzasını etməlidir.

Məsələ 736. Hökmdən agah halda və bilərəkdən olsa da hacının rəmyi tərk etməsi, onun həccini batil etmir. Lakin öncəki məsələdə qeyd olunan vəzifəyə uyğun əməl etməlidir.

**Minadan köçmək (çıxmaq):**

Məsələ 737. Hacı zilhiccənin on ikinci gününün zöhründən sonra Minadan çıxa bilər.

Məsələ 738. On birinci gündə Minadan çıxmağın işkalı yoxdur, lakin beytutə üçün Minaya qayıtmaq lazımdır. Əgər rəmyi yerinə yetirməmiş olsa qayıtmalı və ğürubdan öncə rəmyi etməlidir.

Məsələ 739. On ikinci gündə hacı zöhrdən öncə qayıdıb zöhrdən sonra Minadan köçmək üçün öz əşyasını orada qoyarsa, Minadan çıxa bilər. Amma öz əşyasını orada qoymazsa, ehtiyat-vacibə əsasən qayıtmaq qəsdi olmasına baxmayaraq Minadan çıxması caiz deyildir. Lakin Minadan çıxmış olduğu hər bir halda zöhrdən öncə qayıtması vacib deyildir və əgər zöhrdən sonra qayıdıb ğürubdan öncə çıxarsa da işkalı yoxdur.

# Altıncı fəsil

## MƏHDUD VƏ MƏHSURUN HÖKMLƏRİ:

**Müstəhəb həcc**
**Müfrəd ümrə**
**Müxtəlf məsələlər**



**Məhdudun hökmləri:**

Məsələ 740. Məsdud-muhrim olduqdan sonra Məkkəyə çatmaq və yaxud ümrə və ya həccin əməllərini etmək üçün müqəddəs məkanlara çatmaqda düşmən və bu kimi maniələrlə rastlaşan şəxsə deyilir.

Məsələ 741. Məsdud şəxsin vəzifəsi aşağıdakı qayda ilədir:

a) Müfrəd ümrədə olan məsdud şəxs, ehramdan çıxmaq istəyərsə: ya bir qoyun, və ya bir inək və və yaxud da bir dəvə hazırlayıb kəsməlidir və ehtiyat-vacibə əsasən başını təraş etdirməli və ya öz tükünü azaltmalıdır.

b) Təməttö ümrəsində həcdən də məsdud olarsa: onun hökmü öncəki fərzdə deyiləndir. Amma həcdən məsdud olmazsa, yəni düşmən Ərəfatdakı vüqufdan öncə Məscidul-hərama getməyə və təməttö ümrəsini yerinə yetirməyə qoymayıb, amma həcdən maniə olmazsa, ifrad həccini yerinə yetirməlidir.

c) Həcdə məsdud olan şəxs Ərəfat və ya Məşərdəki vüqufa çatmaqdan və yaxud Məşərdəki vüqufa çatmaqdan məhrum olarsa: ehtiyat-vacibə əsasən təvafı, təvaf namazını və səyi yerinə yetirib öz başını təraş etməli və ya tükünü azaltmalıdır. Sonra bir heyvan qurban etməli və ehramdan çıxmalıdır. Əgər təvaf və səy etməkdən də məhrum olarsa və Məscidul-hərama və Məsaya getməyə qoymazlarsa, bu halda təvaf və səy üçün naib tutmalı və naibin təvafı yerinə yetirməsindən sonra özü təvaf namazını qılmalıdır və bu da kifayətdir. Əgər naib tutmağı bacarmazsa və ehramdan çıxmaq istəyərsə, ehtiyat-vacibə əsasən bir heyvanı qurban kəsməli və başını təraş etməli və ya öz tükünü azaltmalıdır.

**Məhsurun hökmləri:**

Məsələ 742. Məhsur - xəstəlik və bu kimi səbəblərə görə Məkkəyə və sair müqəddəs məkanlara həcc və ya ümrənin əməllərini etmək üçün gedə bilməyən şəxsə deyilir.

Məsələ 743. Məhsur olan şəxsin vəzifəsi aşağıdakı qayda ilədir:

a) Təməttö ümrəsində və ya müfrəd ümrədə məhsur olan şəxs: ehramdan çıxmaq istəyərsə, qurbanlıq heyvanı və ya onun qiymətini Məkkəyə göndərməli və müəyyən gündə heyvanı kəsməyi onlarla qərarlaşdırmalıdır. Danışdıqları gündə öz başını təraş etdirməli və ya tükünü azaldıb ehramdan çıxmalıdır. Əgər qurbanlığı və ya onun qiymətini Məkkəyə göndərməyi bacarmazsa, öz olduğu yerdə heyvanı kəsməsi vacibdir.

b) Həcdə məhsur olan şəxsin hökmü ümrədə məhsur olan şəxsin hökmü kimidir, lakin bir fərqi vardır ki, o da həcdə məhsur olan şəxsin qurbanının bayram günündə və Minada kəsilməsinin lazım olmasıdır.

Məsələ 744. Məhsur olan şəxs qeyd olunmuş qaydaya riayət edərsə, ehramın bütün haramları (cinsi ləzzətlərdən başqa) ona halal olur. Lakin cinsi ləzzətlər nisa təvafı və onun namazını yerinə yetirincəyə kimi haram olaraq qalır.

**Məhsurun yaxşılaşması:**

Məsələ 745. Məhsur olan bir şəxs müfrəd ümrədə qurbanlığı Məkkəyə göndərdikdən sonra və yaxud göndərməmişdən öncə xəstəlik aradan qalxarsa və ya azlarsa, bununla da öz səfərinə davam etməyi və qurbanlığının kəsilməsindən öncə Məkkəyə çatmağı bacararsa, Məkkəyə getməsi və ümrəni sona çatdırması vacibdir. Başqa bir şey ona vacib deyildir.





Məsələ 746. Təməttö ümrəsində məhsur olan şəxs yaxşılaşarsa və ya xəstəliyi azalarsa və ərəfə gününün zöhrünə kimi təməttö ümrəsinin əməllərin etməyi bacararsa, bir işkalı yoxdur. Lakin ümrənin əməllərini tamamlamağı bacarmazsa, ifrad həccini yerinə yetirməlidir.

Məsələ 747. Təməttö həccində məhsur olan şəxs qurbanlığı göndərdikdən sonra yaxşılaşarsa və ya xəstəliyi azalarsa və bu halda həccə çatacağına ehtimal verərsə, hərəkət etməsi və özünü çatdırması vacibdir.

Məsələ 748. Həcdə və ya ümrədə məsdud və yaxud məhsur olan şəxs qurbanlığı göndərərsə və ehramdan çıxarsa, (bu əməl) ümrə və ya həccin əvəzində kifayət etmit. Odur ki, "Hiccətul-islamı" yerinə yetirmək qəsdi olarsa və istitaəti davam edərsə və ya həcc onun boynunda müstəqər olarsa, sonradan onu həyata keçirməlidir.

**Müstəhəb həcc:**

Məsələ 749. Müstəti olmayan və ya vacib həccini yerinə yetirmiş şəxsin həcc etməsi müstəhəbdir. Hər il həcc etməyə imkanı olan şəxsin bunu həyata keçirməsi də müstəhəbdir.

Məsələ 750. Məkkədən qayıdan şəxsin bir daha həcc üçün ora qayıdacağına dair qəsd etməsi gözəl əməldir.

Məsələ 751. Əgər bir insan həccə getmək üçün borc götürəcəyi halda onu qaytara biləcəyinə arxayın olarsa, borc götürməsi və həccə getməsi müstəhəbdir.

Məsələ 752. Bir insanın həccə getmək üçün istitaəti olmayan başqa bir insanı həccə göndərməsi müstəhəbdir.

Məsələ 753. Fəqirlərin payı hesab olunan hissədən bir fəqirə zəkat versələr, onu müstəhəb həcc üçün məsrəf edə (xərcləyə) bilər.

Məsələ 754. Əri olan qadının müstəhəb ümrə və ya həcc üçün ərindən icazə alması şərtdir. Əgər onun icazəsi olmadan gedərsə, əməli batildir.

**Müfrəd ümrə:**

Məsələ 755. Müfrəd ümrənin əməlləri bundan ibarətdir: ehram, təvaf, təvaf namazı, səy, həlq və ya təqsir, nisa təvafı və onun namazı.

Məsələ 756. Təməttö həcci boynunda vacib olan və istitaəti olmayan şəxsin müfrəd ümrə etməyə imkanı olarsa, müfrəd ümrəni yerinə yetirməsi ona vacib deyildir.

Məsələ 757. Vəzifəsi təməttö həcci etmək olmuş, lakin müəyyən bir səbəb görə ifrad həccinə keçmiş şəxsin həcdən sonra müfrəd ümrə yerinə yetirməsi vacib deyildir.

Məsələ 758. Məkkə şəhərinə və hətta Məkkənin Hərəminə ehramsız daxil olmaq caiz deyildir. Odur ki, həcc aylarından başqa vaxtlarda Hərəmə daxil olmaq istəyən şəxs müfrəd ümrə üçün muhrim olmalıdır. Bu hökmdən bir neçə qrup şəxslər istisna olunmuşdur ki, onlar da aşağıdakılardan ibarətdir:

1) Müəyyən bir iş səbəbilə müntəzəm surətdə Hərəmə daxil olan və çıxan şəxslər (sürücülər kimi).

2) Müfrəd ümrənin əməllərini yerinə yetirmiş şəxs, Hərəmdən çıxarsa və ümrəni etdiyi qəməri təqvimindəki ay daxilində ora varid olmaq istəyərsə, ehramsız Məkkəyə daxil ola bilər.





3) Ehram bağlamaq və ümrənin əməllərini etmək onun üçün çox çətin olan xəstə şəxslər.

Məsələ 759. Qəməri təqvimindəki hər bir ayda müfrəd ümrə etmək müstəhəbdir və iki ümrə arasında otuz gün fasilənin olması şərt deyildir. Odur ki, bir ayın sonunda bir ümrəni və digər ayın əvvəlində başqa bir ümrəni yerinə yetirə bilər.

Məsələ 760. Özü üçün və ya başqa bir nəfərin tərəfindən naib olaraq iki müfrəd ümrəni bir ayın içində etmək caiz deyildir. Lakin ikinci ümrəni rəca qəsdilə yerinə yetirə bilər. Əgər iki ümrədən biri özü üçün və digəri də başqası üçün (naib kimi) olarsa, eybi yoxdur. Həmçinin iki ümrənin iki müxtəlif şəxsin naibi kimi yerinə yetirilməsində də işkal yoxdur.

Məsələ 761. Təməttö ümrəsi ilə müfrəd ümrə arasında fasilənin şərt olması işkallıdır. Çünki hacı zilhiccə ayında təməttö ümrəsi edərsə və həccin əməllərindən sonra müfrəd ümrə etmək istəyərsə, ehtiyat-vacibə əsasən onu məhərrəm ayına kimi təxirə salmalıdır. Şəvval ayında müfrəd ümrə edərsə və ondan sonra təməttö ümrəsini yerinə yetirmək istəyərsə, ehtiyat-vacibə əsasən həmin ayda etməməlidir.

Məsələ 762. Həcc aylarında müfrəd ümrə etmiş şəxs zilhiccənin səkkizinə kimi Məkkədə qalarsa və həcc etməyi qərara alarsa, yerinə yetirmiş olduğu ümrə təməttö ümrəsi hesab olunacaq və ondan sonra təməttö həccini etməsi kafidir. Bu məsələdə müstəhəb həcc ilə vacib həcc arasında bir fərq yoxdur.

Məsələ 763. Əgər bir şəxs təməttö ümrəsi ilə həcc arasında müfrəd ümrə edərsə, onun təməttö ümrəsi batil olur və onu bir daha yerinə yetirməlidir. Əgər zilhiccənin səkkizinə kimi Məkkədə qalarsa və

həcc yerinə yetirmək istəyərsə, onun etdiyi həmin müfrəd ümrə təməttö ümrəsi hesab olunacaqdır. Buna əsasən də ondan sonra təməttö həcci həyata keçirilməlidir.

Məsələ 764. Öz vacib həccini yerinə yetirmiş və ya vəzifəsi təməttö həcci olan şəxs müfrəd ümrə üçün başqasının naibi kimi Məkkəyə gedərsə, müfrəd ümrənin istitaətinin hasil olmasına baxmayaraq özü üçün də müfrəd ümrə etməsi vacib deyildir. Lakin özü üçün də müfrəd ümrə etməsi ehtiyat-müstəhəbdir.

### Müfrəd ümrə ilə təməttö ümrəsinin fərqi:

Məsələ 765. Müfrəd ümrə və təməttö ümrəsi bütün əməllərdə eynidirlər, lakin aşağıdakı bəzi fərqlilikləri vardır:

- Müfrəd ümrədə nisa təvafı vacibdir, lakin təməttö ümrəsində vacib deyildir.
- Təməttö ümrəsi mütləq olaraq həcc aylarında (şəvval, zilqədə və zilhiccə) yerinə yetirilməlidir, lakin müfrəd ümrəni həmişə etmək olar və onun ən yaxşı vaxtı rəcəb ayıdır.
- Təməttö ümrəsinin ehramından yalnız təqsirlə çıxmaq olur, lakin müfrəd ümrədə təqsir və ya həlqlə ehramdan çıxılır. Müfrəd ümrədə həlq etmək daha fəzilətlidir, lakin qadınlar mütləq təqsir etməlidirlər.
- Təməttö ümrəsi və təməttö həcci mütləq bir ildə olmalıdır, lakin müfrəd ümrə belə deyildir. Odur ki, boynunda ifrad həcci və müfrəd ümrə olan şəxs bir ildə həcci, digər ildə isə müfrəd ümrəni yerinə yetirə bilər.
- Müfrəd ümrəyə ehram bağlamış şəxs səyi yerinə yetirdikdən sonra cima edərsə, ümrəsi şəksiz





və şübhəsiz batil olur. Bu şəxs növbəti aya kimi Məkkədə qalmalı, bir daha ümrəni yerinə yetirməlidir. Lakin təməttö ümrəsində həmin şəxsin hökmü budur ki, ehtiyat-vacibə əsasən ümrəsini tamamlayıb ondan sonra həcci həyata keçirsin və növbəti ildə hər ikisini də bir daha yerinə yetirsin.

Məsələ 766. Müfrəd ümrə üçün beş miqatdan birində ehram bağlanılmalıdır. Bəli, Məkkədə olan və müfrəd ümrə etmək istəyən şəxsin Tənim, Hudeybiyyə və Cəərane kimi Hərəm kənarında olan yerlərdə muhrim olması icazəlidir və o miqatlara getməsi şərt deyildir. Lakin səydən öncə cima etməklə öz ümrəsini batil edən şəxsin Hərəmdən kənarda ehram bağlaması, ehtiyat-vacibə əsasən kafi deyildir və bu şəxs miqata getməlidir.

Məsələ 767. Müfrəd ümrənin ehramını bağlamaq üçün Hərəmdən kənara çıxan şəxsin Tənim, Hudeybiyyə və ya Cəəraneyə getməsinin bir lüzumu yoxdur. Yəni Hərəmdən kənar olan hər bir yerdə ehram bağlaya bilər.

## Müxtəlif məsələlər:

### Qeydiyyatdakı pulun xumsu:

Məsələ 768. Həcc və ziyarət təşkilatlarına və ya bankdakı xüsusi hesablarına müəyyən məbləğdə pul köçürən və adlarını qeydiyyata salıb sənəd əldə edən şəxslərə növbə çatmamışdan öncə və yaxud da həcc ayları başlamamış onların xums ili çatarsa, həccin onların boynunda müstəqər olduğu və adyazdırmaq (qeydiyyat) yolundan başqa bir forma olmadığı təqdirdə xums yoxdur. Bundan başqa hər bir halda onun xumsunu çıxarmaq vacibdir.

Məsələ 769. Öncəki məsələdə qeyd olunmuş hala uyğun şəkildə ziyarət və həcc təşkilatları ilə həccə göndərmələri üçün düzgün icarə müqaviləsi olarsa, hazırda mövcud olan həcc kartının qiymətinin xumsu ödənilməlidir. Amma qeyd olunan şəkildə müqavilə olmazsa, hesaba köçürülən məbləğin xumsunu vermək kafidir.

Məsələ 770. Bir insana həccin məsrəflərini başqa bir insan bağışladığı (hədiyyə etdiyi) halda həmin mala xums gəlib-gəlmədiyi və ya həmin insanın onun xumsunu verib-vermədiyi bilinməzsə, hədiyyə olunan şəxsə həmin malın xumsunu vermək vacib deyildir.[1]

### Ayın əvvəlinin sabit olması:

Məsələ 771. Ərəfat və Məşərdə vüquf etmək, Cəməratın rəmyi və Minada gecə vaxtı qalmaq kimi həccin bəzi vacib əməlləri zilhiccə ayının məxsusi gündüz və gecələrində yerinə yetirildiyi üçün mükəlləfə vacibdir ki, həccin ibadətlərini öz vaxtında etməsi üçün zilhiccənin hilalını görmək və ayın əvvəlinin sabit olması haqqında araşdırma aparsın.

Məsələ 772. Əgər ayın əvvəlin başladığı Ərəbistanın qazisi və ya oranın hakimləri tərəfindən elan olunarsa, məsələnin bir neçə forması vardır:

a) O xəbərin və ya elanın düzgünlüyü sabit olsun.

b) Düzgün və həqiqətə uyğun olduğuna ehtimal verilsin: bu iki halda onlara tabe olmaq lazımdır.

[1]Daha dəqiq olaraq belə deyilməlidir ki, malı hədiyyə edən şəxs xums verən bir deyildirsə və hədiyyə etdiyi şəxs də on iki imam (ə) şiəsidirsə, o mala xums gəldiyini bildiyi halda belə onun xumsunu çıxarmaq lazım deyildir.





Hacı o elana uyğun əməl etsə həcci səhihdir və əgər əməl etməzsə, həcci batildir.

c) Həqiqətə uyğun olmadığı və səhf məlumat olduğuna yəqin olarsa: bu halda mükəlləf əməllərini şəri ölçülərlə sabit olmuş hilala uyğun vaxtlarda yerinə yetirməyi bacararsa, həmin cür əməl etməlidir və əməli də səhihdir. Əgər əksinə (müxalifət) edərsə, həcci batildir. Amma müəyyən üzr səbəbilə əməlləri düzgün olan şəri vaxtında edə bilməzsə və həmçinin oranın qazisinin də bildirdiyi vaxta uyğun əməl etməzsə, həcci birmənalı olaraq batildir. Yəni mükəlləf nə şəri ölçülərə uyğun vaxtlarda əməlləri yerinə yetirməzsə və nə də onların elan etdiyi vaxtlarda həyata keçirməzsə, həcci birmənalı olaraq batildir. Onların dediyinə tabe olduğu təqdirdə isə ehtiyat-vacibə əsasən həcci səhih deyildir.

# HƏCC ƏMƏLLƏRÌ İLƏ BAĞLI SUAL-CAVABLAR



**(Mülhəqate-mənasike-həcc:)**

Sual 1: Əgər bir mükəlləf başqasının naibi kimi təməttö ümrəsini yerinə yetirmək üçün şəhərindən çıxarsa və həccin heç bir əməlinə başlamamış özünün müstəti olduğunu anlayarsa, görəsən naib kimi başladığı səfərində başqasının həccini etməlidir, yoxsa özü üçün həcci yerinə yetirməlidir? Əgər özü üçün həcc etməli olacaqsa, təməttö ümrəsinə harada muhrim olmalıdır? Həmçinin əgər naib kimi ümrəni etdikdən sonra və həcci yerinə yetirməmişdən öncə müstəti olarsa, onun hökmü nədir?

Cavab: Birinci halda növbəti il özü üçün həcc edə biləcəyinə arxayın olarsa, naib kimi başladığı həcci sona çatdırmalıdır. Əgər belə bir arxayınlıq olmazsa, naibliyi tərk edib miqatlardan birinə getməli və özü üçün həccə ehram bağlamalıdır.İkinci halda isə maldan başqa vasitə ilə hasil olmasına baxmayaraq, təzə yaranmış istitaətlə həcc ona vacib olmur.

Sual 2: Mal cəhətindən istitaəti olan ildə bir şəxsə həcci yerinə yetirmək üçün müqəddəs məkanlara getməyə icazə verməzlərsə, gələn il həccə getmək üçün kifayət edəcək miqdarda öz malının istitaətini qoruması ona vacibdirmi?

Cavab: Əgər istitaətin digər şərtlərinin də növbəti il mövcud olacağına gümanı olarsa, öz malının istitaətini qorumalıdır. Əgər belə bir gümanı olmazsa, əzhər nəzərə əsasən malının istitaətini qoruması vacib deyildir.

Sual 3: Bir şəxs həcc üçün müstəti olur. Amma həcc mövsümü onun universitet imtahanları ilə bir vaxta düşdüyünə görə həccə getmək onun imtahanları qaçırmasına və təhsilində bir il gecikməsinə səbəb olacaq. Belə olan halda həcc ona vacibdirmi?

Cavab: İmtahanları qaçırmaq və təhsilində bir il gecikmək onun üçün ağır çətinliyə səbəb olacaqsa, həcc ona vacib deyildir.

Sual 4: Ərin öz haşimi olan (seyyidə) zövcəsinin həcc xərclərini səhmi-sadatdan (xumsun seyyidlərə məxsus payından) verməsi caizdirmi? Başqa biri üçün də bu iş caizdirmi?

Cavab: Belə bir iş görmək olmaz. Lakin həccin yerinə yetirilməsi o xanımın məunəsindən (illik xərclərindən) olması halı istisnadır. Yəni həcc onun boynuna gəlmiş olarsa və o xanım da həcc xərclərinə sahib olmazsa, bu halda ər onun xərclərini səhmi-sadatdan(seyyid haqqından) ödəyə bilər. Başqa biri üçün də bu iş caizdir.

Sual 5: Bir şəxs istitaətin gerçəkləşməsində "ümumi maddi təminatı" şərt bilməyən müctehidə təqlid etdiyi halda həccə gedərsə və sizə rücu edərsə (sizin rəyinizə əməl edərsə), ali həzrətin (Sistani ağanın) bu barədə fikri nədir?

Cavab: Hiccətul-islam (vacibi həcc) üçün kifayət edir.

Sual 6: Bir şəxs həcc ziyarəti karvanına adını yazdırır və müəyyən məbləği o hesaba köçürür. Sonradan o məbləğə ehtiyac yarandığına görə onu hesabdan çıxarır. Görəsən bu əməllə həcc onun boynunda müstəqər olurmu?





Cavab: Əgər özünün lazımlı xərclərinə görə o məbləğə ehtiyacı olarsa və ondan başqa heç bir nəğd və mal cəhətindən istitaətə səbəb olacaq malı olmazsa, həcc onun boynunda müstəqər olmur.

Sual 7: Bir şəxsin əlinə həcc üçün kifayət edəcək miqdarda mal keçərsə və bu şəxs xəstələnərsə, həccə gedib əməlləri özü etməsi üçün özünü sağaltması vacibdirmi?

Cavab: Əgər həmin şəxs hal-hazırda xalqın nəzərində müstəti hesab olunmazsa, dərmanla (sağaltmaqla) özünü müstəti etməsi vacib deyildir.

Sual 8: Əgər bir şəxs borc götürməklə və ya ehtiyaclı olduğu bir şeyi satmaqla həccə gedərsə, görəsən bu həcc hiccətul-islam (vacib həcc) üçün kifayətdirmi?

Cavab: Həccin xərcləri borc götürməklə qarşılanarsa, kafi deyildir. Amma məişət ləvazimatından zəruri olmayan və ehtiyac duyulmayan birini sataraq həccə gedərsə, kafidir.

Sual 9: Həccin xərclərinə sahib olan bir şəxsin malik olduğu malı qədər də borcu vardır. Lakin bu borcun ödənilmə müddəti qırx il kimi uzun vaxtda nəzərdə tutulub və bu şəxs də onu hissə-hissə qaytarır. Görəsən belə bir şəxs müstəti hesab olunur və həcc ona vacibdirmi?

Cavab: Xeyr. Lakin ilk otuz ilin hissələri az və diqqət edilməyəcək miqdarda olarsa, bu hal istisnadır.

Sual 10: Mükəlləf olan bir şəxs həccin xərclərinə uyğun miqdarı həcc ziyarəti təşkilatına ödəyir və növbəti illərdə növbənin ona çatmasını gözləyir. Amma növbə ona çatdığı zaman xəstələnir və bu xəstəlik üzündən də dünyasını dəyişir. Xəstəlik halında olduğu zaman onun tərəfindən həcc yerinə yetirilməsini oğullarından birinə vəsiyyət edir. Lakin onun (oğulun) növbəsi çatmadığı üçün həccə getməyə icazə vermirlər. Bu halda onun vəzifəsi nədir? Görəsən atasının vəsiyyətinə əməl edərək onun tərəfindən naib kimi həcc etməlidir, yoxsa atasının haqqından istifadə edib özü üçün həcci yerinə yetirməlidir?

Cavab: Atasının vəsiyyətinə əməl etməli və onun naibi kimi həcc etməlidir. Çünki yol onun üzünə bağlıdır və özü üçün həcc yerinə yetirməsində şərt olan getmək cəhətindən istitaət mövcud deyildir.

Sual 11: Cism və mal cəhətindən həcc yerinə yetirməyə istitaəti olan bir şəxsə növbə çatmadığına görə həccə getməyə icazə verməzlərsə, görəsən həmin ildə aşağıdakı yollardan birini həyata keçirmək ona caiz və ya vacibdirmi?

a) Həmin ildə növbəsi çatan bir şəxsə öz növbəsini ona verməsi üçün müəyyən məbləğ versin və onun mənfəəti ilə gedə bilsin?

Cavab: Əgər ondan istənilən məbləği ödəmək çətin olarsa, bu iş ona vacib deyildir. Amma çətin olmazsa, bu işi görmək və həmin məbləği ödəmək vacibdir.

b) Yalan danışaraq və ya tovriyə edərək bir sıra şərtlərə sahib olduğunu iddia etməklə ümumi qaydalardan xaric olan və həccə getmək üçün istisna hesab edilən icazəni ala bilsin?





Cavab: Əgər həcc təşkilatları hacıları göndərmək işində ədalətə riayət edirlərsə, deyilmiş şəkildə və ya ona bənzər formada onların qaydalarına əks davranmaq caiz deyildir.

c) Həmin ildə növbəsi çatmış və vəfat etməklə həccə getməmiş və ya özünün həccə getməyə gücü çatmayan bir şəxsi taparaq hər hansı bir şəkildə ondan naiblik icazəsi alsın, amma həqiqətdə özü üçün həcc yerinə yetirsin?

Cavab: Belə bir hiylə ilə gücsüz bir şəxsi və ya ölmüş şəxsin qəyyumunu (vəlisini) aldatmaq caiz deyildir.

Sual 12: Əgər bir şəxs həccin məsrəfləri üçün kifayət edəcək miqdarda mala sahibdirsə və eyni zamanda oğlunun da evlənməyə ehtiyacı vardırsa, görəsən bu şəxs müstəti hesab olunur və həcc ona vacibdir, yoxsa oğlunun evlənməsi üçün malını xərcləmək ona caizdir?

Cavab: Əgər oğlunun evlənməməsi onun üçün çətinlik və əziyyətə səbəb olacaqsa, həcc ona (ataya) vacib deyildir. Amma oğul üçün əziyyət olmazsa, malın həccə xərclənməsi vacibdir.

Sual 13: Əgər mükəlləf olan bir şəxsin həcc mövsümündə onu yerinə yetirməyə istitaəti olarsa, görəsən həcc ayları başlamamış müfrəd ümrə etmək onun üçün səhihdirmi?

Cavab: Səhihdir. Lakin onun bu əməli etməsi sonradan həcci əda edə bilməməsinə səbəb olacaqsa,caiz deyildir.

Sual 14: Bir şəxs müstəti olmadan öz şəhərindən yola çıxarsa və sonradan miqata çatmaqla müstəti olarsa, görəsən bu həcc onun üçün hiccətul-islama (vacib həccə) bərabərdirmi?

Cavab: Bəli.

Sual 15: Qurbanlığın xərcinə sahib olmamaq istitaətin gerçəkləşməsinə əngəl olurmu?

Cavab: Xeyr, əngəl olmur (yəni bu hal maniə deyildir) və mükəlləf olan şəxs qurbanlığın əvəzində oruc tuta bilər.

Sual 16: Kəffarənin qiymətinə sahib olmamaq və ona səbəb olacaq bir halın baş verəcəyini bilmək, istitaətin hasil olmasına əngəldirmi?

Cavab: Xeyr, əngəl deyildir.

Sual 17: Əgər bir qadın həccin xərclərini qarşılamağa qadir olarsa və eyni zamanda onun ərinin çox miqdarda borcu vardırsa, görəsən bu qadın həcci tərk edib öz ərinə kömək edə bilərmi? Yoxsa həccə getmək onun vəzifəsidir?

Cavab: Həcci yerinə yetirmək ona vacibdir.

Sual 18: Əgər bir şəxs həcc başlamamışdan öncə müəyyən bir səbəb üzündən çarəsiz şəkildə öz şəhərinə qayıtmalı olur. Bu halda o şəxs üçün yenidən





istitaət hasil olmasa da həccə getməlidirmi? Yəni həcc onun boynunda müstəqər olmuşdurmu?

Cavab: Həcc onun boynunda müstəqər olmur.

Sual 19: Əgər bir şəxs cari ildə başqası üçün naib olmağa razılaşarsa və sonradan irs və ya bəxşiş və yaxud da bu kimi bir yolla özü müstəti olarsa, bu halda həcci özü üçün yerinə yetirməlidir? Yoxsa öz istitaətindən öncə razılaşdığı icarəyə (naibliyə) uyğun əməl etməlidir?

Cavab: Əgər növbəti ildə həccə gedib özü üçün həcc edə bilcəyinə arxayın olarsa, icarə səhihdir və o razılaşmaya uyğun əməl etməlidir. Amma belə bir arxayınlığı olmazsa, icarə batildir və özü üçün həcc etmək ona vacibdir.

Sual 20: Bir şəxs həccin xərclərini qarşılamağa qadirdir, lakin borcludur və borc sahibi olan şəxs ona həccə gedə bilməsi üçün borcu beş il sonraya kimi qaytarmağa icazə verir. Belə bir halda bu şəxs müstəti hesab olunurmu? Yəni o həccə getməlidir, ya yox?

Cavab: Əzhər nəzərə əsasən o şəxs müstəti hesab olunmur.

Sual 21: Bir şəxsin boynunda ramazan ayının orucunu bilərəkdən pozmağa görə çoxlu günlərin kəffarəsi vardır və bu şəxs iki ay ardıcıl şəkildə oruc tutmağı bacarmır. Öz yanında olan və hazırladığı məbləğ isə həm hər günə görə altmış miskini doyurmağa, həm də həccə getməyə kifayət etmir. Bu halda o şəxs müstəti hesab olunurmu və həccə getmə-

lidirmi? Yoxsa əlində olan məbləği boynunda qalmış kəffarəni əda etmək üçün xərcləməlidir?

Cavab: Bu şəxs şəri cəhətdən müstəti hesab olunur və həcci yerinə yetirmək ona vacibdir.

Sual 22: Həccə getməyə müstəti olan bir xanımın əri həcc aylarında dünyasını dəyişərsə, iddə vaxtında həccə getməsi ona vacibdirmi?

Cavab: Bəli vacibdir və öz səfərində vəfat iddəsinə məxsus dövrün ədəblərinə riayət etməlidir.

Sual 23: Bir şəxs Mədineyi-münəvvərədə hacılara xaidmət göstərmə və onları idarə etmək işi ilə məşğuldur. Dövlət təşkilatlarının qanunvericiliyi isə bu şəxsin həcc mövsümündən öncə öz şəhərinə qayıtmasını tələb edir. Lakin bu şəxs göstərdiyi xidmətlər müqabilində alacağı muzdu qəbul etməmək sayəsində orada qalmağı bacara bilər. Belə olan halda bu şəxs dediyimiz kimi etməldirmi? Onun həcci hiccətul-islam (vacib həcc) hesab olunurmu?

Cavab: Əgər muzdu götürməmək onun haqqıdırsa və bu onun üçün çətin deyildirsə, həmçinin həcci vacib edən mal cəhətindən istitaət və ümumi maddi təminat kimi digər şərtlər də mövcuddursa, həcc ona vacibdir və onun həcci hiccətul-islam hesab olunur.

**Həccin yerinə yetirilməsinə səbəb olan malın xumsunu vermək:**

Sual 24: Əgər bir şəxsin malına xums şamil olarsa. Bu şəxs həcc üçün kifayət edəcək miqdarın





xumsunu çıxardarsa və yerdə qalan miqdarın xumsunu həcdən sonra çıxarmağı şərt edərsə, onun həcci səhih və kafidirmi?

Cavab: Xumsu ayırmaq və onu tam ödəməyi təxirə salmaq caiz deyildir, həmçinin qəsb və haramdır. Əgər malının bir miqdarının xumsunu verib həmin miqdarla həccə gedərsə, həcci səhihdir. Lakin malının yerdə qalan miqdarının xumsunu vermədiyi üçün günahkardır.

Sual 25: Əgər mükəlləf öz ehram paltarının xumsu verilməmiş gəlirdən və ya həmin ilin gəlirindən və yaxud da ümumiyyətlə xums düşməyən gəlirdən aldığını bilməzsə, onun vəzifəsi nədir?

Cavab: Qeyd olunmuş paltarla muhrim olmağın bir eybi yoxdur. Ehtiyata uyğun olan əməl isə şəri hakimə müraciət etməsi və xumsun vacib olması ehtimalını onunla müsalihə etməsidir.

Sual 26: Xumsdan istisna olunmuş (xums düşməyən) məunə ilə müstəhəb həcc yerinə yetirmək düzgün sayılırmı? Yoxsa xumsun əlaqə tapdığı gəlirlərdən olduğu üçün onun xumsunu ödəməlidir?

Cavab: Onun xumsunu ödəmək vacib deyildir.

**Həccə vəsiyyət etmək:**

Sual 27: Bir insan hiccətul-islamı və ya başqa bir həcci onun tərəfindən yerinə yetirməsi üçün bədəninin bir üzvü naqis olan şəxsi naib tutmağa vəsiyyət edə bilərmi? Nəzərə almalıyıq ki, bir üzvünün naqis olması onun əməlləri yerinə yetirməsinə təbii olaraq təsir qoyur.

Cavab: Vəsiyyət edən insanın o şəxsin naqisliyindən xəbərsiz olduğu və ya bu nöqsanın vəsiyyətdən sonra yaranması və ya vəsiyyət edən insanın ondan xəbərdar olmayıb öldüyü və yaxud da vəsiyyət edən insanın ölümündən sonra nöqsanın yaranması hallarında bu vəsiyyətin batil olması uzaq nəzər deyildir. Amma əgər vəsiyyət edən insan onun naqisliyindən xəbərdar idisə və ya bu vəsiyyətdən sonra naqisliyin yarandığını bilib öz vəsiyyətindən dönməyibdirsə, zahirə əsaslanaraq meyyitin malının üçdə birindən götürərək vəsiyyəti icra etmək lazımdır. Əlbəttə vəsiyyət olunan əməl hiccətul-islam olarsa, həm vəsiyyətə əməl etməli, həm də ixtiyari şəkildə əməlləri yerinə yetirməyi bacaran bir şəxsi meyyitin əslitərəkəsindən (özündən sonra qoyduğu maldan) naib tutmalıdırlar.

Sual 28: Bir şəxs öz əmlakından müəyyən birini sataraq onun pulu ilə həccə gedilməsini vəsiyyət edir. Həmin mal satıldığı zaman isə onun qiymətinin həccin xərclərindən çox olduğu görünür. Belə olan halda bu artıq qalan pulu nə etmək lazımdır?

Cavab: Əgər həmin şəxsin vəsiyyətindən tələb olunan şeyin çoxluğu (həcdən əlavə başqa əməllər də) anlaşılarsa, həmin artıq miqdar vəsiyyət edən şəxsin məqsədinə daha yaxın olan xeyir işlərdən birinə sərf olunmalıdır. Əgər vəsiyyətdən çoxluq qəsd edildiyi anlaşılmazsa, artıq qalan miqdar varislərin irsinə daxildir.

Sual 29: Bir şəxs özündən sonra qalacaq malının üçdə birindən xərclənərək həccə gedilməsini vəsiyyət edir və onu yerinə yetirmək üçün bir şəxsi də





müəyyənləşdirir. Lakin onun varisi naib kimi başqa birini seçir. Belə olan halda hökm nədir və onun muzdu kimin öhdəsindədir?

Cavab: Həcci səhihdir, lakin varis onun muzduna zamindir. Buna əsasən vəsiyyət olunan əməl hiccətul-islam idisə, vəsiyyət edən şəxsin malının üçdə birini onun nəzərinə daha yaxın olan xeyir işlərə sərf etməlidirlər. Əgər vəsiyyət olunan əməl müstəhəb həcc idisə, onu yerinə yetirmək vacibdir.

Sual 30: Bir şəxs onun tərəfindən həcc edilməsini vəsiyyət etmişdir. Lakin onun məqsədinin öz şəhərindən həcc edilməsi və ya miqatdan həccin yerinə yetirilməsi və yaxud da hər ikisindən daha ümumi (yəni həccin yerinə yetirilməsi) olduğu bilinmir. Bu halda vəsiyyət olunan şəxsin vəzifəsi nədir?

Cavab: Miqatdan həccin yerinə yetirilməsi onun üçün kafidir. Lakin öz şəhərindən həccin yerinə yetirilməsinə dair aşkar dəlilin (əlamət) olduğu hal isə istisnadır.

Sual 31: Bir şəxs özü həcci yerinə yetirə bilmədiyi üçün onun tərəfindən ölümündən sonra həcc edilməsini vəsiyyət edib, lakin sonradan özü həyatda ikən müəyyən şəxsi naibi kimi həccə göndərib. Belə olan halda bu naibin həccindən qabaq vəsiyyətə əməl olunması vacibdir, yoxsa vəsiyyət ləğv olunmuş hesab edilir?

Cavab: Əgər vəsiyyətdə qeyd olunan həccin elə öz həyatında naib tutduğu həclə eyni olduğu bilinərsə və ya naib tutmaqla öz vəsiyyətindən döndüyü

məlum olarsa, vəsiyyət ləğv olunmuş hesab ediləcək. Lakin bundan başqa hallarda vəsiyyətə əməl etmək vacibdir.

Sual 32: Bir şəxs özü üçün həcc etmişdir və öz ölümündən sonra onun tərəfindən həcc edilməsini də vəsiyyət etmişdir. Lakin onun vəsiyyətdəki məqsədinin hansı həcc olduğu bilinmir. Beləki hiccətul-islam olduğu halda (məsələn, etmiş olduğu həccin batilliyi özü üçün aşkar olub və ya həmin zaman müstəti olmadığını sonradan başa düşdüyü hallarda) həcc xərclərini əsli-ma tərəkdən (özündən sonra qoyduğu ümumi maldan) ayırmağın və yaxud ehtiyat və müstəhəb kimi başqa həcc olduğu üçün mirasın üçdə birindən götürməyin lazım olduğu məlum deyildir. Əgər üçdə birdən götürmək lazım olarsa və həccin xərcləri kifayət edən miqdarda ödənilməzsə, varisin razılığına ehtiyac duyulacaqdır. Belə bir vəziyyətdə nə etmək lazımdır?

Cavab: Əgər onun istitaətinin zamanı bilinirsə və ondan sonra hiccətul-islamı yerinə yetirib-yetirmədiyi məlum deyildirsə, varisə vacibdir ki, onun xərclərini malın üçdə birindən ayırsın və çatışmamazlığı da (üçdə bir miqdar bəs etmədiyi halda) irsin ümumi malından ödəyərək qarşılasın. Əgər onun müstəti olduğunu bilməzlərsə və ya müstəti olduqdan sonra onun həcci yerinə yetirdiyini bilərlərsə, həccin xərclərini üçdə bir miqdardan ödəməlidirlər və əgər bu miqdar kifayət qədər olmazsa, varisin icazəsi ilə ümumi maldan götürərək çatışmamazlığı aradan qaldırmaq lazımdır.





**Həcdə naib olmaq:**

Sual 33: Həccin bəzi əməllərini edə bilməyən şəxs üçün könüllü naib olmaq səhihdirmi? Məsələn, bir şəxs qurban bayramı gününün əməllərindən öncə həbs olunarsa, dostlarından biri muzdsuz olaraq onun tərəfindən cəməranı rəmy edə və qurban kəsə bilərmi?

Cavab: Bu iş kafi deyildir və onun istəyi ilə naib kimi yerinə yetirilməsi lazımdır.

Sual 34: Bir neçə nəfər tərəfindən naib kimi həcc etmək caizdirmi? Həmin şəxslərin arasında bəzilərinin ölü olmasında bir fərqlilik vardırmı?

Cavab: Müstəhəb olan həcc üçün hər bir halda caizdir. Amma vacib həcc üçün isə “Həccin ibadətləri” kitabının 126-cı məsələsində qeyd olunduğu kimi bir nəfərdən başqasına naib olmaq səhih deyildir.

Sual 35: Heyz olacağına və ifrad həccinə keçmək məcburiyyətində qalacağına ehtimal verən bir qadın təməttö həccində başqa bir kişi üçün naib ola bilərmi? Əgər naib olduqdan sonra heyz halına düşərsə, onun naibliyi kafidirmi?

Cavab: O qadının təməttö həccini edə bilməyəcəyinə arxayınlıq olmazsa, güclü nəzərə əsasən onun naib olması caiz və həccinin dəyişməsinə baxmayaraq əməli də kafidir.

Sual 36: Rəca qədsi ilə yerinə yetirilən müfrəd ümrə üçün naib olanda muzd almaq caizdirmi?

Cavab: Heç bir eybi yoxdur.

Sual 37: Təməttö ümrəsi, həccin təvafı və onların hər ikisinin namazı üçün naib tutan şəxsin onları yerinə yetirilən zaman muhrim olması lazımdırmı?

Cavab: Lazım deyildir.

Sual 38: Ali həzrətin (Sistani ağanın) nəzərində həcc xərcləri miqdarında borcu olan şəxs müstəti hesab olunmur. Görəsən bu şəxsin müstəhəb həcc üçün öz tərəfindən başqasını naib tutması caizdirmi?

Cavab: Caizdir. Əlbəttə, borcun vaxtının çatmış olduğu və borc sahibinin də öz haqqını tələb etdiyi zamanda müstəhəb həccin xərclərini qarşılayaraq borcu ödəməzsə, günah etmişdir. Lakin həcci səhihdir.

Sual 39: Qocalıq, zəiflik və bu kimi səbəblərə görə hiccətul-islamı yerinə yetirmək üçün naib tutması caiz olan şəxslərin çətinliklərə sinə gələrək və məşəqqətə qatlaşaraq bacardıqları qədər həccin bəzi əməllərini etmələri yaxşıdırmı? Səy və rəmy kimi yerinə yetirməyi bacarmadıqları əməllər üçün də naib tutmaqları yaxşıdırmı (bu, birinci haldır)? Yoxsa onlar üçün həccin bütün əməllərindən ötrü naib tutmaqları daha yaxşıdır (bu isə ikinci haldır)?

Cavab: Zahirə əsaslanaraq demək olar ki, birinci hal daha yaxşıdır.

Sual 40: Bir şəxs özünün bütün işlərini oğluna tapşırır. Onun oğlu atasının həcci yerinə yetirə bilməməsinə əsaslanıb onun tərəfindən həcc etməsi





üçün naib tutur. Belə olan halda naiblikdən atanın birbaşa xəbərdar olmadığını nəzərə alsaq, naibin əməli onun üçün kafidirmi? Əgər naib miqata çatıb muhrim olmamışdan öncə ata məsələni bilərsə və razılaşarsa, hökmü nədir?

Cavab: Əgər atanın öz oğluna verdiyi vəkillik ümumi və onun üçün naib tutmağa da şamildirsə (hətta bu naibliyin hansı ildə olacağını bilmirsə də), naibin əməli onun üçün kifayətdir. Əgər vəkalət ümumi olmazsa, naibin əməli də kafi deyildir. Lakin xəbərdar olub razılaşdığı hal isə istisna qəbul edilir və hətta onun razılıq verməsi ehram bağladıqdan sonra da olarsa, naibin əməli kifayət edir.

Sual 41: Bir şəxs öz şəhərindən həcc etmək üçün naib tutulmuşdur. Həcc mövsümü başlamamışdan bir ay öncə bu şəxs meyyitin şəhərinə gedərsə və naib olaraq həcc üçün hərəkətə başlamaqla öz şəhərinə qayıdıb oradan Məkkəyə tərəf yolunu salarsa, onun bu əməli kafi və həcci də öz şəhərindən hesab olunurmu?

Cavab: Bəli.

Sual 42: Bir şəxs öz şəhərindən həcc etmək üçün naib olmuşdur. Lakin hərəkətə başladığı zaman onu niyyət etməsi yadından çıxır. Görəsən onun öncəki niyyəti kafidirmi?

Cavab: Əgər həmin şəxsin hərəkətə başlaması həccə naib kimi əməl etmək üçün olmuşdursa, kifayətdir.

Sual 43: Naib həccin əməllərini öz müctehidinin hökmlərinə uyğun etməlidir, yoxsa mənubu ənhin təqlid etdiyi müctehidin fətvalarına tabe olmalıdır?

Cavab: Öz təqlidinə uyğun əməl etməlidir. Lakin icarə və razılaşma zamanı mənubu ənhin və ya muzd verən şəxsin nəzərində əməlin səhih şəkildə yerinə yetirilməsi şərti qoyularsa (hətta bu şərt mütləq şəkildə razılaşmadan anlaşılarsa da), ibadətin fasid (batil) olmadığına yəqin hasil olması üçün həmin razılaşmanın möhtəvasına uyğun əməl edilməlidir.

Sual 44: Bir şəxs müstəhəb ümrə etmək üçün ehram bağlayır. Görəsən bu şəxsin öz ümrəsindən atasının naibi kimi onun həccinə udul etməsi (keçməsi) caizdirmi?

Cavab: Udul (bu cür keçmək) caiz deyildir.

Sual 45: Bir şəxs başqasının naibi kimi əcir tutulmuşdursa və ya özü könüllü (muzdsuz) şəkildə naiblik qəsdini qəbul etmişdirsə, həcc və ya ümrə üçün ehram bağladıqdan sonra ehram zamanı naiblik qəsdi ilə muhrim olduğuna və ya özü üçün niyyət etdiyinə şəkki yaranarsa, onun vəzifəsi nədir?

Cavab: Əgər həmin şəxsi əmələ doğru sövq edən amil və stimul başqasından naib olmaq idisə və (beləki) başqa bir şəxs olmadığı təqdirdə heçnəyə başlamayacaqdısa, o əməli davam etdirmək və yerinə yetirmək kifayətdir.

Sual 46: Həccin əməllərini və ya onun bəzi işlərini yerinə yetirən naibin iman sahibi olması şərtdirmi?

Cavab: Bəli, zibh və nəhrdən (qurban kəsməkdən) başqa digər işlərdə ən üstün nəzərə əsasən iman şərtdir.





Sual 47:Bir şəxs başqası üçün həcc etməyə naib olub bu məqsədlə öz şəhərindən yola düşür və miqata çatıb ehram bağladığı zaman naibliyini yaddan çıxarır. Əgər ondan "nə edirsən?" deyə soruşsalar, "özüm üçün ehram bağlamışam" şəklində cavab verəcəkdir və öz xətasından xəbərsiz halda başqası üçün naib olduğunu unutmuşdur. Yalnız Məkkədə olduğu zaman vəziyyətin necəliyi yadına düşmüşdür. Görəsən bu şəxs öz ehramından çıxaraq mənubu ənhin niyyətilə yenidən muhrim ola bilərmi? Yaxud öz həccini sona çatdırması ona vacibdir?

Cavab: Öz ehramından çıxması (üz döndərməsi) caiz deyildir. Lakin təməttö ümrəsini etdikdən sonra Məkkədən çıxıb elə həmin ayda da oraya qayıdarsa (məsələn, ümrəni zilqədə ayında yerinə yetirdikdən sonra Məkkədən çıxarsa və həmin ayın sonunda da oraya qayıdarsa) və nəticə etibarı ilə ümrəsi batil olarsa, bu halda ümrəsini batil etdiyinə görə günahkar olmasına baxmayaraq miqatlardan birinə getməklə mənubu ənh tərəfindən təməttö ümrəsi üçün muhrim ola bilər.

Sual 48: Bir şəxs hiccətul-islamı yerinə yetirmək qəsdi ilə Mədinəyə çatdıqdan sonra dünyasını dəyişmişdir. Görəsən onun malından istifadə edərək naib tutub həcc yerinə yetirmək müqəddəs məkanın nəzarətçiləri üçün caizdirmi? Həccin onun boynunda müstəqər olduğu bilindiyi halda ehtiyaclı birini onun tərəfindən naib tutmaq üçün varisindən icazə almaq lazımdır, yoxsa şəri hakimdən icazə almaq kifayətdir?

Cavab: Varisindən icazə almaq vacibdir və şəri hakimin icazəsi kafi deyildir. Onun minik və azuqə-

sini hazırlamaq kimi rəvayətdə qeyd olunmuş göstərişin mənası bu iş üçün varisdən başqa birinin vilayəti (icazəsi) olduğu anlamına gəlmir.

Sual 49: Görəsən bu əməllərdən hansı daha fəzilətlidir? Birinci: insan özü üçün müstəhəb həcc etsin. İkinci: istitaəti olmayan möminlərin vacib həccə getməsi üçün həcc xəclərini hədiyyə etsin. Üçüncü: başqasın tərəfindən naib kimi özü həcc etsin.

Cavab: Birinci hal daha fəzilətlidir.

Sual 50: Həcc üçün naib olan şəxsin həccin bəzi və naib tutmağa icazə verilən əməllərində başqasını naib tutması caizdirmi?

Cavab: Naib tutmağın caiz olduğu əməlləri etməkdə onun üçün bir üzr yaranarsa, caizdir. Qurban kəsməkdə isə hər bir halda naib tutmaq caizdir.

Sual 51: Varis olan bir insan öz meyyitləri üçün müəyyən bir şəxsi razılaşdıqları miqdarla və təyin olunmuş ildə naib tutur. Amma həcc mövsümündən öncə bəzi səbəblərdən həcc xərclərinin qiyməti yüksəlir. Belə olan halda naib olan şəxs həcci əda etməyə (öncəki razılığa uyğun olaraq) borcludurmu? Yoxsa icarəni (razılaşmanı) pozmağa və yaxud çatışmamazlığı aradan qaldırmağı varisdən istəməyə haqqı çatır?

Cavab: Əgər razılaşmada bu iki hal baş verəcəyi zaman naibin öz haqqını tələb etməsi şərti qeyd olunmamışdırsa, onun müqaviləni pozmaq və ya artıq miqdarı tələb etmək haqqı yoxdur.





Sual 52: Bir şəxs başqası üçün müfrəd ümrə etməyə ehram bağlamışdır, lakin bunu unutmuş və özü üçün təvaf etmişdir. Bu halda mənubu ənh üçün yenidən təvaf edərsə, əməli səhihdirmi?

Cavab: Bəli, təvafı mənubu ənh tərəfindən bir daha yerinə yetirməlidir.

Sual 53: Həcc üçün naib olmuş şəxs başqasını bundan ötəri əcir (naib) tuta bilərmi?

Cavab: Əgər əcir tutan şəxs aşkar şəkildə və məhz naibin özünün əməlləri yerinə yetirməsini şərt qoymamışdırsa, başqasını əcir tutmaq naib üçün caizdir. Lakin ikinci naibin muzdu öz muzdunun dəyərindən aşağı olmamalıdır.

Sual 54: Bir şəxs həcc üçün naib olur və onun müqəddimə (hazırlıq) işlərinin bəzisini həyata keçirmək üçün bir miqdar məbləği xərcləyir. Elə həmin vaxtda da dövlət onun müqəddəs torpağa getməsinə əngəl olur. Görəsən belə olan halda bu şəxsin müqəddimə işləri üçün xərclədiyi miqdarı onu əcir tutmuş şəxsdən tələb etmək haqqı vardırmı?

Cavab: Əgər həcc və onun müqəddimə işləri üçün naib tutulmuşdusa və razılaşdıqları qiymət də onların hamısının müqabilində idisə, belə olan halda xərclədiyi miqdarı tələb etmək haqqına sahibdir. Əgər yalnız həcc üçün naib tutulmuşdusa və onun müqəddimə işləri mülahizə olunmamışdısa, heç bir şey tələb etmək haqqına sahib deyildir.

Sual 55: Bir şəxs özünün müstəhəb həccinin təməttö ümrəsini etmək üçün Məkkəyə daxil olmuş-

dur. Görəsən bu şəxsin öz təməttö həccindən çıxması (üz döndərməsi) və başqasının naibi kimi həcc yerinə yetirmək üçün miqatlardan birinə qayıdaraq mənubu ənh tərəfindən təməttö ümrəsinə muhrim olması caizdirmi?

Cavab: Bu şəxs başladığı şəkildə öz həccini sona çatdırmalıdır və ondan üz döndərməsi ilə ümrəsi batil olmur. Əlbəttə ümrəni zilhiccə ayından əvvəl onun əməllərini bitirdikdən sonra Məkkədən çıxarsa və ümrə üçün ehram bağladığı ayın sonuna kimi Məkkəyə qayıtmazsa, ümrəsi batil olur və bu halda miqatlardan birinə qayıdıb istədiyi şəxs üçün muhrim ola bilər. Belə olan təqdirdə naiblik etdiyi həcci səhihdir, lakin öz ümrəsini batil etdiyi üçün də günahkardır.

Sual 56: Bir şəxs öz şəhərindən həcc etmək üçün naib tutulmuşdur. Bu şəxs Mədineyi-münəvvərəyə çatdıqdan sonra Məsciduş-şəcərəyə gedib özü üçün müfrəd  ümrə edir. Müfrəd ümrəni etdikdən sonra Mədinəyə qayıdır və naiblik həcci üçün bir daha ehram bağlayır. Belə olan halda bu şəxs öz şəhərindən həcc etmək vəzifəsinə əməl etmişdirmi?

Cavab: Heç bir eybi yoxdur və onun naiblik həccinə xələl gəlməmişdir.

Sual 57: Həzrəti Vəliyyi-əsr (ə) tərəfindən həcc və ya ümrə etmək caizdirmi?

Cavab: Bəli, caizdir.

Sual 58: Aşağıdakı hallardan birinə görə həccin bəzi əməllərini (və ya əməlini) ixtiyari şəkildə et-





məyə gücü çatmayan bir şəxsi (öncədən bilindiyi halda) hiccətul-islamı yerinə yetirmək üçün naib tutmaq caizdirmi?

1) Əgər Ərəfat və ya Müzdəlifədə ixtiyari vüqufu yerinə yetirə bilməyib iztirari vüqufu edəcəksə, hökmü nədir?

Cavab: Ehtiyata əsasən onun naibliyi kafi deyildir.

2) Əgər ixtiyari vüqufa onun vaxtının tamamında çatması mümkün olmazsa və yalnız rukn miqdarında vüquf etməyi bacaracaqsa, hökmü nədir?

Cavab: Onun naibliyinin caiz olması uzaq nəzər deyildir. (mümkündür)

3) Əgər həcc və ya təməttö ümrəsini etməyə və ya onların səyini yerinə yetirməyə gücü çatmazsa və çarəsizlikdən bunlara görə naib tutacaqsa, hökmü nədir?

Cavab: Ehtiyata əsasən onun naibliyi kafi deyildir.

4) Əgər ləbbeyk deməyi səhfdirsə və hətta təlqin etməklə belə cümlələri düzgün deməyi bacarmırsa, buna görə də ləbbeykləri həm özü deyəcək və həm də naib tutacaqdırsa,  hökmü nədir?

Cavab: Onun naibliyinin kafi olmaması ehtiyata uyğundur.

5) Şəriətdə mötəbər hesab olunan şəkildə təvaf namazı qılmaq üçün düzgün qiraəti olmadığına görə həm özü namaz qılmalı və həm də başqasını naib tutmalı olarsa, hökmü nədir?

Cavab: Onun naibliyinin kafi olmaması ehtiyata uyğundur.

6) Qurban bayramı günündə cəməreyi-əqəbəni rəmy edə (daşlaya) bilməyəcəyinə görə başqasını naib tutmalı olacaqsa, hökmü nədir?

Cavab: Onun naibliyinin kafi olmaması ehtiyata uyğundur.

7) Minada qalmağı bacarmadığı halda hökmü nədir?

Cavab: Güclü nəzərə əsasən onun naib olması caizdir.

8) On birinci və on ikinci gündə cəməratı rəmy etməyi bacarmayacağına görə başqasını naib tutmalı olacaqsa, hökmü nədir?

Cavab: Onun naibliyinin səhih olması uzaq nəzər deyildir.(mümkündür)

9) Başını örtmək, kölgədə dayanmaq və bu kimi ehram zamanında haram olan işlərdən bəzisinə mürtəkib olmaqda üzrlüdürsə, onun hökmü nədir?

Cavab: Onun naibliyi caizdir.

Sual 59: Əgər öncəki sualda təsəvvür olunmuş hallara uyğun olaraq qəsd edilən həcc müstəhəb həcc olarsa, ona görə naibin özünə muzd alması səhih-dirmi?

Cavab: Əgər naibin öz barəsindəki əməli səhih olarsa, muzd alması da səhihdir. Lakin əcir tutan şəxsi öz vəziyyətindən agah etməsi lazımdır.





Sual 60: Ehtiyata əsasən naib tutmağın caiz olmadığı halda ixtiyari əməli etməyə gücü çatan şəxsi naib tutarlarsa və bu naib tutmaq da hökmü və ya mövzunu bilmədən olarsa, əməlin vaxtı bitdikdən sonra məsələni bilmək və onların cəhli üzrlü olmağa səbəb sayılırmı? Yəni həmin naibin əməli ilə kifa-yətlənmək olarmı?

Cavab: Xeyr.

Sual 61: Bir şəxs həcc üçün naib tutulduqdan və muhrim olduqdan sonra fətvaya və ya ehtiyata əsa-sən əməlinin kafi olmadığını anlayarsa, nə etməlidir?

Cavab: Əgər onun əməli fətvaya əsasən kafi deyildirsə, ehramı batildir. Lakin onun əməli ehtiya-ta əsasən kafi deyildirsə, ehtiyat etməli və həccini mənubu ənh tərəfindən rəca qəsdi ilə sona çatdırma-lıdır.

Sual 62: Bədən üzvlərindən biri naqis olan şəxsi hiccətul-islam və ya onun bəzi hissəsi üçün naib tut-maq olarmı?

Cavab: Əgər onun bir üzvünün naqisliyi ixtiyari əməlləri yerinə yetirməyinə xələl gətirməyəcəksə, onun naibliyi caizdir. Əgər belə olmazsa, bunun cavabı 58 və 59-cu sullarda qeyd olunmuşdur.

### Ehramla Məkkəyə daxil olmaq:

Sual 63: Bir şəxs müfrəd ümrə üçün ehram bağ-layaraq Məkkeyi-mükərrəməyə daxil olur və onun

əməllərini yerinə yetirir. Sonra hacılara xidmət etməklə əlaqədar olan bəzi işləri görmək üçün Ərəfata tərəf yola düşür və elə həmin vaxt Məkkəyə qayıtmaq istəyir. Görəsən bu halda həmin şəxs başqa bir müfrəd ümrə üçün ehram bağlamalıdır, ya yox? Əgər ehram bağlamaq ona vacibdirsə, harada muhrim olmalıdır?

Cavab: Əgər ümrəni yerinə yetirdiyi ayın bitməsindən öncə Məkkəyə qayıtmaq istəyərsə, oraya ehramsız daxil ola bilər. Amma həmin ay bitdikdən sonra Məkkəyə ehramsız daxil olmaq caiz deyildir. Miqatların heç birindən keçmədiyi və Məkkəyə daxil olmaq istədiyi zamanda isə müfrəd ümrə üçün Hillin yaxınlığında muhrim olması caizdir. Əgər belə olmazsa, onun miqatların hər hansıssa birində muhrim olması vacibdir.

Sual 64: "Həccin ibadətləri" kitabında buyurmusunuz ki, ümrə təməttösünün əməllərini yerinə yetirmiş bir şəxs ehramsız halda Məkkədən çıxa bilməz. Əgər Məkkəyə qayıtması ümrəni etdiyi aydan sonra olarsa, Məkkəyə daxil olmaq üçün müfrəd ümrə etməkdən ötəri ehram bağlamalıdır. Görəsən bu ümrədən məqsəd təməttö ümrəsidir, yoxsa müfrəd ümrə? Əgər məqsəd təməttö ümrəsidirsə, bu halda onun birinci etdiyi ümrə müfrəd ümrə hesab olunurmu? Müfrəd ümrə hesab olunduğu halda nisa təvafını və onun iki rəkətlik namazını da yerinə yetirməlidirmi?

Cavab: Birinci ümrə ləğv olmuşdur və nisa təvafı etmək ona vacib deyildir. Əgər həcc üçün ikinci ümrəni bağlamaq istəyərsə, təməttö ümrəsi qəsdi ilə





miqatlardan birinə gedib muhrim olmalıdır və onun əməllərini yerinə yetirməlidir. Əgər miqata getməyi bacarmazsa, Hillin yaxınlığında müfrəd ümrə üçün ehram bağlamalı və onun əməllərini etdikdən sonra tərviyə gününə kimi Məkkədə qalmalıdır. Məkkədə olduğu halda həcc etməyi niyyət edərsə, onun müfrəd ümrəsi təməttö ümrəsinə çevriləcəkdir. Lakin onunla həccin arasına başqa bir ümrə ilə fasilə salmaq istəyərsə (məsələn, birinci ümrəsi şəvval ayında olubsa və həmin ayda oradan çıxıbsa, zilqədə ayında yenidən Məkkəyə daxil olub çıxmaq və zilhiccədə oraya qayıtmaq istəyərsə), bu halda zilqədə ayında Məkkəyə daxil olmaq istədiyi zaman müfrəd ümrə üçün muhrim olmalıdır. Çünki o şəxs bu ümrə ilə həccin arasına zilhiccədə yerinə yetiriləcək başqa bir ümrəni salmış və fasilə yaratmışdır.

Sual 65: Məkkədə iqamət edən (bir növ yaşayan) şəxs hər gün və ya hər həftə oradan çıxmalı olursa, oraya daxil olmaq istədiyi zaman hər dəfə yenidən muhrim olmalıdırmı?

Cavab: Əgər hər gün və ya həftədə üç-dörd dəfə Məkkədən çıxırsa, oraya daxil olmaq istədiyi zaman hər dəfə muhrim olmaq ona vacib deyildir.

Sual 66: Bir şəxs unutqanlıq üzündən və ya məsələni bilmədiyinə görə və yaxud da bu kimi digər üzrlü hallardan birində miqatda muhrim olmadan ehramsız Məkkəyə daxil olmuşdursa, ehram bağlamaq üçün miqata qayıtması vacibdirmi? Nəzərə almalıyıq ki, bu işi görmək nəqliyyatdakı qiymətlərin bahalaşmasına görə onun üçün ağır, çətin və məşəqqətlidir.

Cavab: Belə olan halda miqata qayıtmaq lazım deyildir. Lakin bu işi görmək onun üçün mümkün olarsa və ağır olmazsa, Hərəmdən çıxmalı və muhrim olmalıdır.

Sual 67: Əgər bir şəxs bilərəkdən və ya müəyyən bir üzr səbəbi ilə Məkkəyə ehramsız daxil olmuşdursa, orada qalmaq həmin şəxsə haramdırmı? Yəni dərhal və vaxt itirmədən şəhərdən çıxmalıdırmı?

Cavab: Fətvanın zahiri budur ki, məhz oraya ehramsız daxil olmaq haramdır, nəinki orada qalmaq və qalmağa davam etmək.

Sual 68: "Həccin ibadətləri" kitabında buyurmusunuz ki, öz müfrəd ümrəsinin əməllərini Məkkədə sona çatdıran şəxs oradan xaric olarsa, ümrəsini yerinə yetirdiyi ayın sonuna kimi ehram bağlamadan oraya qayıtması caizdir. Sualımız bundan ibarətdir ki, bu hökm başqasının naibi kimi ümrə etmiş və ümrəsi özü üçün olmamış şəxsə də şamildirmi?

Cavab: Bu halda bir işkal nəzərə çarpır və ehtiyat budur ki, sualda fərz olunmuş halda ehramsız yenidən Məkkəyə daxil olmasın. Hətta qayıtmaq istəyi həmin ümrəni yerinə yetirdiyi ayda olsa belə, yenidən ehram bağlayıb Məkkəyə daxil olması ehtiyata uyğundur.

**Müfrəd ümrənin hökmləri:**

Sual 69: Öz vacib həccini yerinə yetirməmiş şəxsin həcc günlərində müfrəd ümrə etməsi caizdirmi? Yəni miqatda müfrəd ümrə üçün muhrim olduqdan sonra Məkkəyə gəlib onun əməllərini etsin və sonra yenidən miqata qayıdıb həcc və ya təməttö ümrəsi üçün muhrim olması caizdirmi?





Cavab: Caizdir və bu iki ümrənin eyni ayda olmaması ehtiyata uyğundur.

Sual 70: Müfrəd ümrə üçün ehram bağlamış şəxsin öz niyyətini təməttö həccinə dəyişməsi (çevirməsi) caizdirmi?

Cavab: Caiz deyildir. Əlbəttə, əgər onun ümrəsi həcc aylarında olmuşdursa və o da tərviyə gününə (zilhiccənin səkkizinci gününə) kimi Məkkədə qalıb həcci yerinə yetirməyi qəsd etmişdirsə, onun ümrəsi təməttö ümrəsi hesab olunur və o, təməttö həccini yerinə yetirməlidir.

Sual 71: Bir şəxs müfrəd ümrənin təvafını etdiyi zaman xoşagəlməz bir hadisə ilə üzləşir və onun sağlamlığına xələl dəyir. Nəticədə onu öz şəhərinə gətirməli olurlar. Bu halda onun vəzifəsi nədir?

Cavab: Bu hadisənin baş verməsi təvafın dördüncü dövründən sonraya təsadüf etmişdirsə, yerdə qalan dövrləri və səyi etmək üçün naib tutmasının kafiliyi uzaq nəzər deyildir. Belə olan halda həmin şəxs öz naibinin onun yerinə etdiyi təvafdan sonra təvaf namazını özü qılacaq və naibin onun yerinə etdiyi səydən sonra başının tükünü təraş edəcəkdir (və ya azaldacaqdır). Sonra nisa təvafı üçün naib tutacaq və onun namazını da özü qıldıqdan sonra ehramdan çıxmış olacaqdır. Amma bu hadisə təvafın dördüncü dövründən öncəyə təsadüf etmişdirsə,

Məkkəyə qayıtmadan və ümrənin əməllərini birbaşa özü yerinə yetirmədən onun ehramdan çıxması məhəlli-işkaldır (mübahisəli məsələdir).

Sual 72: Rəcəb ayının sonunda ümrə yerinə yetirmiş şəxsin şaban ayının əvvəlində də ümrə etməsi caizdirmi?

Cavab: Caizdir.

Sual 73: Siz "Həccin ibadətləri" kitabında buyurmusunuz ki, bir şəxs öz müfrəd ümrəsinin səyindən sonra bilərəkdən və məsələdən agah halda öz xanımı ilə yaxınlıq edərsə, ümrəsi batil olur. Belə olan halda təvaf və səyi bilərəkdən tərk etmək ümrəni batil edirmi və mükəlləf belə etdiyi təqdirdə ehram halından çıxa bilərmi? Yaxud ehramdan çıxmaq üçün ibadətlərin hamısını əda etməkdən başqa bir yol yoxdur ?

Cavab: Ehramdan çıxmaq üçün onu əda etməkdən başqa bir yol yoxdur.

**İfrad həccinin hökmləri:**

Sual 74: Məgər müfrəd ümrəni ifrad həccindən dərhal sonra və fasilə vermədən yerinə yetirmək lazımdır? Yoxsa onu təxirə salmaq caizdir?

Cavab: Müfrəd ümrənin vacibliyi həccin vacibliyi kimidir və dərhal (fasiləsiz olaraq) yerinə yetirilməlidir.

Sual 75: Məkkəyi-mükərrəmədə olan şəxs ifrad həcci etmək istədiyi zaman harada muhrim olmalıdır?





Cavab: Onun üçün Məkkə şəhərinin içində muhrim olmaq caizdir.

Sual 76: Vəzifəsi təməttö həcci etmək olan şəxs onu yerinə yetirir və növbəti ildə müfrəd ümrə üçün ehram bağladıqdan sonra Məkkəyə daxil olur. Sonra ifrad həcci etmək istəyərsə, onun bu işi görməyə şəri cəhətdən icazəsi vardırmı? Əgər icazəsi vardırsa, harada ehram bağlamalıdır? Məkkədə, yoxsa başqa yerdə?

Cavab: Əgər ümrəni həcc aylarından öncə etmişdirsə ifrad həcci yerinə yetirə bilər və əgər Məkkədədirsə, elə orda da muhrim olacaqdır. Amma onun müfrəd ümrəsi həcc aylarında olmuşdursa və sonra həcc etməyi istəyib tərviyə gününə kimi Məkkədə qalmışdırsa, onun ümrəsi təməttö ümrəsinə çevriləcək və həmin şəxs ifrad həcci deyil, təməttö həcci etməlidir. Əlbəttə həmin şəxs həcc günləri başlamamışdan öncə Məkkədən çıxarsa, ifrad həcci etmək üçün miqatlardan hər hansısa birində muhrim ola bilər.

**Təməttö ümrəsinin hökmləri:**

Sual 77: Əgər bir mükəlləf təməttö ümrəsinin ehramından çıxıb müfrəd ümrə üçün muhrim olarsa, vəzifəsi nədir?

Cavab: Müfrəd ümrəsini tamamlamalı və sona çatdırmalıdır. Onun birinci ümrəsi batil olur və sonradan onu da iadə etməlidir. Əlbəttə əgər tərviyə gününə kimi Məkkədə qalarsa, etmiş olduğu müfrəd ümrə təməttö ümrəsi hesab olunacaq və buna görə də həcci yerinə yetirməlidir.

Sual 78: Zilhiccə ayında müfrəd ümrə edən bir şəxs onun əməllərindən sonra Ciddəyə səfər edir və tərviyə günü çatmamışdan öncə həcc emək niyyəti ilə Məkkəyə qayıdır. Belə olan halda onun ümrəsi təməttö ümrəsi hesab olunurmu və həmin şəxs həcci yerinə yetirə bilərmi?

Cavab: Onun ümrəsi təməttö ümrəsi hesab olunmur. Çünki müfrəd ümrədən sonra tərviyə gününə kimi Məkkədən çıxmamaq, təməttö ümrəsinin şərtlərindən biridir.

Sual 79: Bir mükəlləf müfrəd ümrə yerinə yetirdikdən sonra təməttö həcci etməyi qəsd edir. Görəsən təməttö ümrəsi üçün muhrim olmaqdan ötəri bu şəxsin miqatlardan birinə getməsi lazımdırmı?

Cavab: Bəli, miqata getmək ona vacibdir və ehtiyat-vacibə əsasən Hillin yaxınlığında belə (Məkkədə olmasına baxmayaraq) muhrim olmaq onun üçün kafi deyildir. Amma onun ümrəsi həcc aylarında olarsa və o, tərviyə gününə kimi Məkkədə qalarsa, ümrəsi təməttö ümrəsinə çevriləcək və bu şəxs təməttö həccini yerinə yetirməlidir. Bu halda təməttö ümrəsini yerinə yetirmək üçün başqa bir yerə ehtiyac yoxdur.

Sual 80: Əgər bir mükəlləf şəxs təməttö ümrəsi üçün muhrim olduqdan sonra komaya düşərsə, onun vəlisinin (qəyyumunun) vəzifəsi nədir?

Cavab: Əgər onun koma halından çıxıb həccin əməllərinə çatacağını ehtimal verərlərsə, naib tutmalıdırlar. Həccin əməlləri dedikdə nəzərdə tutulan işlər Məşərdəki ixtiyari vüqufa çatmaq və ya Məşərdəki iztirari vüqufu Ərəfatdakı ixtiyari vüqufla birgə yerinə yetirmək və yaxud da onların hər ikisinin iztirari vüqufuna çatmaqdır. Əgər onun bu əməllərə kimi özünə gələcəyinə ehtimal verilərsə, onun üçün naib tutulmalıdır. Naib onun tərəfindən təvaf etməli və təvaf namazını qılmalıdır. Sonra öz saçından bir miqdarını azaltmalıdır və bununla da ehramdan xaric olur. Ehtiyata əsasən bu şəxsin vəlisi tərviyə günündə də onun tərəfindən muhrim olmalıdır. Yəni onun yerinə ləbbeyk deməlidir, həmçinin onu ehramın muhərramatından qoruyub vüquf olunan iki məkana aparmalıdır. Əgər həmin şəxs orada komadan ayılarsa və Məkkəyə getməyi bacarmazsa, elə orada da muhrim olmalıdır. Buna əsasən də həmin şəxs ayıq olduğu halda Məşərdəki ixtiyari vüqufu və yaxud da Məşərin iztirari vüqufunu Ərəfatın ixtiyari və ya iztirari vüqufu ilə birgə yerinə yetirərsə, bu şəxs həccə çatmış hesab olunur və yerdə qalan əməlləri də yerinə yetirməlidir. Əgər qalan əməlləri yerinə yetirməmişdən öncə bir daha komaya düşərsə, onun vəlisi digər əməlləri də onun tərəfindən etməsi üçün bir naib tutmalıdır. Lakin onun koma halı vüquflara çatmayacaq qədər uzun sürərsə, həcci batildir.





Sual 81: Əgər bir şəxs təməttö ümrəsini yerinə yetirdiyi halda infarkt keçirərsə və onu öz şəhərinə apararlarsa, onun vəzifəsi nədir?

Cavab: Əgər onun cismi vəziyyəti, naib tutmaq yolu ilə olsa belə ümrənin əməllərini tamamlamağa və sonra həccin ehramı ilə vüquflardan şərt hesab olunan miqdara (beləki, bu miqdarsız həcc səhih deyildir) özünü çatdırmağa imkan verməzsə, bu halda "Həccin ibadətləri" kitabının 446-cı məsələsində

qeyd olunmuş məhsur şəxsə aid hökmlər onun da halına şamil olacaqdır. Bu haldan başqa digər durumlarda öz şəhərinə qayıtması onun şəxsi istəyi və ixtiyari ilə olmuşdursa, ehramının batil olduğu uzaq nəzər deyildir və buna görə də günahkar hesab olunacaq. Lakin qayıtması öz istəyi və ixtiyari ilə olmasa, "Həccin ibadətləri" kitabının 439-cu məsələsində qeyd olunmuş məsdud şəxsə aid hökmlər onun barəsində də cari olacaqdır.

Sual 82: Əgər bir mükəlləf hökmü bilmədiyinə görə və unutqanlıq üzündən təməttö ümrəsinin yerinə müfrəd ümrə üçün muhrim olarsa, nə etməlidir və onun hökmü nədir?

Cavab: Əgər onun qəsdi öz vəzifəsi olan ümrəni yerinə yetirmək idisə və həmin ümrənin müfrəd olduğunu güman etmişdisə, bu hal tətbiqdə olan xətadır və ona bir zərəri yoxdur. Əgər hal belə deyildirsə, müfrəd ümrəni yerinə yetirməlidir və həcc etmək qəsdi ilə tərviyə gününə kimi Məkkədə qalarsa, onun ümrəsi təməttö ümrəsi hesab olunacaq və təməttö həccini yerinə yetirməlidir.

Sual 83: Əgər bir mükəlləf xəta edərək təməttö ümrəsinin yerinə təməttö həcci üçün muhrim olarsa və ümrənin əməllərini etdikdən sonra öz xətasını anlayarsa, nə etməlidir?

Cavab: Bu işin ona heç bir zərəri yoxdur.

Sual 84: Bir qadın öz ümrəsinin əməllərini yerinə yetirməyi tərviyə gününə kimi təxirə salmış və ümrəni etməmişdən öncə bir qan görüb onu heyz





qanı hesab edərək niyyətini ifrad həccinə dəyişmişdir. Ərəfata getdikdən sonra orada anlamışdır ki, görmüş olduğu qan istihazə qanıdır. Bu halda o qadın nə etməlidir?

Cavab: Əgər o qadının Məkkəyə qayıtmağa, ərəfə gününün günortasından öncə ümrənin ibadətlərini etməyə və həcc üçün muhrim olmağa imkanı olarsa, bunları həyata keçirmək ona vacibdir.Əgər o qanın heyz olduğuna inandıqdan və ya şəri qaydalara uyğun olaraq (məsələn, o qan adət günlərində gəlib, amma üç gün davam etməyib) onu heyz qanı hesab etdikdən sonra Məkkəyə qayıtmağı, ümrəni etməyi və həcc üçün muhrim olmağı bacarmazsa, bu halda ehtiyat-vacibə əsasən ifrad həccinin vacib əməllərini yerinə yetirməlidir və bununla da ehramdan xaric olur. Sonra həcc onun boynunda müstəqər olmazsa və onun istitaəti yerində qalmazsa, başqa bir vəzifəsi yoxdur. Lakin həcc onun boynunda müstəqər olarsa və istitaəti də davam edərsə, ehtiyat-vacibə əsasən yenidən təməttö həcci etməlidir. Amma onun heyz qanı barəsində olan gümanı şəri qaydalara əsaslanmazsa, güclü nəzərə əsasən onun ehramı və həcci batildir. Odur ki, növbəti illərdə həcci yerinə yetirməlidir.

Sual 85: Əgər bir qadın ehramdan öncə heyz halında olarsa və heyzinin həcc və ümrənin sonuna kimi davam edəcəyini bilərsə, həmçinin bu halda yol yoldaşları onu gözləməzlərsə, bu qadının təməttö həcci və ümrəsi üçün muhrim olması və iki təvaf ilə onların iki namazı üçün naib tutması caizdirmi?

Cavab: Zahirə əsaslanaraq caiz olduğunu söyləmək mümkündür. Odur ki, ümrə üçün muhrim ola

və onun təvafı ilə namazı üçün naib tuta bilər. Sonra özü səy etməli və orada da təqsir etməlidir. Sonra həcci yerinə yetirməli və həccin təvafı ilə namazı üçün naib tutmalıdır. Ardınca da özü səy etməli və orada da nisa təvafı ilə onun namazı üçün naib tutmalıdır.

Sual 86: Bir qadın heyz görür və pak olduqdan sonra muhrim olub təməttö ümrəsinin əməllərini edir. Sonra ərəfə günüdə yenidən qan görür və heyzin başlamasından on gün keçməmişdən öncə qan kəsilir. Bu halda onun hökmü nədir?

Cavab: O qadının ümrənin əməllərini yerinə yetirdiyi iki qan arasındakı paklıq zamanında da bir heyz hökmünə sahib olduğu nəzərə çarpır. Bu paklıq zamanı barəsində fəqihlər arasında müxtəlif fikirlər vardır. Məşhur nəzər o zamanın da heyzə aid olduğu fikridir, lakin bir qrup fəqihlər də o zamanın pak olduğunu deyiblər. Heyz olduğuna fətva verildiyi halda o qadının vəzifəsi ifrad həccinə çevriləcəkdir və həcc əməllərini etdikdən sonra gücü çatarsa, müfrəd ümrə yerinə yetirməlidir. Lakin o zaman aralığında həmin qadının pak olduğu qəbul edilərsə, onun ümrəsi səhihdir və təməttö həcci etməlidir. Bununla da başqa heç bir vəzifəsi qalmır.

Biz bu məsələdə ehtiyat etdiyimizə görə o qadın ələmiyyət və "ələm fəl-ələm" qaydasına riayət edərək həmin qanın heyz olmasına və ya paklığına hökm etmiş başqa müctehidə rücu edə (keçə) bilər (bununla da vəzifəsi məlum olacaq). Lakin o qadın ehtiyat etmək istəyərsə, ifrad həcci ilə təməttö həcci arasındakı müştərək əməlləri onların heç birini qəsd





etmədən və ümumi niyyətlə yerinə yetirməlidir. Həmçinin təməttö həccinin məxsusi əməllərindən olan qurbanlığı da həqiqi tələbi yerinə yetirmək ümidi ilə həyata keçirməlidir. Həmçinin müfrəd ümrənin əməllərini də eyni niyyətlə yerinə yetirə bilər.

Sual 87: Vəqtiyyə və ədədiyyə adətinin sahibi olan qadının adət günlərinin sayı yeddidir. Ehram bağladıqdan sonra bu qadın heyz olub yeddi günə paklanır və qusl edib ümrəsinin əməllərini yerinə yetirir. Elə həmin vaxt həcc üçün muhrim olur və ondan sonra bir qan görür. Onun vəzifəsi nədir?

Cavab: Əgər ikinci gördüyü qan birinci qanın başlamasının onuncu gününə və ya ondan tez vaxta düşərsə, birinci heyzin davamı (hissəsi) hesab olunacaq. Amma ikinci qan on gündən sonra olarsa, istihazə hesab olunacaqdır. Birinci halda iki qanın arasındakı paklıq vaxtında ehtiyat-vacibə əsasən pak və haiz qadının hökmlərinə riayət etməlidir. Odur ki, birinci halla üzləşən qadın həccin təvafından öncə ümrə təvafının və onun namazının qəzasını etməlidir.

Sual 88: "Həccin ibadətləri" kitabında buyurmusunuz ki, təməttö ümrəsini yerinə yetirən halda olan bir şəxsin həccin əməllərindən başqa bir şeyə görə Məkkədən çıxması, ehtiyata əsasən caiz deyildir. Lakin zəruri olmayan ehtiyac üzündən belə çıxmasını istisna etmisiniz. Görəsən alış-veriş, əyləncə və dostları ilə görüşmək üçün Məkkədən çıxmaq ehtiyac hesab olunurmu?

Cavab: Ehtiyac halının meyarı, xalqın nəzəridir. Sualda soruşulan hallar isə xalqın nəzərində bəzən ehtiyac hesab olunur, lakin bəzən də ehtiyac sayılmır.

Sual 89: Əgər mükəlləf bir şəxs təməttö ümrəsinin əməllərindən sonra onun üçün Məkkədə qalması nəzərdə tutulmuş evin Hərəmdən xaricdə olduğunu anlayarsa, bu halda orada qala bilərmi?

Cavab: Əgər onun qaldığı evin məhəlləsi Məkkənin küçələrindən hesab olunarsa, orada qalmağın bir eybi yoxdur.

Sual 90: Qadınların öz aylıq adətlərini təxirə salmaq üçün istifadə etdikləri bəzi dərmanlar vardır. Əgər bir qadın bu dərmandan istifadə etməyəcəyi halda miqata çatmamışdan öncə heyz olacağını və təməttö ümrəsini yerinə yetirməyi bacarmayacağını bilərsə, həmin dərmandan istifadə etmək ona vacibdirmi? Öz həccinin ifrad həccinə çevrilməməsi üçün dərman vasitəsi ilə adət vaxtını təxirə salmaq o qadına vacibdirmi?

Cavab: Dərmandan istifadə etmək ona vacib deyildir.

**Təməttö həccinin hökmləri:**

Sual 91: Əgər bir uşağın vəlisi onu təməttö ümrəsi etməyə cəlb edərsə, təməttö həccini yerinə yetirməyə də onu cəlb etməsi vacibdirmi? Əgər vacib deyildirsə, uşağı nisa təvafı etdirmək ona təyin olunurmu?

Cavab: Əgər o uşaq müməyyəz olmazsa, heç bir şey ona vacib deyildir. Amma müməyyəz olarsa, nisa təvafını həyata keçirmək və onun namazını qılmaq kifayətdir.





Sual 92: Əgər bir şəxs təməttö ümrəsini yerinə yetirdikdən sonra həcci həyata keçirməyə əngəl olan bir hadisə ilə qarşılaşıb öz canı üçün qorxuya düşərsə və ya dəhşətli və mühüm zərəri olan bir halla rastlaşrsa, təməttö həccini etməkdən üz döndərə bilərmi?

Cavab:Əgər onun qorxusu üqəlai (hər bir ağıllı insanın çəkindiyi) olarsa, həcci tamamlamaq ona vacib deyildir. Bu halda təməttö ümrəsini müfrəd ümrəyə çevirmək və nisa təvafı etmək ehtiyata uyğundur.

Sual 93: “Həccin ibadətləri” kitabında buyurmusunuz ki, təməttö ümrəsini yerinə yetirmiş bir şəxsin öz ixtiyarı ilə həcci tərk etməsi caiz deyildir və müstəhəb həccun də hökmü eynidir. Görəsən təməttö həccindən ifrad həccinə üdul etmək (keçmək) olarmı?

Cavab: Üdul etmək (keçmək) caiz deyildir.

Sual 94: Təməttö ümrəsinin əməllərini bitirmiş bir şəxs qarşılaşdığı ağır hadisənin nəticəsində Məkkədən kənarda olan bir xəstəxanaya aparılır. Həkim, onun həcc üçün ehram bağlamağa görə Məkkəyə qayıtmasının qarşısını alır. Bu şəxsin Ərəfat və Məşərdəki vüquflara çatmağa imkanı olarsa, onun vəzifəsi nədir?

Cavab: Bacardığı hər hansı bir yerdə muhrim olsun və Ərəfata tərəf yola düşsün.

Sual 95: Təməttö həccini etməkdə olan bir şəxs Minadan Məkkəyə qayıdarsa, görəsən həccin təvafı

və onun namazını yerinə yetirməmişdən öncə oradan çıxa bilərmi?

Cavab: Zahirə əsaslanaraq demək olar ki, bu iş caizdir.

**Miqatların hökmləri:**

Sual 96: Məsciduş-şəcərədə muhrim olmuş bir şəxsin ehramdan sonra Mədinəyə qayıdıb oradan təyyarə ilə Ciddəyə səfər etməsi və oradan da Məkkəyə getməsi caizdirmi?

Cavab: Bu iş öz-özlüyündə (zati etibarı ilə) caizdir. Lakin kölgədə dayanmaq kimi haram olan bir işdən özünü qorumaq həmin şəxsə vacibdir.

Sual 97: Mükəlləf bir şəxs Mədineyi-münəvvərədədir və ümrə və ya həcc etmək qəsdi vardır. Məsciduş-şəcərədə muhrim olmaq istəməyən bu şəxsin məqsədi Ciddədə ehram bağlamaq olarsa və buna görə də oraya təyyarə ilə gedərsə, sonradan nəzrlə və ya başqa bir yolla orada muhrim ola bilərmi?

Cavab: Əgər Mədinədən səfərə çıxdığı zaman Ciddədə az qalmasına görə (məsələn, bir neçə saat) xalqın nəzərində Məkkənin müsafiri hesab olunarsa, Məsciduş-şəcərədən ehramsız halda keçməsi caiz deyildir. Amma xalqın nəzərində Ciddənin müsafiri hesab olunarsa və onun Ciddədən Məkkəyə getməsi ayrıca bir səfər sayılarsa, bu halda ehramı Məsciduş-şəcərədən başqa yerdə bağlamaq caizdir.

Sual 98: Müəyyən bir şəxs öncəki sualda fərz edilmiş məsciduş-şəcərədən muhrim olmadan keç-





mək və ehramsız halda Ciddəyə getmək kimi caiz olmayan bir işi bilərəkdən edərsə, Mədinəyə qayıtmaq və Məsciduş-şəcərədə muhrim olmaq ona vacibdirmi? Yoxsa nəzr etməklə Ciddədə muhrim olmaq onun üçün caizdir?

Cavab: Məsciduş-şəcərədə muhrim olmadığına görə günah etməsinə baxmayaraq Cuhfəyə getməsi və orada ehram bağlaması caizdir. Lakin nəzr etməklə Ciddədə ehram bağlamaq heç bir halda caiz deyildir.

Sual 99: Miqatların (beş miqat; Zul-huleyfə, Cuhfə, Ətiq, Qərnul-mənazil və Yələmləm) ehram bağlanan yerləri, yalnız onların məscidlərinə məxsusdurmu? Yoxsa onların hər bir yerində muhrim olmaq olar?

Cavab: Zul-huleyfədən başqa bu miqatların hər bir yerində ehram bağlamaq olar. Zul-huleyfənin ehram bağlanan yeri isə onun məscididir (məsciduş-şəcərədir) və ondan kənarda ehram bağlamaq kafi deyildir. Haiz (heyzli) və nüfəsa (dünyaya körpə gətirmiş) qadınlar isə istisnadır.

Sual 100: "Həccin ibadətləri" kitabında belə buyurmusunuz: "Digər miqatlarda muhrim olan şəxs, öncə bir qədər yol getməli və sonra ləbbeyk deməlidir". Görəsən, bir qədər yol getmək dedikdə məqsədiniz miqatın özündə hərəkət etməkdir, yoxsa onu keçdikdən sonra yol getməkdir?

Cavab: Məqsəd ləbbeyki miqatda deməkdir. Amma bir qədər yol getmək dedikdə nəzərdə tutulan

əməl, ehram niyyəti edildiyi yerdən bir miqdar qabağa getməkdir.

Sual 101: "Həda (Vadiyi-muhərrəm)" ilə "Vadis-sil" arasında yerləşən Qərnul-mənazildəki miqat yerinin təyin olunması barəsində müxtəlif nəzərlər vardır. Hədanın Vadis-silə nisbətdə Məkkədən daha uzaqda yerləşdiyini söyləyən bir qrup mötəbər şəxslərin sözünə əsaslanaraq mükəlləf bir insanın həmin yerə çatmamış və ya həmin yerdə "Allaha xatir bu yerdə ehram bağlamaq mənim boynumdadır" deməklə muhrim olması caizdirmi? Yoxsa ixtilaf olduğu üçün bu miqatın hər iki yerində ehram bağlamalıdır? Yaxud müəyyən olunmuş miqatlara, ora çatdıqdan sonra və ya oraya çatmamışdan öncə nəzr etmək şəri cəhətdən icazəlidir?

Cavab: Əgər "Hədanın" Məkkəyə nisbət Vadis-silin arxasında qaldığı bilinərsə, nəzr edib orada muhrim olması caizdir və həmin yerdə ehram bağlamaq hər bir halda səhihdir. Belə olan halda ehtiyat etməyə və hər iki yerdə ehram bağlamağa ehtiyac yoxdur. Həmçinin nəzrlə muhrim olması da səhihdir. İstər müəyyən olunmuş miqatların özündə olsun, istərsə də onlara çatmamışdan öncə nəzr etmək səhihdir.

Sual 102: Öncəki sualda qeyd olunmuş iki yerdən (Həda və Vadis-sil) hansı sizin nəzərinizdə Qərnul-mənazilin miqatıdır? Yoxsa bu hökmün meyarı, mükəlləfin məsələni araşdırdıqdan sonra gəldiyi qənaətdir?

Cavab: Bu hökm mükəlləfin şəxsi qənaətindən asılıdır. Öz qənaətində arxayınlıq halına çatmadığı təqdirdə isə öncəki məsələdə qeyd olunmuş qayda əsasında bu çətinlikdən azad ola bilər.





Sual 103: Məsciduş-şəcərədə yeni həyata keçirilən genişlənməni və məscidin qədim izlərinin gizli qalmasını nəzərə alsaq, təzə məscidin hər bir yerində muhrim olmaq caizdirmi?

Cavab: Məsciduş-şəcərənin hər bir yerində, hətta təzə hissələrində belə muhrim olmağın caizliyi uzaq nəzər deyildir.

Sual 104: Miqatların heç birindən keçməyən şəxs üçün miqatın üzbəüzü hesab olunan və orada ehram bağlanılması caiz olan məkanı necə təyin edə bilərik?

Cavab: Bir-biri ilə kəsişən və aralarındakı bucağın 90 dərəcə olduğu iki düz xətti nəzərə aldığımız zaman onlardan biri Məkkədən, digəri isə miqatdan keçir. Əgər mükəlləf olan şəxs kəsişmə nöqtəsində Məkkəyə tərəf dayanarsa, miqatın üzbəüzündə durmuş sayılır. Bu hökmün meyarı, xalqın nəzərində düzgün yerdə dayanmaqdır və əqli (riyazi) dəqiqlik lazım deyildir.

Sual 105: "Həccin hökmləri" kitabında buyurmusunuz ki, mükəlləf olan bir şəxs Ciddə ilə Hərəm arasında miqatın üzbəüzü olan bir məkanın (belə ki, Ciddənin Cuhfə ilə paralelində bu məkanın mövcud olması uzaq fikir deyildir) mövcudluğunu bilərsə (hətta icmali şəkildə bilsə də), nəzr etməklə muhrim olması caizdir. Lakin coğrafi uzunluqlara əsaslanaraq Ciddənin Cöhfədən sonra gəldiyini iddia edən şəxslərin sözünə diqqət etdiyimiz zaman bu nöqtədə miqata üzbəüz bir məkanın olmasına şəkk yaranır və Cöhfə ilə müqayisədə Məkkə və onun arasında üzbəüz nöqtənin mövcud olmasını təsəvvür etmək

mümkün olmur. Bu məsələdə ali həzrətin nəzəri nədir?

Cavab: Coğrafi xəritələrin göstərdiyinə əsasən Ciddə coğrafi ölçülər baxımından Cöhfədən sonra yox, əksinə ondan qabaqda yerləşir. Buna əsasən də bizim nəzərimizə görə Cöhfənin üzbəüz məkanı Ciddənin cənub-şərqində yerləşmişdir.

Sual 106: "Şişe", "Əziziyyə" və "Şarius-sittin" kimi Məkkənin mərkəzində iyirmi kilometr uzaqlıqda yerləşən və Məkkənin yeni küçələri hesab olunan yerlərdə muhrim olmaq səhihdirmi?

Cavab: Yeni küçələr və məhəllələr, hal-hazırda bu müqəddəs şəhərin bir hissəsi hesab olunursa, güclü nəzərə əsasən oralarda muhrim olmaq caizdir. Lakin Hərəmdən kənarda qalan hissələr istisnadır və oralarda ehram bağlamaq caiz deyildir.

Sual 107: Qədim Məkkənin hüdudu (sərhədləri) haradır?

Cavab: Məsumlardan nəql olunan rəvayətlərə əsasən Məkkənin hüdudları bunlardan ibarətdir: Əqəbeyi-mədəniha və Əqəbeyi-zitəva.

Sual 108: Bir mükəlləf şəxs təyyarə ilə Ciddəyə getdikdən sonra Mədinəyə səfər etmək istəyir, lakin Mədinəyə getmək üçün ona icazə vermirlər. Belə olan halda nəzr etməklə muhrim olduqdan və ya Cuhfəyə gedib orada ehram bağladıqdan sonra Mədinəyə getmək üçün ona icazə verərlərsə, öz ehramından üdul etməsi və Məsciduş-şəcərədə muhrim olması caizdirmi? Caiz olmadığı təqdirdə həmin şəxs öz ehramından üdul edərsə, vəzifəsi nədir?





Cavab: Ehramı düzgün şəkildə bağladıqdan sonra ondan üz döndərmək (üdul etmək) caiz deyildir. Əgər məsələni bilmədiyinə görə ehram paltarından çıxarsa və ya tikili paltar geyinərsə və yaxud da ehramın haram əməllərindən başqa birinə mürtəkib olarsa, kəffarə ona vacib deyildir. Lakin ehtiyata əsasən xoş iyli yağlardan istifadə edilən halda kəffarə vardır.

Sual 109: Miqata çatmamışdan öncə ehram bağlayacağı halda çarəsizlikdən haram olan kölgədə dayanmaq kimi bir əmələ mürtəkib olacağını bilən bir şəxsin nəzr etməklə muhrim olması səhihdirmi?

Cavab: Bu hal mübahisəli və işkallı bir durumdur.

Sual 110: "Həccin ibadətləri" kitabında buyurmusunuz ki, heyzli və bu kimi qadınlar üçün Məsciduş-şəcərədən kənarda da ehram bağlamaq caizdir. Görəsən belə bir qadın məscidə daxil olub orada muhrim olarsa, ehramı səhihdirmi?

Cavab: Əgər məsciddən keçən halda, yəni bir qapıdan daxil olub digər qapıdan çıxdığı bir halda muhrim olmuşdursa, səhihdir. Daha doğrusu hər bir halda ehramı səhihdir.

### Ehramın hökmləri:

Sual 111: Namazın qiraətində olan hərəkə ilə vəqf etmək və sükunla vəsl etmək kimi şeylərdə ehtiyatı qorumaq, ləbbeykləri deməyə də aiddirmi?

Cavab: Bəli oraya da aiddir, lakin bizim fikrimizcə bu ehtiyatı gözləmək müstəhəb bir əməldir.

Sual 112: Bir şəxs miqatda təlbiyə deməyi unudur və Məkkəyə çatıncaya qədər ləbbeyk demək yadına düşmür. Belə şəxsin vəzifəsi nədir?

Cavab: Əgər miqata qayıdıb orada muhrim olmağa gücü çatarsa, qayıtmaq ona vacibdir. Əgər qayıtmağı bacarmazsa, "Həccin hökmləri" kitabının 169-cu məsələsində qeyd olunduğu kimi bu hökmün bir neçə forması vardır və oraya müraciət edin.

Sual 113: Həcc və ya ümrə etmək üçün başqasının naibi olan bir şəxsin nəzr etməklə miqatdan öncə muhrim olması caizdirmi? Yoxsa naib olan bir şəxs məhz miqatda ehram bağlamalıdır?

Cavab: Naib olan bir şəxsin miqatdan öncə nəzr etməklə muhrim olması caizdir.

Sual 114: Öz vacib həccini yerinə yetirmiş bir şəxs üçün bir daha həccə getmək imkanı yaranmışdır. Birinci həccinə xələl gəldiyi halda bu həcci ondan əvəz olsun deyə və ya birinci həcci düzgün olduğu halda bu həcci müstəhəb sayılsın deyə sözü gedən ikinci həccin niyyəti necə olmalıdır?

Cavab: Vacib və ya müstəhəb həcc olduğunu bilmədiyi halda həmin şəxs, hal-hazırda boynunda olan əmri və ya hökmü yerinə yetirmək niyyətini etməlidir.

Sual 115: Əgər hacı iki vüqufdan sonra təlbiyəsinin səhih şəkildə olmadığından agah olarsa, vəzifəsi nədir?

Cavab: Əgər o zaman həmin mümkün olan şəkildə ləbbeyk desə və tələffüzündəki səhfi xalqın





nəzərində onu ləbbeyk adlandırmayacaq həddə olmazsa, eybi yoxdur. Əgər belə olmazsa (tələffüzündəki səhfi aşkar olarsa), elə həmin yerdə bir daha ləbbeyk deməlidir və həcci də səhihdir.

Sual 116: Görəsən ehram halında tikili paltarlardan özünü qorumaq qadınlara da vacibdirmi? Yoxsa onlar öz adi paltarları ilə də muhrim ola bilərlər?

Cavab: Onların öz adi paltarları ilə muhrim olması caizdir.

Sual 117: Ehram halının sona çatmasından sonra muhrim olmuş bir şəxsin "rədanı" öz çiynindən atması və yalnız "izarla" qalıb bu halda əməlləri yerinə yetirməsi caizdirmi?

Cavab: Caizdir.

Sual 118: Hacılara yol göstərmək işi ilə məşğul olan bələdçilər çox vaxt sallaqxanada qalırlar. Onların ehram paltarları qan və ya başqa bir şeylə nəcis olduğu halda təcili olaraq dəyişmələri və ya onları pak etmələri lazımdırmı?

Cavab: Bəli, ehtiyata əsasən onu dəyişməsi və ya pak etməsi lazımdır.

Sual 119: Müstəhəb həcc etmək niyyəti olan bir şəxs ehram vaxtı səhfə yol verərək hiccətul-islamı yerinə yetirmək niyyəti edərsə, nə etməlidir və vəzifəsi nədir?

Cavab: Hiccətul-islamın bütün şərtləri onun üçün hasil olmamışdırsa, onun həcci hər bir halda müstəhəb hesab olunur.

Sual 120: Miqatda muhrim olmaq daha fəzilətlidir, yoxsa ondan öncə nəzr etməklə ehram bağlamaq?

Cavab: Miqatda muhrim olmaq daha fəzilətlidir.

Sual 121: Əgər bir qadın miqatdan öncə nəzr etməklə muhrim olmaq istəyərsə, görəsən ərinin icazəsi olmadan bu nəzr səhih hesab olunurmu?

Cavab: Bu nəzr təməttö haqqı ilə olub ərinin də onunla bir ziddiyyəti olmazsa (məsələn, bu müddətdə ondan uzaq qalmasına narazı olmazsa) və ya bu həcc onun boynunda vacibdirsə (hiccətul-islam kimi) və yaxud izdivacdan öncə nəzr etməklə həcc onun boynuna vacib olmuşdursa və miqatdan öncə nəzr etməkdən başqa muhrim olmağın bir yolu yoxdursa, onun nəzri səhihdir. Bu qeyd olunan hallardan başqa durumlarda onun nəzrinin səhihliyi ərinin icazəsinə bağlıdır.

Sual 122: Ümrə və ya həcc üçün muhrim olmuş bir şəxsin öz ehramından üdul etməsi (üz döndərməsi) və ibadətləri yerinə yetirməməsi caizdirmi?

Cavab: Bu cür etməsi caiz deyildir. Əgər təməttö ümrəsində və ya həccində bu cür üdul edərsə və onların hər ikisinin müəyyən olunmuş vaxtı qurtarana kimi ibadətləri yerinə yetirməzsə, ehramı batildir. Amma bu hal müfrəd ümrədə baş verərsə, ibadətləri yerinə yetirməkdən başqa heç bir şəkildə ehramdan çıxmaq olmur.

Sual 123: Aylıq adəti muztəribe (adətinin nə vaxtı, nə də günlərinin sayı bilinməyən qadın) olan





bir qadın muhrim olmamışdan öncə qan görmüşdür. Bu qadın, təməttö ümrəsini edə bilməsi və ya bu ümrə üçün ehram bağlamasından dolayı ərəfə gününə kimi qanının kəsiləcəyini və ya kəsilməyəcəyini bilmirsə (beləki ərəfə gününə kimi qanının kəsilmədiyi halda ifrad həcci üçün muhrim olmalıdır), onun vəzifəsi nədir?

Cavab: Allahın nəzərində ona vacib olan əməli yerinə yetirmək niyyəti ilə muhrim olmaq kifayətdir.

Sual 124: Əgər bir qadın ləbbeyki və ya təvaf namazının qiraətini naməhrəm birinin onu eşidəcəyi tərzdə ucadan deyərsə, əməli batil olurmu?

Cavab: Batil olmur.

Sual 125: Əgər bir şəxs miqat olduğunu güman etdiyi bir yerdə muhrim olarsa və ibadətlərdən bir qismini etdikdən sonra həmin yerin miqat olmadığını bilərsə, nə etməlidir?

Cavab: Həyata keçirmiş olduğu şeyə etina etməməlidir. Bu şəxsin hökmü miqatda muhrim olmağı cəhalət üzündən tərk etmiş şəxsin hökmü kimidir və onun vəzifəsini “Həccin ibadətləri” kitabının 169-cu məsələsində qeyd etmişik.

Sual 126: Əgər bir mükəlləf təməttö həcci üçün muhrim olmağı unudarsa və ya onun vacib olmasının hökmünü bilməzsə, beləki Ərəfat və ya Müzdəlifədəki vüqufdan sonra öz səhfini başa düşərsə, bu halda onun vəzifəsi nədir?

Cavab: Əgər Ərəfatda olduğu zaman muhrim olmadığı yadına düşərsə və ya məsələnin hökmündən agah olarsa, beləki Məkkəyə qayıdıb orada muhrim olmağa gücü çatarsa, qayıtması vacibdir. Əgər vaxtın azlığı və ya başqa bir üzr səbəbi ilə Məkkəyə qayıtmağı bacarmazsa, dayandığı yerdə muhrim olmalıdır və həcci səhihdir. Həmçinin Müzdəlifədə olduğu zaman muhrim olmadığı yadına düşərsə və ya məsələnin hökmündən agah olarsa, Məkkəyə qayıdıb orada ehram bağlamağa gücü çatsa da belə dayandığı yerdə muhrim olmalıdır.

## Ehramın muhərramatı:

### a) Ov etmək:

Sual 127: Ehram halında olarkən kərtənkələ, əqrəb və ilan öldürmək caizdirmi?

Cavab: Əqrəbi və hər cür pis ilanı öldürmək muhrim üçün caizdir. Amma kərtənkələni öldürmək caiz deyildir.

Sual 128: Əgər muhrim olan şəxs bir heyvanı öldürərsə və hökmü bilmədiyinə görə və yaxud bilərəkdən onu Hərəmdən kənara apararsa, həmin heyvanı Hərəmə qaytarıb gətirmək ona vacibdirmi?

Cavab: Bəli, həmin heyvanı Hərəmə qaytarmaq ona vacibdir.

### b) Zövcəsi ilə mazaqlaşmaq:

Sual 129: Muhill olan bir şəxsin (ehram bağlamamış bir insanın) öz muhrim olan zövcəsindən öpmək və əl vurmaq kimi cimadan başqa ləzzətləri alması caizdirmi?





Cavab: Zahirə əsaslanaraq deyə bilərik ki, caizdir.

### c) Ətir:

Sual 130: Muhrim olan bir şəxs, xoş iyli olmayan sabun və şampundan və yaxud da onların az miqdarda qoxusu olan növlərindən istifadə edə bilərmi?

Cavab: Birinci halda onlardan istifadə etmək caizdir, amma ikinci halda ehtiyata əsasən onlardan qorunmaq lazımdır.

Sual 131: Görəsən xoş iyli siqaret çəkmək muhrim şəxsə caizdirmi?

Cavab: Ehtiyata əsasən onlardan qorunmaq lazımdır.

### d) Tikili paltarların geyinilməsi:

Sual 132: Ev ayaqqabısı və yaxud tikili ayaqqabı geyinmək muhrim şəxsə caizdirmi?

Cavab: Caizdir, lakin ayağın üstünü bütünlüklə örtən ayaqqabının geyinilməsi caiz deyildir.

Sual 133: Əgər zərurət üzündən başını örtmək muhrim şəxs üçün caiz olarsa, başına qoyacağı şeyin tikili olmaması şərtdirmi?

Cavab: Xeyr, lakin ehtiyata əsasən həmin şey əmmamə və ya papaq olmamalıdır.

Sual 134: Muhrim olan bir şəxsin öz əzarını (xüsusi libas) və ya öz bədəninin ortasını tikili olma-

yan parçadan hazırlanmış kəmərlə bağlaması caizdirmi?

Cavab: Məkruh olmasına baxmayaraq caizdir.

Sual 135: Ehramın iki parçasının kənarları tikili olarsa, muhrim şəxsin onu geyinməsi caizdirmi?

Cavab: Eybi yoxdur.

Sual 136: Muhrim olan bir şəxs öz rədasının iki tərəfini bir-birinə bağlaya və yaxud iynə ilə onları saxlaya (bərkidə) bilərmi?

Cavab: Caizdir, lakin ehtiyata əsasən rədanı düyünləmək caiz deyildir.

**e) Yağ vurmaq:**

Sual 137: Bəzən muhrim olan bir şəxsin çarəsizlik üzündən mualicə məqsədi ilə özünə yağ çəkməsi lazım olur. Belə olan halda onun boynuna kəffarə gəlirmi?

Cavab: Əgər həmin yağ xoş iyli olmazsa, kəffarə yoxdur.

**f) Bədənin tükünü təmizləmək:**

Sual 138: Muhrim olan bir şəxs öz bədəninin tükünü başqa bir şəxsin təmizləməsinə icazə verərsə, onun boynuna kəffarə gəlirmi?

Cavab: Bəli, tükün təmizlənməsinə özü səbəb olduğu halda kəffarə vardır.

Sual 139: Muhrim olan bir şəxs başqasının saçını təraş edərsə və ya başqasının tükünü azaldarsa, onun boynuna kəffarə vacib olurmu?





Cavab: Vacib olmur.

**h) Kişilərin öz başını örtməsi:**

Sual 140: Muhrim bir kişinin başının bir hissəsi tas və görkəmsiz olarsa və bu kişi də o hissənin aşkara çıxmasından xəcalət çəkərsə, başını örtməsi caizdirmi? Görəsən belə edərsə, kəffarəsi vardırmı?

Cavab: Əgər onu aşkara çıxarmaq həmin kişi üçün vəzifəsini saqit edəcək (qüvvədən salacaq) şəkildə çətin və ağır bir hal olarsa, paltar hesab olunmayan bir şeylə onu örtməsi caizdir və güclü nəzərə əsasən belə olan halda kəffarə yoxdur. Amma həmin kişinin halı deyilən şəkildə olmazsa, başını örtməsi caiz deyildir və əgər başını örtərsə, ehtiyata əsasən bir qoyun kəffarə verməlidir.

Sual 141: Əgər bir kişi zərurət üzündən (öncəki sualda deyildiyi kimi) və ya heç bir zərurəl olmadan süni tüklə muhrim olarsa, vəzifəsi nədir?

Cavab: Əgər zərurət üzündən olarsa, eybi yoxdur. Lakin zərurət üzündən olmamışdırsa, ehtiyata əsasən bir qoyun kəffarə verməlidir.

Sual 142: Muhrim olan bir şəxsin öz əlini üzünə qoyması caizdirmi?

Cavab: Bəli caizdir. Həmçinin üzünü başqa bir şeylə örtməsi də caizdir.

Sual 143: Muhrim olan şəxsin başını dəsmal və ya bu kimi şeylə qurutması caizdirmi?

Cavab: Caiz deyildir, həmçinin ehtiyata əsasən dəsmalı başa çəkmək və ya qoymaq şəklində bir iş görməkdən də qorunmaq lazımdır.

Sual 144: Muhrim olan şəxsin öz başını hamam duşunun və ya bu kimi bir şeyin altında yuması caizdirmi?

Cavab: Caizdir.

Sual 145: Muhrim olan şəxsin öz başını balışa qoyması caizdirmi? Nəzərə almalıyıq ki, bu işi görmək təbii olaraq başın bir hissəsinin örtülməsi ilə nəticələnir.

Cavab: Caizdir.

**j) Qadınların öz üzünü örtməsi:**

Sual 146: Muhrim olan bir qadının öz üzünü dəsmalla qurulaması caizdirmi?

Cavab: Ehtiyata əsasən bu işi görməməlidir. Hətta dəsmalı üzə çəkmək və ya qoymaq şəklində olsa və bütün üzü örtməsə də belə bu işi görməməlidir.

Sual 147: Muhrim olan qadının öz üzünü və əllərini (biləyə qədər) naməhrəm kişilərin qarşısında aşkar etməsi caizdirmi?

Cavab: Bəli. Əgər haram işin baş verməsindən və bir kişinin haram baxışa sövq olunacağından qorxu olmazsa, muhrim (və ya muhrim olmayan) qadının öz üzünü və əllərini (biləyə qədər) açması caizdir.





Sual 148: Əgər muhrim olan bir qadın ehram halında öz üzünü naməhrəm bir kişidən örtərsə və həmin örtük onun üzünə yapışarsa, bunun kəffarəsi vardırmı?

Cavab: Belə olan halda kəffarə yoxdur.

Sual 149: Muhrim olan bir qadın üz örtüyünü çıxarmaq istəyərsə və bu iş onun üzünün örtülməsinə səbəb olarsa, bunun kəffarəsi vardırmı?

Cavab: Xeyr.

Sual 150: Muhrim olan qadının üzü üstə yatması və bununla da üzünün örtülməsinə səbəb olması caizdirmi?

Cavab: Caizdir.

**g) Kölgədə dayanmaq:**

Sual 151: Üstü açıq maşınlarda stulun üzərinə oturan bir şəxsin arxasında və günəşin müqabilində bir maneə yaranır. Görəsən muhrim olan şəxsin belə bir iş görməsi, ona haram olan kölgədə dayanmaq əməlindən qorunması ilə ziddirmi?

Cavab: Qeyd olunan cəhətdən bir ziddiyyəti yoxdur.

Sual 152: Varlığı ilə yoxluğunun eyni olmasına şəkk edilən (yəni çox nazik olan) bir çətirdən istifadə etmək caizdirmi?

Cavab: Caizdir. Lakin şəkdən öncə onun kölgəlik yaradan bir çətir olmasını hesab etdiyiniz halda caiz deyildir.

Sual 153: Muhrim bir insan hərəkət etdiyi zaman başqa bir şəxs onun üzərinə kölgə salarsa, kəffarə həmin şəxsin boynuna gəlir, yoxsa muhrim olan insanın öhdəsindədir? Yaxud kəffarə heç birinin boynuna gəlmir?

Cavab: Əgər muhrim olan şəxsin özünü kənara çəkməyə və özünü qorumağa gücü çatırdısa və o, buna görə heçnə etməmişdirsə, kəffarə elə muhrim şəxsin boynundadır və digər şəxsin öhdəsində deyildir.

Sual 154: Muhrim olan şəxs bir müddət kölgədə qalmağa məcbur olarsa, bu icbari hal aradan qalxdıqdan sonra ehram halında yenə də kölgədə qalması caizdirmi?

Cavab: İcbari halın aradan qalxmasından sonra yenə də kölgədə qalmaq caiz deyildir. Lakin yenidən kölgədə qalarsa, başqa bir kəffarə onun boynuna gəlməyəcəkdir.

Sual 155: Muhrim olan bir şəxs Məkkəyə daxil olmuş və ehramdan çıxmamışdan öncə onun istirahəti üçün nəzərdə tutulmuş evə getmişdir. Belə olan halda bu muhrim şəxsin öz ibadətlərini yerinə yetirmək üçün Məscidul-hərama tavanlı avtobusla getməsi caizdirmi?

Cavab: Ehtiyat-vacibə əsasən caiz deyildir.

Sual 156: Öncəki sualda fərz olunmuş bir halda muhrim şəxs, kölgədə dayanmağın haram olması hökmünü bilmədiyinə görə kölgədə dayanarsa, bunun kəffarəsi vardırmı?





Cavab: Hökmü bilmədiyi bir halda kölgədə dayanmağa görə onun boynuna kəffarə gəlmir.

Sual 157: Əgər bir neçə dəfə kölgədə dayananılmışdırsa, onun kəffarəsi də həmin miqdara uyğundurmu?

Cavab: Güclü nəzərə əsasən bir ehramda (kölgədə dayanmağa görə) yalnız bir kəffarə vardır.

Sual 158: Muhrim olan bir şəxsin yaşayış binalarında quraşdırılmış elektrik liftlərindən istifadə etməsi caizdirmi?

Cavab: Caizdir.

Sual 159: Muhrim kişilər qadınlarla birgə gündüz vaxtı tavanlı maşında yol gedərlərsə, kəffarə vacib olurmu?

Cavab: Bəli, kölgədə dayanmağa səbəb olduğu halda kəffarə vacibdir.

Sual 160: Muhrim olan bir şəxs soyuqdan, istidən və küləkdən özünü gizlətməyi caiz hesab etməyən bir müctehidə təqlid etdiyi halda özünü gizlətmiş və həmin müctehidin nəzərində bu şəxsin boynuna kəffarə gəlmişdir. Həmin müctehidin dünyasını dəyişməsindən öncə bu şəxs soyuqdan, istidən və küləkdən özünü gizlətməyi caiz hesab edən başqa bir müctehidə rücu edir (keçir). İkinci müctehidin vəfatından sonra da sizə rücu etmişdir. İndi onun vəzifəsi nədir? Soyuq, isti və bu kimi şeylərdən özünü gizlətdiyi üçün birinci müctehidin zamanında boynuna gəlmiş kəffarə barədə onun vəzifəsi nədir?

Cavab: Əgər bu şəxs ikinci müctehidin təqlidində qalmışdırsa, kəffarə yoxdur. Əgər birinci müctehidi ələm (bizim nəzərimizdə ələm müctehidin təqlidində qalmaq vacibdir) bildiyi üçün ona rücu etmişdirsə, bu halda kəffarə onun boynunda sabitdir.

Sual 161: Gecə vaxtı və ya iki tulu arasında (sübh namazı vaxtı) çətir və ona bənzəyən şeylərdən istifadə etmək caizdirmi?

Cavab: Caizdir. Əgər göy üzü yağışlı olan halda ehtiyat-vacibə əsasən caiz deyildir.

Sual 162: Üstü açıq maşınlarda yol getməklə muhrim şəxsin bir tərəfi və cüzi bir hissəsi örtülərsə, bu işi görmək caizdirmi?

Cavab: Əgər onun bu işi xalqın nəzərində özünü günəş işığından qorumaq kimi hesab olunmazsa, caizdir. Eyni zamanda qeyd etməliyik ki, maşının kənarları qısa (kənarların hündürlüyü kiçik) olarsa və muhrim şəxsin baş və sinəsi örtülməzsə, bu hal xalqın nəzərində özünü günəş işığından qorumaq hesab olunmur.

Sual 163: Bir şəxs özünü soyuq, isti və bu kimi şeylərdən gizlətməyi haram hesab edən bir müctehidin müqəllidi idi. Bu müctehidin vəfatından sonra həmin şəxs başqa bir müctehidə rücu edir və ikinci müctehid günəş və yağışdan başqa heç bir şeydən özünü gizlətməyi haram hesab etmir. Həmin şəxs bir müddət ikinci müctehidin fətvasına əməl edir və sonra bu ikinci müctehid də dünyasını dəyişir. Həmin şəxs sizə müraciət edir və sizin də nəzərinizə





əsasən bu üç müctehidin ələminə təqlid etmək vacibdir. Həmin şəxsin nəzərində birinci müctehid ələm olduğu halda soruşub bəzi hökmləri öyrənmək istəyir:

Birinci: Birinci müctehidin fətvasına uyğun əməl etdiyi halda çətinlik və məşəqqətlə qarşılaşacağına görə məhz bu məsələdə ikinci müctehidə təqlid etməkdə qala və yaxud sizə rücu edə bilərmi?

Cavab: Bizim nəzərimizə əsasən belə edə bilməz.

İkinci: Bu məsələdəki hər iki müctehidin fətvasını bilən və onların zəkasından agah olan bir qrup xəbərdar şəxs, təzlil (kölgədə dayanmaq) məsələsində ikinci müctehidin ələm olduğuna şəhadət verərlərsə, görəsən bu şəxs onların şəhadətinə əsaslanaraq sözü gedən məsələdə ikinci müctehidin təqlidində qala bilərmi?

Cavab: Ələmlikdə şərt olan həqiqət bir məsələ ilə əlaqədar deyildir, əksinə bütün məsələlərlə bağlı olan bir növü təşkil edən həqiqətdir. Məhz bir qrup xəbərdar şəxsin sözü ilə ələm olmayan müctehidin fətvasını ələm müctehidin fətvasından üstün tutmaq düz deyildir və həmin qrupun nəzərinin ələm olmayan müctehidlə uyğun olması yalnız bu məsələyə məxsusdur. Yəni bu uyğunluq sözü gedən məsələdə ələm olmayan müctehidi ələm müctehiddən üstün tutmağa səbəb ola bilməz. Nəticə etibarı ilə ziddiyyət zamanı müraciət olunan xəbərdar şəxslərin görüşü tək-tək məsələlərə aid deyildir, əksinə bütün məsələlərin növünə diqqət yetirmək və bu növün

üstünlüyünü mülahizə etməkdir. Odur ki, hansı müctehid məhz bu növ cəhətindən ələm olarsa, həmin növdə olan bütün fətvaları höccətdir və bəzi məsələlərdə onun xətası müəyyən olunmayana kimi bütün fətvalara əməl etmək lazımdır.

Üçüncü: Birinci müctehidin fətvasının istinadını təhqiq edən bir qrup xəbərdar şəxslərin araşdırmasından sonra məlum olur ki, birinci müctehid bu məsələ ilə əlaqədar fətvasında xətaya yol vermişdir. Bu şəxslərin şəhadətinə söykənərək həmin müctehidin müqəllidi olan bir insan kölgədə dayanmaq məsələsində başqa bir müctehidə keçə bilərmi?

Cavab: Əgər bu yolla təqlid etdiyi müctehidin xəta etdiyinə arxayın olarsa, ələmliklə bağlı tərtibə riayət edərək həmin fətvaya əməl etməməsi və başqa bir müctehidə rücu etməsi caizdir. Lakin ümumi şəkildə müqəllid olan bir şəxs, ələm müctehidin bu məsələdəki fətvasının istinadındakı səhfi xəbərdar şəxslərin vasitəsi ilə əldə edərək necə arxayın ola bilər?! Əlbəttə ələm müctehidin xətasını qeyd olunan şəkildə təyin etməyi bacaran xəbərdar şəxslərin sözü ilə və onların xəbər verməkdə etimadlı şəxslər olmasına söykənməklə arxayınlıq əldə etmək mümkündür.

Dördüncü: Fərz edək ki, bu məsələdə birinci müctehidin təqlidində qalmaqdan başqa bir yol yoxdur. Belə olan halda kölgədə dayanmaq məsələsində bir müddət təqlid etmiş olduğu müctehidin rəyinə əməl etdiyi üçünbu müqəllid şəxsin boynuna kəffarə gəlirmi?

Cavab: Onun boynuna kəffarə gəlmir.





### k) Bədəndən qan çıxarmaq:

Sual 164: Muhrim olan bir şəxs başqasına ampul (iynə) vura bilərmi? Bu işi görmək digər şəxsin bədənindən qan çıxmasına səbəb olacaqsa, hökmü nədir?

Cavab: Caizdir, lakin digər şəxs də muhrim olarsa, bu işi tərk etmək ehtiyat-müstəhəbdir.

Sual 165: Muhrim olan bir şəxs özünə ampul vuracağı halda bədənindən qan çıxacağını bilirsə, bu işi görməsi caizdirmi?

Cavab: Ehtiyata əsasən caiz deyildir. Zərurət və çarəsizlik halı isə istisnadır.

Sual 166: Muhrim şəxsin öz qanını başqasına bağışlaması caizdirmi?

Cavab: Ehtiyata əsasən muhrim şəxsin öz bədənindən qan çıxarması caiz deyildir. İstər bu qan çıxmaya özü birbaşa səbəbkar olsun, istərsə də dolayı yolla qan çıxarmaya səbəb olmaq caiz deyildir. Zərurət və çarəsizlik halında bu işi görmək isə istisnadır.

### p) Dırnaq tutmaq:

Sual 167: Muhrim olan bir şəxsin başqasının (istər muhrim olsun, istərsə də muhil) dırnağını tutması caizdirmi?

Cavab: Hər iki halda caiz olması uzaq nəzər deyildir. Amma ikinci halda bu işi tərk etmək ehtiyata uyğundur.

**q) Diş çəkmək:**

Sual 168: Muhrim olan bir şəxsin başqasının dişini çəkməsi caizdirmi?

Cavab: Caizdir.

**Kəffarələrin hökmləri:**

Sual 169: Bir hacının boynuna kəffarə gəlmişdir. Məkkə və Minada qoyunun qiymətinin baha olmasından dolayı onu kəsməyi öz şəhərinə qayıdacağı vaxta kimi təxirə salması caizdirmi?

Cavab: Məkkə və Minada kəffarə vermək qiymətlərin qalxması səbəbi ilə çətin və ağır olarsa, onu öz şəhərinə qayıdacağı vaxta kimi təxirə salmaq caizdir. Əgər orada kəffarə vermək çətin və ağır olmazsa, ov etmənin kəffarəsini (və ehtiyata əsasən digər kəffarələri də) təxirə salmaq caiz deyildir.

Sual 170: Öncəki sualda fərz olunmuş və qurbanı təxirə salmağın hacıya caiz olmadığı bir halda müəyyən bir üzr səbəbi ilə və ya heç bir üzr olmadan onu təxirə salarsa, belə olan halda öz şəhərində qurban kəsməsi onun üçün kifayət edəcəkmi? Yoxsa başqa bir şəxsi naib tutması və növbəti ildə olsa da belə Minada və ya Məkkədə qurbanlıq kəsdirməsi ona vacibdir?

Cavab: Öz şəhərində qurban kəsməsi kifayətdir.

Sual 171: "Həccin ibadətləri" kitabında buyurmusunuz ki, kəffarənin xərcləndiyi yerlər fəqir və miskin şəxslərdir. Əgər hacı Məkkə və ya Minada öz qurbanlığını bağışlamağa fəqir tapa bilməzsə, belə





olan halda məhz orada qurban kəsməsi vacibdirmi? Əgər belə edərsə, qurbanlığın ətini nə etməlidir?

Cavab: Əgər həmin şəxsin fəqir bir nəfər tapıb onu vəkil seçməsi və həmin fəqirin də kəffarəni qəbul edib satmaq, hədiyyə etmək, bağışlamaq və bu cür yollarla onu təsərrüf etməsi mümkün olarsa, belə etməsi vacibdir. Əgər bu işi görmək onu üçün mümkün olmazsa, qurban kəsməyi öz şəhərinə qayıdacağı vaxta kimi təxirə salması caizdir.

Sual 172: Əgər hacı öz kəffarəsini Məkkə və ya Minada əda etdikdən sonra qurbanlığını sədəqə vermək üçün bir fəqir tapmazsa və onu tələf oluncaya kimi boş buraxarsa, görəsən bu hacı onun qiymətini fəqirlərə verməyə zamindirmi (borcludurmu)?

Cavab: Bəli, ehtiyata əsasən qurbanı kəsdikdən sonra onun qiymətinə zamindir.

Sual 173: Öncəki sualda qeyd olunan məqsədlə kəsilən qoyunun qurbanlıq şərtlərinə sahib olması vacibdirmi?

Cavab: Vacib deyildir. Lakin o şərtlərə sahib olması ehtiyata uyğundur.

**Təvafın hökmləri:**

Sual 174: Bir şəxs yeddi dəfə təvaf edib. Təvafın hər dövrünü Həcərul-əsvəddən başlamış və rukniyəmaninin kənarında dövrü bitirmək niyyəti etmişdir. Belə olan halda onun vəzifəsi nədir?

Cavab: Təvafı batildir. Əgər bu hadisə təməttö ümrəsində və ya həccdə baş vermişdirsə və təvafın

vaxtı bitənə kimi onu yenidən yerinə yetirib çatışmamazlığı aradan qaldırmağa gücü çatarsa, (belə etdiyi halda) həcci səhihdir. Əgər belə edə bilməzsə, həcci də batildir və həccini yenidən yerinə yetirmək ona vacibdir. Ehtiyat-vacibə əsasən bir dəvə də kəffarə olaraq kəsməlidir.

Sual 175: Əgər bir mükəlləf təməttö ümrəsində unutqanlıq üzündən təvaf etməsə və ya yeddi dövrdən az yerinə yetirərsə və Ərəfatda olduğu zaman yadına düşərsə, nə etməlidir?

Cavab: Məkkəyə qayıtdıqdan sonra onun qəzasını etməlidir. Əgər unutduğu dövrlərin sayı üç və ya ondan daha az olarsa, həmin miqdarı yerinə yetirməlidir və əgər unutduğu dövrlərin sayı üçdən çox olarsa, həmin miqdarı yerinə yetirməli və təvafı tamamladıqdan sonra ehtiyat-vacibə əsasən onu bir daha həyata keçirməlidir.

Sual 176: Bir şəxs təvaf halında olduğu zaman Həcərul-əsvədi öpür və oradan ayrıldıqdan sonra çatmış olduğu (təvafın dövrünü saxladığı) yerdən davam etməsi ilə oradan bir az keçməsi arasında şəkk edir. Onun vəzifəsi nədir?

Cavab: Təvafını tamamlasın və başqa heç bir şey ona vacib deyildir.

Sual 177: Əgər təvaf etmək istəyən bir şəxs mətafın (təvaf olunan məkanın) müəyyən bir yerində şiddətli izdihama görə öz ixtiyari hərəkətini itirəcəyini öncədən bilərsə, nə etməlidir? Görəsən təvafın niyyətini piyada və ya süvari halda yerinə yetirməkdən daha ümumi şəkildə edə bilərmi? Yəni təvafın





həmin hissəsini süvari halda yerinə yetirməyi niyyət edə bilərmi?

Cavab: Əgər izdihamın şiddəti onun ixtiyarını tamamilə aradan aparmazsa, işkalı yoxdur. Lakin belə olmadığı halda təvafını tam olaraq öz ixtiyarı və iradəsi ilə yerinə yetirə biləcəyi zamanda həyata keçirməlidir. Sualda qeyd olunmuş niyyətin isə heç bir mənası və təsiri yoxdur.

Sual 178: Müstəhəb təvafın dövrlərini neçə nəfərin arasında bölmək caizdir? Yəni bu bölgü birinci təvafın Zeydə, ikinci dövrü Əmrə  və.... tapşırmaq kimi olacaqdır.

Cavab: Bunun bir eybi yoxdur. Lakin dövləri bir neçə nəfərin arasında bölünmüş bir təvafın niyyətini etməməlidirlər, əksinə bir neçə nəfər arasında müştərək olan bir təvafın niyyətini etməlidirlər və yaxud da hər bir dövrü birbaşa həmin şəxsin niyyəti ilə yerinə yetirməlidirlər.

Sual 179: Bir şəxs öz təvafını rukni-yəmanidə başlamış və orada da sona çatdırmışdırsa, onun hökmü nədir?

Cavab: Əgər onun niyyəti şəriətdə nəzərdə tutulan yerdən təvafa başlamaq olmuşdursa və sadəcə həmin yerin rukni-yəmani olduğunu zənn etmişdirsə, sonuncu dövrün azlığını (çatışmayan miqdarını) aradan qaldırmaqla onun təvafının səhih olması uzaq nəzər deyildir. Lakin belə olmazsa, təvafı batildir və onun hökmü mükəlləf şəxsin hökmü kimidir.

Sual 180: Bir şəxs rukni-yəmaninin Həcərul-əsvədolduğunu zənn edərək oradan təvaf etməyə başlayır və təvaf etdiyi zaman vəziyyəti başa düşüb təvafını Həcərul-əsvəddə bitirir. Onun təvafı səhih-dirmi?

Cavab: Əgər onun öz təvafını rukni-yəmanidən başlaması tətbiqdə olan xəta kimi dəyərləndirilərsə, zahiri hökmə əsasən təvafı səhihdir.

Sual 181: Bir şəxs öz təvafının iki dövrünü Hicri-İsmailin iç tərəfindən keçərək yerinə yetirmiş-dir. Onun vəzifəsi nədir?

Cavab: Həmin iki dövrü yenidən yerinə yetirmə-lidir.

Sual 182: Bir şəxs təvafın dövrlərində şərt olan muvalatın pozulduğunu xəyal etdikdən sonra və ya-xud muvalatın pozulub-pozulmadığına şəkk etdik-dən sonra təvafını əvvəldən başlamış və onu yenidən yerinə yetirmişdir. Görəsən onun əməli səhihdirmi?

Cavab: Səhihdir.

Sual 183: Təvaf edən bir şəxs mətafdan bir neçə addım "Şadərvana" tərəf getmişdir. Bu şəxs getdiyi miqdarı dəqiq şəkildə bilmədiyinə görə və xələl gəlmiş dövrün əvəzindəki çatışmamazlığı aradan qaldırmaq üçün ayrıca bir dövr də təvaf edərsə, onun əməli səhih hesab olunurmu?

Cavab: Əgər həmin şəxs bu işi cahili-müqəssir olaraq etməmişdirsə (yəni üzrlüdürsə), təvafının sə-hihliyinə bir zərəri yoxdur. Lakin bu işi üzrsüz halda





etmişdirsə, ehtiyat-vacibə əsasən təvafı səhih de-yildir.

Sual 184: Əgər təvaf edən bir şəxs özünün birin-ci dövründəki məsafəni ixtiyarsız olaraq qətt etdiyini təvafın beşinci dövründə anlayarsa, nə etməlidir?

Cavab: Əgər onun ixtiyarı tam şəkildə aradan getməmişdisə, işkalı yoxdur və əgər belə olmazsa, birinci dövrü ləğv olunmuş hesab ediləcəkdir (yəni birinci dövrü nəzərə almamalıdır).

Sual 185: Əgər bir şəxs vacib təvafı yeddi dövr etməklə həyata keçirəcəyini niyyət etdikdən sonra təbərrük qəsdi ilə ona bir dövr də əlavə edərsə, onun hökmü nədir?

Cavab: Belə bir dövrün onun təvafına zərəri yoxdur.

Sual 186: Əgər təvaf edən bir şəxsin sonuncu dövründə ondan bir hədəs (dəstəmazı batil edən bir səbəb) baş verərsə və bu şəxs də mətafdan kənara çıxıb təharətini bərpa etdikdən sonra oraya qayıda-raq təvafı əvvəldən başlayarsa, onun əməli səhih hesab olunurmu?

Cavab: Əgər xalqın nəzərində muvalatın pozul-masından sonra təvafı əvvəldən başlayarsa, onun əməli səhihdir və əgər belə olmazsa, ehtiyat-vacibə əsasən onun əməli səhih deyildir. Bu hökmlər hədə-sin ixtiyarsız olaraq baş verdiyi hallara aiddir.

Sual 187: Əgər təvaf edən bir şəxs özünün bir dövrünün bəzi addımlarını ixtiyarsız etdiyinə arxa-

yın olduqdan sonra təvafı bitirmiş və sonuncu dövrdən sonra bir dövr də ona artırmışdır. Onun belə bir təvafının hökmü nədir?

Cavab: Ehtiyat-vacibə əsasən səhih deyildir. Lakin təvaf edən şəxsin cahili-qasir (yəni üzrlü) olduğu hal isə istisnadır.

Sual 188: Əgər təvaf edən bir şəxs yerinə yetirməkdə olduğu dövrə xələl gəldiyini ehtimal verərək onu tərk edərsə (boşlayarsa) və Həcərul-əsvəddən təzə dövrə başlayarsa, onun hökmü nədir?

Cavab: Əgər onun yerinə yetirməkdə olduğu dövrün səhihliyinə hökm olunurdusa və bu şəxs də onu yenidən başlamışdırsa, ehtiyat-vacibə əsasən səhih deyildir. Əlbəttə həmin şəxs bu işi bilməməzlik üzündən və ya üzrlü halda etmişdirsə, təvafı səhihdir.

Sual 189: Təvaf edən bir şəxs öz təvafının səhihliyinə şəkk edən halda və ya onun dövrlərinin sayına tərəddüd etdiyi bir vəziyyətdə təvafını sona çatdırmışdır. Sonra isə bu şəxs təvafının səhih olduğuna və dövrlərinin az deyil, əksinə çox olmasına yəqin əldə etmişdir. Belə olan halda onun əməli səhihdirmi?

Cavab: Səhihdir.

Sual 190: Bir qadın təvafda öz ərinə tabe olur. Altıncı dövrü sona çatdırdıqdan sonra onun əri mətafdan kənara çıxır və bu qadın təvafını əvvəldən başlayır. Belə etməyin hökmü nədir?





Cavab: Əgər bu qadın öz təvafını ona zidd olan bir işin baş verməsindən (xalqın nəzərində muvalatın pozulması kimi) sonra əvvəldən etməyə başlayarsa, təvafı səhihdir. Lakin belə olmadığı təqdirdə ehtiyat-vacibə əsasən səhih deyildir. Əlbəttə məsələni öyrənməkdə və bilməkdə cahili-qasir olan üzrlü şəxslər istisnadır.

Sual 191: Təvaf edən bir şəxs onun dövrünün bir neçə addımını etmişdir. Təvafın şəri cəhətdən mötəbər şərti hesab olunan şərtlərindən bəziləri (oradakı izdihamın şiddətli olması və ya Kəbə ilə üzbəüz qalmaq kimi başqa bir üzr və yaxud öz ixtiyarını birbaşa itirməsi və yaxud da "Şadərvandan" yuxarıya çıxmaqla) pozularsa, aşağıdakı hallarda onun vəzifəsi nədir?

Birinci: Əgər (təvafına) bir xələl gəldiyi zaman onu başa düşərsə, hökmü nədir?

Cavab: Qayıtmalı və təvafına xələl gəldiyi miqdarı yerinə yetirməlidir (çatışmamazlığı aradan qaldırmalıdır) və təvaf qəsdi etmədən oraya qayıdıb həmin yerdə təvaf niyyəti etməsi düzgün deyildir (yəni elə həmin yerə qayıtdığı zaman təvaf niyyəti etməlidir). Əlbəttə izdihamın şiddətinə görə qayıtmağı bacarmazsa, təvaf niyyəti etmədən Həcərul-əsvədə getməli və oradan təzə dövrə başlamalıdır.

İkinci: Təvaf edən şəxs öz təvafına xələl gəldiyi zaman onu anlamışdır, lakin təvafını davam etdirmiş və dövrü sona çatdırmışdır. Bunun hökmü nədir?

Cavab: Əgər hökmdən xəbərsiz halda və cahili-qasir olaraq həmin dövrü sona çatdırmışdırsa, onu

yenidən yerinə yetirməlidir və başqa heç bir vəzifəsi yoxdur. Əgər cahili-qasir olmadan belə etmişdirsə, ehtiyat-vacibə əsasən təvafı batildir.

Üçüncü: Həmin dövrü bitirdikdən sonra və növbəti dövrdə öncəki dövrə xələl gəldiyini anlayarsa, onun hökmü nədir?

Cavab: Xələl gəlmiş dövrünü yenidən yerinə yetirməlidir və belə etdiyi təqdirdə təvafı səhihdir.

Sual 192: Təvaf edən bir şəxs yeddi dövrü yerinə yetirdikdən sonra onun səhihliyinə şəkk etmişdir və təvaf namazını qılmamışdan öncə ehtiyat etmək məqsədi ilə onu yenidən yerinə yetirmişdir. Bu şəxsin belə etməsi onun əməlinin səhihliyinə zərər verirmi?

Cavab: Təvaf ilə onun namazı arasına ehtiyat təvafı edərək fasilə salmaq məhəlli-işkaldır (yəni mübahisəli və problemli bir haldır).

Sual 193: Bir qadın dırnağın üzərinə çəkildiyi zaman suyun çatmasına əngəl olan lakdan istifadə edir və lakın dəstəmazın səhihliyinə xələl gətirəcəyini bilmir. Belə bir vəziyyətdə də həcci yerinə yetirir. Onun həccinin hökmü nədir?

Cavab: Bu qadının həcci batildir və ehtiyata əsasən bir dəvə də kəffarə olaraq kəsməlidir.

Sual 194: Qadınların ramazan ayında və ya həcc günlərində öz adət vaxtlarını təxirə salmaq üçün istifadə etdikləri bir dərman vardır. Lakin o dərmandan istifadə olunmuş adət günlərində heyz qanının





xüsusiyyətlərinə sahib olmayan kəsilmiş qan xaric olur. Bir qadının o dərmandan istifadə etməyəcəyi halda üç gündən sonra heyz qanı görəcəyini və o dərmanın istifadəsinə davam edəcəyi halda ya ümumiyyətlə qan görməyəcəyini və yaxud da kəsilmiş şəkildə qan gələcəyini bilirsə, onun hökmü nədir?

Cavab: Sualda fərz olunmuş həmin qan heyz qanının hökmünə sahib deyildir, əksinə istər heyz qanının xüsusiyyətlərinə sahib olsun, istərsə də olmasın həmin qan istihazənin hökmünə sahibdir.

Sual 195: Bir qadın özü təvaf etməsi və onun namazını qılması üçün dərman qəbul etməklə heyz qanını təxirə salmağın, həmçinin təvaf və onun namazı üçün naib tutmağın hər ikisinə eyni zamanda qadirdirsə, dərmandan istifadə etmək onun üçün lazımdırmı?

Cavab: Zərərdən uzaq olacağına əmin olduğu halda ehtiyat-vacibə əsasən dərmandan istifadə etmək lazımdır.

Sual 196: Bir şəxs on dörd dövr təvaf etməyin vacib olduğu etiqadına sahib şəkildə həmin miqdarda təvaf edir. Bu şəxs hansı hökmə sahibdir?

Cavab: Əgər cahili-qasir olarsa, təvafının səhihliyinə bir zərər gəlmir. Lakin belə deyildirsə, təvafının səhihliyi məhəlli-işkaldır (mübahisəli və problemli bir haldır).

Sual 197: Təvaf edən bir şəxs təvafındakı dövrlərindən bəzisinin batil olduğuna ehtimal verdiyi halda ehtiyata görə bir və ya iki dövr (ehtimal

verdiyi azlığı aradan qaldırmaq üçün) ona əlavə edə bilərmi? Əgər belə edərsə, onun hökmü nədir?

Cavab: Əgər onun təvafının səhih olduğuna hökm olunurdusa, belə etməsi və ehtimal verdiyi azlığı aradan qaldırmaq üçün təvafına bir şey artırması caiz deyildir. Lakin bir şəxs cahili-qasir olaraq məsələni bilmədiyi üçün belə bir iş görərsə, onun təvafının səhihliyinə bir xələl gəlməz.

Sual 198: Təvaf əsnasında qadının zinət yerlərindən bəzisi (onun tükü kimi) görünərsə, onun təvafının hökmü nədir?

Cavab: Həmin qadının təvafına bir zərəri yoxdur.

Sual 199: Təvaf əsnasında yemək və içmək caizdirmi?

Cavab: Caizdir.

Sual 200: Təvafı ixtiyari şəkildə kəsmək və onu bir daha əvvəldən başlamaq caizdirmi?

Cavab: Güclü nəzərə əsasən təvafı kəsmək caizir. Lakin vacib təvafın dördüncü dövründən sonra və ya müstəhəb təvaf zamanı təvafı kəsmək, xalqın nəzərində muvalatın pozulmasından və ya mətafdan çıxıb əzəmətli Kəbəyə daxil olmaq kimi təvafa zidd olan bir qrup işlərdən sonra olmalıdır.

Sual 201: Təvaf edən bir şəxs təvaf halında ikən camaat namazı bərpa olunduğuna görə onun təvafı kəsildi və bu şəxs əməlinin batil olduğu gümanı əsasında təvafını əvvəldən başladı. Onun bu cür əməl etməsi kifayətdirmi?





Cavab: Onun bu cür etməsinin kafi olması uzaq nəzər deyildir.

Sual 202: Təvaf edən bir şəxs təvaf əsnasında yaralanmış və onun qanı bir neçə saat davam edərək dayanmamışdır. Belə bir qandan qorunmağın onun üçün çətin olduğunu nəzərə aldığımız zaman həmin şəxsin bu halda təvafını davam etdirməsi caizdirmi? Yoxsa həmin şəxsin qan dayanana qədər səbr edib gözləməsi lazımdır?

Cavab: Əgər təvafı dərhal yerinə yetirmək zəruri hal deyildirsə və qan dayanana qədər səbr etmək onun üçün çətin olmayacaqsa, səbr etməsi ehtiyata daha uyğun olan bir əməldir.

Sual 203: Əgər bir qadın təməttö ümrəsindəki təvafının batil olduğunu bildikdən sonra aybaşı olarsa, nə etməlidir?

Cavab: Bu qadın "Həccin ibadətləri" kitabının 290-cı məsələsində hökmü qeyd olunmuş və təvaf etməmişdən öncə adəti başlayan qadının hökmünə sahibdir.

Sual 204: Heyz olacağından qorxan bir qadının yalnız həccin təvafını və onun namazını iki vüqufdan öncə yerinə yetirməsi caizdirmi? Yoxsa səy, nisa təvafı və nisa təvafının namazını da iki vüqufdan öncə yerinə yetirə bilər?

Cavab: Onların hamısını iki vüqufdan öncə yerinə yetirmək həmin qadın üçün caizdir. Lakin onun əri (cinsi ləzzətlər) və ətirlənmək Minadakı ibadətləri yerinə yetirənə kimi ona halal deyildir.

Sual 205: Yalnız ehtimal əsasında (hətta zəif ehtimal olsa belə) aylıq adətinin başlayacağını güman edən bir qadının həccin təvafını və onun namazını iki vüqufdan (Ərəfat və Məşərdəki) öncəyə salması caizdirmi? Yoxsa bu məsələdə onun ehtimalı güclü olmalıdır?

Cavab: Əgər onun ehtimalı ağıllı insanların qəbul etdiyi və qorxu halının şamil olduğu bir güman olarsa, həmin əməlləri iki vüqufdan öncə etmək üçün kifayətdir.

Sual 206: Əgər bir şəxs cünub olduğunu unudaraq cənabət halında həcc və ümrənin əməllərini yerinə yetirərsə, onun hökmü nədir?

Cavab: Həcc və ümrə üçün etdiyi təvaf və onun namazı batildir. Bu şəxsin hökmü təvafı unutmuş bir şəxsin hökmü kimidir. Əgər onun qəzasını etməyi bacararsa, özü yerinə yetirməlidir və əgər bacarmazsa, naib tutmalıdır.

Sual 207: Təvaf edən bir şəxsdən təvaf əsnasında bir hədəs baş verərsə və o, xəcalət çəkməsin deyə təvafını davam etdirərsə, hansı hökmə sahibdir?

Cavab: Təvafı batildir və buna görə həcci də batil olur. Odur ki, onun qəzasını etməlidir.

Sual 208: Özü təvaf edə bilməyən bir şəxs xərəklə təvaf etmək istəyir, lakin xərək sahibləri onu təvaf etdirmək üçün çox miqdarda məbləğ istəyirlər və həmin miqdarı ödəmək onun üçün çətindir. Belə olan halda bu şəxsin başqa birini təvaf üçün naib tutması caizdirmi?





Cavab: Bəli, caizdir.

Sual 209: Təvaf edən bir şəxs təvaf əsnasında öz ehram paltarında nəmlik hiss edir və evə qayıdıb axtarış apardıqdan sonra paltarında nəcis olduğunu görür. Paltarındakı nəcisin ehram əsnasında hiss etdiyi nəmlik olduğuna dair arxayınlığı güclənir. Belə olan halda onun təvafının və təvaf namazının hökmü nədir?

Cavab: Əgər həmin təvaf əsnasında paltarındakı nəmliyin nəcis olduğuna dair ehtimalı olmamışdırsa, onun təvafı və təvaf namazı səhihdir. Lakin həmin təvaf əsnasında paltarındakı nəmliyin nəcis olduğunu ehtimal etmiş olsa və axtarış aparmazsa, təvaf namazını yenidən qılması əhvət nəzərdir (ehtiyata daha çox yaxındır).

Sual 210: İzdihamın çox olduğu bir vaxtda müstəhəb təvaf etmək qadınlara toxunmağa və ümumiyyətlə hacıların yolunu sıxlaşdırmağa səbəb olacaqsa, bu halda müstəhəb təvaf etmək caizdirmi?

Cavab: Əgər qadınlara toxunmaq və təmas etmək haram bir şəkildə olacaqdırsa, müstəhəb təvaf caiz deyildir. Amma müstəhəb təvaf etməklə və adi formada (yayılmış və ənənəvi şəkildə) hacıların yolunda sıxlığa səbəb olmağın bir eybi yoxdur.

Sual 211: Boynunda məshi-meyyit quslu vacib olan bir şəxs unutqanlıq üzündən elə həmin halda həccin əməllərini yerinə yetirir. Belə şəxsin hökmü nədir?

Cavab: Onun hökmü cənabət quslunu unutmuş şəxsin hökmü kimidir və 206-cı sualın cavabında qeyd olunmuşdur.

Sual 212: Namazın hökmləri bölməsində kəsiruş-şəkk olan (çox şəkk edən) bir şəxsin barəsində qeyd olunan hökmlər təvafda da çox şəkk edən bir insanın halına şamildirmi? Əgər şamildirsə, təvafda kəsiruş-şəkk olmağın meyarı nədir?

Cavab: Təvafda çox şəkk edən, həmçinin namazda kəsiruş-şəkk olan bir şəxs öz şəkkinə etina etməməlidir. Onun meyarı isə xalqın nəzəridir. Yəni bu şəxsin şəkki adi insanlardan daha çox olur və bu şəxsin fikrinin yayınması halları daha şiddətli şəkildə gerçəkləşir.

Sual 213: Cünub olan şəxsin sudan istifadə etməsi onun üçün zərərli olduğu halda təyəmmüm etməsi və təvafı yerinə yetirməsi caizdirmi?

Cavab: Bəli. Əgər təvafın vaxtı bitənə kimi onun üzrünün aradan qalxmasına ümid olmazsa, təyəmmümlə təvaf etməsi kifayətdir.

Sual 214: Təvaf edən bir şəxs dövrlərin sayında şəkk edərək öz təvafının batil olduğuna hökm etmiş və onu yenidən başlamışdır. İkinci təvafı yerinə yetirdiyi zaman isə birinci təvafındakı dövrlərin sayında yəqinə çatmışdır. Onun vəzifəsi nədir?

Cavab: İkinci təvafı sona çatdırmalıdır. Lakin birinci təvafının tam və kamil olduğuna yəqin etdiyi hal isə istisnadır.





Sual 215: Bir şəxs təvaf etməyə başlayır və Hicri-İsmailə çatdıqdan sonra yerinə yetirməkdə olduğu dövrü boşlayaraq təvafı əvvəldən başlayır. Lakin yeddinci dövrə çatdığı zaman bütün dövrləri yerinə yetirmir və öncədən boşlayıb üz çevirmiş olduğu dövrü həyata keçirir. Belə olduğu halda onun hökmü nədir?

Cavab: Təvafı batildir.

Sual 216: Müstəhazeyi-kəsirə olan bir qadın təvaf və onun namazı üçün yalnız bir qusl edə bilərmi? Müstəhazeyi-mütəvəssitə və ya müstəhazeyi-qəlilə olan bir qadın təvaf və onun namazı üçün yalnız bir dəstəmazla kifayətlənə bilərmi?

Cavab: Müstəhazeyi-mütəvəssitə və ya müstəhazeyi-qəlilə olan bir qadının həm təvaf, həm də təvaf namazı üçün ayrıca bir dəstəmaz alması əhvət nəzərdir (ehtiyata uyğundur). Müstəhazeyi-kəsirə olan bir qadının qanı axıcı olarsa və ardıcıl olaraq pambığın zahirinə qədər nüfuz edərsə, əhvət nəzərə əsasən təvaf və onun namazının hər biri üçün ayrıca qusl almalıdır. Lakin onların hər ikisi üçün bir quslun da kifayət etməsi uzaq nəzər deyildir. Amma qanın pambığın zahirinə çıxması kəsilirsə və həmin qadın da qanın növbəti dəfə zahirə çıxmasından öncə qusl alaraq təvaf namazını qılmağı bacararsa, belə olan halda qusl alıb təvafı yerinə yetirdikdən sonra və qanın zahirə çıxmasından öncə təvaf namazı üçün yenidən qusl etməsi lazım deyildir. Yəni təvaf namazı üçün bir daha qusl almasının ehtiyat-vacib olmasına baxmayaraq qanın növbəti dəfə zahirə

çıxmasından öncə aldığı birinci qusIla təvaf namazını da qıla bilər.

Sual 217: Öz təharətini yeniləməsi vacib olan müstəhazə bir qadının bu işi görməsi nəticəsində quslu ilə dəstəmazı və ya onun təvafı ilə təvaf namazı arasında uzun bir fasilə yaranır. Görəsən bu fasilənin yaranması onun əməlinin səhihliyinə zərər verirmi?

Cavab: Çarəsizlik üzündən təvaf ilə onun namazı arasına fasilə salmaq bağışlanılmış və əfv olunmuş bir haldır. Lakin qusl ilə dəstəmaz və yaxud təvaf ilə onun namazı arasında uzun bir fasilə yaranarsa, ehtiyat-vacibə əsasən əməlləri yerinə yetirməmişdən öncə qusl və ya dəstəmaz əvəzində təyəmmüm də etməlidir.

Sual 218: Müstəhazə olan bir qadının təvaf ilə təvaf namazını və özünün gündəlik namazlarını birləşdirib bir quslla yerinə yetirməsi caizdirmi?

Cavab: Ehtiyata əsasən belə etməməlidir. Əlbəttə həmin qadının qanı pambığın zahirinə çıxmadığı və axıcı olmadığı halda, həmçinin qanın iki dəfə zahirə çıxmasının arasındakı fasilə uzun olarsa və bu müddət ərzində gündəlik namazları, təvaf və təvaf namazını yerinə yetirmək mümkündürsə, belə olan bir halda güclü nəzərə əsasən bir quslla onların hamısını etmək olar və yenidən qusl almağa ehtiyac yoxdur.

Sual 219: Hər namaz və təvaf üçün qusl alması vacib olan müstəhazə bir qadın qusl almış və təvaf





etməyə başlamışdır. Elə həmin vaxtda camaat namazı başladığına görə bu qadın da camaatla namaz qılmış və sonra təvafını bitirmişdir. Görəsən onun əməli səhihdirmi?

Cavab: Səhih deyildir və həmin qadın öz gündəlik namazını ona məxsus olan quslla, həmçinin təvafı da başqa bir quslla əvvəldən yerinə yetirməli və ya kəsmiş olduğu yerdən davam etdirməlidir. Bu məsələnin hökmü “Həccin ibadətləri” kitabının 285-ci məsələsində qeyd olunmuşdur və bu şəxsin hökmü təvaf zamanı ondan hədəs baş vermiş şəxsin hökmü kimidir.

Sual 220: Təvaf namazını camaat namazı şəklində iadə etmək şəri cəhətdən icazəlidir, ya yox?

Cavab: Təvaf namazını camaat namazı şəklində qılmağın şəri cəhətdən icazəli olması sübut olunmamışdır. Onu camaat namazı şəklində iadə etməyə çatması hökmü dəyişmir.

Sual 221: Haiz bir qadın müfrəd ümrə üçün ehram bağlayarsa və yol yoldaşları onu gözləyərlərsə, bu qadın onun tərəfindən təvaf etməsi və təvaf namazını qılması üçün naib tuta bilərmi?

Cavab: Bəli, təvaf və təvaf namazı üçün naib tutmalıdır. Sonra özü səy və təqsir etməli, ardınca da nisa təvafı və onun namazı üçün naib tutmalıdır.

Sual 222: Təvafdakı dövrlərin sayında olan gümanın hökmü şəkkin hökmün ilə eynidirmi?

Cavab: Bəli, şəkkin hökmü ilə eynidir.

Sual 223: Bir qadın haiz idi və pak olduqdan sonra müfrəd ümrənin əməllərini edəcəyi vaxta kimi yol yoldaşlarının onu gözləməyəcəyini bilirdi. Belə olan halda bu qadının elə əvvəldən ehram niyyəti etməsi və sonra iki təvaf və iki namaz üçün naib tutması caizdirmi?

Cavab: Sualda hökmü soruşulmuş və fərz olunmuş bir halda həmin qadının naib tutması məhəlli-işkaldır (mübahisəli və problemli məsələdir).

Sual 224: Bir şəxs sünnət olunmamışdır və həkimlər onun sünnət olunmasının təhlükəli olduğunu bildiriblər. Bu şəxs necə həcc etməlidir?

Cavab: Başqa şəxslər kimi həcc etməlidir. Amma ehtiyat-vacibə əsasən ümrə və həcc üçün özü təvaf etməli və başqa bir şəxsi də onun tərəfindən təvaf etməsi üçün naib tutmalıdır. Naibin təvafı bitirməsindən sonra isə özü təvaf namazını qılmalıdır.

Sual 225: Təvaf edən şəxs bir qadının bədəninə şəhvətlə toxunarsa, təvafı batil olurmu?

Cavab: Bu işi görməklə təvafı batil olmur.

Sual 226: Qadının təvafdakı örtünməsi ilə namazdakı örtünməsinin bir fərqi vardırmı?

Cavab: Bir qədər fərq vardır. Çünki namazda tük, qol və diz kimi hər bir hissəsinin örtünməsi lazım olan və görünməsi namaza xələl gətirən hissələrin təvafın səhihliyinə zərər vermədiyi daha güclü nəzərdir. Lakin namaza aid olan örtünmənin





qaydalarına təvafda da riayət etmək ehtiyat-müstəhəbdir. Həmçinin ehtiyat-vacibə əsasən qadın öz üzünü təvaf etdiyi zaman üz örtüyü və bu kimi şeylərlə örtməməlidir (hətta muhil olduğu zamanda belə bu cür etməməlidir, yəni Minanın əməllərini etdikdən sonra qurban bayramı günü təvafla məşğul olduğu zamanda da üzünü örtməməlidir). Əlbəttə qadının öz çadrasını üzünə atmaqla özünü naməhrəm gizlətməsi caizdir.

Sual 227: Əgər bir şəxs bir neçə ildən sonra təvafının batil olduğunu anlayarsa, onun hökmü nədir?

Cavab: Onun həcci batildir.

Sual 228: Əgər bir şəxs təqsirdən sonra təvafının batil olduğunu bilərsə, təvafı iadə etmək üçün ehramın parçalarını yenidən bədəninə geyməsi lazımdırmı?

Cavab: Bu şəxs hələ də ehram halında sayılır və ehramın mühərramatından uzaq durmalıdır. Yəni əməlləri sona çatdırıb öz ehramından çıxacağı vaxta qədər tikili paltar geyinməkdən və bu kimi işlərdən çəkinməlidir.

Sual 229: Əgər bir şəxs təvafı yerinə yetirməyi unudarsa və ya unutqanlıq üzündən onun şərtlərindən bəzi hissəsini batil edərsə, həcc aylarından başqa bir vaxtda onu qəza edə bilərmi?

Cavab: Əgər onun təvafı təməttö ümrəsinin təvafı idisə və onun vaxtı çıxmamışdan öncə yadına düşərsə, təvafı öz vaxtında yerinə yetirməlidir. Əgər təvafın özünə məxsus vaxtı çıxdıqdan sonra və

həccin təvafını etməmişdən öncə yadına düşərsə, ehtiyata əsasən onu həccin təvafından öncə etməlidir. Əgər həccin təvafından sonra yadına düşərsə, zilhiccə ayının sonuna kimi həmin təvafı etməsinin əhvət nəzər olmasına baxmayaraq istədiyi vaxt onu yerinə yetirməsi caizdir.

Əgər onun təvafı həccin təvafı idisə və zilhiccənin bitməsindən öncə yadına düşərsə, onu yerinə yetirməlidir və əgər zilhiccənin sonuna kimi yadına düşməzsə, istədiyi vaxt onun qəzasını edə bilər.

Sual 230: Muhrim olan bir şəxsin ümrə təvafından öncə müstəhəb təvaf etməsi caizdirmi?

Cavab: Zahirə əsaslanaraq demək olar ki, caizdir.

Sual 231: Muhrim olan bir şəxsin həccin təvafından öncə müstəhəb təvaf etməsi caizdirmi?

Cavab: Zahirə əsaslanaraq demək olar ki, caizdir. Əlbəttə, ehtiyat-vacibə əsasən təməttö həcci edən bir şəxs muhrim olduqdan sonra və Ərəfata vüqufa getməmişdən öncə (hətta həccin təvafını üzrlü səbəbə görə öncəyə salmış olsa da) müstəhəb təvaf etməməlidir.

Sual 232: Ümrə və həccin təvafı əsnasında bir şəxsin ehram paltarında daşıdığı şey nəcis olarsa, onun hökmü nədir?

Cavab: Həmin əşyanı əyninə geyinmədiyi halda heç bir eybi yoxdur.





Sual 233: Bir şəxs təvaf əsnasında özündən getmişdir. Bu şəxsin huşu yerinə gəldikdən sonra həmin təvafı davam etdirib sona çatdırması caizdirmi?

Cavab: Özündən gedən bir şəxsin təharəti də naqis olur. Buna əsasən huşu yerinə qayıtdıqdan sonra yenidən dəstəmaz almalıdır və təvafını sona çatdırmalıdır və yaxud da "Həccin ibadətləri" kitabının 285-ci məsələsində qeyd olunmuş qaydaya uyğun olaraq təvafı əvvəldən başlamalıdır.

Sual 234: Bir şəxsin dövrlərdən yalnız bir neçəsini birbaşa özü etməyə gücü çatır. Bu şəxs yalnız digər dövrlər üçün naib tutmalıdır, yoxsa bütün dövrlər üçün naib tutması lazımdır?

Cavab: Bütün dövrləri yerinə yetirə bilməyəcəyini öncədən bildiyi halda onların hamısı üçün naib tutmalıdır. Dördüncü dövrü yerinə yetirməmişdən öncə gücsüzlük halının yaranması da eyni hökmdədir və bütün dövrlər üçün naib tutmaq lazımdır. Amma dördüncü dövrü etdikdən sonra gücsüzlüyə düçar olarsa, əqrəb (daha güclü) nəzərə əsasən qalan dövrlər üçün naib tutmalıdır.

Sual 235: Heç bir üzr olmadan dördüncü dövrdən sonra təvafı kəsmək və bir qədər keçdikdən sonra elə həmin yerdən təvafı davam etdirib sona çatdırmaq caizdirmi?

Cavab: Əzhər (daha aşkar) nəzərə əsasən təvafı kəsmək caizdir. Lakin sualda soruşulmuş halda onu sona çatdırmaq və sonra yenidən yerinə yetirmək ehtiyata uyğundur.

Sual 236: Bir şəxs beş dövrü yerinə yetirdikdən sonra təvafı kəsməyə məcbur olur. Belə olan halda həmin şəxs qaldığı yerdən davam edib son iki dövrü də yerinə yetirə bilərmi, yoxsa təvafı əvvəldən başlaması vacibdir?

Cavab: Qaldığı yerdən davam edə (yəni niyyətini həmin təvafa qoyub) və digər iki dövrü də yerinə yetirə bilər.

Sual 237: Ümrə təvafını etmək üçün tutulan naibin muhrim olması vacibdirmi?

Cavab: Əqrəb (daha aşkar) nəzərə əsasən vacib deyildir.

Sual 238: Öz təvafının (təvafın bəzi ruknlarından agah olmadığına görə) batil olduğunu bilən şəxsin aşağıdakı hallarda hökmü nədir?

a)Vaxtın qaldığı halda təməttö ümrəsinin əməllərini bitirdikdən sonra onun vəzifəsi nədir?

Cavab:Təvaf, namaz və səyi iadə etsin və sonra da təqsiri həyata keçirsin.

b) Vaxt az qaldığı halda və təməttö ümrəsinin əməllərini bitirdikdən sonra onun vəzifəsi nədir?

Cavab: Əgər ərəfə gününün günortasına kimi əməlləri yerinə yetirə bilməyəcək həddə vaxt az olarsa, ümrəsi batildir və ehtiyata əsasən kəffarə olaraq bir dəvə kəsmək də onun boynundadır.

c) Ərəfatdakı vüquf zamanında məsələdən agah olarsa, onun vəzifəsi nədir?





Cavab: Onun təməttö ümrəsi batil hökmündədir və kəffarə kimi bir dəvə kəsmək də onun boyundadır.

d) Həmin təvafın həcc təvafı olduğunu fərz etdiyimiz halda həccin əməllərini bitirdikdən sonra məsələdən agah olarsa, onun hökmü nədir?

Cavab: Zilhiccə ayının sonuna kimi təvafını, onun namazını və səyini iadə etməlidir.

h) Həmin təvafın həcc təvafı olduğu halda öz vətəninə qayıtdıqdan sonra məsələdən agah olarsa, onun vəzifəsi nədir?

Cavab: Həcci batildir və ehtiyata əsasən kəffarə olaraq bir dəvə də kəsmək onun boynundadır. Lakin zilhiccə ayının bitməsindən öncə onu cübran etməsi (əvəz etməsi və ya yerinə yetirməsi) halı istisnadır. Cübran etmək üçün naib tutmağın caiz olub-olmadığına gəldikdə isə özü yerinə yetirməyi bacarmadığı halda təvaf üçün naib tutmağın caiz olması əqrəb (daha aşkar) nəzərdir.

z) Onun təvafı müfrəd ümrənin təvafı olarsa və öz vətəninə qayıtdıqdan sonra məsələdən agah olarsa, onun hökmü nədir? Nəzərə almalıyıq ki, onun Məkkəyə qayıtmağa imkanı vardır.

Cavab: Əgər qayıtmaq və təvafı iadə etmək onun üçün mümkün olarsa, qayıtmalı və onu yerinə yetirməlidir. Belə olan halda təvaf üçün naib tutmaq məhəlli-işkaldır (mübahisəli və problemli məsələdir).

Sual 239: Təvafını yerinə yetirmiş bir şəxs səy etdiyi zaman qəflət üzündən təvafındakı dövrlərin sayını artıq etdiyini anlayarsa, nə etməlidir?

Cavab: Kəbəyə qayıtması və artırmış olduğu əlavə dövr üçün qürbət niyyəti ilə yeddi dövrü sona çatdırması və bu təvaf üçün də iki rəkət namaz qılması ehtiyata uyğundur. Sonra öz səyini etməlidir və onu da iadə etməsi ehtiyat-müstəhəbdir.

Sual 240: Haiz bir qadın hökmü bilmədiyinə görə təməttö ümrəsini yerinə yetirərsə, onun vəzifəsi nədir?

Cavab: Yerinə yetirmiş olduğu şeyə etina etməməli və "Həccin ibadətləri" kitabının 290-cı məsələsində qeyd olunmuş vəzifəyə əməl etməlidir.

Sual 241: Təvaf edən bir şəxs təvaf etdiyi zaman müşərrəf Kəbə ilə üzbəüz halda bir neçə addım atdığına dair ehtimal verərsə, onun vəzifəsi nədir?

Cavab: Öz şəkkinə etina etməməlidir.

Sual 242: Bir şəxs təvaf etdiyi zaman burnunun qanadığını hiss edir və bir parça ilə onu təmizlədikdən sonra təvafını sona çatdırır. Belə etdiyi təqdirdə onun hökmü nədir?

Cavab: Əgər onun bədən və paltarının zahiri nəcis olmazsa, heç bir eybi yoxdur.

Sual 243: Başqasının naibi olan bir şəxs təvafın ikinci dövründə olduğu zaman ilk əvvəldən naiblik niyyəti edib-etməməsinə şəkk edərsə, onun vəzifəsi nədir?

Cavab: Həmin təvafı naiblik niyyəti edərək əvvəldən başlamalıdır.





Sual 244: Vacib təvafda şərt olan şeylər müstəhəb təvafda da şərtdirmi?

Cavab: Bu iki təvafın özünə məxsus hökmlərində, şərtlərində və hallarında bəzi fərqliliklər vardır və risaləyə müraciət etməklə onları ayıra (və öyrənə) bilərsiz.

Sual 245: Məscidul-həramın yuxarı mərtəbəsində təvaf etmək caizdirmi?

Cavab: Əgər həmin mərtəbənin hündürlüyü Kəbədən yuxarı olarsa, caiz deyildir.

Sual 246: Təvaf ilə onun namazı arasına fasilə salmaq həcc və ya ümrəni batil edirmi? Yoxsa bu işi görmək yalnız haramdır və həcci və ya ümrəni batil etmir?

Cavab: Ehtiyat-vacibə əsasən xalqın nəzərində fasilə hesab olunacaq miqdarda təvaf ilə onun namazı arasında boşluq yaratmaq caiz deyildir. Lakin bu fasiləni yaratmaq öz-özlüyündə həcc və ya ümrənin batil və fasid olmasına səbəb deyildir. Daha doğrusu, bir şəxs bilərəkdən təvaf ilə onun namazı arasında fasilə yaradarsa, ehtiyata əsasən təvaf və onun namazını iadə etməlidir. Əgər vaxtı keçmiş olarsa və yaxud onları yerinə yetirməyi bacarmazsa, ehtiyata əsasən həcci batildir. Əgər onun belə etməsi məsələni bilmədiyinə görə baş vermişdirsə (istər cahili-mürəkkəb olsun, istərsə də onun məsələni bilməməsi hər hansısa bir şəri cəhətə söykənsin) və onların arasında fasilə yaranmışdırsa, namaz və təvafı səhihdir. Həmçinin onun belə etməsi unutqanlıq

üzündən olarsa və namazdan sonra həmin şəxs məsələdən agah olarsa, namaz və təvafı səhihdir. Eləcə də təvaf və onun namazı arasına çarəsizlik üzündən fasilə salmağın da hökmü eynidir və bu halda da onun namazı və təvafı səhihdir.

Sual 247: Əgər bir şəxs məsələni bilmədiyinə görə təvaf namazını Hicri-İsmaildə qılarsa, onun hökmü nədir?

Cavab: Namazını Məqami-İbrahimin (ə) arxasında yenidən qılmalıdır.

Sual 248: Əgər bir qadın təvafdan sonra və təvaf namazından öncə qəflətən aybaşı olarsa, onun vəzifəsi nədir?

Cavab: "Həccin ibadətləri" kitabının 296-cı məsələsində qeyd etdiyimiz kimi həmin qadın pak olub qusl aldıqdan sonra təvaf namazını qılmalıdır.

Sual 249: Təvaf namazını gündəlik namazlarını qılan bir şəxsə iqtida edərək qılmaq kifayət edirmi?

Cavab: Bu cür qılınan namazın səhihliyi məhəlli-işkaldır (mübahisəli və problemli məsələdir) və onunla kifayətlənməmək ehtiyata uyğundur.

Sual 250: Görəsən məqamın arxa hissəsi üçün müəyyən hüdudlar vardırmı?

Cavab: Məqamın arxa hissəsinin müəyyən hüdudu yoxdur və bu məsələdə meyar xalqın nəzərinə uyğun əməl etməkdir.





Sual 251: Ehram halında Məkkəyə daxil olmuş bir şəxsin ərəfə gününə qədər yalnız bir neçə günlük vaxtı qalmışdır. Görəsən belə bir şəxsin öz qiraətini düzəltməsi və səhih oxunuş tərzini öyrənməsi üçün ümrəsini təxirə salması lazımdırmı?

Cavab: Ehtiyata əsasən ümrəsini təxirə salması lazımdır.

Sual 252: Təvaf ilə onun namazı arasında yaradılan fasilənin icazə verilmiş müddəti nə qədərdir?

Cavab: Əhvət (daha ehtiyatlı) nəzərə əsasən təvafı etdikdən sonra xalqın nəzərində fasiləsiz hesab olunan şəkildə onun namazını da qılmaq lazımdır. Görünüşdə kiçik bir fasilənin yaranmasının heç bir eybi yoxdur. Yəni istirahət üçün və ya daha yaxşı bir yer tapmaq və namazı daha münasib olan bir yerdə qılmaq üçün on dəqiqə kimi kiçik fasilə salmağın bir eybi yoxdur. Təbii ki, bu fasilə xalqın nəzərində əməllərin ardıcıllığına və müntəzəmliyinə xələl gətirməməlidir. Odur ki, xalqın nəzərində fasilə kimi qəbul edilən və ardıcıllığa zidd olan hər hansısa başqa bir işin ardınca getmək və ya qəza namazlarını qılmaq və yaxud da başqasının naibi olaraq bir əməl etmək kimi hallar qəbul edilməzdir.

Sual 253: Müstəhəb təvafın namazı da müstəhəbdirmi?

Cavab: Zahirə əsaslanaraq demək olar ki, müstəhəb təvafın namazı da müstəhəbdir.

Sual 254: Təvafını etmiş bir şəxsin öncə başqasının naibi kimi onun təvaf namazını qılması,

sonra da öz təvaf namazını yerinə yetirməsi caizdirmi?

Cavab: Öncə də deyildiyi kimi həmin şəxs belə etməməlidir.

Sual 255: Bir şəxs təvaf namazını qılmağı unutmuş və təqsir etdikdən sonra yadına düşmüşdür. Belə olan halda həmin şəxsin təvaf namazını qılması üçün ehram paltarını geyinməsi lazımdırmı?

Cavab: Həmin şəxsə ehram paltarını geyinmək lazım deyildir.

**Səyin hökmləri:**

Sual 256: Əgər səy edən bir şəxs yerinə yetirmiş olduğu dövrləri tərk edərsə və səyini əvvəldən başlayarsa, onun əməli səhihdirmi?

Cavab: Əgər onun bu işi xalqın nəzərində muvalatın pozulmasından sonra baş verərsə, onun səyi səhihdir və əgər belə olmazsa, ehtiyat-vacibə əsasən səhih deyildir. Əlbəttə həmin şəxs bu işi cahili-qasir olaraq etmişdirsə, səyi səhihdir.

Sual 257: Hacılara yol göstərən şəxslər bəzən qabağa keçir, bəzən də arxaya qalırlar və gördükləri bu işin səydə çoxluq yaratmağa səbəb olub-olmadığını bilmirlər. Onların hökmü nədir?

Cavab: Əgər onlar bu işi görməkdə cahili-qasirdirlərsə (üzrlüdürlərsə), səylərinin səhihliyinə bir zərər yoxdur.





Sual 258: Bir şəxs unutqanlıq üzündən on dövr səy etdikdən sonra dövrlərinin sayındakı artıqlığı başa düşür və səyini kəsib təqsir edir. Onun hökmü nədir?

Cavab: Onun səyi səhihdir və boynunda heç bir şey yoxdur.

Sual 259: Mükəlləf olan bir şəxs səyin səhihliyində təharətin şərt olduğunu güman edərək öz səyini kəsmiş və dəstəmaz alaraq yenidən səy etməyə başlamışdır. Onun hökmü nədir?

Cavab: Əgər həmin şəxs xalqın nəzərində muvalatın pozulmasından sonra yenidən səy etməyə başlamışdırsa, onun səyi səhihdir və əgər muvalatın pozulmasından öncə səyini kəsmişdirsə (və digər səyə başlamışdırsa), ehtiyat-vacibə əsasən onun səyi səhih deyildir. Lakin həmin şəxs cahili-qasir olarsa, əzhər (daha güclü) nəzərə əsasən səyi səhihdir.

Sual 260: İkinci mərtəbədə səy etmək caizdirmi? Bu işin caiz olmadığı təqdirdə onun icazəli olduğunu güman edərək ikinci mərtəbədə səy etmiş şəxsin vəzifəsi nədir?

Cavab: Əgər həmin ikinci mərtəbə iki dağ arasında yerləşərsə və onlardan yuxarıda olmazsa, orada səy etmək caizdir və əgər belə olmazsa, caiz deyildir. Sualda soruşulan ikinci halda isə yuxarı mərtəbədə səy etmiş bir şəxsin hökmüsəy etməyi unutmuş şəxsin hökmü kimidir və bu hökmün izahı "Həccin ibadətləri" kitabında qeyd olunmuşdur.

Sual 261: "Həccin ibadətləri" kitabında buyurmusunuz ki, bir şəxs ixtiyari halda belə süvari şəkildə səy edə bilər. Başqa bir şəxsin hərəkət verməsindən asılı olan mütəhərrik stullarda oturaraq səy etmək caizdirmi? Bunu da nəzərə almalıyıq ki, səy edən bir şəxs yalnız həmin stulda əyləşir və digər bir insan onu hərəkət etdirir.

Cavab: İxtiyari bir halda belə şəkildə təvaf etmək caiz deyildir. Çünki bu halda həmin şəxs özü səy etmiş olmur və başqa birinin onu səy etdirmiş olduğu hesab edilir.

Sual 262: Mərvaya tərəf hərəkət edən bir şəxs izdihamın şiddətinə görə və ya bir şəxsi görərək ona tərəf dönərsə, bu şəxsin hökmü nədir?

Cavab: Əgər həmin şəxs bu işi hərəkət etdiyi zaman görərsə, kifayət deyildir və səyinə xələl gətirdiyi yerə qayıdıb oradan səyini davam etdirməlidir. Bu işi Səfaya tərəf hərəkət etdiyi zamanda da görərsə, eyni hökmə malikdir.

Sual 263: İxtiyari halda səyi kəsmək və onu əvvəldən başlamaq caizdirmi?

Cavab: Bəli, əzhər (daha güclü) nəzərə əsasən səyi kəsmək caizdir. Lakin ixtiyari halda səyin kəsilməsi xalqın nəzərində muvalatın pozulmasından sonra icazəlidir.

Sual 264: Səfa ilə Mərva arasındakı səy zamanında bir şəxsin gedilməli olan yolu özünə qayıtmaq üçün və qayıdılmalı olan yolu özünə getmək üçün seçməsi caizdirmi?





Cavab: Bu işi görmək öz-özlüyündə caizdir.

Sual 265: Səy üçün niyyət edilən zaman bədənin qabağ tərəfinin bütün hissələrinin Mərva ilə üzbəüz olması şərtdirmi?

Cavab: Belə etmək şərt deyildir və hərəkətə başlanan zamanda Mərva ilə üzbəüz dayanmaq kifayətdir.

Sual 266: Səy zamanında bir şəxsin Məsanın (səy edilən məkan) ortası ilə deyil, kənarları ilə hərəkət etməsi caizdirmi?

Cavab: Caizdir.

Sual 267: Təvaf namazını işa namazından sonra qılmaq və səyi sübh namazından sonraya qədər təxirə salmaq caizdirmi?

Cavab: İxtiyari halda səyi növbəti günə qədər təxirə salmaq caiz deyildir.

Sual 268: Sübh namazından öncə təvaf edib sonra sübh namazını qılmaq və ardınca da təvaf namazını yerinə yetirmək caizdirmi?

Cavab: Caizdir.

Sual 269: Təvaf namazı ilə səy arasında yaradılan fasiləyə icazə verilən miqdar nə qədərdir?

Cavab: Təvaf namazından dərhal sonra səy etmək vacib deyildir. Buna əsasən bir şəxs günün başlanğıcında təvaf namazını qılarsa, səy etməyi

gecənin sonuna kimi təxirə sala bilər. Lakin səyi növbəti günə kimi təxirə salmaq caiz deyildir.

Sual 270: Qaçaraq təvaf etmək olarmı?

Cavab: Caizdir. Lakin iki minarə arasında qaçmaq yox, hərvələ etmək[1] müstəhəbdir.

Sual 271: Əgər bir şəxs zilhiccə ayından sonra təməttö ümrəsindəki və ya həccindəki səyinin batil olduğunu bilərsə, onun vəzifəsi nədir?

Cavab: Onun həcci batil hökmündədir.

Sual 272: Bir şəxs tərəddüd halında ikən və ya dövrlərinin sayında şəkk etdiyi bir halda öz səyini sona çatdırmışdır. Sonradan onun səhih olduğuna və az yerinə yetirmədiyinə arxayın olmuşdur. Görəsən onun əməli səhihdirmi?

Cavab: Onun səyi səhihdir.

Sual 273: Səydəki dövrlərin bəzisi üçün naib tutmaq (beləki onun bütün dövrləri üçün naib tutmağın səhih olduğu yerlərdə) səhihdirmi?

Cavab: Dövrlərin bəzisi üçün naib tutmağın səhihliyi barəsində əlimizdə heç bir dəlil yoxdur. Buna əsasən də bir şəxs dövrlərin bəzisini etməyə qadir olduğu halda belə onların hamısını özü edə

[1]Hərvələ etmək, xüsusi bir yerimək formasıdır. Yəni adi şəkildə addımlamaqdan daha sürətli və qaçmaqdan isə daha asta bir formada gəzməyə hərvələ etmək deyilir. Beləki bu cür yerişdə bəzən bir çiyinin qalxıb digərinin düşdüyünü də qeyd ediblər.





bilməyəcəyi üçün bütün dövrlərə görə naib tutmalıdır.

Sual 274: Bir şəxs özü səy edə bilmir və stul sahibi olan şəxslər də ondan çox miqdarda məbləğ istəyirlər. Həmin məbləği ödəməyin bu şəxs üçün ağır olduğunu nəzərə alarsaq, belə olan halda onun naib tutması caizdirmi?

Cavab: Sualda fərz olunmuş halda naib tutmaq caizdir.

Sual 275: Bir şəxs on dörd dəfə dövr etməyin vacib olduğu etiqadı ilə həmin miqdarda dövr etmişdir. Onun hökmü nədir?

Cavab: Əgər həmin şəxs cahili-qasir olarsa, səyi səhihdir və əgər belə deyildirsə, səyinin səhihliyi məhəlli-işkaldır (mübahisəli və problemli məsələdir).

Sual 276: Əgər bir şəxs təqsirdən sonra ümrəsindəki səyinin batil olduğunu anlayarsa, onu yerinə yetirmək üçün yenidən ehram paltarını geyinməsi vacibdirmi?

Cavab: Həmin şəxs hələ də ehram halında hesab olunur və tikili paltar geyinmək kimi ehramın mühərramatından qorunmaq ona vacibdir. Təbi ki, ibadətləri tam şəkildə yerinə yetirdikdən sonra həmin şəxs ehram halından çıxır.

Sual 277: Namazın hökmləri bölməsində kəsiruş-şəkk (çox şəkk edən) olan bir şəxs haqqında qeyd olunmuş hökmlər öz səyində çox şəkk edən şəxsə də aiddirmi?

Cavab: Bəli, həmin şəxsin halına da şamildir.

Sual 278: Qadının zinət yerlərindən biri (saçının tükləri kimi) səy zamanında görünərsə, onun hökmü nədir?

Cavab: Onun səyinin səhihliyinə bir zərəri yoxdur.

Sual 279: Bir şəxs öz səyini on dörd dəfə dövr etməklə həyata keçirmək üçün niyyət edir. Lakin yeddi dövrü etdikdən sonra məsələdən agah olur. Bu şəxsin hökmü nədir?

Cavab: Onun səyi səhihdir və boynunda heç bir şey yoxdur.

Sual 280: Bir hacı özü səy edə bilmir və başqasının onu səy etdirməsi üçün ondan kömək istəyir. Digər şəxs də onu çiyninə alır və yaxud da arabaya oturdaraq səy etdirir. Belə bir səy halında bu gücsüz hacını yuxu tutur. Görəsən onu səyi səhihdirmi?

Cavab: Onun səyi batildir.

Sual 281: Su içmək və ya itmiş bir şeyi axtarmaq üçün səyi kəsmək caizdirmi?

Cavab: Caizdir. Lakin xalqın nəzərində səyin dövrləri arasındakı muvalatın pozulmasından sonra onu qaldığı yerdən davam etdirməyin caiz olması məhəlli-işkaldır (mübahisəli və problemli məsələdir) və onu iadə etmək əhvət (ehtiyata daha çox uyğun) nəzərdir.





Sual 282: Əgər hacı təqsir etdikdən sonra yerinə yetirmiş olduğu səyinin naqis olduğunu anlayarsa, nə etməlidir?

Cavab: Əgər bu məsələ təməttö ümrəsində baş vermişdirsə və bu nöqsan unutqanlıq üzündən olmuşdursa, ehtiyata əsasən bir inək kəffarə verməli və öz səyini tam şəkildə sona çatdırdıqdan sonra ehtiyata əsasən bir daha təqsir etməlidir. Amma bu nöqsan səyin dövrlərinin sayını bilməmək kimi bir səbəbə görə baş vermişdirsə və müfrəd ümrədə və ya həcdə olmuşdursa, onun boynunda kəffarə yoxdur və yalnız öz səyini tam şəkildə sona çatdırmalıdır. Səyindən sonra bir daha təqsir etməlidir və belə etdiyi halda başqa heç bir şey onun boynuna gəlmir.

Sual 283: Bir şəxs səy etdiyi zaman məsadakı insanların hərvələ etdiyini görür və bu işin vacib olduğunu güman edir. Buna görə də geriyə qayıdır və öz səyini hərvələ etməklə yenidən yerinə yetirməyə başlayır. Belə olan halda onun hökmü nədir?

Cavab: Ehtiyat-vaicə əsasəb onun səyi batildir. Lakin həmin şəxsin cahili-qasir olduğu hal isə istisnadır.

Sual 284: Səy edən bir şəxs Mərvaya çatmamışdan öncə yeddinci dövr ilə doqquzuncu dövr arasında şəkk edərsə, nə etməlidir?

Cavab: Onun səyi batildir və həmin səyi əvvəldən başlamaq ona vacibdir.

Sual 285: Səyin dövrləri arasında muvalata riayət etmək şərtdirmi? Bəs bu muvalatın hüdudları nə qədərdir?

Cavab: Ehtiyat-vacibə əsasən səyin dövrləri arasında muvalata riayət etmək şərtdir və onun meyarı "Həccin ibadətləri" kitabının 340-cı məsələsində də qeyd etdiyimiz kimi xalqın nəzəridir.

Sual 286: Ümrə yerinə yetirən bir şəxs öz səyindən öncə agah halda və biləkdən və yaxud da bilmədiyinə görə və ya unutqanlıq üzündən təqsir edərsə, onun hökmü nədir?

Cavab: Əgər həmin şəxs bu işi agah halda və bilərəkdən etmişdirsə və onun təqsiri dırnağını kəsməklə (dırnaq tutmağın təqsir kimi kifayət etdiyi halda) baş vermişdirsə, dırnaq tutmağın kəffarəsi onun boynundadır. Lakin onun təqsiri tükünü azaltmaqla baş vermişdirsə, bu işə görə günahkar olmasına baxmayaraq əzhər (daha aşkar) nəzərə əsasən onun boynunda heç bir kəffarə yoxdur. Məsələni bilməyən və ya unutmuş şəxsin də boynunda heç bir kəffarə yoxdur. Hər bir halda isə belə etmiş bir şəxsin öz səyini bir daha yerinə yetirməsi və ondan sonra təqsir etməsi vacibdir. Bu hökm müfrəd ümrəyə aiddir.

Təməttö ümrəsinin də hökmü bu məsələdə müfrəd ümrə kimidir, lakin unutmuş şəxsin vəzifəsində fərqlilik vardır. Yəni bir şəxs səy etməyi unutmuş və ehramdan çıxmaq üçün təqsir etmişdirsə, ehtiyat-vacibə əsasən bir inək kəffarə verməli və ehtiyata əsasən səydən sonra bir daha təqsir etməlidir.

Sual 287: Bəzi hallarda hacılar izdihama görə başqa yolla və misal üçün Məscidul-həramdan keçərək məsaya getməyə məcbur olurlar. Belə olan





bir durumda heyz və nifas halında olan qadının hökmü nədir?

Cavab: Həmin qadınlar digər yolun boşalmasını gözləməlidirlər və əgər vaxt çox az olarsa, səy etmək üçün başqa birini naib tutmalıdırlar.

Sual 288: Bir şəxs məsələni bilmədiyinə görə səyi təvafdan öncə yerinə yetirərsə, onun hökmü nədir?

Cavab: Təvafı etdikdən və onun namazını qıldıqdan sonra bir daha səy etməlidir.

Sual 289: Hərəkət edən stulda əyləşdiyi halda səy edən bir şəxs bütün məsafəni tam olaraq qət edib-etmədiyinə şəkk edərsə, onun hökmü nədir və nə etməlidir?

Cavab: Bütün məsafəni tam olaraq qət etmək ona vacibdir.

**Təqsirin hökmləri:**

Sual 290: Təqsir etmək istəyən bir şəxs bu əməli Məkkədən kənarda edə bilərmi? Yoxsa təqsir məhz Məkkədə yerinə yetirilməlidir?

Cavab: Məkkədən kənarda təqsir etmək caizdir, lakin bu məsələdə ehtiyat etmək daha gözəldir.

Sual 291: Muhrim olan bir şəxsin təməttö ümrəsinin ehramından sonra və həcc üçün muhrim olmasından öncə saçını təraş etdirməsi caizdirmi?

Cavab: Caizdir. Lakin fitr bayramından üç gün sonraya kimi onu tərk etmək əhvət (daha ehtiyatlı) əməldir və əgər belə edərsə, ilk öncə bir qoyun kəffarə verməlidir

Sual 292: Bir şəxs təqsir üçün kifayət etdiyi inancı ilə özünün bığ və ya saqqalını təraş etmiş və ondan sonra təməttö həcci üçün muhrim olmuşdur. Onun hökmü nədir?

Cavab: Zahirə əsasən onun həcci ifrad həccinə çevrilir və ondan sonra gücü çatarsa, müfrəd ümrə yerinə yetirməlidir. Ehtiyata əsasən növbəti ildə həmin həcci iadə də etməlidir.

Sual 293: Əgər bir şəxs məsələni bilmədiyinə görə və yaxud unutqanlıq üzündən iki dəfə təqsir edərsə, onun hökmü nədir? Yəni bu şəxs bir dəfə təvaf namazından sonra, bir dəfə də səydən sonra təqsir etmişdir. Onun hökmü nədir?

Cavab: Bu hal təməttö ümrəsində olarsa və təvaf namazından sonra səy etməyi unudaraq təqsir edərsə, ehtiyata əsasən bir inək kəffarə verməlidir və başqa heç bir şey ona vacib deyildir.

Sual 294: Üzrlü olan və buna görə də təvaf və səyi iki vüqufdan öncə etməyə icazəli olan bir şəxs məsələni bilmədiyinə görə səydən sonra təqsir edərsə, onun hökmü nədir?

Cavab: Onun boynunda heç bir şey yoxdur və sadəcə təqsiri də mənasızdır.





**Ərəfə və Müzdəlifədəki vüqufun hökmləri:**

Sual 295: Bir hacı Ərəfə və ya Müzdəlifədə vüquf etməyə niyyət edərsə və bütün vaxtı yataraq keçirərsə, onun bu cür vüqufu kifayətdirmi?

Cavab: Əgər vaxtın əvvəlində niyyət edərsə və sonra (hətta vaxtın sonuna kimi) yatarsa, kifayətdir. Amma vaxtın daxil olmasından öncə niyyət edərsə və sonra vaxtın sonuna kimi yatarsa, əhvət (daha ehtiyatlı) nəzərə əsasən onun əməli kifayət deyildir.

Sual 296: Əgər bir hacı Ərəfatda vüquf edərsə və orada bihuş olduqdan sonra bayram gününün zöhrünə kimi özünə gəlməzsə, onun hökmü nədir?

Cavab: Həcci batildir və onun həcci müfrəd ümrəyə çevrilir. Odur ki, müfrəd ümrənin ibadətlərini etməli və ehramdan çıxmalıdır.

Sual 297: Hacıların bir qrupu bayram günündə Ərəfatdan Müzdəlifədə vüquf etmək üçün yola düşürlər və onlara Müzdəlifənin bir hissəsi olduğu söylənilən məkana çatırlar. Gecəni orada qaldıqdan sonra növbəti gün oranın Müzdəlifənin bir hissəsi olmadığını başa düşürlər. Onların hökmləri nədir?

Cavab: Əgər Müzdəlifənin iztirari vüqufunu (yəni günəş çıxandan bayram gününün zöhrünə qədər olan vaxtdan bir miqdarını) edərlərsə, onların həcci səhihdir və əgər iztirari vüqufu edə bilməsələr, həcləri batildir və bu halda onların həcci müfrəd ümrəyə çevrilir.

Sual 298: Əgər bir hacı məsələni bilmədiyinə görə Müzdəlifədəki vüqufu sübh vaxtından günəş çıxana kimi edə bilməmişdirsə, iztirari vüqufu yerinə yetirmək onun üçün kifayətdirmi?

Cavab: Əgər bayram gecəsinin bir hissəsini orada vüquf etmişdirsə, onun bu əməli kifayətdir və əgər belə edə bilməmişdirsə, bayram gününün zöhrünə kimi orada vüquf etməlidir və belə etdiyi halda həcci də səhihdir.

Sual 299: Bir hacı bayram gecəsinin bir hissəsini Müzdəlifədə qalmışdır. Həmin hacı bəzi işlərini görmək üçün oradan çıxmış və sübh azanından öncə Minaya getmişdir. Digər vüquf üçün isə iki tulu arasında (sübh namazı vaxtında) Müzdəlifəyə qayıtışdır. Bu hacının etdiyi əməlin hökmü nədir?

Cavab: Əzhər (daha aşkar) nəzərə əsasən onun həcci səhihdir və bir qoyun da kəffarə olaraq verməlidir.

Sual 300: Həcc mərasimin məsul şəxsləri (təşkilatçıları) müqəddəs ziyarət məkanlarından hər birini (oranın işlərini) hacıların və təvaf edənlərin bəzilərinə tapşırmışlar. Belə olan halda həmin şəxslərdən biri digərinə tapşırılmış məkanda vüquf edərsə, onun bu cür etməsi vüqufunun batil olmasına səbəb olurmu?

Cavab: Xeyr, bu cür etmək vüqufun batil olmasına səbəb deyildir. Lakin həcc mərasimi üçün müəyyən olunmuş qaydalara riayət etməmək də yaxşı bir iş deyildir.





Sual 301: Hacıları Minadan Ərəfata daşımaq üçün nəzərdə tutulan avtobusların içində olarkən Müzdəlifədə vüquf etmək kifayətdirmi? Yəni hacıların daşınmasına məxsus olan avtobus Minaya getdiyi yol boyunca müzdəlifədə dayanmadığı halda bir hacı niyyət edərsə, onun bu işi rukn hesab olunan vüquf üçün kifayətdirmi?

Cavab: Bəli, onun bu işi (niyyəti) ilə rukn hesab olunan vüquf gerçəkləşmiş olur. Hətta sübh azanından öncə yola düşmüş olsalar belə onun bu işi vüquf üçün kifayətdir.

Sual 302: "Həccin ibadətləri" kitabında qeyd olunmuşdur ki, qadınlar, qocalar və xəstələr kimi gücsüz şəxslər və "onlara nəzarətçilik edən insanlar" bayram gecəsində Müzdəlifədə vüquf etməklə kifayətlənə bilərlər və sübh azanından öncə oradan Minaya yola düşmək üçün onlar icazəlidirlər. Görəsən "onlara nəzarətçilik edən insanlar" dedikdə məqsəd, onların işlərini görmək üçün yol yoldaşlıq edən bütün şəxslərdirmi? Yoxsa məqsəd, həmin şəxlərin yalnız möhtac olduğu insanlar və onlar olmadan çətinliyə düşdükləri şəxslərdir?

Cavab: Məqsəd, həmin şəxslərin yalnız möhtac olduğu insanlardır.

Sual 303: Müqəddəs məkanlar üçün müəyyən olunmuş hüdudlara etimad etmək olarmı?

Cavab: Əgər həmin hüdudlar qədim sərhədlər olarsa və keçmiş nəsildən bizə əldən ələ keçərək gəl-

məsi nəticəsində onların səhf etmədiyinə arxayınlıq hasil olarsa, həmin hüdudlara etimad etmək olar.

Sual 304: "Həccin ibadətləri" kitabında buyurusunuz ki, bizim nəzərimizdə mötəbər olan hilal sabit olmadığı halda müqəddəs torpağın qazisinə görə hilal görsənmişdirsə və mükəlləf bir şəxs də qazinin sözünün həqiqətə uyğun olduğunu bilmədiyi halda və ya ona ehtimal verdiyi bir durumda iki vüqufu onun sözünə söykənərək edərsə, onun həccinin səhih olması məhəlli-işkaldır. Sualımız budur ki, fərz edilən bu hal üçün siz fətva vermisiniz, yoxsa ehtiyat etmisiz?

Cavab: Biz bu məsələdə ehtiyat etməyi vacib bilirik və bizə təqlid edən şəxslər ələmiyyət qaydasına uyğun olaraq bu məsələdə başqa bir müctehidə müraciət edə bilərlər.

**Cəməreyi-əqəbəni rəmy etməyin hökmləri:**

Sual 305: Son zamanlarda Səudiyyə dövlətinin qüvvələrin cəməreyi-əqəbənin arxa divarını qaldırıblar. Görəsən cəmərəni həmin tərəfdən rəmy etmək kifayətdirmi?

Cavab: Əhvət nəzərə əsasən (əgər başqa bir fətva olmazsa) kifayət deyildir.

Sual 306: Məşərul-həramın içində olan dağların üzərindən cəmərata çınqıl atmaq olarmı?

Cavab: Əgər həmin dağlar Hərəm məntəqəsinin içindədirsə, onun çınqılları ilə rəmy etmək caizdir.





Sual 307: Cəmərənin yaxınlığında olan çınqılların rəmy üçün istifadə olunduğu və yaxud hələ əl dəyilməmiş və sadəcə izdihama görə hacıların əlindən düşmüş olduğu məlum deyildir. Onlardan rəmy üçün istifadə etmək caizdirmi?

Cavab: Öncədən həmin çınqılların istifadə olunduğu barədə icmali (bir növ dəqiq) bilgi olmazsa, onlardan istifadə etmək kifayət edir (caizdir) və əgər belə olmazsa, ehtiyata riayət etmək lazımdır.

Sual 308: İstifadə edilib-edilməməsi barədə şəkk olunan çınqıllarla rəmy etmək kifayətdirmi?

Cavab: Bəli, həmin çınqıllarla rəmy etmək kifayətdir.

Sual 309: Minanın hüdudlarını müəyyənləşdirən yeni əlamətlərin göstərdiyinə əsasən Minanın sonu cəməreyi-kübranın yanında yerləşir. Beləki hacı arxası qibləyə olan halda cəmərəni rəmy etmək və onunla arasında yalnız bir zira miqdarında fasilə saxlamaq istəyərsə, Minanın hüdudundan kənara çıxmış olacaqdır. Belə olan halda onun vəzifəsi nədir?

Cavab: Cəməreyi-əqəbəni rəmy etmək zamanı Minada olmaq şərt deyildir. Buna əsasən də rəmy zamanı hacının onunla üzbəüz tərəfdən uzaqda olmasının bir eybi yoxdur. Əksinə rəmy edən zaman hacının ondan on zira və ya on beş zira uzaqda dayanması müstəhəbdir.

Sual 310: Məsələni bilmədiyinə görə və ya unutqanlıq üzündən bayram günü cəmərəni rəmy etməyə xələl gələrsə və hacı yalnız təvafdan və

səydən sonra vəziyyətdən agah olur. Onun vəzifəsi nədir?

Cavab: Yalnız rəmyi bir daha etməlidir və onun boynunda başqa heç bir şey yoxdur.

Sual 311: Öncəki sualda fərz olunmuş hal on ikinci gündən sonra baş verərsə, hacı nə etməlidir?

Cavab: Məkkə və ya Minada olduğu zaman ərzində onu yenidən yerinə yetirməlidir.

Sual 312: Əgər bir hacı zilhiccə ayı bitəndən sonra yerinə yetirmiş olduğu rəmydə xələlin baş verdiyini anlayarsa, onun vəzifəsi nədir?

Cavab: Ehtiyata əsasən özü həcc etmiş olduğu halda onu qəza etməlidir və əgər özü həcci etməmişdirsə, növbəti ildə onun yerinə bayram günü rəmy etmək üçün başqa birini naib tutmalıdır.

Sual 313: "Həccin ibadətləri" kitabında buyurmusunuz ki, qadınlar və bayram gününün gecəsində Məşərdən hərəkət etməyə icazəli olan şəxslər üçün gecə vaxtı rəmy etmək kifayətdir. Gecə vaxtı hərəkət etməyə icazə verilmiş şəxslərdən bir qrupu da "üzrlü şəxslərlə əlaqədar işlərə nəzarət edən insanlardır". Görəsən bu insanlar üçün növbəti gün rəmy etməyə gücləri çatdığı halda da gecə vaxtı rəmy caizdir, ya yox?

Cavab: Əgər üzrlü şəxslərin nəzarətçiləri üçün bayram günündə rəmy etmək mümkün olarsa və rəmy miqdarında olan vaxt ərzində üzrlü şəxslər





onlardan ehtiyacsız olarsa, gecə vaxtı rəmy onlar üçün kifayət etmir.

**Qurbanlığın hökmləri:**

Sual 314: Qurbanı polad bıçaqla zibh etmək (kəsmək) caizdir ya yox ?

Cavab: Bu şəkildə zibh etmək işkal (problem) yarada bilən şübhədən kənar deyildir və bu məsələdə ehtiyat etmək lazımdır.

Sual 315: Bir şəxs dörd nəfər üçün qurbanı hazırlamaq və zibh etməkdən ötəri vəkil olmuşdur. Bu şəxs onlardan ikisi üçün qurbanı zibh edir və digər iki nəfər üçün zibh etmək istədiyi zaman isə onların adını tam olaraq xatırlamır. Belə bir vəziyyətdə onun vəzifəsi nədir?

Cavab: Vəkil olan şəxsin zibh zamanı həmin dörd nəfərdən qurbanı kəsilməmiş digər iki nəfərin bir-birindən seçilməsini təmin edən hər hansısa bir işarəni öz zehnindən keçirməsi kifayətdir. Eynilə o iki nəfərdən daha yaşlısı üçün ilk öncə zibh etmək və ya onların qurbanlarından daha bahalısını ilk öncə kəsmək kimi yollarla bu çətinlik aradan qalxacaqdır.

Sual 316: Hacı bir qurban aldıqdan sonra qiymətlər bahalaşarsa və bundan sonra həmin qurbanın eybli olduğunu anlayarsa, bu qurbanla kifayətlənməsi caizdirmi?

Cavab: Əzhər (daha aşkar) nəzərə əsasən onunla kifayətlənmək olmaz.

Sual 317: Bir neçə nəfər bir şəxsi onlar üçün qurbanlıq alıb kəsməyə görə vəkil edirlər. Görəsən bu şəxsin hər qurbanı aldığı və kəsdiyi halda onların birini müəyyən etməsi vacibdirmi? Yoxsa ayrı-ayrı təyin etmədən onların sayına uyğun qurbanlıq alıb zibh etməsi kifayətdir?

Cavab: Qurbanı kəsən (zibh edən) zaman onların hər birini ayrı-ayrı müəyyənləşdirmək lazımdır.

Sual 318: Minada zibh etməyin qadağan olmasına dair hökümətin qərar qəbul etməsi və hacının həmin qərara tabe olmayacağı halda öz cismi və malına zərər dəyəcəyini məntiqli şəkildə ehtimal verməsi, Minada zibh etməyin acizliyinə və Vadiyi-mühəssərdə zibhin caizliyinə səbəb olurmu?

Cavab: Qanuna tabe olmamaq halında zərərdən qorxmaq Minada zibh etməyin vacibliyini aradan qaldırır, amma bu məsələ Minanın yerinə başqa məkanda zibhin caiz olması mənasına gəlmir. Vadiyi-mühəssərdə zibh etməyin caizliyinin meyarı ("Həccin ibadətləri" kitabında qeyd etdiyimiz kimi) bütün hacıları əhatə edəcək yerin sıx olmasıdır. Buna əsasən də sualda fərz olunmuş halda və o kimi durumlarda (nəinki yerin sıx olması halında) Minada zibh etmək mümkün olmazsa, həm Vadiyi-mühəssərdə zibh edilməlidir və həm də qurbanlığın yerinə oruc tutulmalıdır.

Sual 319: Əgər bir hacı qurbanlığın fəqirlərə aid səhmini vermədiyinə görə ona zamin olarsa, görəsən zibhdən öncəki qiymətə zamin olur, yoxsa zihdən sonrakı qiymətə? Çünki zibhdən öncəki bir qoyunun





qiyməti misal üçün üç yüz səudiyyə riyalı olmuşdursa, zibhdən sonra onun qiyməti çox ucuzlaşır. Belə olan halda hacı onlardan hansına zamindir?

Cavab: Zamin olmaqdakı meyar, zibhdən sonrakı qiymətdir.

Sual 320: Qurbanlığın əti zibhdən sonra öz qiymətini itirərsə (beləki çox vaxt bayram günündə qurbanlıq alanların az olması nəticəsində bu cür olur) və hacı fəqirlərin səhmini onlara sədəqə verməmiş olarsa, onların səhminə zamin olurmu?

Cavab: Sualda fərz olunmuş halda həmin hacı zamin deyildir.

Sual 321: Hal-hazırda qurbanlığı üç yerə bölmək mümkün olmur. Yəni bu gün dövlət hacının öz qurbanlığından bir qədərin götürüb onu fəqirlər və mömin şəxslər arasında bölməsinə əngəl olur. Bu halda hacının vəzifəsi nədir?

Cavab: Qurbanlığın bölünməsində lazım olan şey onun üçdə bir hissəsinin fəqirlərə sədəqə verilməsidir, amma hacının ondan yeməsi və onun üçdə birini bəxşiş etməsi vacib deyildir. Üçdə bir hissənin sədəqə verilməsi də imkan olmayan və ya çətinlik olan halda qüvvədən düşür.

Sual 322: Qurbanlıqda mötəbər olan şərtlərin mövcudluğuna yəqinin olması vacibdirmi?

Cavab: Şərtlərin mövcudluğuna arxayın olmaq kifayətdir.

Sual 323: Bir hacı onun bəzi vəsaitlərini oğurlamış şəxsdən rəsmi məhkəmənin hökmü ilə aldığı pulla qurbanlığını alır. Görəsən bu qurbanlıq onun üçün kifayət edirmi?

Cavab: Əgər həmin pul təqas (qisas) ünvanında alınmışdırsa və təqasın da hər bir şərti mövcud olmuşdursa və yaxud boynunda olan ümumi dəyərin öz haqqı çatdığı həmin miqdarını almışdırsa, o qurbanlıq kifayətdir. Əgər belə olmazsa, kifayət etmir.

Sual 324: Bir hacı zibhin vacib olmadığına inanaraq (israf olduğu gümanına əsaslanaraq) təqsir etmiş və ehramdan çıxmışdır. Onun hökmü nədir?

Cavab: Tikili paltarları əynindən çıxarmaq, ehramın sair mühərramatından qorunmaq və təşriq günləri (zilhiccənin 11, 12 və 13-cü günləri) bitincəyə kimi zibh etmək onun boynunda vacibdir. Əgər bu günlər bitmiş olarsa və həmin şəxs də zibh etməzsə, ehtiyata əsasən həcci batildir.

Sual 325: Əgər bir hacı xumsunu çıxarmadığı pulla qurbanlığı alarsa, bu əməl onun üçün kifayətdirmi?

Cavab: Əgər qurbanlığı üzərində olan ümumi dəyərlə alarsa və onun pulunu xumsunu çıxarmadığı şeydən ödəyərsə, bu əməl onun üçün kifayətdir və həmin dəyərin xumsu miqdarını çıxarmağa zamindir.

Sual 326: Bir hacının özü üçün qurban kəsməmişdən öncə başqa birinin qurbanını zibh etməsi caizdirmi?





Cavab: Caizdir.

Sual 327: Qurbanlığın bütün şərtlərinə cavab verən və yalnız xayaları əzilmiş olan bir heyvanı zibh etməklə kifayətlənmək olarmı?

Cavab: Əqva (daha qüvvətli) nəzərə əsasən onunla hər bir halda kifayətlənmək olar.

Sual 328: Bir hacı zibh üçün naib tutduğu bir şəxsin öz vəzifəsini yerinə yetirmiş olduğuna inanaraq təqsir etmiş və öz ehramından çıxmışdır. Lakin sonradan inancının səhf olduğunu anlamışdır. Onun vəzifəsi nədir?

Cavab: Dərhal tikili paltarları əynindən çıxartmalı və ehramın sair mühərrəmatından da özünü qorumalıdır. Qurbanlığını kəsdikdən sonra isə ehramdan çıxmalıdır və bir daha təqsir etməyə ehtiyac yoxdur.

Sual 329: Bir hacı başqa bir şəxsi qurbanlığı alıb zibh etmək üçün vəkil etmişdir. Sonra ona xəbər vermədən başqa birini həmin işə görə onun yerinə vəkil etmişdir. Belə olduğu halda birinci vəkil öz müvəkkili tərəfindən zibh edərsə, bu iş onun üçün kifayət edirmi?

Cavab: Bu işin onun üçün kifayət etməsi uzaq nəzər deyildir.

Sual 330: Qurbanlığın dörd əsas damarı kəsildikdən sonra heyvan təkan verərsə və arxası qibləyə tərəf dönərsə, bu hal onun paklığına zərər verirmi?

Cavab: Zərər vermir.

Sual 331: Bir hacı qurbanı kəsdikdən və ondan sonrakı ibadətləri yerinə yetirdikdən sonra qurbanlığının təyin olunmuş və qurbanlıqda şərt hesab edilən yaş həddində olmadığını anlamışdır. Onun hökmü nədir?

Cavab: Bu hal təşriq günlərindən öncə baş verərsə, bir daha qurban kəsməlidir və onun boynunda başqa heç bir şey yoxdur. Əgər bu hal təşriq günlərindən sonra baş vermişdirsə, həm bir daha qurban kəsməli və həm də qurbanlığın əvəzində oruc tutmalıdır.

Sual 332: İmamiyyədən (şiə) olmayan müsəlmanı zibh üçün naib tutmaq caizdirmi?

Cavab: Zibh edən şəxsin kimliyindəki meyar onun müsəlman olmasıdır.

Sual 333: Bir hacı bayram günü zibh etməyi bacarmazsa, günəş batmamışdan bir qədər əvvəl təqsir edib ehramdan xaric olması və zibhi növbəti günə saxlaması caizdirmi?

Cavab: Zibh və təqsir və yaxud da həlqdən başqa heç bir əməllə ehramdan çıxılmır. Əlbəttə həlq və ya təqsiri zibhdən öncə ettmək caizdir, lakin ehtiyata əsasən Minada qurbanlığı hazırladıqdan sonra bu işi etmək olar.

Sual 334: Hacının cəməreyi-əqəbəni rəmy etdikdən sonra təqsir və ya həlq etməsi və elə həmin vaxtda da öz qurbanlığını kəsməsi caizdirmi?





Cavab: Təqsir və ya həlqi zibhdən öncə etmək caizdir, lakin ehtiyata əsasən bu işi görmək üçün öncə Minada qurbanlığı hazırlamaq şərtdir.

Sual 335: Bir hacı təqsir, təvaf və səyi etdikdən sonra kəsmiş olduğu qurbanlığın kifayət edici şəkildə olmadığını anlayarsa, zibhi iadə etdikdən sonra həmin üç ibadəti də bir daha yerinə yetirməsi vacibdirmi?

Cavab: Əzhər (daha aşkar) nəzərə əsasən onları iadə etmək vacib deyildir.

Sual 336: Boynunda bir daha qurban kəsmək vacib olan bir şəxs bilərəkdən onu tərk edərsə, həcci batil olurmu?

Cavab: Əgər qurban kəsməzsə və zibh günləri də bitərsə, əzhər nəzərə əsasən onun həcci batildir.

Sual 337: Qurbanlıq üçün lazım olan şərtlərin mövcudluğunda satıcının sözünə güvənmək olarmı?

Cavab: Onun sözünün düz olduğuna dair arxayınlıq əldə edənə kimi satıcının dediyinə etimad etmək işkallıdır (problemlidir).

Sual 338: Bir şəxsin qurbanlıq əti başqa bir şəxsin qurbanlıq ətinə qarışarsa, həmin şəxsin onların hər birindən bir qədər götürüb qazana qoyması və bişdikdən sonra o qazandan yeməsi onun üçün kifayətdirmi?

Cavab: Bəli, qurbanlıq ətinin bir qədərinin yeyilməsindəki ehtiyat-müstəhəbə riayət etmək üçün bu işi görmək kifayətdir.

Sual 339: Həcdə başqasının naibi olan bir şəxs zibh üçün ayrı bir şəxsi öz naibi seçərsə, bu şəxs kimin tərəfindən niyyət etməlidir? Mənubu ənh tərəfindən niyyət etməlidir, yoxsa naibin tərəfindən niyyət etməsi kifayətdir?

Cavab: Naib tərəfindən niyyət etməlidir. Yəni onun boynunda vacib olan qurbanlığı niyyət edərək heyvanı kəsməlidir. İstər ona bu işi tapşıran şəxs özü üçün həcc etsin, istərsə də başqasının naibi olsun, bu hallar onun niyyətinin keyfiyyətinə təsir qoymur.

Sual 340: Bir şəxs başqasının yerinə onun niyyətini edərək (onun istəmədiyi halda) və onun razı qalıb çox sevinəcəyinə arxayın olduğu halda zibh edərsə, görəsən bu zibh mənubu ənh tərəfindən kifayət edirmi?

Cavab: Bu cür zibh etmək mənubu ənh tərəfindən kifayət deyildir.

Sual 341: Əgər bir hacı Minada zibh etməyi bacardığı halda qəflət üzündən oradan kənarda qurbanını kəsərsə və yalnız öz vətəninə qayıtdıqdan sonra bu mətləbdən agah olarsa, onun vəzifəsi nədir?

Cavab: Onun zibhinin kifayət etməsi uzaq nəzər deyildir.

Sual 342: Bütün hacıların sallaqxanalara aparıldığı halda onların itəcəyindən qorxu olduğuna görə bir qrup komitələr yaradılır. Bu komitələrin vəzifəsi hacılar tərəfindən zibh etməkdir. Hər bir qurbanlığın ətindən onun bir hissəsini ayırmaq və onu yeməsi üçün sahibinə təhvil vermək bu komitənin üzvləri





üçün çox çətin olduğuna və ya mümkün olmadığına görə onlar bu işi görmürlər. Belə olan halda hacının vəzifəsi nədir?

Cavab: Bizim nəzərimizə əsasən hacının öz qurbanlığının ətindən yeməsi vacib olmadığına görə sualda fərz olunmuş halda heç bir işkal yaranmır.

Sual 343: İxtiyari halda Vadiyi-müəysəmdə qurulmuş sallaqxanalarda zibh etmək kifayətdirmi? Yoxsa yalnız Mina və Vadiyi-mühəssərdə zibh etməyə imkan olmadığı halda orada zibh etmək kifayət edir?

Cavab: Nəinki ixtiyari halda, əksinə ehtiyata əsasən heç bir halda Vadiyi-müəysəmdə zibh etmək kifayət etmir.

Sual 344: Müstəhəb həcc etməkdə olan bir şəxsin həccin xərclərinə gücü çatmadığı üçün Minadakı zibhi tərk etməsi caizdirmi? Nəzərə almalıyıq ki, hal-hazırda qurban kəsməyin xərci mükəlləf üçün müəyyən qədər sıxıntıya səbəb olur.

Cavab: Qurban kəsmək təməttö həccinin şərtlərindəndir və bu məsələdə müstəhəb həcc ilə vacib həcc arasında heç bir fərq yoxdur. Buna görə də həmin şəxs qurban kəsmək istəmədiyi halda ifrad həccini yerinə yetirməlidir.

Sual 345: Əgər bir mükəlləf bayram günündə Minada yerinə yetirilən ibadətlərin tərtibinə məsələni bilmədiyi üçün (istər cahili-qasir olsun, istərsə də cahili-müqəssir) xələl gətirərsə, onun hökmü nədir?

Cavab: Onun əməli kifayətdir. Lakin həmin şəxs cahili-mürəddəd (tərəddüd halında) olarsa və məsələnin hökmünü soruşmazsa, ehtiyat-vacibə əsasən bu halda öz əməllərini bir daha yerinə yetirməlidir.

**Həlq və təqsirin hökmləri:**

Sual 346: Birinci dəfə həcc edən şəxsin həlq etməsi (başını təraş etməsi) vacibdirmi? Yoxsa həmin şəxs həlq ilə təqsir (başın tükünü azaltmaq) arasında ixtiyar sahibidir?

Cavab: Ehtiyat-vacibə əsasən həlq etməlidir.

Sual 347: Əgər bir uşaq həcc edərsə, "sərurə (ilk dəfə həcc edən bir şəxs)" ünvanından çıxırmı (yəni o uşaq həcc etmiş sayılırmı)? Həmçinin başqasını naibi olaraq həcc edən bir şəxs də "sərurə" ünvanından xaric olurmu?

Cavab: Zahirə əsaslanaraq demək olar ki, onlar "sərurə" ünvanından çıxırlar. Çünki "sərurə" ilk dəfə həcc edən və bir neçə dəfə həcc etməmiş şəxsə deyilir.

Sual 348: Əgər bir hacı zilhiccənin on birinci gecəsində həlq və ya təqsir edərsə, bu əməl onun üçün kifayətdirmi?

Cavab: Bu əməlin onun üçün kifayət etməsi uzaq nəzər deyildir.

Sual 349: Əgər bir hacı təqsiri Minada etməyin lazım olduğunu bildiyi halda (və ya məsələni bilmədiyinə görə) və Minanın hüdudlarından kənarda





yeni qurulmuş sallaqxanalarda zibhdən sonra təqsir edərsə, onun hökmü nədir?

Cavab: Bu işi bilərəkdən etdiyi halda belə onun təqsirinin kifayət etməsi uzaq nəzər deyildir. Lakin imkan olduğu təqdirdə kəsmiş olduğu tükü Minaya göndərməlidir.

Sual 350: Bir hacı bər-bər olduğu halda özü həlq və ya təqsir etməmişdən öncə başqasının başını təraş edə bilərmi? Əgər belə edərsə, kəffarə verməlidirmi?

Cavab: Belə etməsi caiz deyildir. Lakin belə edərsə, kəffarəsi yoxdur.

Sual 351: Həql etmək üçün ülgücün əvəzində adi maşınlardan (sıfır dərəcəli) istifadə etmək olarmı?

Cavab: Caizdir. Lakin həlqin ülgüc vasitəsi ilə yerinə yetirilməsi ehtiyat-müstəhəbdir.

Sual 352: "Həccin ibadətləri" kitabında belə buyurmusunuz: "Ehtiyata əsasən Minada qurbanlığı hazır edənə kimi həlq və ya təqsiri təxirə salmaq lazımdır". Belə olan halda bir qrup şəxsin vəkili olan bir insanın onların adını tək-tək müəyyənləşdirmədən öz müvəkkilləri üçün qurbanlıq alması, onların həlq və təqsir etməsi üçün kifayətdirmi? Yəni vəkil olan insan bu qurbanlıq filan şəxs üçündür kimi niyyət etməyib qurbanlıqları ümumi şəkildə alarsa, belə olan halda müvəkkillərin təqsir və ya həlq etməsi caizdirmi?

Cavab: Bu iş kifayət deyildir. Yəni onların təyin edilməsi yalnız vəkil olan şəxsin zehnində olsa da belə, bu vəkil insan onların tək-tək hər biri üçün qurbanlığı müəyyənləşdirməlidir.

Sual 353: Sərurə (ilk dəfə həcc edən) olan bir şəxsin başında yara olarsa və bu şəxs həlq etməyi bacarmazsa, təqsir etmək onun üçün kifayətdirmi?

Cavab: Əgər həmin şəxs adi maşınla (sıfır dərəcəli) başını təraş etməyi bacararsa, ehtiyata əsasən təqsir onun üçün kifayət etmir. Hətta həlqin ağır (çətin) olduğu halda təqsirin kifayət etməsinin əqrəb (daha aşkar) nəzər olmasına baxmayaraq, bu halda da təqsir etmək işkaldan (problemdən) kənar deyildir.

Sual 354: Bir hacı bilərəkdən zibhi təxirə salarsa, ondan öncə həlq etməsi caizdirmi?

Cavab: Minada qurbanlığı hazır etdikdən sonra həlq etmək caizdir, amma ondan öncə həlq etmək ehtiyata əsasən caiz deyildir.

Sual 355: Əgər bir hacı unutqanlıq üzündən və ya məsələni bilmədiyinə görə həlqi Minadan kənarda edərsə və yalnız öz vətəninə qayıtdıqdan sonra yadına düşər və  ya məsələdən agah olarsa, onun vəzifəsi nədir?

Cavab: Kəsmiş olduğu tükünü Minaya göndərmək onun üçün mümkün olarsa, belə də etməlidir və əgər mümkün olmazsa, onun boynunda heç bir şey vacib deyildir.





**Nisa təvafının hökmləri:**

Sual 356: Əgər bir şəxs unutqanlıq üzündən və ya məsələni bilmədiyinə görə müfrəd ümrədə təqsirdən öncə nisa təvafını edərsə, onun vəzifəsi nədir?

Cavab: Ehtiyat-vacibə əsasən təqsirdən sonra nisa təvafını və onun iki rəkətlik namazını yenidən yerinə yetirməlidir.

Sual 357: Bir şəxs nisa təvafından sonra təqsir etmiş və təqsirdən sonra (nisa təvafındakı) səhfini anlamışdır. Onun hökmü nədir?

Cavab: Ehtiyata əsasən təvaf və onun namazını bir daha yerinə yetirməlidir.

Sual 358: Bir hacı və yaxud ümrə edən bir şəxs Məkkədən qayıtdıqdan sonra nisa təvafını edib-etməməsində şəkk edərsə, onun vəzifəsi nədir?

Cavab: Qayıtmalı və özü birbaşa onu yerinə yetirməlidir. Əgər qayıtmaq mümkün olmazsa və ya çox çətin olarsa, naib tutmalıdır. Buna əsasən də öz zövcəsi (və cinsi ləzzətlər) ona ya özü və yaxud da naibi onun tərəfindən nisa təvafını etmədiyi müddət boyunca halal deyildir.

Sual 359: Əgər bir şəxs nisa təvafını məhz bu niyyətlə etməzsə və yalnız digər hacıların əməlinə tabe olaraq və ya həccin ibadətlərini öyrədən şəxsin göstərişi əsasında nisa təvafını yerinə yetirərsə, görəsən onun bu cür əməli nisa təvafı üçün kifayətdirmi?

Cavab: Bu ünvan (nisa təvafı) üçün niyyət etmək şərt deyildir. Əksinə ziyarət təvafından sonra yerinə yetirilən təvafın niyyətini etməsi kifayətdir.

Sual 360: Bir kişi nisa təvafını etmədiyi halda onun zövcəsinin özünü ərinin ixtiyarında qoyması, həmin qadın üçün haram hesab olunurmu?

Cavab: Sualda fərz olunmuş halda ehtiyata əsasən həmin qadın özünü ərinin ixtiyarında qoymamalı və təmkin (onunla yaxınlıq) etməməlidir.

Sual 361: Həcdə başqa birinin naibi olan şəxs nisa təvafını özü üçün yerinə yetirməlidir, yoxsa mənubu ənhin naibi niyyəti ilə onu etməlidir?

Cavab: Mənubu ənhin naibi niyyəti ilə yerinə yetirməlidir.

Sual 362: Bir şəxs müstəti olan və özü həcci yerinə yetirə bilməyən başqa şəxsin naibi kimi həcc etmişdirsə və nisa təvafını yerinə yetirməmişdirsə, görəsən qadınlar (cinsi ləzzətlər) naibə nisbətdə haram olur, yoxsa mənubu ənhə?

Cavab: Naibə nisbətdə qadınlar haram olur.

Sual 363: Bir qadın mömin (məqsəd şiədir) və onun əri müxaliflərdən (əhli-sünnə məzhəbdən) olarsa və bu kişi həcdə nisa təvafını (onlarda vacib olmadığı üçün) yerinə yetirməzsə, bu qadının əri ilə yaxınlıq etməkdən (əri nisa təvafını edənə kimi) özünü qoruması ona vacibdirmi?

Cavab: Bu iş ona vacib deyildir.





Sual 364: Həcdən sonra izdihamın şiddətinə görə nisa təvafını edə bilməyəcəyindən qorxusu olan bir şəxsin onu əvvələ salması və öncədən yerinə yetirməsi caizdirmi?

Cavab: Caizdir. Lakin Minanın ibadətlərini (yəni rəmy, zibh, həlq və ya təqsir) yerinə yetirməmişdən öncə qadınlar (cinsi ləzzətlər) ona halal deyildir.

Sual 365: Həccini yerinə yetirmiş bir şəxs öz vətətinə qayıtdıqdan sonra evlənmiş və uca Allah ona bir neçə övlad bəxş etmişdir. Bu qədər müddət keçdikdən sonra nisa təvafını yerinə yetirmədiyindən agah olmuşdur. Belə olan halda onun izdivacının və övladlarının hökmü nədir?

Cavab: Bizim nəzərimizə əsasən onun izdivacı səhihdir. Çünki həlqdən sonra hacıya haram olan əməl qadınlardan cinsi ləzzət almaqdır və əqd kəsdirmək hacıya haram deyildir. Onun övladları da hər bir halda ona məxsusdurlar (yəni halalzadədirlər).

Sual 366: Bir şəxs nisa təvafındakı dördüncü dövrdən sonra öz zövcəsi ilə yaxınlıq edərsə, nə etməlidir?

Cavab: Allahdan bağışlanma istəyib istiğfar etsin və təvafını sona çatdırsın. Belə edərsə, kəffarə yoxdur.

Sual 367: Bir şəxs nisa təvafını etməmişdən öncə öz zövcəsi ilə mazaqlaşmışdır. Onun hökmü nədir?

Cavab: Əgər ondan məni xaric olmuşdursa, bir dəvə kəffarə verməlidir və əgər dəvəyə gücü çatmaz-

sa, bir qoyun kəffarə verməlidir. Əgər ondan məni xaric olmamışdırsa, istiğfar etməlidir və heç bir kəffarə yoxdur.

Sual 368: Həccin təvafını və onun namazını iki vüqufdan öncəyə salan bir qadın nisa təvafını etməmişdən əvvəl qəflətən aybaşı olarsa, onun yerinə təvaf etməsi üçün başqa birini naib tuta bilərmi?

Cavab: Bu cür edə bilməz. Əksinə nisa təvafını paklanacağı və bayram gününün əməllərini edəcəyi gündən sonraya kimi təxirə salmalıdır. Belə olan bir halda yol yoldaşları onun paklanmasını gözləməzlərsə və o da karvandakılardan geri qalmağı bacarmazsa, nisa təvafını tərk edib karvanla qayıda bilər və bu halda ehtiyata əsasən öz təvafı və onun namazı üçün naib tutmalıdır.

Sual 369: Bir şəxs müfrəd ümrəsindəki nisa təvafını etməmiş və təməttö ümrəsinin ehramını bağlamaq üçün miqatlardan birinə getmişdir. Belə olan halda həmin şəxs soruşur:

Birinci: Görəsən onun etdiyi bu əməl caiz idi, ya yox?

Cavab: Onun əməlinin caiz olduğunun əqrəb nəzər olmasına baxmayaraq işkaldan (problemdən) kənar deyildir.

İkinci: Onun əməlinin caiz olmadığı təqdirdə təməttö ümrəsi üçün bağladığı ehramına xələl gəlirmi?

Cavab: Onun əməlinin caiz olmadığı qəbul edilən bir halda bu hökm “vəzi” olacaqdır. Yəni nisa





təvafını etmədiyi müddət boyunca ehramı da səhih olmayacaqdır.

Üçüncü: Onun ehramına xələl gəlmədiyi təqdirdə nisa təvafını nə vaxt yerinə yetirməlidir? Görəsən belə halda nisa təvafını təməttö ümrəsinin əməllərindən sonraya kimi təxirə salmaq olarmı?

Cavab: Bu cür təxir onun üçün caizdir.

Sual 370: Bir şəxs müfrəd ümrəsinin nisa təvafını, həcc əməllərini yerinə yetirincəyə kimi təxirə salmışdır. Belə olan halda həmin şəxsin iki nisa təvafı etməsi lazımdır, yoxsa onun bir təvaf etməsi kifayətdir?

Cavab: Ehtiyata əsasən onun iki təvaf etməsi lazımdır.

Sual 371: Bir şəxs bir neçə dəfə müfrəd ümrə etmişdir və onların heç birində nisa təvafını yerinə yetirməmişdir. Görəsən bir dəfə nisa təvafı etmək onların hamısı üçün kifayətdirmi?

Cavab: Ehtiyata əsasən kifayət deyildir. Buna görə də ümrələrin sayı qədər nisa təvafını da etməlidir.

Sual 372: “Həcc əməlləri ” kitabında belə buyurmusunuz: “Həcc aylarında müfrəd ümrə etmiş bir şəxs tərviyə gününə (zilhiccənin səkkizinci günü) kimi Məkkədə qalarsa və həcc etməyi niyyət edərsə, onun ümrəsi təməttö ümrəsinə çevriləcəkdir”. Belə olan halda bu cür bir şəxs öncədən nisa təvafını etməmişdirsə, onu yerinə yetirmək vacibdirmi?

Cavab: Bu halda nisa təvafının saqit olması (qüvvədən düşməsi) uzaq nəzər deyildir.

Sual 373: Bir şəxs təməttö ümrəsini etdikdən sonra həccin əməllərini yerinə yetirməyi bacarmazsa və öz şəhərinə qayıdarsa, nisa təvafını etməmişdən öncə onun öz zövcəsi ilə yaxınlıq etməsi caizdirmi?

Cavab: Ehtiyata görə o işi tərk etməlidir.

Sual 374: Həcdə nisa təvafını etməmişdən öncə müfrəd ümrə üçün ehram bağlamaq caizdirmi?

Cavab: Bu halda ehtiyata riayət etməyin yaxşı əməl olmasına baxmayaraq onun ehram bağlamasının caiz olması da uzaq nəzər deyildir.

**Minada beytutə etməyin (gecə vaxtı qalmağın) hökmləri:**

Sual 375: Bütün gecəni Minada qalmaq vacibdir, yoxsa gecənin bir hissəsini oradan çıxmaq olar?

Cavab: Hacı istəyərsə gecənin əvvəlindən onun yarısına kimi və yaxud da gecənin yarısından dan yeri sökülənə kimi Minada qala bilər. Yəni hacı bu iki vaxtdan birini seçməkdə ixtiyar sahibidir.

Sual 376: Əgər bir hacı Mina beytutə etməyi qəsd edərsə və sonra zərurət üzündən çarəsiz qalaraq oranı tərk edib məbiti (gecə vaxtı qalmağı) boşlayarsa, onun boynuna kəffarə gəlirmi?

Cavab: Bəli, ehtiyata əsasən bir qoyun kəffarə verməlidir.





Sual 377: Zilhiccənin on ikinci günündə Minada dəhşətli izdiham olur. Gücsüz insanlar, xəstələr və qadınların zöhrdən sonra Minadan çıxmaqdakı və rəmy etməkdəki vəzifələri nədir?

Cavab: İzdihamın şiddətinə görə bu şəxslər özləri rəmy edə bilməsələr, bu iş üçün naib tutmalıdırlar və əgər izdihamın şiddəti onların on ikinci günün zöhründən sonra Minadan çıxmalarına da əngəl olarsa, həmin gecəni Minada qalmaq onlar üçün çətin və ağır olmadığı halda orada qalmalıdırlar. Həmin gecəni Minada qalmaq çətin və ağır olduğu təqdirdə isə zöhrdən qabaq Minadan çıxmaq onlar üçün caizdir.

Sual 378: Gecənin birinci yarısını Minada qalmaq daha fəzilətlidir, yoxsa ikinci yarısını?

Cavab: Onların heç birinin digərinə nisbətdə üstünlüyü sabit olmamışdır. Əlbəttə gecənin birinci yarısını Minada qalmaq ehtiyata uyğundur.

Sual 379: Minada qalmaq üçün oraya qayıtmaq istəyən şəxs izdihama görə qayıda bilməzsə, onun vəzifəsi nədir?

Cavab: Əgər Məkkədən çıxmışdırsa, kəffarə yoxdur və əgər gecəni orada (Məkkədə) qalarsa, ehtiyata əsasən bir qoyun kəffarə verməlidir.

Sual 380: Bir kişi beytutə etməyi niyyət etmədən gecəni Minada qalır. Çünki onun bu işin vacib olmadığına etiqadı vardır və o, yalnız növbəti gün rahat rəmy etmək üçün orada qalmışdır. Görəsən onun boynuna kəffarə gəlirmi?

Cavab: Zahirə əsasən bu işə görə kəffarə sabit olmur.

Sual 381: Bir hacı üç cəmərənin hamısını on ikinci günün sübh vaxtı rəmy etmişdir. Bu hacının Məkkədə olan öz evinə qayıtması və günortadan sonra Minadan köç etmək üçün zöhrdən qabaq oraya getməsi caizdirmi? Yoxsa Minadan çıxmaq və köç etmək günortadan öncə heç bir halda caiz deyildir?

Cavab: Özünün bəzi vəsaitlərini Məkkədə qoymuşdursa və ona görə qayıtmaq lazımdırsa, bu halda Minadan çıxmaq onun üçün caizdir və əgər belə olmazsa, qayıtmaq qəsdinin olmasına baxmayaraq ehtiyata əsasən Minadan çıxmaq caiz deyildir. Hər bir halda zöhrdən öncə Minaya qayıtmaq vacib deyildir, əksinə zöhrdən sonra oraya qayıdıb ğürubdan (günəş batmamışdan) öncə oradan çıxmaq və ya on üçüncü gün Minadan köç etmək caizdir.

Sual 382: Bir hacı on ikinci günün sübh vaxtı hər üç cəmərəni rəmy edərsə və sonra Məkkəyə gedərsə, zöhrdən öncə Minaya qayıtmaq ona vacibdirmi?

Cavab: Əgər bir hacı rəmy etdikdən sonra və günortadan öncə Minadan çıxmışdırsa və onun çıxmasına səbəb bəzi vəsaitlərini Məkkədə qoyması olmuşdursa və bu vəsaitlərə görə oraya getmək lazım idisə, bu halda hacının Minaya qayıtması lazımdır. Hətta Məkkədə lazımlı bir vəsaitini qoymadığı halda da ehtiyata əsasən Minaya qayıtmalıdır. Odur ki, əzhər (daha aşkar) nəzərə əsasən birinci halda onun Minadan çıxması caizdir, lakin





ikinci halda isə ehtiyat-vacibə əsasən Minadan çıxmamalıdır.

Hər bir halda isə zöhrdən öncə Minaya qayıtmaq vacib deyildir və ondan sonra da qayıtmaq caizdir. Çünki bu məsələdə meyar nəfrin (Minadan köç etməyin) zöhrdən öncə olmamasıdır. Buna əsasən də zöhrdən sonra Minaya qayıtmaq və həmin günün ğurubundan (günəş batmamışdan) öncə oradan çıxmaq və yaxud da on üçüncü günün sübh vaxtında Minadan köç etmək caizdir.

Sual 383: “Həccin əməlləri” kitabında buyurmusunuz ki, Məkkədən Minaya qayıtmaq üçün çıxan bir şəxs mədəni əqəbələrdən keçərsə, Minaya çatmamışdan öncə yolda yatması onun üçün caizdir. Belə olan halda bir hacı Əziziyyə və ya Şişe məntəqəsində (onların hər ikisi mədəni əqəbələrdən sonra yerləşir) olarsa, Məkkənin qədim hissəsindən çıxdığı üçün öz ixtiyarı ilə evdə yatması və Minaya getməməsi caizdirmi?

Cavab: Belə etmək onun üçün caiz deyildir.

Sual 384: Qadın, uşaq və gücsüz şəxslər kimi on ikinci gündə rəmy etməyə icazəsi olan bir hacı həmin gecə rəmy edərsə və Məkkəyə qayıdarsa, zöhrdən sonra Minadan köç etmək üçün günortaya kimi oraya qayıtması vacibdirmi?

Cavab: Bu sual izdihamın şiddətinə görə öz canı üçün qorxan və gecə vaxtı hər üç cəmərəni rəmy etməsi caiz olan şəxslərin (qadın, uşaq və gücsüz şəxslər kimi) hökmünə aiddir. Lakin bizim nəzərimizə

əsasən gecə vaxtı rəmy etmək (bayram gecəsində cəmərеyi-əqəbəni rəmy etmək xaricdir) yalnız o kəsə aiddir ki, gündüz vaxtı rəmy etmək miqdarında belə dayanmağa imkanı olmasın. Qorxusu olan şəxslər, çoban və qullar bunun nümunəsidir. Amma qadın, uşaq və gücsüz olan şəxslər izdihamın şiddətinə görə gündüz vaxtı rəmy etməyi bacarmadıqları halda bu iş üçün naib tutmalıdırlar. Ehtiyati-övla isə hər iki işi etmələridir, yəni həm gecə vaxtı rəmy etmələri və həm də gündüz vaxtı rəmy üçün naib tutmaları ehtiyata uyğundur.

Birinci rəyə əsasən, on ikinci gecədə rəmy etmiş bir şəxs gündüz vaxtı Minada qalmağı bacararsa (nəinki qorxusu olan şəxs, çoban və qul), rəmydən sonra Minadan köç etməsi caiz deyildir. Əgər Minadan Məkkəyə tərəf təvaf etmək və ya başqa bir iş üçün çıxarsa, oraya qayıtmaq ona vacibdir. Yəni həmin şəxs on ikinci günün zöhründən sonra və ya on üçüncü günün sübh vaxtında rəmy etdikdən sonra Minadan köç etmək üçün (382-ci sualın cavabında qeyd olunmuş izaha uyğun olaraq) oraya qayıtmalıdır.

**Üç cəmərəni rəmy etməyin hökmləri:**

Sual 385: Yuxarı mərtəbələrdən cəməratı rəmy etmək kifayətdirmi?

Cavab: Ehtiyata əsasən cəməratı rəmy etməkdəki miqdar, Peyğəmbər (s) və imamların (ə) dövründə mövcud olmuş miqdardır. Hal-hazırda isə torpağın yüksəlməsi üzündən həmin yerin aşağıda qaldığını nəzərə alarsaq, hacı bu miqdarda rəmy etməyi bacar-





madığı halda ehtiyat-vacibə əsasən həm öz rəmyi üçün naib tutmalı və həm də artıq miqdar olan yerdə (yuxarı mərtəbədə) özü rəmy etməlidir.

Sual 386: Buyurmuzunuz ki, cəməratın rəmyindəki miqdar, ehtiyata əsasən Peyğəmbər (s) və imamların (ə) dövründə mövcud olmuş miqdardadır. Belə isə lütf edib deyərdiniz ki, bu miqdarın eni və uzunluğu nə qədərdir?

Cavab: Zahirə əsasən xalqın nəzərində orada bir artma baş verməmişdir. Amma uzunluq cəhətindən yerin qalxma qaydasına görə orada bir qədər yuxarı qalxma baş vermişdir və rəmyin miqdarının adi bir insan boyu hündürlüyündə və yaxud da (bəlkə də) ondan bir qədər də çox olması (və bu miqdarın da kifayət etməsi) uzaq nəzər deyildir.

Sual 387: Qadın, uşaq və bu kimi şəxslərin on birinci və on ikinci gecədə cəməratı rəmy etmələri caizdirmi?

Cavab: Gecə vaxtı rəmy etmək (bayram gecəsində cəmərеyi-əqəbəni rəmy etmək xaricdir) yalnız o şəxslərə aiddir ki, gündüz vaxtı rəmy etmək miqdarında belə Minada dayanmağa gücləri çatmasın və üzrlü olsunlar. Qorxusu olan, çoban və qullar bu şəxslərin nümunəsidir. Amma qadınlar, uşaqlar və gücsüz şəxslərin izdihamın şiddətinə görə gündüz vaxtı rəmy etməməsi caiz deyildir və onlar bu iş üçün naib tutmalıdırlar. Ehtiyati-övla isə onların həm gecə vaxtı özlərinin rəmy etməsi və həm də gündüz vaxtı rəmy üçün naib tutmalarıdır.

Sual 388: Üç cəmərəni rəmy edən zaman hacının hansı halda dayanması daha yaxşıdır?

Cavab: Cəmərəyi-əqəbəni rəmy edən zaman hacının onunla üzbəüz və arxası qibləyə şəkildə, həmçinin onunla on və ya on beş zira məsafəsində dayanması müstəhəbdir. Amma cəmərəyi-ula və cəmərəyi-vustanı rəmy edən zaman isə hacının üzü qibləyə dayanması daha yaxşıdır.

Sual 389: Əgər bayram günündəki cəmərəyi-əqəbənin rəmyinə və on birinci gündəki hər üç cəmərənin rəmyinə xələl gələrsə və onları on ikinci gündə qəza etmək lazım olarsa, iki sual yaranmış olur:

Birinci: Görəsən qəza rəmyləri əda (hazırkı) rəmydən öncə etməlidirmi?

Cavab: Bəli, ehtiyat-vacibə əsasən ilk olaraq qəza rəmylərini etməlidir.

İkinci: Qəza və əda rəmyləri arasına fasilə salmaq vacibdirmi? Əgər vacibdirsə, onun miqdarı nə qədərdir?

Cavab: Bəli, ehtiyat-vacibə əsasən onların ikisinin arasına fasilə salmaq lazımdır və buna görə vaxtın bir miqdarını fasilə etmək kifayətdir.

Sual 390: Həcc edən bir şəxs başqası tərəfindən hər üç cəmərəni rəmy etmək üçün naib olarsa və həm özü, həm də başqasının naibi kimi rəmy etmək istəyərsə, ilk öncə özü üçün rəmy etməsi və özünün bütün rəmylərini bitirdikdən sonra naib kimi başqasının rəmylərini yerinə yetirməsi ona vacibdirmi? Yoxsa cəmərəyi-ulanı (birinci cəmərəni) ilk öncə özü üçün və ardınca da naib kimi başqası üçün rəmy edə, sonra ikinci cəmərəyə və sonra da üçüncü cəmərəyə gedib həmin tərtibə əməl edə bilərmi?





Cavab: İkinci üsluba əməl etmək də (birincidən əlavə) onun üçün caizdir.

Sual 391: Aşağıdakı hallarda cəməratı rəmy etmək üçün qadınların vəzifəsi nədir?

1) İzdihamın şiddətinə görə özü rəmy edə bilməzsə, amma bir qədər keçdikdən sonra imkan olacağına ehtimal verərsə, onun vəzifəsi nədir?

Cavab: Bu halda naib tutmaq ona caizdir. Amma sonradan rəmy etməyi özü bacararsa, özü də rəmy etməlidir.

2) İzdihamın tezliklə azalacağını və özünün rəmy etməyi bacaracağını bilərsə, onun vəzifəsi nədir?

Cavab: Bu halda naib tutmaq olmaz və özü rəmy etməyi bacarana kimi səbr etməlidir.

3) Rəmy olunan məkana gedib oradakı izdihamın şiddətini gördükdən sonra vaxtın sonuna kimi rəmy edə biləcəyindən ümidsiz və məyus olarsa, onun vəzifəsi nədir?

Cavab: Bu iş üçün başqasını naib tutmaq ona vacibdir.

4) Naib tutduqdan sonra gün boyunca izdihamın aradan qalxdığı və azaldığını bilərsə, onun vəzifəsi nədir?

Cavab: Rəmy olunan məkana qayıtmalı və özü də rəmy etməlidir.

5) Əgər gecə vaxtı rəmy edərsə və gündüz vaxtı izdiham aradan qalxarsa, onun vəzifəsi nədir?

Cavab: Bu sualın cavabı qadın və qorxusu olan şəxslərin gecə vaxtı rəmy etmələrinin caiz olması məsələsinə bağlıdır. Lakin bizim nəzərimizcə, bu iş (qadın üçün) caiz deyildir.

6) Özü rəmy etməyi bacardığı halda hökmü bilmədiyinə görə naib tutarsa, onun hökmü nədir?

Cavab: Vaxtın bitmədiyi halda özü də rəmy etməlidir və əgər vaxt bitmiş olarsa, qəzasını yerinə yetirməlidir.

7) Özü rəmy etməyi bacardığı halda mövzunu bilmədiyinə görə naib tutarsa, onun vəzifəsi nədir?

Cavab: Əvvəlki sualın cavabı ilə eyni hökmdədir.

8) Rəmyləri qəza etməli olduğu hallarda qadının gecə vaxtı onları yerinə yetirməsi caizdirmi?

Cavab: Xeyr, gündüz vaxtı onların qəzasını etməlidir.

Sual 393: Əgər bir hacı onuncu gündəki cəmərəyi-əqəbəni rəmy etmənin və on birinci gündəki hər üç cəmərəni rəmy etmənin qəzasını on ikinci gündə yerinə yetirməli olarsa, on birinci günün qəza və on ikinci günün əda niyyəti ilə birinci və ikinci cəmərəni rəmy etməsi və sonra onuncu və on birinci





günün qəza və on ikinci günün əda niyyəti ilə cəmərəyi-əqəbəni rəmy etməsi ona vacibdirmi? Yoxsa hacının ilk öncə cəmərəyi-əqəbəni onuncu günün qəzası niyyəti ilə, sonra hər üç cəmərəni on birinci günün qəzası niyyəti ilə və sonda da hər üç cəmərəni on ikinci günün əda niyyəti ilə rəmy etməsi vacibdir?

Cavab: İlk öncə onuncu günün qəzası niyyəti ilə cəmərəyi-əqəbəni rəmy etməlidir. Sonra on birinci günün qəzası və on ikinci günün ədası niyyəti ilə hər üç cəmərəni rəmy etmək üçün aşağıdakı iki yoldan birini seçə bilər:

1) İlk öncə hər üç cəmərəni on birinci günün qəzası və on ikinci günün əda niyyəti ilə rəmy etsin və qəza ilə əda rəmyləri arasında bir qədər fasilə versin.

2) Hər cəmərəni iki dəfə rəmy etsin: Yəni ilk öncə on birinci günün qəzası niyyət ilə və sonra on ikinci günün əda niyyəti ilə hər cəmərəni rəmy etsin və bu iki rəmyin arasında bir qədər fasilə versin.

## Şərəfli iki hərəmdə qılınan namaz və təharətin hökmləri:

Sual 393: İmamiyyədən bir (şiə) şəxsin aşağıdakı iki halda əhli-sünnədən birinə iqtida edib namaz qılması səhihdirmi?

a) Bu iş təqiyyə üzündən olarsa, səhihdirmi?

b) Bu iş ümumi məsləhətə uyğun olaraq, məsələn, islami vəhdəti qorumaq üçün mehribançılıq və ülfət yaratmağa görə olarsa, səhihdirmi?

Cavab: Onların arxasında namaz qılmaq caizdir. Lakin məmum asta səslə öz qiraətini oxumağı bacararsa, belə də etməlidir və əgər bunu bacara bilməzsə, ürəyində oxumalıdır. Əgər təqiyyə etməli olarsa, təkəttuf (iki əlini bir-birinin üstünə qoymaq) də edə bilər. Həmçinin səcdə olunması caiz olan şeylərdən heçnə tapılmazsa, xalça və bu kimi şeylərə səcdə etmək də caizdir. Əgər yer və həsir kimi səcdə olunması caiz olan bir şey tapılarsa, ona səcdə edilməlidir.

Sual 394: Əgər cümə namazında onlara iqtida edilərsə, ondan sonra zöhr namazını qılmaq lazımdırmı?

Cavab: Bəli, vacibdir.

Sual 395: Vaxt daxil olmamışdan əvvəl Əhlisünnənin arxasında qılınan namazın hökmü nədir?

Cavab: Bu halda həmin namaz kifayət deyildir və onunla kifayətlənmək olmaz.

Sual 396: Kəramətli Məkkə və nurani Mədinə şəhərində qılınan namazlarda camaatın imamı olan bir şəxsin sübh namazının ikinci rəkətindən sonra və məğrib namazının üçüncü rəkətindən sonra qunut tutması və qunutda onun etdiyi hər duadan sonra məmumların “amin” deməsi rəsmi (və yayılmış) bir haldır. Görəsən bu camaat namazında iştirak edən möminlərin (şiələrin) digər möminlərlə birgə “amin” deməsi caizdirmi?

Cavab: Namazı batil edən “amin”kəlməsi (risalədə qeyd izaha əsasən) həmd surəsindən sonra





deyiləndir. Amma namazın digər yerlərində dua qəsdi ilə “amin” deməyin işkalı yoxdur. Əlbəttə məmumun digər birinə tabe olaraq “amin” deməsi və onun mənasını bilməməsi, onun namazını batil edən “aminlərdən” hesab olunacaqdır.

Sual 397: Məscidul-həramda və Peyğəmbər (s) məscidində qılınan namazlarda camaatın bəzisi yuxarı mərtəbəyə çıxır və oradan imam camaata iqtida edirlər. Halbuki onlar aradakı divarların hündür olmasına görə nə imamı görə bilirlər və nə də camaat namazındakı səflərdən bəzisini müşahidə etmirlər. İmamiyyədən olan bir şəxsin (şiənin) bu qrupla birgə ikinci mərtəbədə namaz qılması caizdirmi?

Cavab: Caizdir. Lakin qeyri-imaminin arxasında qılınan namazda lazımlı olan qaydalara riayət edilməlidir.

Sual 398: Məscidul-həramın döşəməsində olan daşlara səcdə etmək caizdirmi? Nəzərə almalıyıq ki, hərarətin dəyişməsi və bu daşların günəşdən təsirlənməməsinə görə onlara fabrik daşları və qeyri-təbii daşlar deyilir.

Cavab: Bu daşların fabrikat olmasının forması onları təşkil edən maddələrin səcdə edilməsi səhih olan şeylər şəklində olarsa və yaxud digər maddələr onun içində itmiş olarsa, o daşlara səcdə etməyin bir eybi yoxdur. Bu hal təqiyyə olmayan duruma aiddir. Lakin təqiyyə halında həmin daşlar səcdə edilməsi səhih olmayan şeylərdən təşkil olunsa da onlara səcdə etmək səhihdir.

Sual 399: Peyğəmbər (s) məscidinin xalçalarına səcdə etmək caizdirmi?

Cavab: Əgər təqiyyə etməyin lazım gəldiyi hal olarsa, ona səcdə etmək caizdir və xalçaya səcdə etməmək üçün başqa yerə getmək vacib deyildir. Həmçinin təqiyyə üzündən namazı axır vaxta kimi təxirə salmaq (və gecikdirmək) vacib deyildir.

Sual 400: Sizin nəzərinizə əsasən namaz halında qadın və kişinin bir-birinin üzbəüzündə (yanında) dayanması və yaxud da qadının bir qədər qabağda durması ehtiyata görə səhih deyildir. Görəsən bu nəzər və hökm Məscidul-harama da aiddirmi?

Cavab: Bu hökm Məkkəyi-mükərrəmədə izdihamın çox olduğu hala aid deyildir və əzhər (daha aşkar) nəzərə əsasən orada təqəddüm və təəxxür (qadının qabağa keçməsi və ya kişinin arxada qalması) caizdir.

Sual 401: Bir kişi namaza başladıqdan sonra bir qadın gəlib onun üzbəüzündə və yaxud da ondan bir qədər qabağda dayanaraq namaz qılmağa başladı. Görəsən həmin qadının bu işi ilə yalnız onun öz namazı batil olur, yoxsa camaat namazında da işkal yaranır? Bu məsələnin əksinin hökmü nədir?

Cavab: Ehtiyata əsasən hər iki namaz da batil olur. Çünki bizim nəzərimizə görə qadının üzbəüz yerdə və ya bir qədər qabağda dayanmasının işkallı olması sonradan namaza başlamaqdan asılı deyildir və hər iki namaza da şamil olur.





Sual 402: Şərəfli Kəbənin ətrafında qadınların dairəsində (hüdudunda) camaat namazı qılmaq səhihdirmi?

Cavab: İmamdan qarşıda dayanaraq namaz qılan şəxsin namazı işkallıdır. Lakin bu camaat namazlarında iştirak edən möminlərin (şiələrin) hal-hazırda Məscidul-həramda mövcud olan hüdudlar daxilində qeyri-imamiyyəyə (qeyri-şiəyə) iqtida etməsi, onların arxasında namaz qılmaq üçün mötəbər olan şərtlərə riayət etməklə caizdir.

Sual 403: Hicri-ismaildə namaz qılmağın caiz olmadığını deyirlər. Bu söz düzdürmü?

Cavab: Bu sözün heç bir əsası yoxdur.

Sual 404: Musafirin (səfərdə olan şəxsin) namazı şikəstə və ya tamam qılması arasında ixtiyar sahibi olması Məkkəyi-mükərrəmənin və nurani Mədinə şəhərinin qədim hissələrinə aiddir, yoxsa yeni artırılmalara və genişlənmələrə də şamildir?

Cavab: Yeni artırılmalara da şamildir.

Sual 405: Avtobus sürücüsü müsafirlərə namaz qılmaq üçün kifayət edəcək miqdarda fürsət verməzsə və avtobusu saxlamaqla onlar üçün imkan yaratmazsa, müsafirin öz vacib namazını oturduğu yerdə qılması caizdirmi?

Cavab: Bəli, lakin ayaq üstə namaz qılmaq oturduğu halda namaz qılmağa müqəddəmdir (öndədir). Hər iki halda imkan olarsa, üzü qibləyə dayanmaq lazımdır və əgər imkan az olarsa, yalnız təkbirətul-

ehram halında üzü qibləyə dayanmaq lazımdır. Ümumiyyətlə imkan olmazsa, üzü qibləyə dayanmaq saqit olur (qüvvədən düşür). Həmçinin ixtiyari şəkildə ruku və səcdə etməyə imkan olarsa (avtobusun koridorundan istifadə etməklə), bu cür etməsi vacibdir. Əgər belə etməyə imkanı olmazsa, ruku və səcdə halına uyğun olan şəkildə mümkün olan qədər əyilməlidir. Səcdə etdiyi zaman səcdəgahı qaldırmaq üsulu ilə olsa da belə alnını səcdəgaha qoyması lazımdır. Əgər qeyd olunan miqdarda əyilməyi bacarmazsa, onların əvəzində işarə etməlidir.

Sual 406: Bir müsafir Məkkədə on gün qalmağı qəsd etmişdir. On gün keçdikdən sonra Ərəfata getmiş və oradan Məşərə və sonra da Minaya yollanmışdır. Görəsən bu şəxsin Ərəfat, Məşər və Minadakı namazları tamam və şikəstə olmaq cəhətindən hansına uyğundur?

Cavab: Əgər Məkkənin hal-hazırda olan qurtarma nöqtəsindən (çıxışından) Ərəfata qədərki məsafə və sonra oradan Məşər və sonra da Minaya (və əksinə) qədərki məsafə 44 kilometr və ya ondan çox olarsa, həmin şəxsin namazları oralarda şikəstə olacaqdır və əgər məsafə bu miqdardan az olarsa, namazları tamam olacaqdır. İkinci halda həmin şəxsin Ərəfatdan səfər etmək qəsdi olarsa və onun Məkkəyə qayıtması iqamət etdiyi (qaldığı) məkan cəhətindən deyil, əksinə öz yolunda onun baş verməsi (və yerləşməsi) cəhətindən olarsa, onun Məşər və Minadakı namazlarının hökmü şikəstədir. Amma həmin şəxs Məkkədəki namazlarını tamam və ya şikəstə qılmaq arasında ixtiyar sahibidir. Çünki Məkkə şəhəri müsafirin öz namazını tamam və ya şikəstə





qılması arasında ixtiyar sahibi olduğu məkanlardan biridir.

Sual 407: Öncəki sualda fərz olunmuş bir halda müsafir on gün Məkkədə qalmağı qəsd etdikdən və iqamət niyyəti ilə namazını dörd rəkət qılmaq istədikdən sonra müəyyən bir əngəlin baş verməsi üzündən oranı tərk etməli olarsa və on gün bitməmişdən öncə çarəsiz şəkildə Ərəfata getməli olarsa, onun hökmü nədir?

Cavab: Öncəki məsələnin hökmü ona da şamildir.

Sual 408: Öncəki sualda fərz olunmuş halda müsafir bayram günündə Məkkəyə qayıdarsa və sonra oradan beytutə etmək üçün Minaya gedərsə və yaxud da on gün qalmaq niyyəti etmədən on ikinci gündə Məkkəyə qayıdarsa, onun Məkkə və Minadakı namazlarının hökmü nədir? Onun namazları şikəstədir, yoxsa tamam?

Cavab: Əgər Məkkənin hal-hazırda mövcud olan son nöqtəsindən (çıxışından) Ərəfata qədərki məsafə və oradan Müzdəlifəyə və sonra da Minaya qədərki (və əksinə) məsafə 44 kilometr və ya ondan çox olarsa, onun Məkkə və Minadakı namazları şikəstədir (necəki Ərəfat və müzdəlifədə şikəstə qılırdı). Əlbəttə, Məkkədəki namazları tamam qılmaq caizdir. Çünki Məkkə şəhəri müsafirin öz namazını qəsr ilə tamam qılması arasında ixtiyar sahibi olduğu məkanlardandır. Amma məsafə qeyd etdiyimiz miqdardan az olarsa, həmin şəxs bütün yerlərdə öz namazlarını tamam qılmalıdır və 406-cı sualın cavabında qeyd etdiyimiz bir hal isə istisnadır.

Sual 409: Məscidul-həramda və Peyğəmbər (s) məscidində qılınan namazın fəziləti barəsində gələn rəvayətlər, bu iki məscidin yeni artırılmalarına və genişlənmələrinə də aiddirmi? Həmçinin onların digər hökmləri də yeni hissələrə şamil olurmu?

Cavab: Bəli. Əgər həmin artırılma və genişlənmələr məscid hesab olunarsa (nəinki əlavə və birləşmə sayılarsa), bütün fəzilət və hökmlər o hissələrə də aiddir.

Sual 410: Həcc karvanlarının məsul şəxsləri və hacılara bələdçilik edən insanların hər il bu işi görmək vəzifəsi olduğu halda onların namazları şikəstə olur, ya tamam?

Cavab: Əgər onların işləri az müddətli olarsa (məsələn üç həftə), onların vəzifəsi qəsr namazıdır və əgər çox müddətli olarsa (məsələn üç ay), onların vəzifəsi namazları tamam qılmaqdır. Onların kəsirus-səfər (çox səfər edən şəxs) olub-olmamasında şəkk edilən zaman isə ehtiyat budur ki, qəsr və tamam arasında cəm etsinlər və namazlarını həm şikəstə, həm də tamam qılsınlar.

Sual 411: Məkkə və Mədinədə sərinləmək üçün nəzərdə tutulan və yalnız içmək üçün hazırlanmış su ilə dəstəmaz almaq caizdirmi?

Cavab: Əgər həmin su yalnız içmək üçün nəzərdə tutulmuş və ona məxsusdursa, onunla dəstəmaz almaq caiz deyildir.

Sual 412: Öncəki sualda fərz olunmuş halda bir şəxs hökmü bilmədiyinə görə həmin su ilə dəstəmaz almışdırsa, onun hökmü nədir?





Cavab: Əzhər (daha aşkar) nəzərə əsasən onun dəstəmazı səhihdir.

Sual 413: İslam dövlətinə məxsus olan hökümət müəssisələrində və dövlət idarələrində mövcud olan su ilə dəstəmaz almaq caizdirmi?

Cavab: Bəli, həmin suyun qəsbi olduğu bilinmədiyi müddətdə caizdir.

Sual 414: Məscidul-həramın hər hansısa bir hissəsi nəcis olduğu zaman məsul işçilər nəcasətin eynini (özünü) aradan aparırlar və sonra nəm (islanmış) bir parça ilə onu silib təmizləyici maddələr ilə onun yerini təmizləyirlər. Məlum olduğu kimi bu iş həmin yerin paklanması üçün kifayət deyildir. Sonra orada qalan rütubət insanların get-gəl etməsi və ya ayaqlarını oraya qoyması nəticəsində Məscidul-həramın digər hissələrinə də sirayət edir və nəticə etibarı ilə məscidin bir çox yerinin nəcis olmasına aid bilgi yaranır. Belə olduğu halda Məscidul-həramın döşəməsinə ixtiyarı bir durumda səcdə etmək caizdirmi? Yoxsa oraya səcdə etmək yalnız təqiyyə halında icazəlidir? Həmçinin təvaf edən bir şəxsin bədəni mətafda olan rütubətlə toqquşarsa və rütubət onun bədəninə sirayət edərsə, onun təvafı səhihdirmi? Yoxsa onu iadə etməsi lazımdır?

Cavab: Sualda qeyd olunmuş şəkildə məscidin bir çox hissəsinin nəcis olmasına dair elmin hasil olması (və bilginin yaranması) çox nadir hallarda görünən bir durumdur. Buna əsasən də nəcasətə ehtimal verməsinə baxmayaraq yalnız güman əsasında ona etimad etmək yaxşı bir hal deyildir.

**Müxtəlif məsələlər:**

Sual 415: "Həccin əməlləri" kitabının bəzi yerlərində qeyd olunmuş "ehtiyati-övla" kəlməsindəki məqsəd ehtiyati-müstəhəbdirmi?

Cavab: Bəli.

Sual 416: Şərəfli Kəbə evinin örtüyündən bir parçasını götürmüş bir şəxsin onu qaytarması lazımdırmı? Əgər lazımdırsa, onu kimə qaytarmalıdır?

Cavab: Həmin parçanı əzəmətli Kəbənin məsul işçiləri ona verdiyi halda ondan istifadə etmək olar. Yəni onu satmaq, hədiyyə etmək, öz namazının məkanı qərar vermək və ya öz Quranının örtüyü etmək və bu kimi işlər onun üçün icazəlidir. Amma onu gizli şəkildə götürmüşdürsə, ehtiyat-vacibə əsasən oranın məsul işçilərini məsələdən xəbərdar etməlidir.

Sual 417: Bir şəxsin iki nəfər tərəfindən alverdə (beydə) alıcı və satıcı tərəf kimi vəkil olması caizdirmi?

Cavab: İşkalı (problemi) yoxdur.

Sual 418: Vəkalətin (vəkil təyin etməyin) səhih olması üçün müvəkkilin yanında vəkil şəxsin məlum olması şərtdirmi?

Cavab: Onu tanımaq şərt deyildir. Əlbəttə vəkilin reallıqda müəyyən olunması lazımdır. Məsələn, Zeyd bir şəxsin istəyi ilə onun vəkili olur və onun istəyinə (tələbinə) uyğun şəkildə müəyyən bir şəxsi





(hətta Zeyd onu tanımasa da) vəkil tutur. Amma iki nəfərdən birinə onu müəyyən etmədən və tərəddüdlü şəkildə vəkalət vermək səhih deyildir.

Sual 419: Müəssisələrə vəkalət vermək səhihdirmi?

Cavab: Əgər bu vəkalət xüsusi ünvanı (məsələn, müəssisənin rəisini) ünvanlı şəkildə vəkil seçmək kimi olarsa və xüsusi ünvan da qəbul edərsə, bunun bir işkalı yoxdur. Bu xüsusi ünvanın bəzən bir-birini əvəz etməsi halında da və bu cür müəssisənin digər ünvanında da vəkalət vermək caizdir. Amma müəssisənin özünə vəkalət vermək səhih deyildir.

## MÜNDƏRİCAT

**BİRİNCİ FƏSİL**
**HƏCCİN VACİB OLMA ŞƏRTLƏRİ**

Həccin hökmləri ....................................................4
Həccin vacib olmasının şərtləri ...............................5
Birinci şərt Büluğ ....................................................5
İkinci şərt Əql .........................................................6
Üçüncü şərt istitaət ..................................................7
İstitaəti-zamani .......................................................7
İstitaəti-bədəni ........................................................7
İstitaəti-təriqi ..........................................................8
İstitaəti-mali ............................................................9
Əlavə malları satmaqla hasil olan istitaəti-mali ....11
Artan tələbata uyğun həccin istitaəti ....................11
İstitaət və borc .......................................................12
İrslə hasil olan istitaət ...........................................14
Şəri vergilərlə hasil olan istitaət ...........................14
Digər mallarla həccin xərclərini ödəmə ................14
İstitaət və izdivac ...................................................15
İstitaət və naiblik ...................................................15
Borc götürməklə hasil olan istitaət ........................16
Bəxşişlə hasil olan istitaət .....................................16
Bəxşiş olunan həcc “hiccətul-islam” üçün
kifayət edir ............................................................18
Həcci-bəzlidə ümumi təminatın şərt olmaması .....18
Həcci-bəzlidə qurbanın pulu .................................19
Həcci-bəzlidə kəffarə .............................................19
Bəxşişdən dönmə ..................................................19
İstitaətdən xaric olma ...........................................20





İstitaətə dair müxtəlif məslələr ..............................20
Həccə vəsiyyət etmə .............................................21
Qadının həcci və ərin icazəsi ................................25
Naiblik ...................................................................26
Naiblik şərtləri .......................................................27
Naibin vəzifəsi .......................................................29
Mənubu ənhin şərtləri ...........................................29
Naiblik niyyəti .......................................................30
Üzrlü naiblik ..........................................................30
Naibin ölməsi .........................................................31
Naibin etdiyi haramların kəffarəsi .........................33
Həcc xərcləri üçün muzdun çatmaması .................33
Muzdun ödənilmə vaxtı ........................................33
Bir neçə nəfər tərəfindən naib olmaq ....................34
Başqası üçün həccə naib olmaq və özü üçün
ümrə etmək ...........................................................34
Məkkədə olan şəxsin naibliyi ...............................34
İmam Zaman (ə.f) tərəfindən naiblik ....................34

**İKİNCİ FƏSİL**
**HƏCC VƏ ÜMRƏNİN QİSMLƏRİ**

Ehram ...................................................................36
Həcc və ümrənin qismləri .....................................36
Təməttö ümrəsi .....................................................37
Təməttö ümrəsinin əməlləri ..................................37
Təməttö həccinin əməlləri .....................................37
Təməttö həccinin şərtləri .......................................38
Qiran həcci ............................................................40
Təməttö ümrəsinin əməllərindəki hökmlər ...........41
Ehram ...................................................................41
Miqatın üzbəüzü ...................................................43

Miqatdan öncə ehram bağlamaq ............................43
Ehram bağlamamış miqatdan keçmək ..................44
Ehram bağlamağın keyfiyyəti ................................47
EHRAMIN VACIBLƏRININ HÖKMLƏRI ........48
Niyyət ...................................................................48
Təlbiyə .................................................................48
Təlbiyəni kəsmək ..................................................49
Ehram paltarının geyinilməsi ................................49
Ehramdakı vaciblərin tərtibi .................................50
Ehramın iki paltarından artıq geyinmək ................50
Ehram paltarının şərtləri .......................................51
Ehram paltarını çıxarmaq .....................................51
Ehramın müstəhəbləri ...........................................52
Ehram vaxtı müstəhəb olan işlər ...........................53
Ehramda məkruh olan işlər ...................................55

**ÜÇÜNCÜ FƏSİL**
**EHRAM HALINDA HARAM OLAN İŞLƏR**

Müştərək haramlar ................................................57
Kişilərə məxsus olan haramlar ..............................58
Xoş ətirdən istifadə ...............................................58
Xoş iydən istifadə etmənin kəffarəsi ....................60
Güzgüyə baxmaq ..................................................60
Sürmə çəkmək ......................................................60
Sürmə çəkmənin kəffarəsi ....................................61
Bəzənmək (zinətlənmək).......................................61
Özünü bəzəmənin kəffarəsi ..................................62
Bədənə yağ sürtmək ..............................................62
Bədənə yağ sürtmənin kəffarəsi ...........................63
Dırnaq kəsmənin kəffarəsi ....................................63
Bədəndən tükü təmizləmənin kəffarəsi .................65





Bədəndən qan çıxarmaq .......................................65
Diş çəkdirmək .......................................................66
Yalan, söyüş və iftixar ..........................................66
Yalan, söyüş və iftixarın kəffarəsi .........................67
Cədəl etmək ..........................................................67
Cədəlin kəffarəsi ...................................................67
Cima (yaxınlıq) .....................................................68
Cimanın kəffarəsi .................................................68
Zövcəsini öpmək ..................................................69
Zövcəsini öpmənin kəffarəsi ................................69
Zövcəsinin bədəninə toxunmaq ............................69
Bədənə toxunmanın kəffarəsi ...............................70
Şəhvətlə baxmaq və ya mazaqlaşma ....................70
Şəhvətlə mazaqlaşmanın və baxmağın kəffarəsi ...............................................................70
İstimna .................................................................71
İzdivac əqdi ..........................................................71
İzdivac əqdinin kəffarəsi ......................................71
Bədənin canlılarını öldürmək ...............................72
Bədəndəki canlıları öldürmənin kəffarəsi .............72
Səhra heyvanını ovlamaq .....................................72
Ovun kəffarəsi ......................................................73
Silah gəzdirmənin kəffarəsi ..................................74
Başının üstünü örtmək (kölgələnmək) ..................74
Gecə vaxtı örtük ...................................................75
Sabit (tərpənməz) məkanda örtük ..........................76
Kölgələnmənin kəffarəsi .......................................76
Başı örtmək ..........................................................77
Başı örtmənin kəffarəsi .........................................78
Çəkmə və corab geyinmək ...................................78
Corab və çəkmə geyinmənin kəffarəsi ..................79

Tikilmiş paltar geyinmək ......................................79
Tikilmiş həməyan (uzun toqqa) .............................80
Yuxu örtüyü ..........................................................80
Ayaqqabı və ya tikilmiş ev ayaqqabısı ..................80
Ehram libasını düyünləmək ..................................80
Tikilmiş paltar geymənin kəffarəsi ........................80
Qadınların üzünü örtməsi .....................................81
Maskadan istifadə .................................................82
Eynəkdən istifadə .................................................82
Məkkə Hərəminin haramları .................................83
Günahkarı hərəmdə cəzalandırmaq .......................84
Hərəmdə tapılmış əşya ..........................................84
Mədinə Hərəminin haramları ...............................85
Hərəm və ehramın haramlarındakı kəffarənin əhkamı ..................................................................85
Kəffarə heyvanını kəsməyin yeri ..........................86
Kəffarələrin məsrəfi ..............................................86
Hərəmə daxil olmanın müstəhəbləri ......................87
Məkkəyə daxil olmanın müstəhəbləri ..................87
Məscidul-hərama daxil olmağın müstəhəbləri ......88

**DÖRDÜNCÜ FƏSİL**
**TƏMƏTTÖ ÜMRƏSİNİN ƏMƏLLƏRİ**

Təvaf ....................................................................93
Təvafın şərtləri ......................................................93
Niyyət ...................................................................93
Təharət ..................................................................93
Təvaf əsnasında hədəsin baş verməsi ....................94
Təharətsiz təvaf .....................................................95
Təharətli olmaqda şəkk .........................................95
Haizin (üzrlü qadının) vəzifəsi ..............................96





Eharmdan sonra heyz olmaq .................................97
Məslus və məbtunun vəzifəsi ...............................98
Müstəhazənin vəzifəsi ..........................................99
Bədən və paltarın təharəti ..................................100
Xitan ...................................................................102
Örtük ...................................................................102
Təvafın vacibləri .................................................102
Təvafın vaciblərinin hökmləri .............................103
Həcərul-əsvədin yanında başlayıb orda da bitirmək ............................................................103
Kəbənin sol tərəfdə qalması ...............................104
Hicri-İsmailin ətrafına dövr etmək ......................105
Şazərvanın üzərində hərəkət etməmək ................105
Kəbəni yeddi dəfə dövr etmək ............................106
Muvalat ...............................................................106
Öz ixtiyarı ilə təvaf etmək .................................106
Təvafın hüdudları ...............................................107
Təvafı kəsmək ....................................................108
Təvafda naiblik ...................................................110
Təvafı artırmaq ...................................................110
Təvafın dövrlərinin sayında şəkk .......................111
Kəsiruş-şəkkin (çox şəkk edən şəxs) vəzifəsi .....112
Təvafın dövrlərinin sayındakı güman .................112
Təvafı tərk etmək ................................................112
Təvafın batil olması ............................................113
Müstəhəb təvaf ...................................................114
Təvafın müstəhəbləri ..........................................114
Təvaf namazı ......................................................116
Təvaf namazının keyfiyyəti ................................117
Təvaf ilə təvaf namazı arasında fasilə .................117
Təvaf namazının məkanı ....................................118

Qadın və kişilərin bir-birinin yanında namaz qılması ....................................................118
Təvaf namazını tərk etmək .................................119
Nəcis bədən və ya paltarla namaz qılmaq ...........119
Qiraəti səhih olmayan şəxsin vəzifəsi .................120
Təvaf namazının müstəhəbləri .............................121
Səfa və Mərva arasında səy etmək ......................122
Səyin zamanı ......................................................122
Təvaf namazı ilə səy arasında fasilə ....................122
Səyin keyfiyyəti ..................................................123
Yeni Məsada səy etmək .......................................124
Səy etməkdə muvalat ..........................................124
Səydə naib olmaq ................................................125
Səyi kəsmək ........................................................125
Səyi iadə etmək ...................................................126
Səyi tərk etmək ...................................................126
Səyin batil olması ...............................................127
Səyi artıqmaq ......................................................127
Səyi azaltmaq ......................................................128
Səy etməyə məxsus şəklər ..................................129
Səy etməkdə güman ............................................129
Səyin müstəhəbləri .............................................130
Təqsir .................................................................132
Təqsirin məkanı ..................................................133
Təqsirin tərki ......................................................133
Başqaları üçün təqsir ..........................................133
Təqdimi səydən qabağa salmaq ...........................134
Təməttö ümrəsinin ehramından xaric olmaq .......134
Nisa təvafı ..........................................................134
Təməttö ümrəsinin təqsirindən həccin ehramına kimi ....................................................134
Təməttödən ifrada keçmək (üdul etmək).............136





**BEŞİNCİ FƏSİL**
**TƏMƏTTÖ HƏCCİNİN ƏMƏLLƏRİ**

Həccin ehramı .....................................................139
Həcc ehramının zamanı ......................................139
Həcc ehramının məkanı ......................................139
Həcc ehramını tərk etmək ...................................140
Vüqufdan Ərəfata qədər olan ehramın müstəhəbləri ......................................................140
Ərəfatda vüquf ....................................................141
Vüqufun zamanı ..................................................142
Ərəfatın iztirari (çarəsizlik halındakı) vüqufu .....142
Ərəfatdakı vüqufun müstəhəbləri ........................143
Ərəfatdan köçmək (çıxmaq) ...............................143
Məşərul-həramda vüquf ......................................144
Gün çıxmamışdan öncə Məşərdən xaric olmaq üçün icazəli kəslər ..............................................145
Məşərul-həramdakı vüqufu tərk etmək ................146
Məşərul-həram və Ərəfatdakı vüqufa çatmaq və ya tərk etmək ..................................................146
Minanın vacibləri ................................................147
Rəmyin şəkləri ....................................................149
Rəmydə naiblik ...................................................149
Təzə cəmərəni rəmy etmək .................................150
Yuxarı mərtəbələrdə rəmy etmək ........................150
Gecə vaxtı rəmy ..................................................150
Rəmyi tərk etmək ...............................................151
Qurbanlıq ............................................................152
Qurban kəsməyə gücü çatmayan şəxsin vəzifəsi ..............................................................153
Qurbanın məkanı ................................................154
Qurbanlığın şərtləri .............................................154

Qurbanın şəkləri ....................................................156
Heyvanı kəsməkdə naiblik ....................................156
Gecə qurban kəsmək ...............................................157
Qurbanın məsrəfi (məsrəf yerləri) .........................157
Həlq və ya təqsir ....................................................157
Həlq və ya təqsirin zamanı ....................................158
Qadınların vəzifəsi .................................................158
Kişilərin vəzifəsi ....................................................159
Həlq və ya təqsirin məkanı ....................................159
Həlq və ya təqsiri tərk etmək ................................160
Həcc ehramından xaric olmaq ...............................160
Həccin təvafı və onun namazı və səyi ..................161
Təvafın, onun namazının və səyin zamanı ...........161
Üzrlü şəxsin vəzifəsi ..............................................162
Nisa təvafı və onun namazı ...................................163
Nisa təvafının keyfiyyəti .......................................163
Nisa təvafının namazı ............................................164
Üzrlü şəxsin vəzifəsi ..............................................164
Nisa təvafının iadəsi ..............................................165
Həccin ehramından çıxmağın mərhələləri ............166
Minada beytutə (qalmaq) ......................................166
Beytutənin vacib olmadığı şəxslər ........................167
Beytutənin tərki .....................................................168
Cəməratı rəmy etmək ............................................169
Rəmyin keyfiyyəti .................................................169
Cəməratı rəmy etməyin zamanı ............................169
Üzrlü şəxsin vəzifəsi (rəmy etməkdə naiblik) .....170
Rəmyin şəkləri .......................................................171
Cəməratın rəmyini tərk etmək ..............................171
Minadan köçmək (çıxmaq) ...................................172





**ALTINCI FƏSİL**
**MƏHDUD VƏ MƏHSURUN HÖKMLƏRİ**

Məhdudun hökmləri ..............................................174
Məhsurun hökmləri ...............................................175
Məhsurun yaxşılaşması ........................................175
Müstəhəb həcc ......................................................176
Müfrəd ümrə .........................................................177
Müfrəd ümrə ilə təməttö ümrəsinin fərqi ............179
Müxtəlif məsələlər ................................................180
Qeydiyyatdakı pulun xumsu ................................180
Ayın əvvəlinin sabit olması .................................181

**HƏCC ƏMƏLLƏRİ İLƏ BAGLI**
**SUAL-CAVABLAR**

(Mülhəqate-mənasike-həcc ) ...............................184
Həccin yerinə yetirilməsinə səbəb olan malın
xumsunu vermək ..................................................191
Həccə vəsiyyət etmək ..........................................192
Həcdə naib olmaq ................................................196
Ehramla Məkkəyə daxil olmaq ............................206
Müfrəd ümrənin hökmləri ...................................209
Təməttö ümrəsinin hökmləri ...............................212
Təməttö həccinin hökmləri .................................219
Miqatların hökmləri ............................................221
Ehramın hökmləri ................................................226
Ehramın muharramatı ..........................................231
b) Zövcəsi ilə mazaqlaşmaq ................................231
c) Ətir ....................................................................232
d) Tikili paltarların geyinilməsi ...........................232
e) Yağ vurmaq .....................................................233
f) Bədənin tükünü təmizləmək ............................233

h) Kişilərin öz başını örtməsi ..............................234
j) Qadınların öz üzünü örtməsi ............................235
g) Kölgədə dayanmaq ..........................................236
k) Bədəndən qan çıxarmaq .................................242
p) Dırnaq tutmaq .................................................242
q) Diş çəkmək .....................................................243
Kəffarələrin hökmləri .........................................243
Təvafın hökmləri ................................................244
Səyin hökmləri ....................................................271
Təqsirin hökmləri ...............................................280
Ərəfə və Müzdəlifədəki vüqufun hökmləri .........282
Cəmərəyi-əqəbəni rəmy etməyin hökmləri .........285
Qurbanlığın hökmləri .........................................288
Həlq və təqsirin hökmləri ...................................297
Nisa təvafının hökmləri .......................................300
Minada beytutə etməyin (gecə vaxtı
qalmağın) hökmləri ............................................305
Üç cəmərəni rəmy etməyin hökmləri ..................309
Şərəfli iki hərəmdə qılınan namaz və
təharətin hökmləri ...............................................314
Müxtəlif məsələlər ...............................................323





**Mətbəənin direktoru** ***Elman Qasımov***
**Dizayner** ***Mətanət Əliqızı***

Çapa imzalanmışdır 10.08.2015. Formatı 84x108 1/16.
Həcmi 21 ç.v. Sifariş № 29. Tiraj 1000

«Zərdabi LTD» MMC Nəşriyyat Poliqrafiya müəssisəsi
☎ iş (012) 514-73-73, mob. (050; 055; 070) 344 76 01
e-poçtu zerdabi_em@mail.ru